**Əşrəf Hümmətov**

# NAXÇIVANIN ZEYNƏDDİN KƏNDİ

**"Elm və təhsil"**
**Bakı – 2018**

Redaktor: **Malik Rəcəb (Qurbanov)**

**Əşrəf Hümmətov. Naxçıvanın Zeynəddin kəndi.**
**Bakı, "Elm və təhsil", 2018, 384 səh**

*Kitabda Naxçıvan Muxtar Respublikası Babək rayonunun (keçmiş Naxçıvan) Zeynəddin kəndinin təxminən son 100 illik tarixi əksini tapıb. Kəndin müxtəlif peşə sahiblərindən, onların ordu fəaliyyətindən bəhs edilir. Ziyalı təbəqəyə geniş yer ayrılıb. 1929-cu ildən son illərədək dövri mətbuat, xüsusilə Muxtar Respublikanın baş qəzeti "Şərq qapısı"nın 1965-ci ilədək əksər nömrələri Azərbaycan Respublikasının Milli Kitabxanasında araşdırılıb, yəni orada saxlanılan bütün nömrələr izlənilib və müsbət məzmunlu məqalələrin əksəriyyəti toplanıb. Ayrı-ayrı müəlliflərin kitablarından götürlümüş məqalələr eyni ilə, bəzən də ixtisarla verilib.*

*Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulub.*

*Müəllif kitabın yazılmasının ideya müəllifləri – jurnalist Əli Şamilov və həmkəndlisi Elşad Salayevə, həmçinin kitabın hazırlanmasında köməyini əsirgəməyənlərə dərin minnətdarlığını bildirir.*

*Müəllif oxuculardan və həmkəndlilərindən növbəti kitabın hazırlanmasına kömək etmələrini, irad və təkliflərini bildirmələrini xahiş edir.*

***Əlaqə telefonu: 050-765-16-02***

**ISBN 978-9952-8176-2-1**

**© Əşrəf Hümmətov, 2018**

# ZEYNƏDDİN KƏNDİ HAQQINDA QISA MƏLUMAT

Zeynəddin kəndi dağətəyi düzənlikdə, Naxçıvan Muxtar Respublikası Babək rayonunun (keçmiş Naxçıvan) ərazisində yerləşir. Əhalisi taxılçılıq, üzümçülük, heyvandarlıq və tərəvəzçiliklə məşğuldur. 3000 nəfərdən çox əhalisi var. 1973-cü ildə kəndin yaxınlığındakı Enolit-Tunc dövrlərinə aid (Enolit dövrü e.ə. VI-IV minilliklərdir, Tunc dövrü e.ə.IV minilliyin sonu – II minillik) yaşayış yeri aşkar edilib. Tapıntılar içərisində dən daşları, həvəng və dəstlər vardır. Kənd ərazisində e.ə. V-III minilliklərə aid Dəyirman yeri arxeoloji abidəsi də qeydə alınıb.

2013-cü ilin iyun ayında 1929-cu il təvəllüdlü, uzun illər tarix müəllimi, hərbi rəhbər, məktəb direktoru işləmiş müəllimim Əsgər Həsən oğlu Əliyevlə kəndimizin tarixi ilə bağlı söhbət zamanı o, söylədi ki, Zeynəddin kəndinin təxminən 500 illik tarixi var. Kənd əvvəlcə Naxçıvan şəhərinə yaxın ərazidə olub. Cahanbəy adlı birisi orada kəhriz saldırıb. Həmin kəhriz indi də var və bəzi adamlar kəhrizi Cananbəy kəhrizi adlandırır.

1920-ci illərin sonu, 1930-cu illərin əvvəllərində kənddə kolxoz təşkil edilib. 1964-cü il Zeynəddin kəndində Sabir adına kolxozun son təsərrüfat ilidir. 1965-ci ildən Kolxozun bazası əsasında yaradılmış Sovxoz fəaliyyətə başlayıb. “Şərq qapısı” qəzetinin 1964-cü il 21 may tarixli nömrəsində dərc edilmiş “Pambıq sahələrində becərmə başlanmışdır” məqaləsində müxbir qeyd edir ki, kolxozun sədri Əhməd Əhmədovla sahələri birlikdə gəziblər. Məlum olub ki, “Gölün altı” deyilən sahədə mexanizator Nemət Əsgərov cərgələrarası keyfiyyətli kultivasiya çəkib. Pənah Pənahovun manqası hər hektarda məhsuldarlığı 30 sentnerə çatdırmağa söz verib. “Abbas Hacıyevin manqası işləyən sahədə olduq. 11 hektar pambıq sahəsi var. “Qolarxı” adlanan yerdə olarkən Kərəm Məmmədovun manqasına təhkim edilmiş 26 hektar pambıq sahəsinə baxdıq. Pambıqçılardan Sura Hüseynova, Fatma Həsənova, Küşvər Salayeva və başqalarının

işi diqqəti cəlb edir. Kolxozun sədri Əhməd Əhmədov əkin sahələrini gəzərkən bildirdi ki, bu il doğurdan da tarlalarda yaxşı cücərti alınmışdır. Bu gün-sabah bitkilərin becərilməsinə başlanılacaqdır. Bir sözlə, 130 hektar sahənin hər hektarından 25 sentner "ağ qızıl" götürmək üçün bütün tədarük, nə lazımsa həyata keçiriləcəkdir".

"Şərq qapısı" qəzetinin 1930-cu il 25 may tarixli nömrəsində oxuyuruq: "Hal-hazırda muxtar respublikada 49 türk, 21 erməni, 1 rus, birinci dərəcəli 2 texnikum" və digər təhsil ocaqları və kursları vardır. Qəzetin 1930-cu il 5 avqust tarixli nömrəsində qeyd olunur ki, Mərkəzi İcraiyyə Komitəsinin ikinci sessiyası bir neçə gün davam edib, Maarif Komissarlığının məruzəsi dinlənilib və 1930-1931-ci tədris ilində görəcəyi iş ətrafında qərarlar qəbul edilib. Naxçıvan rayonunun 4 kəndində - Cəhri, Zeynəddin, Əznəbürt və Bulkan kəndlərində birinci dərəcəli məntəqələrin açılması lazım bilinib.

Əsgər Əliyev söhbətində bildir ki, sovet hakimiyyəti qurulmamışdan əvvəl də kənddə təhsil ocağı olub və türkiyəli bir şəxs uşaqlara həm şəriətdən, həm də dünyəvi elmlərdən dərs deyib. O, kənddə yaşayıb və sovet hakimiyyəti qurulduqdan sonra öz vətəninə qayıdıb.

Heç şübhəsiz ki, ötən əsrin 20-ci illərində kənddə ibtidai məktəb açılıb və 30-cu illərdə hökumətin qərarı ilə əksər ibtidai məktəblər, o cümlədən, Zeynəddin kəndindəki təhsil ocağı da 7 illik məktəbə çevrilib.

Həsən Salayev Azərbaycan Pedaqoji İnstitutunu 1938-ci ildə bitirib, lakin kənd məktəbində çalışmayan ilk ali təhsilli müəllimdir. Əli Hümmətov 1936-cı ildə Naxçıvan Pedaqoji Texnikumunu, 1952-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitunu bitirib, kəndin ikinci ali təhsilli müəllimidir və kənddəki 7 illik məktəbin ilk ali təhsilli direktorudur (1955-1961-ci illər). Kənd məktəbində işləmiş ilk orta ixtisas təhsilli qadın müəllimi Sara Vəliyeva, ilk ali təhsilli qadın müəllimi isə Tamara Hənifəyevadır.

Zeynəddin kənd 8 illik məktəbi 1972-ci ildə orta məktəbə çevrilib, 1973-1974-cü tədris ilində orta məktəbin ilk buraxılışı olub. Tamara Hənifəyeva və Rauf İsmayılovun onuncuları – Dilqəm Abdullayev (sinif nümayəndəsi), Əlfida Nuriyev, Zakir Hacıyev, Xalidə Həsənova, Sadıq Novruzov, Hafizə Hüseynova, Cəmşid Abdullayev, Cəbrayıl və başqaları orta məktəbi bitiriblər. O illərdə kənddə axşam – qiyabi orta məktəbi fəaliyyət göstərib. 1971-1972-ci tədris ilində 16 nəfər – Lətif Nuriyev, Vilayət Novruzov, Səttar Seyidov, Qalabəyi Salayev və başqaları orta təhsillərini tamamlayıblar.

Zeynəddin kəndində müasir dövrün tələblərinə cavab verən orta məktəb binası məktəbin direktoru Yaranmış Hüseynovun təşəbbüsü və son dərəcə fədakarlığı hesabına tikilib və 1979-cu ildə müəllim və şagirdlərin istifadəsinə verilib.

Son illər kənddə kompleks quruculuq tədbirləri reallaşdırılıb. Kənd tamamilə qazlaşdırılıb, telefonlaşdırılıb, Zeynəddin-Qahab kəndlərini birləşdirən yol salınıb, kəndin ortasından keçən Qahab çayının üzərində 10 metr aşırımında dəmir-beton körpü inşa edilib, kəndin mərkəzi tam abadlaşdırılıb. Kənddə yenilənmiş tam orta məktəb, musiqi məktəbi, kitabxana, tibb ocağı, poçt və müasir tələblər səviyyəsində inşa edilmiş digər sosial obyektlər fəaliyyət göstərir. Sovet hakimiyyəti illərində təsərrüfatda anbar kimi istifadə olunan köhnə məscidin yerinə kəndin mərkəzində müstəqilliyimizin ilk illərində, yəni ötən əsrin 90-cı illərində müasir məscid binası da inşa edilərək kənd əhalisinin istifadəsinə verilib.

# MÜƏLLİMLƏR

## UNUDULMAZ ZEYNALABDİN MÜƏLLİM



Hənifəyev Zeynalabdin Allahverdi oğlu bilikli, bacarıqlı müəllim, yüksək təşkilatçılıq qabiliyyətinə malik bir siyasi işçi və təsərrüfat rəhbəri kimi yaddaşlarda silinməz izlər qoyub. Hər bir işdə ədalətli, düz, obyektiv olması, qarşısına qoyduğu məqsədə çatmaq üçün mübarizliyi, dönməzliyi, vətənpərvərliyi, dosta, yoldaşa sadiqliyi ilə çoxlarından fərqlənib. Akademik, ədəbiyyatşünas, tənqidçi Məmməd Cəfər Cəfərov, dilçi alim Nəsir Məmmədov, uzun illər Azərbaycan Dövlət Neft Akademiyasında fəaliyyət göstərmiş görkəmli alim Əli Talıbov və digər tanınmış ziyalılarla gənclik illərindən tanışlığı dostluğa çevrilib və bu təmənnasız dostluğu ömrünün axırınadək davam etdirib. Ötən yay kənddə olarkən qızı Təhmirə Quliyeva (Hənifəyeva) ilə söhbətimiz də elə xatirələr üstündə kökləndi, Xədicə, Tamara, Elmira, Arif, ... ötən illər bir daha yada düşdü.

**Zeynalabdin Hənifəyev 1909-cu ildə Naxçıvan rayonunun Zeynəddin kəndində anadan olub.** Naxçıvan Pedaqoji Texnikumunu bitirib, 20-ci illərin sonu və ya 30-cu illərin əvvəllərində pedaqoji fəaliyyətə başlayıb. (1926-cı ildə pedaqoji texnikumun ilk buraxılışı olub). Hazırda 85 yaşlı həmkəndlisi,

müəllim Əsgər Əliyev xatırlayır ki, 1936-cı ildə Zeynalabdin müəllim kənddəki 7 illik məktəbin birinci sinfində, 1945-1946-cı illərdə Leninabad (indi Kərimbəyli) kənd orta məktəbində isə Əli Hümmətov ona dərs deyiblər. Özü 1947-ci ildə Rəhim Hüseynovla birlikdə Naxçıvan Dövlət Müəllimlər Institutuna qəbul olunub. Qəbul vaxtı Rəhim Hüseynovun hansı səbəbdənsə problemi yaranıb və o zaman Naxçıvan Maşın-Traktor Stansiyasında (MTS) direktorun siyasi işlər üzrə müavini işləyən Zeynalabdin müəllim işə qarışdıqdan sonra məsələ obyektiv həll edilib.

1931-ci ildə Noraşen və Naxçıvan rayonlarında MTS-lər fəaliyyətə başlayır, kolxoz və sovxozların möhkəmlənməsi üçün partiya MTS-lərin və sovxozların nəzdində siyasi şöbələr yaradır. 30-cu illərin axırlarında Zeynalabdin müəllim bu sahəyə cəlb olunur. Rayondakı təsərrüfatların inkişafında böyük xidmətlər göstərir, çox çətin günlər və yuxusuz gecələr keçirir. Çox qısa bir müddətdə rayonun təsərrüfatlarında yaxşı tanınır və təsərrüfat rəhbərlərinin, sıravi əməkçilərin böyük hörmət və nüfuzunu qazanır. MTS-dən Zeynəddin kəndindəki "Nümunə" kolxozunda işləmək üçün işgüzarlığına yaxşı bələd olduğu İbrahim Əliyevə traktor ayrılmasına nail olur. Gənc İbrahim də göstərilən etimadı doğruldur, təsərrüfatda yeni mexanizator kadrlarının hazırlanmasında da bilik və təcrübəsini əsirgəmir.

1953-cü ildə Azərbaycan KP MK yanında ikiillik partiya məktəbinin məzunu Qurban Kərimov Naxçıvan MTS-in direktorunun siyasi işlər üzrə müavini təyin olunur. Zeynalabdin Hənifəyev isə 17 sentyabr 1953-cü ildə Zeynəddin kənd 7 illik məktəbin üçüncü sinfinə müəllim təyin edilir.

Kənd təsərrüfatı işlərini yaxşı bilən, yüksək təşkilatçılıq qabiliyyətinə malik Zeynalabdin müəllim 1955-ci ilin yanvar ayında kənddəki Sabir adına kolxozun (əvvəlki adı "Nümunə"-dir) idarə heyətinə sədr seçilir, fevralın 1-də məktəbdən azad edilir. Sabiq sədr Mirzə Vəliyev briqadir vəzifəsinə təyin olunur. Məhz yeni sədrin səriştəsi, təşkilatçılığı, təsərrüfat işlərinə mükəmməl bələd olması, kənd əməkçilərinin işgüzarlığı sayəsində

kolxoz rayonun qabaqcıl təsərrüfatları sırasına çıxarılır. Iki il ərzində təsərrüfatın genişləndirilməsi, kəndin abadlaşdırılması, kolxozçuların maddi imkanlarının artırılması, onlar üçün həyət-yanı orpaq sahələrinin ayrılması və digər sahələrdə çox böyük işlər görülür.

Bu barədə "Şərq qapısı" vilayət qəzetinin həmin illərdə çıxmış bir neçə nömrəsində dərc olunmuş məqalələri izləmək görülmüş işlərə tam aydınlıq gətirər və tam yetərlidir.

**12 avqust 1956-cı il. Yeni tikililər**

Naxçıvan rayonundakı Zeynəddin kəndində keçən il 4 otaqdan ibarət kolxoz idarə heyəti üçün bina, klub (inşası başa çatmaq üzrə idi - Ə.H.), 100 baş inək tutan yeni tipli tövlə, 380 tonluq silos qülləsi tikilib istifadəyə verilmiş, 18 nəfər kolxozçu yeni tikdikləri yaşayış binalarına köçmüşdür.

Kəndə telefon xətti çəkilmiş, bütün kolxozçuların evləri başdan-başa radiolaşdırılmışdır. Hazırda 22 nəfər kolxozçu özünə yaşayış binası tikdirir.

**21 oktyabr 1956-cı il. Sabir adına kolxozda**

Naxçıvan rayonundakı Sabir adına kolxozun üzvləri bu il bol üzüm məhsulu yetişdirmişlər. Mütəşəkkil hazırlığın nəticəsidir ki, kolxozçular dövlətə üzüm tədarükü məntəqələrinə 140 tona qədər məhsul təhvil verilmişdir…

**7 dekabr 1956-cı il. Sabir adına kolxoz illik pambıq təhvili planını ödəmişdir**

Naxçıvan rayonundakı Sabir adına kolxozun üzvləri… dövlətə illik pambıq tədarükü planını artıqlaması ilə yerinə yetirdilər. Kolxozda hər hektardan 23,8 sentner məhsul toplanmışdır ki, bu da keçən ildəkindən 6 sentner artıqdır… Kolxozun gəliri keçən ilə nisbətən 400 min manat artmışdır. Bunun nəticəsində kolxozçuların əməkgününə bölünən pul və kənd təsərrüfatı məhsulları xeyli artmışdır. Hər əmək-gününə avans olaraq 7 manat pul, 400 qram üzüm, 2 kiloqram taxıl və sairə məhsullar bölünmüşdür.

**21 dekabr 1956-cı il. Naxçıvan MSSR kənd təsərrüfatı sərgisində**

Üzümçülük sahəsində… və Sabir adına kolxozların yüksək məhsul etdikləri sərgidə xüsusi yer tutur.

**20 yanvar 1957-ci il. Yaz tarla işlərinə hazırlaşırlar** Naxçıvam rayonundakı Sabir adına kənd təsərrüfatı artelinin (kolxozun – Ə.H.) üzvləri yaz tarla işlərinə ciddi hazırlıq görürlər. Burada bütün kənd təsərrüfatı alətlərinin təmiri başa çatdırılmış və yazda əkiləcək 80 hektar dənli bitkilər üçün kifayət qədər toxum tədarük edilmişdir. Kolxozda tarlalara 200 ton yerli gübrə daşınmış və 60 ton mədən gübrəsi əldə olunmuşdur.

**15 may 1957-ci il. Kənd abadlaşır**

Naxçıvan rayonundakı Zeynəddin kəndində… 46 nəfər kolxozçu yeni yaşayış evinə köçmüşdür…

May bayramı ərəfəsində Zeynəddin kəndində yeni elektrik motoru istifadəyə verilmişdir. (Motoru Zeynabdin Hənifəyev gətizdirmişdi – Ə.H.) Kolxozda yeni klub binası tikilir. Həmin binanın tikintisi bu il başa çatdırılacaqdır. 30 nəfərdən artıq kolxozçu da özünə yaşayış evi tikdirir.

"Şərq qapısı" qəzetinin 1957-ci il 26 iyun tarixli nömrəsində dərc olunmuş "1956-cı ildə ən yaxşı istehsalat göstəricilərinə görə Ümumittifaq Kənd Təsərrüfatı sərgisinin Baş Komitəsi tərəfindən 1957-ci il üçün təsdiq edilmiş sərgi iştirakçılarının siyahısı" da maraq doğurur. Siyahıda 100 hektar yararlı torpaq sahəsi hesabı ilə diri çəkidə 66,1 sentner ət və 3,26 sentner təmiz lifli yun istehsal olunduğuna görə Sabir adına kolxozun, həmin göstəricilərə görə kolxozun sabiq sədri Hənifəyev Zeynalabdin Allahverdi oğlunun, kolxoz partiya təşkilatının katibi Vəliyev Ibrahim Sadıq oğlunun (kolxozun sədri – Ə.H.), kolxozun mühasibi Hacıyev Balabəy Həsən oğlunun və bir qutu barama toxumundan 123,4 kiloqram barama götürdüyünə görə Hacıyev Məhəmməd Həsən oğlunun adları verilib.

**Xatilərələr dilə gəlir. Pensiyada olan fizika-riyaziyyat müəllimi Yaranmış Hüseynov:** - Dayım müəllim, ziyalı ol-

maqla bərabər, həm də yaxşı təsərrüfat rəhbəri kimi kənd adamlarının qəlbində xoş xatirələrlə yadda qalıb. O, çox təmiz, büllur kimi saf bir insan idi. Kolxozdan kimsə ona pay gətirəndə hirslənərdi, qovardı və deyərdi ki, orada kolxozçuların payı var. Deyərdi ki, tezliklə Çınqıllı bulağın suyunu kəndin mərkəzinə çəkdirmək, yeni, müasir tipli məktəb binası, bir çox sosial obyektlər tikdirmək niyyətindədir. Kəndin abadlaşdırılmasını, insanların maddi rifah halının yüksəldilməsini özünün ən ümdə vəzifəsi hesab edərdi. Tale elə gətirdi ki, çox iş gördü, lakin bütün istəklərini həyata keçirmək qismət olmadı. Gözəl ailə başçısı idi. Sözünü heç zaman yerə salmazdım, bütün tapşırıqlarını sözsüz yerinə yetirərdim. Onun şəhərdən kəndə qayıtmaq üçün tibb məktəbinin yanında maşın gözləyən zaman ürək ağrısı keçirməsi, xəstəxanaya aparılması və vəfat etməsi xəbərini mənə Nəbiyev Nəbi Əli oğlu xəbər verdi. 57 yaşında dünyasını dəyişən dayım kənd adamları, məktəb müəllimləri üçün böyük bir itgi oldu.



**Sumqayıt Şəhər İcra Hakimiyyətinin məsul işçisi Əbülfəz Hənifəyev:** - Ulu tanrı hərəyə bir ömür bəxş edir, onun necə və harada bitəcəyi məlum olmaz. Ona görə də bu qısa vaxt kəsiyində hər kəs özəl bir həyatını yaşayır. İnsan həyata əli boş gəlir, əliboş da köçür… Xatirələrdə qalan isə yalnız onun gördüyü işləri, əməlləri olur. Atam haqqında yadımda qalanlardan bəzi xatirələri diqqətinizə çatdırmaq istərdim. Atam vəfat edəndə mənim 13 yaşım olub. Ona görə də bütün yadımda qalanlara bir kənd uşağı prizmasından baxmışam. İlk öncə qeyd edim ki, atamın Böyük Vətən müharibəsindən çoxlu medalları var idi. Mən üzərində Stalinin barelyefi, Azadlıq əsgərinin simvolu olan qələbə münasibətilə verilmiş medalları xatırlayıram. Biz onlara uşaq vaxtı

haradasa bir oyuncaq kimi baxar, sinəmizə asardıq. Atamın müharibə vaxtı Krımda çəkdirdiyi bir şəkil var idi, lakin onun əynindəki əsgər paltarı və onun üzərindəki nişanlar başqa əsgərlərdəkindən fərqli idi və daha tünd rəngdəydi. Düşünürəm ki, atam Sovet Ordusunun hansısa xüsusi əhəmiyyətə malik qoşun hissələrində xidmət edib. Yəqin bu barədə müvafiq arxivlərdə materiallar mövcuddur.

Atam o dövrdə Sabir adına kolxoza sədrlik etdiyi vaxtları xatırlayıram. Onun ağ rəngdə atı var idi. Yadımdadır ki, o vaxtlar kolxozun qazandığı nailiyyətlərə görə ona Azərbaycan KP MK-dan üzərində o dövrdə respublikanın ən qocaman sakini Şirəli Müslümovun məktəblilərlə şəkli olan, arxası isə yazılı, imzalı, möhürlü bir təbrik açıqcası göndərmişdilər. O dövrlərdə kəndimizdə kolxoz idarəsi üçün yeni binanın, klubun, müasir fermanın və bir neçə digər obyektlərin tikintisi yadımdadır. Klubun içərisində akustikaya uyğun quraşdırma işlərinin aparılması üçün kənardan mütəxəssislər cəlb etmişdi, klubda hətta orkestrin yerləşməsi üçün də səhnənin qarşısında aşağıda yer nəzərdə tutulmuşdu. O dövrdə kənd yeri üçün bu bir müasirlik idi.

Atam sadə insan idi və sadə adamları da çox istəyirdi. O, yaylaqda çobanların yanında olar, onlar inciməsin deyə alleqorik şəkildə quzuların adından çobana şikayət edərmiş ki, bəs bu quzu deyir bizə pis baxırlar, axşamlar yerimiz soyuq olur və s. Heç kimin xətrinə dəyməzdi. Həmişə çobanların evində bizim evdəkindən çox un və digər ərzaqlar olardı. Sadə zəhmət adamlarına xüsusi qayğı göstərərdi.

Kəndimizin məktəbində müəllim işləyərkən də atam hər bir məsələdə özünəməxsus sadəlik göstərmişdir. Yadımdadır ki, onun ən sevimli şagirdlərindən biri Yebə (Abbas - Ə.H.) kişinin oğlu Cəbrayıl idi, hərdən o uşaq barəsində danışardı. Müəllimlərə o vaxtlar qışda yandırmaq üçün kömür, odun verərdilər, şirin qarğıdalı unundan bişirilmiş çörək də mənim yaddaşımdadır. Bütün bunlara rəğmən o övladlarını savadlı bir insan kimi görmək istəyirdi və bu istəyə demək olar ki, nail oldu. Mən ali mək-

təbə daxil olarkən isə artıq o həyatda yox idi. Qardaşım Arifin köməyi ilə ali məktəbi bitirdim və təyinatla Sumqayıtda qaldım.

Bizim az miqdarda arı yeşiklərimiz də vardı və atam onlara xüsusi diqqət yetirər, hər bir arı ailəsi üzrə qeydlərini apa- rar, mütəmadi olaraq qulluq edərdi. Naxçıvanın isti yay günlərində isə biz həmin arı ailələrini Biçənək kəndində atamın dostu olan Məhəmməd kişigildə saxlayardıq. Bizim həyətdə olan meyvələr kəndin digər həyətlərində olmazdı. Atam onların şivlərini Türyan arxının aşağısında olan təcrübi-sınaq bazasın- dan götürər və həyətimizdəki meyvə ağaclarına peyvənd edərdi. Bir müddətdən sonra həmin meyvə növləri bizim həyətdən digər təsərrüfatlara yayılardı.

Atam mütaliəni də sevərdi. Nizaminin əsərlərini, "Kəlilə və Dimnə"də olan ibrətamiz hekayələri, Sədi Şirazinin "Gülüs- tan" əsərini diqqətlə oxuyar, kitablarda müəyyən yerləri xətlə- yər, bəzi fikirləri kiçik bloknotuna köçürərdi. Həmin bloknotda o, əsasən ərəb əlifbası ilə yazardı və biz uşaqlar oxuya bilməz- dik. Bununla belə Azərbaycan əlifbası ilə yazılan az miqdarda fikirlər də var idi və onlardan müəllifinin kim olduğunu bilmədiyim biri ilə yazımı bitirmək istərdim: "Həyatın bu geniş, bol süfrəsindən bir tikə götürdüm dedilər bəsdi…".

1957-ci ildə Zeynəddin kənd natamam orta məktəbinə müəllimlik fəaliyyətinə qayıdan Zeynalabdin Hənifəyev həm də məktəb ilk həmkarlar təşkilatının sədri seçilib, gənc nəslin təlim- tərbiyəsində pedaqoji bilik və bacarığını əsirgəməyib. 13 sent- yabr 1966-cı ildə vəfat edib. Onun apardığı dördüncü sinfin dərsləri müəllimlər arasında bölünüb və qızı, kəndin ilk ali təhsilli qadın müəllimi Tamaraya da həmin sinifdə dərs verilib. Zeynalabdin müəllimin vəfatından heç bir il keçməmiş ömür- gün yoldaşı Xədicə də dünyasını dəyişib.

***Mart 2014-cü il***

***Qeyd:*** *Hənifəyev Əbülfəz 2017-ci ildə vəfat edib.*

# MAARİF FƏDAİSİ



Naxçıvan Muxtar Respublikasında (keçmiş Naxçıvan Muxtar Sovet Sosialist Respublikasında) xalq maarifinin inkişafında böyük xidmətlər göstərmiş Muxtar Respublikanın Əməkdar müəllimi, dəfələrlə Naxçıvan şəhər Zəhmətkeş Deputatlar Sovetinə deputat seçilmiş, müharibə və əmək veteranı Salayev Həsən Talıb oğlu 83 il yaşayıb. O, ömrünün 55 ilini xalqın maariflənməsi işinə həsr edib. Xalq Maarif Komissarlığının 1932-ci ildə verdiyi 107 nömrəli Şəhadətnamədə yazılıb ki, **5.05.1915-ci ildə təvəllüd tapmış Türk millətindən olan vətəndaş Həsən Səlehzadə (sənəddə belə yazılıb – Ə.H.) 7 illik Şura Politexnik Məktəbini 13.06.1932-ci ildə bitirib**. 7 illik politexnik məktəbi bitirdiyi üçün texnikumlara, fabrik-zavod şagirdliyi məktəblərinə, işçi fakültələrə, qəbul olunmağa haqlıdır.

Azərbaycan Lenin Kommunist Gənclər İttifaqı Naxçıvan Əyalət Komitəsinin də ona verdiyi vəsiqədə qeyd olunub ki, Salehzadə (sənəddə belə yazılıb – Ə.H.) 1929-1930-cu tədris ilində açılmış siyasi məktəbi bitirib. Bu iki sənəddən başqa bütün sənədlərdə Həsən müəllimin familiyası Salayev yazılıb. Mən də bir zeynəddinli kimi bilirəm ki, kəndimizdə Salayev familiyasını daşıyanlar Saleh tayfasından olanlardır. Lakin onların niyə Salayev familiyasını daşıdıqlarını ayırd edə bilmirəm.

Həsən Salayev 1 sentyabr 1933-cü ildə Naxçıvan şəhər komsomol beynəlmiləl orta məktəbdə pedaqoji fəaliyyətə başlayıb. 1938-1939-cu illərdə Naxçıvan Pedaqoji Məktəbində dərs hissə müdiri işləyib. 1 yanvar 1940-cı ildə Sovet Ordusu sırala-

rına çağırılıb. Hərbi xidmətdən azad olunduqdan sonra 1945-ci il dekabrın 4-də Naxçıvan Dövlət Müəllimlər Institutunda dekan və baş müəllim vəzifəsini tutub. Xüsusilə coğrafiya müəllimlərinin hazırlanmasında səy və bacarığını əsirgəməyib. 8 oktyabr 1949-cu ildə onu yenidən hərbi xidmətə aparıblar və ordudan qayıtdıqdan sonra 1 sentyabr 1953-cü ildən Naxçıvan Dövlət Müəllimlər Institutunda baş müəllim kimi pedaqoji fəaliyyətini davam etdirib.

Hazırda Azərbaycan Həmkarlar Ittifaqları Konfederasiyasında işləyən oğlu Səbahət Salayevin saxladığı 13 sentyabr 1967-ci ildə Həsən müəllimə verilmiş hərbi biletdə bildirilir ki, o, 17 oktyabr 1915-ci ildə Zeynəddin kəndində anadan olub. 1938-ci ildə V.I.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunu (indiki universiteti) bitirib. 23.01.1940-15.08.1953-cü illərdə ordu sıralarında vzvod komandiri, siyasi işlər üzrə batareya komandirinin müavini olub. 15.04.1942-ci ildən 15.05.1945-ci ilədək alman faşizminə qarşı müharibədə iştirak edib. Ikinci dəfə hərbi xidmətdə olarkən 28.12.1951-ci ildə ona kapitan rütbəsi verilib. 3 avqust 1950-ci ildə ona verilən şəhadətnamədə baş leytenant olduğu göstərilib. Belə qənaətə gəlmək olar ki, Həsən müəllimə zabit rütbəsi verilməsi ya ali təhsilli olması ilə əlaqədardır, ya da ki, orduda xidmət etdiyi illərdə hərbi məktəbdə və ya kursda təhsil alıb. Həsən Salayevin 1952-ci ildə Azərbaycan Kommunist Partiyası (bolşevik) Naxçıvan Vilayət Komitəsi yanında 2 illik Axşam Marksizm-Leninizm Universitetini "əla" qiymətlərlə bitirməsi haqqında sənəd də oğlu Səbahətdədir. Bu sənəd isə onun ikinci dəfə hərbi xidməti Naxçıvanda keçirməsini söyləməyə əsas verir.

1954-1955-ci illərdə Naxçıvan şəhər 1 nömrəli orta məktəbdə və Naxçıvan şəhər fəhlə-gənclər orta məktəbində coğrafiya müəllimi işləyən Həsən Salayevi 1955-ci ilin sentyabrında Naxçıvan şəhər 2 nömrəli, 1956-cı ilin avqustunda Naxçıvan şəhər 6 nömrəli məktəblərə direktor təyin ediblər. 1957-ci ilin avqust ayında isə onu Ordubad 7 nömrəli internat məktəbinə di-

rektor göndəriblər. Naxıçvan MSSR Ali Soveti Rəyasət Heyətinin 1957-ci il 13 noyabr tarixli fərmanı ilə Həsən Talıb oğlu Salayevə xalq maarifi sahəsində görkəmli fəaliyyətinə görə Naxçıvan MSSR-in Əməkdar məktəb müəllimi fəxri adı verilib. 4 il Ordubad internat məktəbinə rəhbərlik edən Həsən müəllim 1961-ci il oktyabrın 28-də Naxçıvan şəhər 1 nömrəli onbirillik məktəbə dərs hissə müdiri, 1962-ci il oktyabrın 24-də şəhər 7 nömrəli orta məktəbə direktor, 1968-ci il martın 16-da isə Naxçıvan şəhər Xalq Maarif Şöbəsinə məktəbdənkənar müəssisələr üzrə metodist təyin edilib. 60-cı illərdə dəfələrlə Naxçıvan Şəhər Zəhmətkeş Deputatlar Sovetinə depuat seçilib. Naxçıvan MSSR Maarif naziri Məmməd Bəktaşinin dəvəti ilə 1969-cu il martın 17-dən 1981-ci il avqustun 31-dək zəngin pedaqoji təcrübəyə malik Həsən Salayev nazirlikdə inspektor işləyib və muxtar respublikada maarif işinin ən yaxşı bilicisi, təşkilatçısı kimi tanınıb. Sonra Naxçıvan Müəllimləri Təkmilləşdirmə Institutuna göndərilib, kabinet müdiri, axşam (qiyabi) məktəbləri kabinetinin metodisti vəzifələrində muxtar respublikanın müəllimlərinə öz köməyini əsirgəməyib. 1987-ci ildə görmə qabiliyyətinin zəifləməsi və səhhətindəki bəzi problemlərlə əlaqədar iyun ayının 10-da öz ərizəsi əsasında işdən azad edilən maarif fədaisi 22 fevral 1998-ci ildə dünyasını dəyişib.

Həsən Salayevin ömür-gün yoldaşı Hüseynova Fatma Vəli qızı da uzun illər gənc nəslin təlim-tərbiyəsi ilə məşüul olub. Coğrafiya-biologiya fənlərini tədris edib. Ziyalı ailəsində dünyaya gələn Ədalət, Məlahət (haqq dünyasına qovuşublar), Rəşadət və Səbahət də ali təhsil alıblar. Rəşadət Naxçıvanda, Səbahət isə Bakıda yaşayır. Səbahətin oğlu babasının adını daşıyır, "Odlar Yurdu" Universitetində Maliyyə ixtisası üzrə təhsil alır.

***Yanvar 2014-cü il***

# UNUDULMAZ KƏND MÜƏLLİMİ



Atam Hümmətov Əli Muradəli oğlu Naxçıvan rayonunun (indiki Babək) Zeynəddin kəndindən çıxan, Salayev Həsən Talıb oğlundan sonra ikinci ali təhsilli şəxs idi. 20-ci əsrin 40-70-ci illərində onu Naxçıvanda Azərbaycan dili və ədəbiyyat müəllimi kimi çox yaxşı tanıyırdılar və bu gün də onu tanıyanlar çox səmimi, xeyirxah, düzlük və halallıqla yaşayan, olduqca alicənab, humanist, daima ətrafına nur saçan bir insan kimi xatırlayırlar. Adı çəkiləndə onu böyük hörmət və ehtiramla yad edir, bir müəllim kimi haqqında məhəbbətlə danışırlar.

**Atam 1918-ci ildə Zeynəddin kəndində kasıb bir ailədə - Muradov Muradəli Murad oğlunun və Muradova Zinyət Gülmalı qızının ailəsində anadan olub.** Kənddəki 7 illik məktəbi və pedaqoji məktəbi (texnikumu) bitirdikdən sonra, 18 yaşında pedaqoji fəaliyyətə başlayıb, çalışdığı kəndlərdə savadsızlığın aradan qaldırılması yollarında hər cür əzab-əziyyətə qatlaşıb, vətəndaşlıq borcunu ləyaqətlə yerinə yetirib. 5 sentyabr 1938-ci ildə ona verilən Attestada yazılıb ki, o, 1936-cı ildə Naxçıvan Pedaqoji Məktəbini bitirib, SSRI Mərkəzi İcraiyyə Komitəsi və Xalq Maarif Komissarlığı Sovetinin müəllimlərə şəxsi ad vermə haqqındakı 1936-cı il 10 aprel tarixli qərarına əsasən Ibtidai məktəb müəllimi adını alıb. Pedaqoji məktəbin məzunu, hələ uşaqikən atasını itirmiş və sol qolundan şikəst olmuş gənc Əlini doğma kəndinə, ətraf kəndlərə yox, Noraşen rayonunun (sonradan Iliç, indi Şərur rayonu) Yenkiçə kənd məktəbinə müəllim göndəriblər. (Yıxıldığına görə dirsəkdən

aşağı sol qolu sınıb, qolunda və əlinin üstündə dağıdıcı yaralar əmələ gəlib, çətinliklə sağalmasına baxmayaraq qolunu, əlini şikəst edib. 14 yanvar 1934-cü ildə tibb ekspert komissiyasının qərarı ilə 60 faiz qüvvətini itirmiş hesab olunub, 19 may 1934-cü ildə ona əlil olması barədə kitabça verilib). 1936-1938-ci illərdə rayonun Yenikiçə məktəbində müəllim, 1938-1940-cı illərdə isə Ağamməd (bu kəndin adı bəzi sənədlərdə Axamət yazılıb) məktəbində müəllim və direktor işləyib.



Əli Hümmətov 1940-cı ildə Naxçıvan Dövlət Müəllimlər Institutuna daxil olub və 1942-ci ildə Dil və ədəbiyyat ixtisası üzrə tam kurs bitirib və dövlət imtahan komissiyasının qərarı ilə ona natamam orta məktəbdə Dil və ədəbiyyat müəllimi ixtisası verilib. Bu dəfə Əli müəllimi Zeynəddin kənd 7 illik məktəbinə dərs hissə müdiri vəzifəsinə təyin ediblər. 1942-1943-cü tədris ilində göstərilən etimadı doğruldan Əli müəllimi 1943-1944-cü tədris ilində qonşu Qahab kənd məktəbində direktor və müəllim, 1944-1945-ci tədris ilində yenidən Zeynəddin kənd məktəbində dərs hissə müdiri və müəllim, 1945-1946-cı dərs ilində qonşu

Leninabad kənd (indi Kərimbəyli) orta məktəbində müəllim, 1946-1953-cü illərdə (tədris ilinin sonunadək) Zeynəddin məktəbində dərs hissə müdiri və müəllim, 1953-1955-ci illərdə rayonun Cəhri kənd orta məktəbində dərs hissə müdiri və müəllim, nəhayət, 1955-ci ildən ömrünün sonunadək doğma kəndində çalışmaqla bir müəllim, bir ziyalı kimi həm pedaqoji kollektivdə, həm də kənddə sözü keçən, sayılıb seçilən, böyük hörmət və nüfuz sahibi olan şəxslərdən biri olub.

Naxçıvan Vilayət Partiya Komitəsinin 1 iyul 1964-cü il tarixdə ona verdiyi arayışda qeyd edilib ki, o, 15 iyun 1943-cü ildə Naxçıvan Vilayət Komsomol Komitəsinin II katibi olub. Görünür ki, müharibə illərində kadr çatışmazlığı və atamın Naxçıvan Dövlət Müəllimlər Institutunda təhsil alması 9 sentyabr 1943-cü ilədək, yəni, Qahab kənd məktəbinə direktor və müəllim təyin edilənədək həm də komsomol işində fəaliyyət göstərib. Mən 1974-1975-ci illərdə Bakıda "Gənclik" nəşriyyatında işləyəndə atamdan yaşca kiçik olan **şair Adil Babayev** hərdən nəşriyyata gələrdi, atamı komsomoldan və institutdan tanıdığını söyləyərdi, mənə "Hümmətov" deyərdi. Cəmi bir neçə dəfə olan görüşlərimizin birində elə koridorda hörmətli şair "Hümmətov" deyəndə yazıçı, ilk partiya təşkilatının katibi Ələviyyə Babayevanın qəribə bir baxışına Naxçıvanda yaxşı tanıdığına və xarakterinə yaxşı bələd olduğuna görə "Ələviyyə xanım, Əli müəllimin oğludur, qayğı göstərmək lazımdır" deyərək atama görə mənə öz isti münasibətini bildirmişdi. Şəxsiyyətinə, yaradıcılığına görə böyük hörmətim olan "Mən bu dünyada olmayanda" söyləyən şair 1975-ci ilin yayında Naxçıvanda işləməyə, ata ocağına qayıtmağımı müsbət qarşılamışdı.

Naxçıvan rayon Xalq Maarif Şöbəsinin müdiri Əliyev Zülfəli Abdulla oğlunun 31 yanvar 1955-ci il tarixli 10 nömrəli əmrinə əsasən Leninabad kənd orta məktəbinin nəzdində olan kitabxananın müdiri Ibrahim Ələkbərov həmin tarixdən tutduğu vəzifədən, Zeynəddin kənd 7 illik məktəbin müəllimi Zeynalabdin Hənifəyev həmin kənddə kolxoz sədri seçildiyindən 1 fevral

1955-ci ildən müəllimlikdən azad ediliblər. Naxçıvan MSSR Maarif Nazirliyinin 31 yanvar 1955-ci il tarixli 32 nömrəli əmrinə əsasən Cəhri kənd orta məktəbinin müəllimi Əli Hümmətov 1 fevral 1955-ci ildən Zeynəddin kənd 7 illik məktəbinin sinif müəllimliyinə dəyişdirilib, həm də eyni tarixdə o, Leninabad kənd orta məktəbinə kitabxana müdiri təyin edilib.

**1948-1952-ci illərdə Azərbaycan Dövlət Qiyabi Pedaqoji Institutunda Azərbaycan dili və ədəbiyyatı ixtisası üzrə ali təhsil almış Əli Hümmətov** tədris ilinin sonunadək ibtidai sinif müəllimi işləyib. 1955-ci il avqust ayının 1-də onu Zeynəddin kənd 7 illik məktəbinə direktor vəzifəsinə irəli çəkiliblər. Eyni zamanda, digər müəllimlər kimi Azərbaycan dili və ədəbiyyat dərslərini də aparıb.

26 avqust 1961-ci ildə Zeynəddin kənd 7 illik məktəbin direktoru və müəllimi Əli Hümmətov məzuniyyəti bitdiyindən öz işinə qaytarılıb. Sentyabrın 1-də isə tutduğu vəzifədən azad edilib, müəllim saxlanılıb (öz ərizəsi əsasında - Ə.H.). Məktəbin dərs hissə müdiri, tarix müəllimi Əsgər Əliyev direktor təyin olunub. Sonrakı illərdə atama direktor vəzifəsi təklif olunsa da o, bundan imtina edib, lakin 1978-ci ilədək məktəb directorlarının və müəllim yoldaşlarının təkidi, xahişi ilə müxtəlif vaxtlarda dərs hissə müdiri vəzifəsini də daşıyıb. 1966-cı ildə Sirab kənd 8 illik məktəbində Azərbaycan dili və ədəbiyyat müəllimi çatışmadığına görə oktyabrın 7-dən etibarən, eyni zamanda, bir müddət orada da işləyib. 1960-1970-ci illərdə Naxçıvan rayon qiyabi (axşam-qiyabi) məktəbinin Zeynəddin məntəqəsində (tədris-məsləhət) müəllim işləyib, ayrı-ayrı illərdə həm də məntəqəyə müdirlik edib.

Atam 1955-1961-ci illərdə direktor işlədiyi dövrdə, yaxşı yadımdadır ki, kasıb, ailə vəziyyəti çox aşağı səviyyədə olan uşaqlara vermək üçün məktəbə üst paltarları və ayaqqabı verərdilər. Atam onları müəllim və valideynlərin razılığı ilə uşaqlara paylayardı. Tərəf saxlayıb, üzgörənlik edənlərin qarşısını alardı, ədalət prinsiplərini həmişə gözləyərdi. Bir dəfə anam atama dedi

ki, sənin də ailən böyükdür, 6 uşağın var, çətinlik çəkirsən, heç olmasa ayaqqabıdan bir cüt də uşağına ver, qışda ayaqları isti olsun, üşüməsin. Atam razı olmadı, dedi ki, bizdən kasıbları da çoxdur. Həmin illərdə pedaqoji kollektiv az da olsa vəsait toplayardı və pulu məktəbin təsərrüfat işlərinə baxan, müharibə veteranı Nəsir kişi saxlayardı. Hansı ailədə vəfat edən olsaydı, həmin vəsait təcili olaraq həmin evə çatdırılardı. Sonra kim necə istəsəyədi yaş saxlayan ailəyə kömək edərdi.

50-ci illərin ikinci yarısında pedaqoji kollektivə rəhbərlik edən atam həmişə olduğu kimi ictimai işlərdə də fəallıq göstərib. Kənddəki kolxozun nailiyyətlərindən, üzümçülərin, pambıqçıların, barama becərənlərin və digər sahələrdə çalışan kənd əməkçilərinin işindən, bol məhsul yetirmələrindən, qayğılarından bəhs edən məqalələrlə "Şərq qapısı" vilayət qəzetində çıxış edib. **O, "Şərq qapısı" qəzetinin 4 aprel 1956-cı il tarixli nömrəsində dərc olunmuş məqaləsində yazmışdı:** "Bizim kəndə 1952-ci ildə radio xətti çəkildi. Kolxoz Idarə Heyətinin və Naxçıvan radio qovşağının tərtib etdikləri plana görə az vaxt içərisində bütün kənd radiolaşdırılmalı və kolxozçuların evinə radio xətləri çəkilməli idi. Iki il keçdi, lakin bu tədbir yerinə yetirilmədi. Çox get-gəldən sonra Naxçıvan radio qovşağının köməyi ilə ancaq 30 evə radio xətti çəkildi… Zeynəddin kəndində yaşayan kolxozçular, ziyalılar radio verilişlərini dinləmək, günün yeniliklərindən xəbər tutmaq istəyirlər. Lakin təəssüflə qeyd edilməlidir ki, Naxçıvan radio idarəsinin və Naxçıvan radio qovşağının başçıları onların bu arzusunu başa düşmək istəmirlər.

Zeynəddin kənd zəhmətkeşlərinin haqlı tələbini yerinə yetirməyin vaxtı çatmışdır”.

Müəyyən illərdə atamın əməyi, gördüyü işlər, çəkdiyi zəhmət qiymətləndirilib. 7 may 1946-cı ildə "1941-1945 Böyük Vətən müharibəsi illərində rəşadətli əməyə görə", digər illərdə başqa medallarla, həmçinin 1975-ci ildə "1941-1945-ci illər Böyük Vətən müharibəsində qələbənin 30 illiyi", 1970-ci ildə "Vladimir Iliç Leninin anadan olmasının 100 illiyində rəsadətli

əməyə görə" medalları ilə təltif edilib. V.I.Lenin anadan olmasının 100 illiyi münasibətilə verilən medalın 2-3 illik pedaqoji staja malik və orta ixtisas təhsilli bir müəlliməyə verilməsi tövsiyə olunanda, pedaqoji kollektiv onun atamın - Əli Hümmətovun adına yazılmasını və ona təqdim olunmasını halaldan-halal olduğunu söyləmişlər. Yaşlılar da, bildirmişlər ki, Əli müəllim bizim böyük əksəriyyətimizə dərs deyib, ömrünü xalqın maariflənməsinə, şagirdlərin təhsilinə, tərbiyəsinə həsr edib, elə bu gün də biz ondan öyrənirik, bizimlə bərabər gənc müəllimlər də öyrənirlər və öyrənməlidirlər. Gənclər təkcə pedaqoji işdə yox, həyatın digər məsələlərində, yönlərində də ondan nümunə götürməlidirlər.



Yeri gəlmişkən, atamın sənədlərini bir daha nəzərdən keçirəndə makinada yazılmış bir **Qızılgül açıqcası gördüm:** "Hörmətli Əli müəllim! Sizi qarşıdan gələn yeni – 1973-cü il münasibətilə təbrik edir, Sizə həyatda ən şirin nemət olan can-sağlığı, uzun ömür və işlərinizdə müvəffəqiyyətlər arzulayıram. **Hörmətlə, Kövsər müəllimə.**"

Kövsər müəllimin bizim kənd məktəbində işləməsindən, hazırda Naxçıvan Dövlət Universitetində alman dilini tədris etməsindən xəbərim vardı. Universitetə zəng edib mobil telefonunun nömrəsini alıb onunla telefon əlaqəsi saxladım. Çox səmimi söhbətimiz oldu, ötən illəri xatırladı, 1972-ci ildə təyinatla kənd məktəbində, eyni zamanda, Naxçıvan Pedaqoji İnstitutunda çalışdığını, hazırda baş müəllim olduğunu, bu günlərdə kəndə Fəridə müəllimin hüzür yerinə getdiyini söylədi… Cəmi 4 ay ərzində atamı yaxşı tanıyan, müəllimlərin ona necə hörmətlə yanaşdığını görən Kövsər Abbasova atama bax beləcə sadə, səmimi, xoş təbrikini ünvanlamışdı. Məhz elə bu diqqətə görə Kövsər xanıma dərin minnətdarlığımı bildirirəm.

Uzun illər təhsil sahəsində çalışmış, vaxtilə Zeynəddin kənd tam orta məktəbində də işləmiş və hazırda 36 saylı Xətai dördüncü seçki dairəsinin Dairə seçki komissiyasının katibi vəzifəsini daşıyan **Yusif Orucov:** "Xalq arasında yaxşı valideyn, görkəmli müəllim-pedaqoq kimi ad-san qazanmış mərhum Əli Hümmətov haqqında eşitdiklərim barədə söhbət açmaq mənim üçün çox xoşdur. Zaman elə gətirdi ki, mən 1980-cı ilin sentyabr ayından pedaqoji fəaliyyətimi Zeynəddin kənd tam orta məktəbində təlim-tərbiyə işləri üzrə direktor müavini kimi davam etdirməli oldum. Ilk vaxtlar çox çətinliklərlə rastlaşdım. Çünki məktəbdə müəllim və şagirdlərin dərslərə davamiyyəti aşağı səviyyədə idi. Vəziyyətdən çıxış yolunu ağsaqqal müəllimlərlə məsləhətləşmədə gördüm. Həmin ağsaqqal müəllimlərdən Əsgər müəllimlə, Müslüm müəllimlə məsləhətləşmə zamanı ilk dəfə Əli Hümbətovun adını eşitdim. Əli müəllimin kim olduğunu soruşanda Əsgər müəllim dedi ki, Əli müəllim uzun müddət Zeynəddin məktəbində müəllim, direktor müavini, direktor işləmişdir. O, bütün kəndin hörmətli şəxslərindən biri olubdur. Onun işlədiyi vaxtlarda heç vaxt belə vəziyyət olmamışdır. Çünki o, müəllim-şagird-valideyn üçlüyünün möhkəm əlaqəsini yarada bilmişdir. Valideynlərlə tez-tez görüşlər keçirər, yaranmış problemlərin birlikdə aradan qaldırılma yollarını araşdırardı.

Müəllimlərin rəyini öyrənmək, çətinliklərin aradan qaldırılması üçün tez-tez fasilələrdə onları bir yerə toplayıb, yığcam 5-10 dəqiqəlik toplantı keçirərdi.

Əsgər Əliyevin Əli müəllim haqqında dediyi bu sözlər mənim üçün bir təcrübə məktəbi oldu. Elə həmin vaxtdan mən valideynlərlə sıx əlaqə yaratmağa başladım. Tez-tez kənd çay-çısına girər, valideynlərlə birlikdə çay içib dərdləşər, vəziyyət-dən çıxış yollarını araşdırardıq.

Günlərin birində də çayçıya girən zaman kənd ağsaqqalı Mirqafar ağa ilə görüşdük. O, mənə: "Yusif müəllim, deyəsən Siz də Əli Hümmətovun yolu ilə gedirsiniz. O da həmişə xalq arasında olar, camaatla sıx əlaqə saxlayardı, bəzən də zərurət yaranardısa, evlərə gedər, şagirdlərin dərsə hazırlaşma şəraiti ilə tanış olardı, lazımi məsləhətlər verərdi" - dedi.

Deyilənlərdən belə bir nəticəyə gəldim ki, Əli müəllim nəinki Zeynəddin kəndində, həm də ətraf kəndlərdə özünə ayiq hörmətə malik olmuşdur. Zeynəddin kənd orta məktəbində işlədiyim dörd il ərzində tez-tez Əli Hümmətovun adını eşidər, onun təcrübəsinə istinad etməyimi məsləhət görərdilər.

Məktəbin qocaman müəllimlərindən Hüseyn Abdullayev, Fərəməz Quliyev, Əli Novruzov və başqaları Əli müəllim haq-qında, onun iş prinsipləri haqqında həmişə xoş sözlər deyər və onu örnək gətirərdilər".

Atamın anası Zinyət nənəm təxminən 49 il yaşayıb, 1943-cü ilin yazında dünyasını dəyişib. Atama və özündən 7-8 yaş kiçik olan qardaşı Həsən əmimə qohumları Gövhər və onun qızı Nənəxanım qulluq göstəriblər. Qahab kənd məktəbində direktor və müəllim işləyən atam 25 yaşında evlənmək qərarına gəlib və 1943-cü il dekabr ayının 15-də qohumu İsmayılova Nənəxanım Qurban qızı ilə ailə qurub. Evlənmələrini 21 avqust 1949-cu ildə Zeynəddin kəndini də əhatə edən Qahab kənd Sovetində rəsmiləşdiriblər. Onlar 2 oğlan, 6 qız övladı dünyaya gətirib, böyüdüb və onlara yaxşı tərbiyə veriblər.

Hüseyn 50 ildən çoxdur Sankt-Peterburqda yaşayır. Avtomobil nəqliyyatı üzrə rəhbər vəzifələrdə çalışıb, hazırda pensiyadadır. Şölə, Svetlana və Yaqut Naxçıvanda, Əşrəf, Şəfəq, Güldanə və Nuriyyə Bakıda yaşayırlar. Yalnız ailənin ən kiçiyi Nuriyyə Hümmətova 202 nömrəli tam orta məktəbdə Tarix fənnini tədris etməklə atamızın yolunu uğurla davam etdirir.



Atam Hümmətov Əli Muradəli oğlu son illər asma xəstəliyindən çox əziyyət çəkirdi. Naxçıvan duz mədənində xəstəxana açılmamışdı. 1978-ci ilin yanvar ayı idi, dedim ki, ata istilər düşən kimi səni Ukraynanın Ujqorod şəhərinə müalicəyə aparacağam. O isə cavabında "oğul mən həftələrimi sayıram" söylədi. Amma məktəbdə müəllimlərə deyirdi ki, pensiyanın birinci ayında alacağı vəsaiti bütünlüklə kollektivə xərcləyəcək. Fevralın 14-də atam bu işıqlı dünyadan köçdü. Kənd camaatı, məktəbin pedaqoji kollektivi və şagirdlər dərin hüznlə onu son mənzilə yola saldılar.

***Mart 2014-cü il***

## UNUDULMAZ SİNİF MÜƏLLİMİ



30 ildən çox Naxçıvan Muxtar Respublikası Babək rayonunun (keçmiş Naxçıvan rayonunun) Zeynəddin kənd məktəbində müəllim işləmiş Hüseynov Hüseyn Əsgər oğlu haqqında yazı hazırlamaq üçün Sabunçu rayonunun Bakıxanov qəsəbəsində yaşayan oğlu Ramizlə zəngləşib görüşdüm. Bir neçə günlüyə kəndə getmiş oğlu Hüseynə zəng edib qoruyub saxladığı cəmi 4 sənədi və atasının fotosunu gətirməyi tapşırdı. Elə məqaləni də həmin sənədlər – 18 sentyabr 1955-ci ildə verilmiş pasport əsasında yazılmış 16 yanvar 1966-cı il tarixli pasport, 24 may 1964-cü ildə verilmiş Hərbi bilet, 1941-ci ildə pedaqoji texnikumu bitirməsi barədə 12 iyun 1959-cu ildə verilmiş vəsiqə, Qahab Kənd Sovetində qeyd edilmiş ölüm haqqında Şəhadətnamə əsasında hazırladım.

Hərbi biletdən aydın olur ki, **Hüseyn Hüseynov 1918-ci ildə Zeynəddin kəndində anadan olub.** 1941-ci ildə pedaqoji texnikumu bitirib, ibtidai sinif müəllimidir. 15 sentyabr 1938-ci ildə Naxçıvan Hərbi Komissarlığı tərəfindən orduya çağırılıb və SSRI Ali Soveti Rəyasət Heyətinin 15 may 1946-cı il tarixli fərmanı ilə ordudan azad edilib. O, 15 sentyabr 1938-ci ildən 1940-cı ilin yanvarınadək 96-cı atıcı polkda hərbi xidmətdə olub.

23 iyun 1941-ci il – yanvar 1942-ci il 216-cı atıcı diviziyada, yanvar 1942-ci il – sentyabr 1942-ci il 89-cu atıcı dəstədə, sentyabr 1942-ci il – 15 may 1946-cı il 290-cı dəstədə şərəfli

döyüş yolu keçib. 15 iyul 1941-ci ildə 216-cı diviziyada hərbi and içib. 1941-ci ilin sentyabrından 1942-ci ilin martınadək Cənub-qərb cəbhəsində düşmənə qarşı cəsarətlə vuruşub. Hüseyn Hüseynov Böyük Vətən müharibəsində sıravi atıcı döyüşçü kimi "Igidliyə görə" və "Almaniya üzərində qələbəyə görə" medalları ilə təltif olunub.

Hərbi biletdə aparılan qeydlərdən aydın görünür ki, Hüseyn Hüseynov 1940-cı ilin yanvar ayından 1941-cı ilin iyun ayının 23-dək ordu sıralarında olmayıb. 1941-ci ildə pedaqoji texnikumu bitirib. Belə bir nəticəyə gəlmək olar ki, o, orduya çağırılmamışdan əvvəl texnikuma qəbul olunub, sonra təhsilini davam etdirib və ya istisna hal kimi 1940-cı ilin yanvarında texnikuma qəbul edilib və 1941-ci ildə təhsilini başa vurub, ibtidai sinif müəllimi ixtisası üzrə diplom alıb.

Hüseyn Hüseynov müharibədən sonra pedaqoji fəaliyyətə başlayıb və I-IV siniflərdə dərs deyib, kiçikyaşlı məktəblilərə təlim-tərbiyə verib. Yaddaşımda yanılmıramsa, 2-ci sinifdən mənim də müəllimim olub. Zeynəddin kənd 7 illik məktəbində oxuduğum 1954-1961-ci illəri yada salanda bəstəboy, qarabuğdayı, həmişə əlində əsa olan, hesab dərsinə daha ciddi fikir verən, hərdən biz şagirdlərlə gülə-gülə zarafat edən müəllimim gözlərim qarşısında canlanır.

Günlərin birində Hüseyn müəllimin həmkarlarından biri onun ömür-gün yoldaşı Qonçadan hansısa kitabı istəyir, o da gətirib verir. Hüseyn müəllimin pedaqoji texnikumu bitirməsi barədə diplomu da kitabın arasında ələ keçir və geri qaytarılmır. Məktəbdə problem yaranır və sənədsiz qalan Hüseyn müəllim xeyli əziyyət çəkir. Bakıda və Naxçıvanda əlaqədar təşkilatların qapılarını döyür, müxtəlif ünvanlara şifahi və yazılı müraciətlər edir. Nəhayət, 12 iyun 1959-cu ildə Naxçıvan Pedaqoji Texnikumundan Ibtidai sinif müəllimi ixtisası üzrə diploma bərabər tutulan vəsiqə (DT №422683) almağa nail olur.

Hüseyn müəllim təxminən 32 yaşında həmkəndlisi 1930-cu ildə təvəllüd etmiş Məmmədova Qonça Hüseyn qızı ilə ailə

qurub. 1951-ci ildə Taliyə, 1953-cü ildə Əsgər, 1955-ci il fevralın 17-də Ramiz dünyaya gəldikdən sonra onlar evliliklərini Novruz bayramında - 20 mart 1955-ci ildə Naxçıvan Rayon Vətəndaşlıq Vəziyyəti Aktlarının Qeydiyyatı Şöbəsində rəsmiləşdiriblər və bundan sonra daha üç övladları olub (Rasim, Şəmsiyyə və Əsəd). Yalnız babasının adını daşıyan Əsgər Azərbaycan Dövlət Pedaqoji Institutunu (indiki Universiteti) bitirərək fizika-riyaziyyat müəllimi ixtisasına yiyələnib və hazırda kənddəki Sadıx Nadirli adına tam orta məktəbdə atasının yolunu davam etdirir.

Hüseyn müəllimə təqaüdə çıxmaq nəsib olmayıb. 59 yaşında – 23 dekabr 1977-ci ildə beyin qan damarlarında əmələ gələn qan laxtası (tromb) nəticəsində tənəffüs mərkəzinin pozulmasından dünyasını dəyişib, haqqa qovuşub.

***Noyabr 2013-cü il***

## XOŞ XATİRƏLƏRLƏ YADA DÜŞÜR



İyirminci əsrin ortalarında Naxçıvan rayonunda (indiki Babək) ən yaxşı ibtidai sinif müəllimi kimi tanınan Salayev Müslüm Mehralı oğlu Leninabad (indi Kərimbəyli) və Zeynəddin kənd məktəblərində pedaqoji fəaliyyət göstərib və bu gün kənd sakinlərinin, yetirmələrinin qəlbində yaşayır, xoş xatirələrlə anılır. 26 avqust 1952-ci ildə Naxçıvan Rayon Maarif Şöbəsinin şöbə müdiri H.Məmmədovun imzası ilə Leninabad məktəbinin müəllimi Müslüm Salayevə ünvanladığı məktubda deyilir: "Azərbaycan SSR Maarif Nazirliyinin göstərişinə əsasən avqust ayının 27-29-da müəllimlərin avqust müşavirəsi keçiriləcəkdir. Müşavirənin bir günü (29.VIII.1952) proqram materiallarının təhlil və müzakirəsinə sərf ediləcəkdir. Siz dördüncü siniflər üzrə proqramların təhlili üçün bölmə rəhbəri ayrılmışsınız. Ona görə Sizə tapşırılır ki, proqram materiallarını indidən özünüz ətraflı işləyib qurtarmaqla 29.VIII.52-ci il tarixdə səhər saat 9-da göstərilən siniflər (fənlər) üzrə dərs aparan müəllimlərin iştirakı ilə proqram materiallarının təhlil və müzakirəsini təmin edəsiniz". Bu məktub Müslüm müəllimin rayonda öncüllər sırasında olduğunu göstərir.

***Müslüm Salayev 1922-ci ildə Zeynəddin kəndində anadan olub.*** Natamam orta təhsilini kənd məktəbində alıb. 1936-cı ildə Naxçıvan Pedaqoji Texnikumuna daxil olmaqla pedaqogikanın sirlərinə yiyələnməyə başlayıb və 1939-cu ildə oranı müvəffəqiyyətlə bitirib. Kursu "Əla" əxlaq qiymətlə başa vurduğuna görə ona attestat verilib və orada yazılıb: "Azərbaycan SSR

Xalq Maarif Komissarlığı 1938/1939-cu ilin tədris planı üzrə müəyyən edilmiş tələbləri ödədiyi üçün ibtidai məktəbdə, tam olmayan orta və orta məktəbin I-IV siniflərində müəllimlik hüququna malikdir".

Təyinatla Zeynəddin kənd 7 illik məktəbində pedaqoji fəaliyyətə başlayan Müslüm Salayev növbəti tədris ilində - 1940-cı ildə Leninabad kənd orta məktəbinə dəyişdirilib. Lakin faşist Almaniyasının ölkəmizə qarşı işğalçılıq müharibəsi - 1941-1945-ci illər Böyük Vətən Müharibəsi onun istək və arzularını, ali təhsil almaq planını yarımçıq qoyub. 1941-ci il fevral ayının 3-də Əliyeva Inbilbəni Alıqulu qızı ilə rəsmi nigah bağlayan Müslüm müəllim elə həmin il sentyabrın 15-də ordu sıralarına cəlb edilərək vətənin müdafiəsinə göndərilib. Uzaq Şərq cəbhəsinin N saylı batalyonunun 22-ci dəstəsində pulemyotçu kimi vətənin keşiyində dayanıb. 9 avqust 1945-ci ildən 25 avqust 1945-ci ilədək yaponlara qarşı döyüşlərdə iştirak edib. SSRI Ali Soveti Rəyasət Heyətinin 25 sentyabr 1945-ci il tarixli Fərmanına əsasən 15 yanvar 1946-cı ildə ordu sıralarından tərxis edilib.

1946-cı ilin sentyabr ayından Leninabad kənd orta məktəbində müəllimlik fəaliyyətini davam etdirməyə başlayan Müslüm Salayev təhsilini artırmaq, ali təhsil almaq istəyini reallaşdırmaq üçün 1948-1949-cu tədris ilində Naxçıvan Dövlət Müəllimlər Institutunun Qiyabi şöbəsinin Dil-ədəbiyyat fakültəsinə daxil olub. Dövlət imtahanlarını "əla" və "yaxşı" qiymətlərlə başa vuran Müslüm Salayev 1953-cü ildə institutu bitirib və ona 7 illik məktəbdə Dil-ədəbiyyat müəllimi ixtisası verilib.

Uzun illər qüsursuz çalışan, uşaqlara əlifbanı, hesabı öyrədən, Azərbaycan dili və ədəbiyyat fənnini tədris edən, 2003-cü ilin avqust ayında dünyasını dəyişən Müslüm Salayevin zəhmətini hökumət layiqincə qiymətləndirib. ***Azərbaycan SSR Maarif Nazirliyi 15 may 1975-ci ildə onu "Azərbaycan SSR-in Qabaqcıl Maarif Xadimi" nişanı ilə təltif edib.*** 29 oktyabr 1982-ci ildə isə 60 yaşında "Əmək veteranı" medalı ilə təltif olunub.

Müslüm müəllimin ordu sıralarındakı xidmətləri də unudulmayıb. Dəfələrlə müxtəlif mükafatlara, təltiflərə layiq görülüb. Onlardan bir neçəsini qeyd etməklə kifayətlənmək olar. O, 15 mart 1985-ci ildə SSRI Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə "II dərəcəli Vətən Müharibəsi" ordeni, 12 aprel 1985-ci il tarixli sərəncamı ilə "1941-1945-ci illər Böyük Vətən Müharibəsində qələbənin 40 illiyi" medalı ilə təltif edilib. Azərbaycan Prezidenti Heydər Əliyevin 1 may 1995-ci il tarixli Fərmanı ilə "1941-1945-ci illər Böyük Vətən Mühariəbsində qələbənin 50 illiyi" yubiley medalı, yenə də Prezident Heydər Əliyevin sərəncamı ilə qələbənin 55 illiyi şərəfinə "1941-1945-ci illər Müharibə Veteranı" nişanı ilə təltif olunub.

Müslüm müəllim müharibədən qayıtdıqdan sonra ailəsində 7 övlad dünyaya gəlib. Həmzə (1947), Mahirə (1949), Ramiz (1952), Həzarə (1954), Abbas (1956), Qorxmaz (1958) və Solmaz (1960). Abbas və Həzarə haqq dünyasına qovuşublar. Qorxmaz Bakıda yaşayır.

Iyulun əvvəllərində Qorxmazla zəngləşib görüşdüm. Çay içə-içə söhbət əsnasında bildirdim ki, kəndimizin müəllimləri haqqında məqalələr yazıb çap etdirir, kitab hazırlayıram və istərdim ki, atası haqqında da bir yazı olsun. Mobil telefon kara gəldi. O, kənddə yaşayan bacısı Mahirəyə zəng etdi ki, atası haqqında olan sənədləri və 1 ədəd fotosunu göndərsin. Material da, şəkil də bizə çatdırıldı. Hər ikisinə öz dərin minnətdarlığımı bildirirəm.

***Respublikanın "Qabaqcıl təhsil işçisi",*** ən yaxşı ibtidai sinif müəllimi kimi tanınmış müharibə və əmək veteranı Salayev Müslüm Mehralı oğlunu yaxından tanıyanlar, Sadıq Nadirli adına Zeynəddin kənd tam orta məktəbin pedaqoji kollektivi xoş xatirələrlə yada salır və hələ uzun illər də xatırlayacaq, yad edəcəklər.

***Avqust 2014-cü il***

# KƏNDİMİZİN İLK QADIN MÜƏLLİMİ



***Vəliyeva Sara Kalba Sadıq qızı.*** Bu ad 1930-cu illərin axırlarında, 40-50-ci illərdə Zeynəddin kənd 7 illik məktəbində təhsil alanların yaddaşlarına əbədi həkk olunub. Kəndin ilk qadın müəllimi kimi başqalarının da xatirində silinməz izlər qoyub. Valideynlər öz övladlarını ona daha çox etibar ediblər: bir ana kimi, bir müəllim kimi. Sara müəllim də böyük həvəslə, iftixarla məktəbə ilk dəfə qədəm qoyanlara yazıb-oxumağı öyrədib, onlarda öz kəndinə, vətəninə böyük sevgi, sabaha böyük inam hissləri aşılayıb. Şagirdlərə səadətin yolunun elmdə, təhsildə olduğunu söyləyib.

Sara müəllimin dərs dediyi şagirdlərin bir qismi dünyasını dəyişib, bir qismi isə təqaüddədir. Bəs onlar öz sevimli müəllimlərini necə xatırlayırlar?

***Tarix müəllimi Əsgər Əliyev:*** - Zeynəddində ilk qadın müəllim Sara olub. O, Kalba Sadığın qızı idi, özü də hamı bu işə getmirdi. Amma o kişi qızını oxutdurub. Bilmirəm mən neçənci sinifdə oxuyurdumsa o kəndimizdəki məktəbə pedaqoji təcrübəyə gəldi, bizə dərs də dedi, başladı işləməyə. Müharibə iştirakçısı Səməd Məhərrəmovla ailə qurdu, sonra nədənsə ailələri məktəbdə işləməyə icazə vermədi. Sara müəllim Naxçıvanda pedaqoji texnikumu bitirmişdi. O vaxt Müslüm müəllim də gəlmişdi, o mənim çox yaxşı xatirimdədi, ibtidai sinif müəllimi kimi gəlmişdilər. Təkrar edirəm ki, o mənim çox qəşəng xatirimdədi. Qardaşı Ibrahim Vəliyev rəhmətə gedib, bir qardaşı müharibədən qayıtmayıb, Qardaşxan isə yaşayır. Sara müəllim yeganə qadın müəllim idi. Məktəbdə hamı ona hörmət qoyurdu.

Keçmiş kişilər ona heç də yaxşı baxmırdı. Qəribə bir tərzdə deyirdilər ki, gedib müəllimlik eyləyir, dərs deyir. Amma o qalib gəlib illər boyu işlədi. Yaxşı, gözəl müəllim kimi çox yaxşı xatirimdədi.

***Mühasib Balabəy Hacıyev:*** - Sara müəllim Naxçıvanda komsomolun katibi idi. Sonra gəldi kəndə, kənddə bizə dərs dedi. Məhərrəm, Sona, Nərgiz, Məsmə, Məmoş, Hidayət, Fərrux unutmuşam daha kimsə bir sinifdə oxuyurduq. Sara müəllim də, Teymurov Əli də, Hənifəyev Zeynalabdin də, Qasımov Qasım da bizə dərs deyiblər. Müharibə düşdü, kişi müəllimlərin bir qismi müharibəyə getdi. Sara müəllim uzun müddət işlədi, Məhərrəmov Səməd Məşəəhməd oğlu ilə ailə həyatı qurandan bir müddət sonra məktəbə gəlmədi.

***Fizika-riyaziyyat müəllimi Yaranmış Hüseynov:*** -1941-ci ildə qonşum Sara Vəliyeva məni məktəbə apardı. Məktəb Hacı Əsəd kişinin binalarındaydı. Birinci skamyada, əyləşdirdi. Mən 1-ci, 2-ci və 3-cü siniflərdə ondan təlim-tərbiyə almışam. Sara müəllim mənim digər qohumun Səməd Məhərrəmov əsgərlikdən gələndən sonra onunla ailə qurub. Səməd Məhərrəmov isə Sara müəllimə məktəbə getməsinə, işləməsinə icazə verməyib. Sara müəllim çox yaşadı. Bu gün də biz onun unutmur, xoş duyğularla xatırlayır, hörmətlə yad edirik.

***Sara Vəliyeva 1924-cü ildə Naxçıvan rayonunun indiki (Babək rayonu) Zeynəddin kəndində anadan olub.*** Kalba Sadıq övladlarının təhsilinə daim diqqət yetirib. Sara kənddəki 7 illik məktəbi bitirdikdən sonra atasının xüsusi diqqət və qayğısı sayəsində Naxçıvan Pedaqoji Texnikumunda təhsil alıb və ibtidai sinif müəllimi ixtisasına yiyələnib. Həmin illərdə ulu öndər Heydər Əliyev, zeynəddinli Müslüm Salayev də pedaqoji texnikumda oxuyublar. Tələbəlik illərini həmişə xoş xatirələrlə yada salan Sara Vəliyeva texnikumu bitirdikdən sonra təyinatla Zeynəddin kənd məktəbində pedaqoji fəaliyyətə başlayıb. Ağır müharibə və sonrakı çətin quruculuq illərində fədakarlıq nümunəsi göstərib, şagirdlərinə və yaşıdlarına həmişə mənəvi dayaq olub.

Səmərəli pedaqoji fəaliyyəti dəfələrlə yüksək qiymətləndirilib. 7 may 1946-cı ildə "1941-1945 Böyük Vətən müharibəsi illərində rəşadətli əməyə görə" medalı ilə təltif edilib.

Sara Vəliyeva 1949-cu ildə müharibə veteranı, kənddəki "Nümunə" kolxozunun ən fəal işçilərindən olan, briqadir, anbardar və digər vəzifələrdə çalışmış Məhərrəmov Səməd Məşəəhməd oğlu ilə ailə qurub. 1950-1951-ci tədris ili başa çatdıqdan sonra həyat yoldaşının və yaxın qohumlarının məsləhəti ilə məktəbdən aralanıb. Sara Vəliyeva ömür-gün yoldaşı Səmədlə üç oğul böyüdüb, tərbiyə edib, təhsillərinin qayğısına qalıb. Sara müəllimin böyük oğlu, 1956-cı il təvəllüdlü Heydər Məhərrəmov anasının yolunu uğurla davam etdirir. Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji Institutun (indi Naxçıvan Dövlət Universiteti) məzunu olan Heydər müəllim Babək Rayon Təhsil Şöbəsində, Səttar Naxçıvan şəhərində baytarlıq işində, Yadulla isə Babək Rayon Qaz Istismar Idarəsində çalışır və vəzifələrinin öhdəsindən layiqincə gəlirlər.

Çöhrəsindən nur yağan Sara xanım Vəliyeva 71 il yaşayıb, 1995-ci ildə bu işıqlı dünyadan əbədi köç edib.

***Oktyabr 2014-cü il***

***Əlavə: Qardaşı Yaqub Vəliyev Böyük Vətən müharibəsində həlak olub. Bacısı Sevil kənddə yaşayır.***

## SEVİMLİ MÜƏLLİMİM VƏ ONUN QARDAŞLARI HAQQINDA



Hacıyev Abbas Həsən oğlu 30 ilə yaxın Babək rayonunun Zeynəddin kənd məktəbində coğrafiya, kimya, təbiət fənlərini tədris edib. Dərin hörmət bəslədiyim, bu gün də siması xoş xatirələrlə gözlərimin önündə canlanan Abbas müəllim 1958-1961-ci illərdə, yəni 5-7-ci siniflərdə oxuyarkən mənə dərs deyib. Elə bil bu gün də Abbas müəllim əlində çubuq-göstərici lövhədən asılmış dünyanın xəritəsi önündə dayanıb vətənimizin təbiəti, gözəllikləri, iqtisadiyyatı haqqında şagirdlərə məlumat verir. Vətəni sevməyi, onun təbiətini öyrədir, kimyanın həyatımızdakı rolundan söhbət açır. Təbiətcə çox sakit, dolubədənli, irigözlü Abbas müəllim olduqca ciddi, tələbkar və zəhimli, eyni zamanda, hamıya qarşı çox səmimi idi. Mərdliyi, cəsarəti ilə fərqlənirdi. Öz təsərrüfatında, xüsusilə üzüm bağında işləməkdən böyük zövq alardı. Zəhmətinin bəhrəsini də görər, bol məhsul götürərdi. Ilk buraxılış "Volqa" maşını almışdı. Sürətlə sürməzdi. Bir dəfə atamla onun maşınında Naxçıvana gedirdik, heç yadımdan çıxmaz, onda atama təxminən belə dedi: Əli müəllim mən yalnız Yarımca-Hacıvar, Hacıvar-Şəkərabad arası yolda sürəti 60-a çatdırıram.

**Abbas Hacıyev 1924-cü ildə Zeynəddin kəndində dünyaya gəlib.** 1950-ci ildə Cəlil Məmmədquluzadə adına Naxçıvan Müəllimlər Institutuna daxil olub və 1952-ci ildə Təbiyyət-coğrafiya ixtisası üzrə tam kurs bitirib. Ona 7 illik məktəbdə təbiyyət-coğrafiya müəllimi ixtisası verilib. Naxçıvan Hərbi Komissarlığının 4 iyun 1964-cü il tarixdə Abbas müəllimə ver-

diyi hərbi biletdə qeyd edilib ki, o, 15 fevral 1944-cü ildən 1946-cı ilin iyun ayınadək hərbi xidmətdə olub, serjant rütbəsindədir və əsas ixtisası feldşer, pedaqoqdur. (Görünür o, hərbi xidmətə getməzdən əvvəl tibbi təhsili alıb və ya pedaqoq ixtisasına uyğun olaraq belə yazılıb). Arvadı Hacıyeva (Qasımova - Ə.H.) Tarila Qasım qızıdır. Oğlu Həsən 1960-cı il, qızı Cəmilə isə 1962-ci ildə anadan olub.

Abbas müəllimin ömür sirdaşı Tarila bizim qonşuluqda yaşayırdı və biz onu Natella kimi tanıyırıq. O, çox gənc yaşında dünyasını dəyişdi və Abbas müəllim uzun illər evlənmədi. 20 oktyabr 1980-cı ildə kənd sakini, 1937-ci il təvəllüdlü Piriyeva Hürzad Pirəli qızı ilə ailə qurdu. 1983-cü ilin son aylarında xəstələndi, qalan ömrünü evdə keçirdi, müalicə oluna bilmədi, xəstəliyin qarşısında həkimlər çarəsiz idilər. Kənddə, pedaqoji kollektivdə böyük hörmət və nüfuza malik Abbas Hacıyev - mənim sevimli müəllimim 22 dekabr 1990-cı il əbədi olaraq gözlərini yumdu, bu işıqlı dünyadan son mənzilə köçdü. Bu cümlələri yazarkən, qarşımda da onun fotosu, gözlərim yaşardı, bir az udqundum və keçirdiyim xəyallar, gözlərim önünə gələn yaşantılar, xatirələr içində doluxsundum və Allahdan ona bir daha rəhmət dilədim.

Abbas Həsən oğlu Hacıyevin əziz xatirəsinə həsr etdiyim bu kiçik yazıda onun qardaşları barədə də qısa məlumat verməyi özümə borc bildim. Çünki onlar da kəndimizdə böyük hörmət-izzət sahibi olublar.

Böyük qardaşı Hacı müəllim olub, 1941-1945-ci illərdə alman faşizminə qarşı müharibədə iştirak edib. Ukraynada əsir götürülüb. Sonrakı taleyi barədə dəqiq məlumat yoxdu. Qardaşı Şəmil deyir ki, eşitdiyimə görə əsirlikdən qurtulduqdan sonra Türkiyədə yaşayıb. Amma tarix müəllimi, kəndimizdə müharibəyə gedənlər barədə araşdırmalar aparmış 85 yaşlı Əsgər Əliyev deyir ki, bu fakt özünü doürultmayıb. Biz onu müharibədən qayıtmayanlar sırasına daxil edirik.

Özündən sonrakı qardaşı Adil müəllim kənd kitabxanasının müdiri olub. O, bu vəzifədə orduya xidmətə çağırılan qardaşı Şəmili əvəzləyib və bir ziyalı kimi yeniyetmələri həmişə elmə, təhsilə yönəldib. “Şərq qapısı” qəzetinin 1959-cu il 11 fevral tarixli nömrəsində kənd kitabxanasının fəaliyyətindən söhbət açılıb. Adil Hacıyev 1982-ci ildə dünyasını dəyişib. Oğlu Mahir diplomatdır.

Kiçik qardaşı Şəmil kənddə yaşayır, təqaüddədir. Səhhəti yaxşı deyil, odur ki, həmişə evdə, həyətdədir. 1937-ci ildə təvəllüd edib. Kənd kitabxanasının müdiri olub. "Şərq qapısı" qəzetinin 1956-cı il 3 avqust tarixli nömrəsində qeyd olunur ki, Zeynəddin kənd kitabxanasında 5 mindən çox müxtəlif ədəbi, bədii, elmi və siyasi kitab var. Kitabxana müdiri Şəmil Hacıyev oxucularla istifadə etdikləri kitablar üzrə tez-tez sual-cavablar təşkil edir. Bu günlərdə Səməd Vurğunun "Vaqif" dramının müzakirəsi olmuşdur. Kitabxananın 100 nəfər daimi oxucusu var. Oxuculardan Zakir Qasımov, Abbas Hüseynov, Həmzə Əhmədov hərəsi son 6 ay ərzində 8-10 müxtəlif kitab oxumuşdur.

Şəmil Hacıyev 1957-ci ildə ordu sırasına yollanıb və II dərəcəli sürücülük vəsiqəsini hərbi xidmət zamanı alıb. Sonra Abbas müəllimin məsləhəti ilə həmişə bu peşədə çalışıb.

Hazırda Zeynəddin kəndində Hacı Hacıyevi tanıyan, yada salan, az adam qalıb. Abbas müəllimi və maarif fədaisi Adil Hacıyevi yaxşı xatırlayanlar, onlar haqqında səmimiyyətlə söhbət açanlar çoxdur. Məqalənin hazırlanmasında bizə yardımçı olan kiçik qardaş Şəmil Hacıyevə yaradandan şəfa diləyirik.

***Noyabr 2013-cü il***

## MƏQSƏDİNDƏN DÖNMƏYƏN MÜƏLLİM



Yaşı 85-i haqlayan Əliyev Əsgər Həsən oğlu ömrünün 55 ilini şagirdlərin təlim-tərbiyəsinə həsr edib, bir tarix müəllimi kimi onların vətənpərvər ruhda yetişməsi yolunda çalışıb. Bu gün yetirmələri ilə haqlı olaraq fəxr edən Əsgər müəllim 2004-cü ildən pensiyadadır.

**Əsgər Əliyev 1929-cu ildə Naxçıvan rayonunun (indiki Babək) Zeynəddin kəndində anadan olub.** 1936-cı ildə kənddəki 7 illik məktəbə yollanıb və Zenalabdin Hənifəyev ona yazıb-oxumağı öyrədib. 1943-cü ildə Natamam orta məktəbi bitirdikdən sonra təhsilini qonşu Leninabad (indiki Kərimbəyli) kənd orta məktəbində davam etdirib, lakin Zeynəddin kəndindən 1-2 kilometr aralıda yerləşən bu təhsil ocağının sonuncu – 10-cu sinfində oxuyanda zamana görə vəziyyət gərginləşib.

1946-1947-ci tədris ilini Əsgər müəllim belə xatırlayır: "O illər çox çətin bir dövr idi. Sinifdə 6 şagird olduğumuza görə 1946-cı il sentyabr ayının 16-17-də yuxarıdan gəlib sinfi bağladılar. Dedilər ki, bu qədər şagirdə sinif saxlamaq olmaz. Ya qayıdıb 9-cu sinifdə oturun, ya da harada istəyirsiniz oxuyun. Ona görə də Rəhim Hüseynov (həmkəndlisi - Ə.H.) və mən gedib əvvəlcə Naxçıvan şəhərindəki 1 nömrəli orta məktəbdə, demək olar ki, yanvara qədər oxumuşuq. Amma sonra orada oxuya bilməmişik, buna da səbəb o idi ki, aclıq idi, əyin-başımız möhkəm deyildi. Mağazada 600 qram çörək verilirdi. Növbələr də başabaş. Çox çətin idi. O zaman qış ayları da çox sərt keçirdi. Yanvar ayından gəlib getmişik Şıxmahmud kəndinə. Orada orta məktəb var idi. Kimyadan Həsən müəllim bizi yoxladı, məktəbə

qəbul etdilər. Məktəbin kəndimizdən uzaq olması bir tərəfə, həm də Naxçıvan çayını keçməli idik. Su soyuq, şaxtalı hava, qarbuz, məktəbdə yaş odun, normal istilik də yox. Oranı qurtaranda, inanın ki, müəllim tapılmadığına görə məcbur olub iki məktəbə bir imtahan komissiyası yaradıblar. Araz çayına yaxın Təzəkənd adlı bir kənd var idi, indi o kənd qalıb suyun altında (Araz çayı üzərində su elektrik stansiyası tikildiyinə görə - Ə.H.), bir də Şıxmahmud məktəbi. İkisini birləşdirdilər. Naxçıvan şəhərindən Məmməd adlı bir müəllimi imtahan komissiyasının sədri qoydular. O zaman maşın yox idi, piyada gedib-gəlmək olmazdı. Rəhimlə iyun ayında 25-26 gün orada bir sinif otağında yaşadıq və 3-4 gündən bir buraxılış imtahanlarını verdik. Imtahanlardan "əla" qiymətlər alırdım, niyyətim vardı ki, medal alım. Amma məktəbin direktoru Bilal müəllim mənə açıqca dedi ki, sənə nəinki medal, heç "3" qiymət də verməyəcəyik, "pis" verəcəyik, özü də bil ki, onu mən verəcəyəm sənə. Rus dilindən yazılı imtahan verdik. Yazı işləri yoxlanıldıqdan sonra imtahan komissiyasının sədri bildirdi ki, ən yaxşı, düzgün yazı mənimki olub. Nə isə, o imtahandan "4" aldım. Mənə "pis" vermək istəyən müəllimin özü attestatıma "4" yazdı. Belə bir xoş olmayan niyyətlə həmin məktəbdən ayrıldıq. Sonralar mən Bakıda oxuyanda onunla görüşdük, sözümü ona dedim və elə bil rahatlandım".

Əsgər Əliyev orta məktəbi bitirən ili - 1947-ci ildə Naxçıvan Müəllimlər İnstitutuna qəbul olunub və 1949-cü ildə oranı bitirib. İkiillik Müəllimlər İnstitutunun məzununa 7 illik məktəbdə müəllim işləmək hüququ verilib və o, Zeynəddin kənd 7 illik məktəbində pedaqoji fəaliyyətə başlayıb. 1951-1953-cü illərdə Belarusiyanın Brest şəhərində kursant-zabit kimi hərbi xidmət keçib. Ordu sıralarından tərxis olunduqdan sonra 1953-1954-cü tədris ilində Naxçıvan Kənd Təsərrüfatı Texnikumunda, 1954-1959-cu illərdə Zeynəddin kənd məktəbində müəllim, 1959-1961-ci illərdə dərs hissə müdiri, 1961-1964-cü illərdə direktor işləyib. 1964-cü ildə Zeynəddin kənd 8 illik məktəbin

direktoru Əsgər Əliyevi irəli çəkib, Leninabad kənd orta məktəbinə direktor vəzifəsinə təyin ediblər. Düz on il burada pedaqoji kollektivə rəhbərlik edən Əsgər müəllim 1974-cü ildə yenidən Zeynəddin kənd orta məktəbinə qayıdıb və 2003-2004-cü tədris ilinin sonunadək tarix müəllimi, ibtidai hərbi hazırlıq rəhbəri, dərs hissə müdiri vəzifələrində çalışıb.



Əsgər Əliyev pedaqoji fəaliyyətdən ayrılmadan 1957-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutuna daxil olub, 1961-ci ildə oranı Tarix ixtisası üzrə bitirib. Dövrün tələbinə uyğun olaraq 1979-1981-ci illərdə yenə də məktəbdən ayrılmadan Maksizm-Leninizm Universitetində təhsil alıb.

Əsgər müəllim bir tarixçi olaraq illərlə böyük əmək sərf edərək 1941-1945-ci illər Böyük Vətən Müharibəsində iştirak etmiş, döyüşlərdə həlak olmuş, müharibədən sonra kəndə qayıdıb sonradan dünyasını dəyişmiş, hazırda yaşayan həmkəndlərinin siyahısını bir neçə dəfə hazırlamışdır.



2013-cü ilin iyun ayında kənddə olarkən Zeynəddinli, hazırda Sumqayıt şəhərində yaşayan Salayev Zahid Ibrahim oğlu ilə birlikdə hörmətli müəllimimizlə evində görüşdük. Birlikdə dəqiqləşdirdiyimiz siyahıdan aydın oldu ki, 150 nəfərə yaxın Zeynəddinli müharibədə iştirak edib, onların 70-dən yuxarısı cəbhələrdə Vətən yolunda canlarını qurban veriblər. Hazırda bir nəfər - Yusif Salayev sağdır. Vətəndən çox-çox uşaqlarda – İtaliyada faşistlərin güllələdikləri Sadıx (bəzən Sadıq da yazırlar) Nadirlinin üzə çıxarılmasında, kənd məktəbinə onun adının verilməsində Əsgər müəllimin təmənnasız fəaliyyəti danılmazdır.

**Jurnalist, tanıdığı və sevdiyi insanları unutmayan, hazırda Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında çalışan Əzizə Şamilova Əsgər Əliyevi "El adamı" adlandırır.** Tələbəlik illərindən tanıdığım, Naxçıvan Teleradiosunda birlikdə işlədiyim Əzizə xanımın qeydlərini olduğu kimi oxucularıma təqdim edirəm: "İllər quş qanadlı olub uçsa da adama çox vaxt elə gəlir ki, sanki hər şey dünən olub. Mənə

Əsgər Əliyevlə bağlı sual verəndə yaddaşımı təzələməyə çalışdım. Baxdım ki, bəzi şeyləri unutmuşam. İş dəftərçələrimi vərəqləməyə başladım və gördüyümə özüm də inanmadım. Demə Əsgər müəllimlə ilk tanışlığım Qələbənin 1975-ci ildə 30 illiyi ərəfəsində olub. Buna əmin olduqdan sonra xatirələrim kino lenti kimi gözüm önündə canlanmağa başladı.




*Ə.Şamilova, S.Həmzəyev və C.Həkimli*

O vaxtı mən Naxçıvan Muxtar Sovet Sosialsit Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsində redaktor işləyirdim. S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin Jurnalistika fakültəsini bitirib ailə quraraq həyat yoldaşım Əli Şamilovla təyinat üzrə Naxçıvana gəlmişdik. Gənc jurnalist olaraq bütün maraqlı hadisələr diqqətimi cəlb edirdi. Böyük Vətən müharibəsində (1941-1945-ci illər) vuruşmuş, igidlik göstərmiş, canını qurban vermiş və yaralanaraq Vətənə qayıtmış insanları axtarıb tapır, hərbi vətənpərvərlik mövzusunda yazılar yazırdım. Belə axtarışlardan birində Əsgər müəllimlə tanış

oldum. Lakin o bildirdi ki, mənim saçlarımın ağ olmasına baxmayın, yaşım azdır, müharibədə olmamışam. Amma müharibədə həlak olmuş bir nəfər həmyerlim, Zeynəddin kənd sakini Sadıx Nadirli haqqında danışmaq, daha doğrusu, onu jurnalistlər vasitəsilə hamıya tanıtdırmaq istəyirəm.

Doğrusu ilk anda məndə çaşqınlıq yarandı. Əsgər müəllim özü müharibədə olmayıbsa, həlak olmuş adam haqqında nə danışa bilər. Beləliklə, Sadıx Nadirlinin həyat hekayəsini dinlədikcə, o dövrdə bu məsələ ilə əlaqədar hər adamın çəkinə biləcəyi təkliflər verməsi Əsgər müəllimin nə qədər qətiyyətli olduğunu göstərirdi. Onun topladığı fakt və məlumatlarla tanış olduqdan sonra mən də Əsgər müəllimin cazibəzinə düşdüm. Çünki Əsgər müəllim bunu vicdanının çağırışı ilə edirdi.

Belə bir təmənnasız hərəkət təbii ki, hər bir adamın işi deyildir. Əsgər müəllim etiraf edirdi ki, əgər Sadıx Nadirlinin ata-anası, həyat yoldaşı və övladları olsaydı, bəlkə də mən bu işlə məşğul olmazdım. Odur ki, uzun illər keçdikdən sonra belə məni bu fikir narahat edirdi. Hazırda yaxın qohumunun olmaması, onun həyatı və qəhrəmancasına ölümü məni bu araşdırmaları aparmağa vadar edir, istəyirəm ki, həmyerlimizin şücaətini hamı bilsin. Necə olur ki, Sadıx Nadirlinin yanında takım komandiri olmuş Məmmədağa Nəzərovun büstü onun doğulduğu Dəvəçi şəhərində (indiki Şabran) qoyulub, amma komandirin haqqında həmyerliləri belə çox şeyi bilmirlər.

Əsgər müəllimin topladığı sənədlər, xatirələr və onun sorğularına cavab olaraq göndərilən məktublardan aydın olurdu ki, Sadıx Nadirli hərbi komissarlıqda işləyə-işləyə 1941-ci ilin axırında baş leytenant kimi müharibəyə gedib. Axırıncı məktubu Kerçdən gəlib. Orada əsir düşdükdən sonra Italiyaya aparılır, əsirlikdə tanış olduğu adamlarla sonralar da əlaqəni kəsmir. Özü alman legionunda saxlansa da, başqalarının qaçıb partizanlara qoşulmasına kömək edib. Həmin adamlar arasında Mehdi Hüseynzadə (Bakı), Mikayıl Qulubəyov (Gəncə), Fərrux Sultanov (Tovuz), Əkbər Babayev (Masallı) və başqaları var idi. Son anda

özü də qaçıb gizli yerdə saxladığı partiya biletini və sənədini götürüb qaçmaq istərkən, çox güman ki, kimlərinsə almanlara məlumat verməsi nəticəsində saxlanılır və legionun qarşısında takım komandiri Məmmədağa Nəzərovla birlikdə güllələnir.

Beləliklə, Sadıx Nadirlinin taleyinin izi ilə Əsgər müəllimlə birgə fəaliyyətə başladıq. Əsgər müəllim yorulmaq bilmədən əldə etdiyi ən kiçik faktları da vaxtaşırı mənə çatdırırdı. Mənim Sadıx Nadirli haqqında dövri mətbuatda, radio-televiziyada gedən yazılarım daha da zənginləşir, oxucuların, dinləyicilərin diqqətini cəlb edirdi. Bununla yanaşı, Əsgər müəllim dərs dediyi şagirdlərinə, yaşadığı Zeynəddin kəndinin gənclərinə Sadıx Nadirli haqqında məlumatlar verirdi. Onun İtaliyadakı partizanlarla eyni ərazidə, eyni vaxtda, lakin almanların içərisində gizli fəaliyyət göstərməsi faktı daha çox maraqlandırırdı.



Bunları əldə əsas tutaraq Əsgər Əliyev dövlət təhlükəsizlik orqanlarına da şifahi və yazılı müraciət edir, Sadıx Nadirlinin işinə yeni faktlar əsasında baxılmasını xahiş edirdi. Ən böyük istəyi kənd məktəbinə Sadıx Nadirlinin adının verilməsi və

büstünün qoyulması idi. Bəzilərinin ona təəccüb dolu suallar verməsinə baxmayaraq Əsgər müəllim deyirdi ki, başqaları üçün canından keçmiş insanları nə tarix unudur, nə də gələcək nəsil. 1978-ci ilin axırlarında təsadüf elə gətirdi ki, keçmiş partizanlar olan Cavad Həkimli (partizan dəstəyinin baş qərargah rəisi) və Sadıx Nadirlini yaxşı tanıyan Fərrux Sultanov Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinə mənim hazırladığım verilişdə iştirak etmək üçün dəvət olundular. Onların televiziyada ilk çıxışlarından sonra neçə-neçə keçmiş Italiya partizanı olan yerli sakinlərdən studiyaya gələnlər və öz xatirələrini danışanlar oldu. Onların söhbətləri də sübut etdi ki, Əsgər müəllimin apardığı araşdırmalar və faktlar düzgündür.

İllər keçirdi, hər ilin üstünə yeni səhifələr əlavə olunurdu. Mən partiya işində çalışsam da yenə də hərbi vətənpərvərlik məsələləri ilə məşğul olurdum. Əsgər müəllimlə əlaqələri saxlayırdım. Artıq mənim onun arzusunun həyata keçməsinə kömək etmək üçün müəyyən səlahiyyətlərim də var idi. Zeynəddin kənd sakinləri, məktəbin kollektivi və ictimai təşkilatlar Əsgər müəllimin əməyini yüksək qiymətləndirirdi. Bunun nəticəsi olaraq 1986-cı ildə Naxçıvan MSSR-in Babək rayonunun Zeynəddin kənd orta məktəbinə Sadıx Nadirlinin adı verildi. Bütün təşkilatçılıq işləri Əsgər müəllimin rəhbərliyi ilə həyata keçirildi. Məktəbdə igid partizanın xüsusi guşəsi hazırlanmışdı.

Əsgər Əliyevin yalnız bir xüsusiyyətini bu qısa yazımda diqqətə çatdırmaq istədim. Onun gözəl pedaqoqluğundan, el ağsaqqalı olduğundan yazmadım. Kənddə qazandığı nüfuzdan, çətinliyə düşənlərə, unudulanlara əl uzatmağından geniş yazmadım. Sözsüz ki, müəllif kitabında bu haqda ətraflı yazılacaqdır. Mən öz borcumu bununla yerinə yetirdim".

Yenə də Əsgər müəllimin pedaqoji fəaliyyətinin son illərində özünün diqqəti çəkən bir xatırlaması: "O zaman Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyində məsələ qoyulub və məktəblərə məktub göndərilib ki, müəllimlər 70 yaşa qədər işləməlidir, təsadüfi yerlərdə işləyə bilər və bir akladdan artıq

dərs deməlidir. Nazirlikdən göndərilən məktubda mənim və qonşum Fərəməz Quliyevin adı var idi. Mən də Konstitusiya Məhkəməsinə məktub yazdım, ərizəni də bir az sərt yazdım. Yazdım ki, Naxçıvan Muxtar Respublikasının Təhsil naziri belə bir iş görüb. Sizdən xahiş edirəm ki, Azərbaycan konstitusiyasının 4 maddəsini bu elmlər namizədi olan nazirə izah edib başa salasınız. Cavab gəldi mənə. Elə bildim ki, o nazir məndən acıq çıxacaq, əksinə, o məni görəndə qucaqladı. Həmin il heç kəs işdən çıxarılmadı. Amma sonralar pensiyaya çıxanları işdən kənarlaşdırdılar. Heç kəs məni işdən çıxarmadı, yaşıma görə 2004-cü ildən işləmirəm".

Bu yayda kəndimizin yetirmələri - müxtəlif peşə sahibləri, o cümlədən müəllimləri haqqında məqalələr hazırlamaq üçün Naxçıvan şəhərində, Babək qəsəbəsində və Zeynəddin kəndində oldum. Həmin günlərdə Əsgər müəllimlə bir neçə dəfə həmkəndlim Zahid Salayevlə birlikdə görüşdüm. Onun söhbətlərinin bir qismini qeyd etməklə bərabər, həm də diktafona yazdım. Orta məktəb illərində mənə bir neçə il tarix fənnindən dərs demiş, bu fənni, Vətəni, torpağı sevdirmiş Əsgər Əliyev pedaqoji kollektivdə ən çox fərqlənən müəllimlərdən olub, kənd adamları onun adını həmişə hörmətlə çəkir, biz yetirmələri də onunla fəxr edirik.

***Noyabr 2013-cü il***

# XATİRƏLƏRƏDƏ YAŞAYAN İNSAN



**10 fevral 1929-cu ildə Naxçıvan rayonunun (indiki Babək) Zeynəddin kəndində Hüseynov Məhəmməd Hüseyn oğlunun və Səhnə Allahverdi qızının ailəsində bir oğlan uşağı dünyaya gəldi.** Onun adını Rəhim qoydular. Həqiqətən də o, bu adı keşməkeşli ömür yolunda tam mənası ilə doğrultdu. 1944-cü ildə kənddəki 7 illik məktəbi bitirən Rəhim Hüseynov qonşu Leninabad (indiki Kərimbəyli) kənd orta məktəbində təhsilini davam etdirib. Alman faşizminə qarşı müharibə - 1941-1945-ci illər və sonrakı illərin çətinlikləri tarixdən məlumdur. 1946-cı ildə 10-cu, yəni buraxılış sinfində bir neçə şagird olduğuna görə sinif bağlanıb və Rəhim Hüseynov da həmkəndlisi Əsgər Əliyevlə birlikdə orta təhsilini Şıxmahmud kənd orta məktəbində başa vurmalı olub.

1948-1950-ci illərdə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Müəllimlər Institutunun Təbiyyət-coğrafiya fakültəsində təhsil alan Rəhim Hüseynov oranı müvəffəqiyyətlə bitirərək V-VII siniflərdə həmin fənlərdən dərs demək hüququ qazanıb. Pedaqoji fəaliyyətə 1950-ci ildə Leninabad kənd orta məktəbində başlayıb. 1954-cü ildə pedaqoji işini davam etdirməklə bərabər, Azərbaycan Dövlət Qiyabi Pedaqoji Institutun Təbiyyət fakültəsinə daxil olub və 1958-ci ildə ali təhsil kursunu başa vurub, orta məktəbdə kimya-biologiya müəllimi adını alıb. 1963-cü ilin oktyabrından ömrünün axırınadək Naxçıvan Müəllimləri Təkmilləşdirmə Institutunda (Naxçıvan Muxtar Respublikası Pedaqoji Kadrların Ixtisasının Artırılması Institutunda)

Kimya kabinetinin müdiri vəzifəsində çalışıb. Işi ilə əlaqədar olaraq Naxçıvana köçüb.

Rəhim Hüseynov 20 avqust 1986-cı ildə SSRI Ali Soveti Rəyasət heyətinin qərarına əsasən "Rəşadətli əməyə görə", sonra "Sosializm yarışının qalib" medalı və digər mükafatlarla təltif edilib. Çoxlu sayda fəxri fərmanlara, diplomlara layiq görülüb. Pedaqoji kadrların elmi-metodiki səviyyəsinin yüksəldilməsi, ixtisasının artırılması və onların qabaqcıl təcrübəsinin öyrənilib yayılması sahəsində fəal iştirakına və pedaqoji fəaliyyətinin 48 illiyi ilə əlaqədar 1999-cu ilin fevralında Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin, Azərbaycan Respublikası Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Naxçıvan Muxtar Respublikası Komitəsinin, Naxçıvan Muxtar Respublikası Müəllimlər Birliyi Məclisinin fəxri fərmanları ilə təltif olunub.

Zeynəddin kəndinin ziyalıları haqqında materiallar toplamaq üçün 2013-cü ilin iyun ayında Naxçıvana getmişdim. Uzun illər Rəhim müəllimlə bir yerdə işləmiş, hazırda Naxçıvan Müəllimlər Institutunda çalışan filologiya üzrə fəlsəfə doktoru, muxtar respublikanın Əməkdar mədəniyyət işçisi, şair-dramaturq Həsənəli Eyvazlıdan Rəhim müəllim haqqında öz xatirələrini qısaca qeyd etməyi xahiş etdim. Bir neçə gündən sonra o, "Xatirələrdə yaşayan bir insan haqqında xatirələrim" adlı qeydlərini mənə verdi: "Bir zamanlar Naxçıvan Müəllimləri Təkmilləşdirmə Institutu vardı. Özünün 45 nəfərlik kollektivi isə Muxtar Respublikasının ümumtəhsil məktəblərinin yaxın köməkçisinə çevrilərək müəllimlərin hörmətini qazanmışdı. Elmi-metodiki və təlimin təkmilləşdirilməsi istiqamətində dövrünün mühüm işlərini yerinəyetirən bu kollektivdə sağlam əqidəli, metodik cəhətdən savadlı metodist-müəllimlər çalışırdı. Kollektivə əvvəllər yüksək pedaqoji hazırlığı və intellektual biliyi olan Məmməd Bəktaşi (o, əvvəllər Naxçıvan MR Təhsil Naziri işləmişdir), sonra isə İsmayıl Quliyev rəhbərlik edirdi.

1978-95-ci illərdə bir yerdə çalışdığım kollektivin hər bir üzvü ilə qaynayıb-qovuşmuşduq. Aramızda yüksək səviyyədə

olan mehribanlıq və hörmət çoxlarının diqqətini çəkirdi. Belə bir mehriban kollektivin bir üzvü də Kimya Kabinetinin müdiri işləyən Rəhim Hüseynov idi.

O, boş günlərində kənddəki meyvə bağını becərməkdən xüsusi ləzzət alardı və bundan ürəkdolusu danışardı.

İxtisasca kimya müəllimi olan Rəhim müəllim orta boylu, qaraşın və həm də gülərüzlü idi.

Həddindən artıq saf, ədalətli, hamıya inanan, ümumiyyətlə sadəlövh bir insan idi. Onunla 20 ilə yaxın bir müddətdə bir yerdə işlədik. Hamı ilə ünsiyyət yaratmağı bacaran Rəhim müəllim məktəblərdə olarkən müəllimlərə metodik kömək göstərməkdən yorulmazdı.

Rəhim müəllim Təkmilləşdirmə İnstitututunun uzun müddətli staja malik olan həmkarların sədri idi. Hər il payız gələndə xahiş edərdi ki, onu həmkarların sədri seçməyək. Biz də deyərdik ki, bir geniş qonaqlıq ver, seçməyək. Qonaqlığı verirdi. Hamı yeyib-içirdi, söz verirdi ki, arxayın ol, sənə heç kim səs verməyəcək. Lakin seçki keçirilərkən hamı ona səs verirdi. Əsəbləşirdi, hirslənib özündən çıxırdı, sonra hirsləndiyi üçün üzr istəyərdi.

Yuxarıda qeyd etdiyim kimi, Rəhim müəllim həddindən artıq saf, təmiz bir adam idi. Başına gələn hadisələr də əsasən onun saflığından və ürəyiyumşaqlığından irəli gəlirdi.

Bir gün evdən çıxarkən qonşusu ilə rastlaşır. Qonşusu hara getdiyini soruşur. Rəhim müəllim deyir ki, gedir kəndə qoz ağacını çırpdırmağa. Qonşu soruşur ki, neçəyə çırpırlar? Deyir ki, hər ağacı iyirmi manata. Qonşu deyir ki, o pulu mənə ver, gedək çırpım. Rəhim müəllim də deyir ki, qoz ağacını çırpmaq asan deyil və sənin işin deyil. Qonşu əl çəkmir. Kəndə gedirlər. Elə birinci budağı çırpmaq istərkən qonşusu ağacdan yıxılır. Rəhim müəllim qonşuya 20 manat verib yola salır və deyir ki, get işinin dalınca, səndən qoz çırpan olmaz.

Rəhim müəllim riyakar deyildi. Hər deyilən sözə tez inanan adam idi.

Uzun illər bir yerdə işlədiyim Rəhim müəllimdən insanlıqdan başqa, kənar hərəkət görmədim. Allah ona rəhmət etsin".

Rəhim Hüseynov 1964-cü il yanvarın 20-də Cülfa rayonunun Xanağa kəndindən olan orta ixtisas təhsilli tibb işçisi Zənfirə Şəkər qızı ilə ailə qurub. Ömür-gün yoldaşı da sonralar ali pedaqoji təhsil alıb. Onların üç övladı dünyaya gəlib: Nail, Naimə və Məhəmməd. Üçünə də ali təhsil veriblər.

Zeynəddin kəndinin tanınmış ziyalılardan olan, həmişə xoş xatirələrlə anılan Rəhim Hüseynov 15 fevral 2002-ci ildə dünyasını dəyişib və Naxçıvan çayın yaxınlığında yerləşən köhnə kənd qəbiristanlığında anası Səhnə Allahverdi qızının yanında dəfn edilib.

***Sentyabr 2013-cü il***

## YETİRMƏLƏRİNİN QƏLBİNDƏ YAŞAYIR



**Ibrahim Salayev 6 iyul 1968-ci il tarixli tərcümeyi-halında yazır: "1929-cu ildə anadan olmuşam.** Atam - Salayev Əli Hüseyn oğlu inqilabdan əvvəl yoxsul kəndli olub, inqilabdan sonra müxtəlif vəzifələrdə işləyib. Hazırda "Naxçıvan" üzümçülük sovxozunda fəhlə işləyir. Anam Salayeva Səkinə Həsənqulu qızı inqilabdan əvvəl evdar qadın, sonra kolxozçu olub. 1962-ci ildə vəfat edib. Mən, 1936-cı ildə Zeynəddin yedillik məktəbinin 1-ci sinfinə daxil olmuşam. 1942-ci ildə (1943-cü ildə - Ə.H.) 7-ci sinfi bitirmişəm. Leninabad kənd orta məktəbinə VIII sinfə getmişəm. 1949-cu ildə Naxçıvan Dövlət Müəllimlər Institutunun Azərbaycan dili və ədəbiyyatı fakültəsinə daxil olmuşam. 1951-ci ildə bitirib rayonun müxtəlif kəndlərində işləmişəm. 1955-ci ildə Azərbaycan Dövlət Qiyabi Pedaqoji Institutun dil-ədəbiyyat fakültəsinə daxil olmuşam. 1959-cu ildə bitirmişəm. Hazırda Zeynəddin kənd 8 illik məktəbində müəllim işləyirəm." 1951-ci ildə ikiillik Müəllimlər Institutunu bitirən Ibrahim Salayev təyinatla Naxçıvan rayonunun Əznəburt (indi Çalxanqala) kənd məktəbinə Azərbaycan dili və ədəbiyyatı müəllimi göndərilib. 3 il orada işləyib. 1954-cü ildə Zeynəddin kəndinə yaxın olan Leninabad (indi Kərimbəyli) kənd orta məktəbinə dəyişdirilib. On il ərzində Azərbaycan dili və ədəbiyyatını tədris edən Ibrahim Salayevin adı həmişə qabaqcıl müəllimlərin sırasında hörmətlə çəkilib. Həmin dövrdə o, eyni zamanda, bir müddət Sıxmahmud kənd orta məktəbində də fəaliyyət göstərib.

Öz biliyi, savadı, pedaqoji məharəti, təşkilatçılığı ilə həm müəllimlər, həm də şagirdlər arasında yüksək nüfuz sahibi kimi diqqətdə olub. 1964-cü ildə Zeynəddin kənd 8 illik məktəbinin direkoru Əsgər Əliyevi Leninabad kənd orta məktəbinə, İbrahim Salayevi isə Zeynəddin məktəbinə direktor təyin ediblər.

İbrahim Salayev 16 sentyabr 1966-cı ilədək direktor vəzifəsində çalışıb, sonra həm Zeynəddin, həm də Yarmıca kənd 8 illik məktəblərində müəllim işləyib. 1968-ci ildə o, Azərbaycan Dövlət Pedaqoji Institutunun Naxçıvan filialına işə dəvət olunub. "Müasir Azərbaycan dili" fənnini tədris edib. Müəllim, baş müəllim, hazırlıq şöbəsinin dekanı vəzifələrində çalışıb və öz işinin öhdəsindən layiqincə gəlib. Baş müəllim Ibrahim Salayev Azərbaycan Dövlət Pedaqoji Institutunun dissertantı olub, "Şagirdlərin təlim və tərbiyəsi ilə qrammatika tədrisinin rol və əhəmiyyəti" mövzusunda professor A.Abdullayevin rəhbərliyi ilə namizədlik dissertasiyası üzərində işləyib. "Əli Vəliyevin frazeologiyası" adlı irihəcmli məqaləsinin 1975-ci il makina yazısı şəxsi arxivində kiçik oğlu Azər tərəfindən qorunub saxlanılır.

Özünün qeydlərini, saxladığı bəzi qəzetləri səhifələyərək qeyd etmək istəyirəm ki, Ibrahim müəllim dövri mətbuatda bir-birindən maraqlı, məzmunlu, tədqiqat xarakterli məqalələrlə müntəzəm çıxış edib. "Şərq qapısı" qəzetində Rəsul Rzanın anadan olmasının 50 illiyi ilə əlaqədar "Istedadlı sənətkar" (7 iyun 1960-cı il), Seyid Əzim Şirvaninin anadan olmasının 125 illiyi münasibətilə "Görkəmli satirik şair" (10 iyul 1960-cı il), Əbdürrəhim bəy Haqverdiyevin həyat və yaradıcılığından bəhs edən "Böyük sənətkar" (20 dekabr 1960-cı il), Mikayıl Müşfiqin anadan olmasının 60 illiyi münasibətilə "Zəhmətin tərənnümü" (5 iyun 1968-ci il), "Ədəbiyyatımızda gənclik surəti" (4 dekabr 1968-ci il), akademik Məmmədağa Şirəliyevin anadan olmasının 60 illiyi münasibətilə "Böyük alim və tədqiqatçı"(4 dekabr 1969-cu il), "V-VIII siniflərdə yazı işləri" (25 noyabr 1970-ci il), "Azərbaycan dili dərsliyi" (26 sentyabr 1974-cü il), institutun hazırlıq şöbəsində görülən işlərdən bəhs edən "Böyük qayğı" (17

sentyabr 1975-ci il), "Azərbaycan müəllimi" qəzetinin 25 mart 1965-ci il tarixli nömrəsində "Səməd Vurğun şeirlərinin bədii xüsusiyyətlərini necə öyrədirəm" məqalələri fikirlərimizi sübuta yetirir. Ibrahim müəllim istedadlı tələbələri, yetirmələri ilə həmişə fəxr edir, qürur duyurdu. Bu gün onlar da sevimli müəllimlərini yada salır, xoş xatirələr söyləyirlər.

**Isa Həbibbəyli, AMEA-nın vitse-prezidenti, akademik:** "Azərbaycan Dövlət Pedaqoji Institutunun Naxçıvan filialının yaranması və fəaliyyəti Azərbaycan ali təhsilinin tarixində əhəmiyyətli bir hadisədir. Möhkəm maarifçi ənənələri və görkəmli yetirmələri ilə Naxçıvan filialını məşhur Qori Seminariyası ilə müqayisə etmək olar. Bu təhsil ocağı Bakıda fəaliyyət göstərən Pedaqoji Institutun filialı olmaqdan çox Naxçıvan Ali Seminariyası təəssüratı yarada bilirdi. Naxçıvan filialının ilk direktorları tarix elimləri namizədi, dosent Əli Əliyev və coğrafiya elmləri namizədi, dosent Səfərəli Babayev (sonralar AMEA-nın müxbir üzvü seçilmişdir) bu ali təhsil müəssisəsinin ciddi və böyük maarifçi bünövrəsini formalaşdırmışdılar. Naxçıvan filialının ilk direktor müavini, o zaman filologiya elmləri namizədi, dosent olan Yavuz Axundov (indi elmlər doktoru, professordur), çılğın, açıq ürəkli və səviyyəli ədəbiyyat müəllimi, filologiya elmləri namizədi, dosent Izzət Maqsudov, analitik siyasi təhlil qabiliyyətinə malik olan tarix elmləri namizədi, dosent Ibrahim Hüseynov, fars dili müəllimimiz, tanınmış yazıçı-jurnalist Möhsün Möhsünov və başqaları Naxçıvan filialının elmi-maarifçi mühitinin formalaşmasında və inkişafında mühüm rol oynamışlar. Hələ o illərin tələbə gəncliyi, qədim elm və ictimai fikir beşiyi olan Naxçıvanın ilk ali məktəb tələbələri, institut uşaqları! Çoxusunun içində o vaxt hiss etdiyim vulkan hələ indi də yanardağ kimi közərməkdə davam edir. Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Qədir Qədirzadə, tarix elmləri doktoru, professor Fəxrəddin Səfərli, filologiya elmləri doktoru, professor Akif Iman, pedaqoji elmlər doktoru, professor Zərifə Qasımova, Azərbaycan Yazıçılar Birliyinin üzvü, satirik yazıçı Tağı

Fərəcov, fizika-riyaziyyat elmləri namizədləri Miryasin Eminov, Rövşən Həsənov… nə qədər əsl müəllimlər Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanda elm və maarif məşəlini müqəddəslik rəmzi kimi yaşadır, daha da işıqlandırırlar…

Azərbaycan Dövlət Pedaqoji Institutunun Naxçıvan filialının Azərbaycan dili müəllimlərinin əksəriyyəti Bakıdan dəvət olunan müəllimlər idilər. Naxçıvan filialında rəsmi şəkildə ştatda olan ilk Azərbaycan dili müəllimi Ibrahim Salayev idi. Ibrahim müəllimi səciyyələndirən bir çox keyfiyyətlər var idi. **1.** Ibrahim Salayev yaxşı bir praktik orta məktəb müəllimi idi. O, Naxçıvan filialında keçdiyi Azərbaycan dili dərslərində də gələcək müəllimlərə çox lazım olacaq cümlə təhlili, ifadəli oxu, qrammatik təriflərin əzbərlədilməsi, bədii ədəbiyyat nümunələrinin seçilməsi kimi təcrübi xarakterli əsələlərə üstünlük verirdi. Bakıdan Naxçıvan filialına dəvət olunan Azərbaycan dili müəllimləri, tanınmış dilçi alimlər - Yusif Seyidov, Fərhad Zeynalov, Cəfər Cəfərov, Quşdan Bağırov, Əlisa Şükürov və başqaları dilçiliyin nəzəri məsələlərinə dair tələbələrdə mükəmməl elmi dünyagörüş aşılayırdılar. Ibrahim Salayevin təcrübi xarakterli dərsləri tələbələrdə formalaşan ümumi nəzəri baxışları misallarla, əməli vərdişlərlə tamamlayır və daha da möhkəmləndirirdi. **2.** Ibrahim Salayev xarakteri etibarilə də sadə insan idi. Geyimində də, danışığında da, rəftarında da sadəlik çox qabarıq görünürdü. Babək rayonunun Zeynəddin kəndində yaşayan, hər gün şəhərə gəlib kəndə qayıdan Ibrahim müəllimə heç şəhərin tozu da qonmamışdı. Ibrahim Salayev əsl kənd müəllimi, daha çox isə ali məktəb mühitində kəndçi müəllim kimi bənzərsiz idi. Zeynəddin pəhləvanları kimi uca boyu-qaməti ilə xasiyyətinin alt qatındakı kobudluqla ifadə olunan qürur onun kəndçi obrazını tamamlayırdı. **3.** Sadə, təbəssümlə nəzərə çarpan gülüşü olan Ibrahim Salayevdəki yumor hissini də görməmək mümkün deyildi. Azərbacyan Dövlət Pedaqoji Institutunun Naxçıvan filialında Əli Əliyevdən, Səfərəli Babayevdən, Yavuz Axundovdan, Izzət Maqsudovdan, Ibrahim Hüseynovdan, Firuz Rəhimovdan, Ibrahim Salayevdən

dərs alanlar az sonra müstəqil ali məktəbə çevrilən doğma ali məktəbin inkişafında ürəklə xidmət edərək yeni nəsillərin müəllimlərinə çevrildilər".

**Bakı Şəhəri üzrə Təhsil İdarəsi Metodik Mərkəzin Suraxanı-Xətai bölməsinin baş metodisti, şair Məmməd Tahir:** "Hərdən institut illərini xatırlayıram. Mənə dərs deyən müəllimlərdən bəziləri yaddaşımda yenidən canlanır, onlarla bağlı bütün yaşantılar məndə xoş bir ovqat yaradır. Həmin simalardan biri mərhum İbrahim Salayevdir. 1973-cü ilin sentyabr ayı idi. Birinci kurs tələbəsi kimi auditoriyada oturub növbəti mühazirəyə hansı müəllimin gələcəyini gözləyirdik. Nəhayət, o an çatdı. İçəriyə tünd qara rəngli kostyum geyinmiş, təxminən əlli, əlli beş yaşlarında, dolubədənli, yaraşıqlı bir kişi daxil oldu. Bizimlə tanışlıqdan sonra mühazirəyə başladı. Arada tələbələrin diqqətini cəmləşdirmək üçün maraqlı söhbətləri də araya gətirirdi. Belə günlərdən birində dedi:

- Bizim institutun müəllimlərindən biri hərbi xidmətdədir. Çox gəncdir. Bu auditoriyalarda mən ona dərs demişəm. Sevimli tələblərimdən biri olub. Inanıram ki, gələcəkdə çox istedadlı bir filoloq-alim olacaq. Çox diqqətlidir. Biz onunla yazışırıq. Bu yaxınlarda ona yenə məktub yazmışdım. Bir neçə gündən sonra cavab aldım. Zərfi açanda içindən ona yazdığım məktub çıxdı. Çox təəcübləndim. Əvvəl düşündüm ki, yəqin çaşaraq səhvən öz məktubunun yerinə təkrar mənim məktubumu zərfə qoyub. Məktubu açıb baxanda gördüm ki, qırmızı karandaşla bəzi sözlərin üzərində düzəlişlər edilib. Başa düşdüm ki, diqqətsizlikdən bəzi orfoqrafik və durğu işarələrində səhvə yol vermişəm. O da bu səhvlərimdə düzəliş edib, təkrar üstümə göndərib. Bax, bu özü göstərir ki, bu adam dilə, dilçiliyə qarşı nə qədər diqqətlidir.

İbrahim Salayev bir qədər fasilə verdikdən sonra onun adını açıqladı: Isa Həbibbəyli. Illər keçdi. Zaman Ibrahim Salayevin nə qədər uzaqgörən bir insan olduğunu sübut etdi. Akademik Isa Həbbibəyli onun zənnini yanıltmadı. Həmin ilin may ayının axırları idi. Ibrahim Salayevdən dil üzrə zaçotumuz var

idi. Ondan çox çəkinirdik. Xüsusən mən. Oxuya-oxuya Gecə milisində işləyirdim. Işləyirdim deyəndə, yəni bəzi obyektlərdə gecələr qarovul dururdum. Yuxusuz olduğum üçün bəzən dərsdən yayınıb gedib dincəlirdim. Bir neçə kərə də Ibrahim müəllimin dərsindən yayınmışdım. Bunu saymamazlıq kimi başa düşmüşdü Ibrahim müəllim. Odur ki, mənə qarşı çox qəzəbli idi.

Bizim kursda yetmiş beş tələbə var idi. Hamımız auditoriyada oturub həyəcanla zaçotun başlanacağı anı gözləyirdik. Nəhayət, Ibrahim müəllim gəldi. Bir neçə tələbə qeyri-məqbul qiymət alıb auditoriyanı tərk etdi. Tələbələrdən biri lövhəyə tərkibində üçüncü növ təyini söz birləşməsi olan bir cümlə yazdı. Sintaksis təhlil etmək istədi. Tapşırıq belə idi. Lakin təhlil edə bilmədi. Ibrahim Salayev bu zaman üzünü zala tutdu:

- Hansı tələbə gəlib bu cümləni sintaksis təhlil etsə, ona mexaniki zaçot yazacağam.

Əlimə inanılmaz bir fürsət düşmüşdü. Mən bu andan yararlanmalı idim. Ibrahim müəllim xeyli gözlədi. Heç kəsdən səs çıxmadı. Elə bu vaxt mən ayağa durdum: Mən təhlil edərəm dedim və lövhəyə çıxdım. Çox asanlıqla tapşırığı yerinə yetirdim. Ibrahim müəllim auditoriya qarşısında söz verdiyi üçün sözündən qaça bilməyib mənə mexaniki zaçot yazdı. Mənim dərs buraxmağımın əsil səbəbini biləndən sonra biz dostlaşdıq. Bu da onu göstərir ki, o, həm də sözübütöv adam idi.

Indi illər ötəndən sonra Ibrahim Salayevi belə xatırlayıram. Bu şəxsin adı bu gün də mənim yaddaşımda çox önəmli yer tutur".

**Füzuli Həsənov, Bakı şəhəri 133 nömrəli tam orta məktəbin direktoru, Azərbaycan Respbublikasının "Qabaqcıl təhsil işçisi"** – Naxçıvan respublikamızın sayılıb-seçilən adamları, qonaqpərvər insanları, füsunkar təbiəti ilə seçilən bir bölgədir. Buraların təbiəti bir qədər sərt olsa da insanları çox alicənab, sözübütöv, qayğıkeş, insanpərvər, zəhmətkeş və sadə insanlardır. Tanrı bu torpaqlardan heç nə əsirgəmədiyi kimi, insanları da səxavətli, namuslu, əməksevər etmişdir.

Ibrahim Salayev xeyirxah insan, gözəl müəllim idi. Mən Ibrahim müəllimi Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji Universitetinin tarix-ədəbiyyat fakültəsinə qəbul olunandan sonra tanımışam. Zeynəddin kənddən olan Ibrahim müəllimin baxışlarında bir ciddilik olsa da çöhrəsindən gülüş əksik olmazdı. Böyüyün, kiçiyin yerini bilən bu insan sözünün ağası, əsl müəllim idi. Müəllimlik sanki onun boy-buxununa biçilmişdir. O müəllim olmağı ilə daim fəxr edir və bu peşədən daima qürur duyurdu.

Sadə geyinər, həmişə qalstuk taxar, üst-başı səliqəli, üzü həmişə təmiz qırxılmış olardı. Danışarkən aramla, jestlərlə danışardı, danışdıqca dinləyicisində xoş duyğular yaradardı. Öz ixtisasını mükəmməl bilməklə yanaşı, hərtərəfli biliyə malik bir insan idi.

Tələbəlik illərində semestr imtahanlarında mən görmədim ki, Ibrahim müəllim kimisə incitsin və ya qəlbinə dəysin. Düzdür çox tələbkeş müəllim idi, lakin hamının dadına çatmağı da bacarırdı. Xeyirdən, şərdən heç vaxt qalmazdı. Tələbəlik dövründə kurs yoldaşlarımızdan biri rəhmətə getmişdi. Ibrahim müəllim dəfələrlə bizimlə birlikdə yas məclisinə getdi. Xatirimdən heç vaxt çıxmaz qrup yoldaşlarımızdan birinin toyu idi. Çox kasıb olan bu oğlanın toyunda Ibrahim müəllim 2 gün bizimlə bərabər iştirak etdi və bir ağsaqqal kimi toya axıra qədər rəhbərlik etdi. Bu cür misalları çox saymaq olar. Çünki Ibrahim müəllim əsl ziyalı, el ağsaqqalı idi. Mənə elə gəlir ki, Ibrahim müəllimin ömür yolu böyük bir səadətin möhtəşəm sarayıdır. O, möhtəşəm sarayı özünün alın təri və zəkası ilə, mehribanlığı, təcrübəsi ilə dostluğa sadiqliyi və sözübütövlüyü ilə tikib ucaldıb.

Mən özümü xoşbəxt hesab edirəm və fəxr edirəm ki, tələbəlik dövründə belə bir müəllimdən - əsl şəxsiyyətdən dərs almışam. Onu həmişə xeyirxah bir insan kimi görmüşəm. Ümumiyyətlə, Ibrahim müəllim yorulmaq bilmədən xalq üçün, Vətən üçün faydalı iş görmüş, gənc müəllimlərin yetişməsində əlindən gələni əsirgəməmişdir.

O, auditoriyaya girəndə, dərsə başlayanda öz işini elə maraqlı qurardı ki, 90 dəqiqənin nə vaxt qurtardığını bilməzdik. Onun tapşırıqlarını hər bir tələbə canla-başla yerinə yetirərdi. O sanki bizə qol-qanad verər, bizi daha yaxşı çalışmağa ruhlandırardı. Bizimlə dərsdən sonra əsl dost, mehriban ata, qayğıkeş el ağsaqqalı kimi davranardı. Hərdən bizi başına toplayar, bizə çay alar, yemək təklif edərdi.

Ibrahim müəllimin fəaliyyəti kitaba sığmayan böyük bir tarixdir. Bu kitabı vərəqlədikcə bu insanın xeyirxahlığının, əməksevərliyinin, insanpərvərliyinin bir daha şahidi olursan. Düzlük, mərdlik, ədalət, təmizlik və xeyirxahlıq sanki Ibrahim müəllimin həyat amalı idi. Özünün mənəvi yetkinliyi, səriştəliliyi, saf əqidəsi ilə gənc nəslə örnək olan Ibrahim müəllim bizim qəlbimizdə daim yaşayır.

Mənim bir müəllim, rəhbər kimi formalaşmağımda bu gözəl insanın böyük xidmətləri olmuşdur. Bütün bunlara görə mən ona minnətdaram. Bir müəllim kimi bu nurlu insanı heç vaxt unutmayacağıq".

Şəkər diabeti xəstəliyindən səhhətinin pozulması nəticəsində 1978-ci ildə institutdan aralanan Ibarhim müəllim pensiyaya çıxıb və Zeynəddin kənd orta məktəbində müəllimlik fəaliyyətini davam etdirib. 1975-ci ilin avqust ayından Naxçıvan teleradiosunun əsasən təhsil sahəsini əhatə edən redaksiyasında redaktor işləyirdim. Işimlə əlaqədar institutda, kənd məktəbində olurdum. O vaxt hələ orta məktəbdə oxuyan, məndən 15 yaş kiçik olmasına baxmayaraq Ibrahim müəllimin oğlu Zahidlə dostlaşmışdım. Bu gün də bizim dostluğumuz davam edir.

Həmin illərdə imkan tapdıqca Ibrahim müəllimlə evlərində görüşər, söhbətləşər, bir qismət çörək kəsər, pürrəngi çay içə-içə nərd atardıq. Ibrahim müəllim dünyadan tez köçdü. 23 aprel 1986-cı ildə onu son mənzilə, haqq dünyasına yola saldıq. Ibrahim Salayev bu gün bizim qəlbimizdə yaşayır və biz onu minnətdarlıqla xatırlayırıq.

***Dekabr 2013-cü il***

## YADDAŞLARDA YAŞAYIR



Sadə, təvazökar, qayğıkeş, elcanlı, nümunəvi xeyir-şər adamı, sıravi kənd müəllimi Quliyev Fərəməz Abbas oğlu bu işıqlı dünyada 75 il ömür sürüb. Uşaqlıq və yeniyetməlik, ilk gənclik illəri çox çətin keçib. **1929-cu ildə Naxçıvan rayonunun (23 oktyabr 1979-cu ildən Babək) Zeynəddin kəndində anadan olub.** 1936-1943-cü illərdə kənddəki 7 illik məktəbdə təhsil alıb. 1943-cü ildən Leninabad (indi Kərimbəyli) kənd orta məktəbində təhsilini davam etdirib. Müharibə və sonrakı illərdə orta məktəbi vaxtında bitirmək heç də hamıya nəsib olmayıb. Şagirdlərin sayı az olduğundan bəzən siniflər bağlanıb, uşaqlar təkrar eyni sinifdə oxumalı olublar. İqtisadi çətinliklər, ailə vəziyyətinin ağırlığı, uzaq məsafədə yerləşən məktəblərə gedib-gəlmək və ya orada yaşamaq və digər səbəblərdən uşaqlar hətta təhsillərini davam etdirə bilməyiblər. Fərəməz də bir çox yaşıdları kimi orta təhsilini 1949-cu ildə tamamlayıb. Attestatında da göstərilib ki, o, 1943-cü ildə Leninabad kənd orta məktəbinə daxil olub və 1949-cu ildə oranı bitirib.

Fərəməz Quliyev elə həmin ildə də Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Müəllimlər Institutuna qəbul olunub. Dövlət imtahan komissiyasının 1952-ci il 25 iyun tarixli qərarı ilə ona yeddillik məktəbdə təbiyyat-coğrafiya müəllimi ixtisası verilib. Onun ikillik institutu 3 ilə bitirməsinə bir sənədlə aydınlıq gətirək: "Naxçıvan Dövlət Müəllimlər Institutu üzrə 3.II.1951-ci il 1-ci kurs Təbiyyat-coğrafiya şöbəsinin tələbəsi Quliyev Fərəməz Abbas oğlu xəstəliyi nəticəsində 1950-ci il

sentyabr ayının 1-nə kimi məzuniyyətə buraxılmışdır. Bu müddətdə Qızıl ordu sıralarına alınmış və sentyabrın 15-də Qızıl ordu sıralarından qayıtmışdır. Ona görə II semestrə əhya edilsin. Direktor: Əbdiyev. Katib: Hüseynov".

Fərəməz Quliyev 1952-ci il avqustun 20-də Naxçıvan Rayon Xalq Maarif Şöbəsinin müdiri Paşa Quliyevin əmri ilə Qahab kənd yeddillik məktəbinə coğrafiya müəllimi təyin edilib. O, iki il orada işləyib. 18 avqust 1954-cü ildə Sirab kənd 7 illik məktəbinə sinif müəllimi təyin edilib, oktyabrın 9-da ehtiyac olduğu nəzərə alınaraq Xal-Xal 7 illik məktəbinə təbiyyat-coğrafiya müəllimi dəyişdirilib. Oktyabrın 30-da azad edilərək Zeynəddin kənd 7 illik məktəbinə sinif müəllimi təyin olunub.

2004-cüilədək Zeynəddin kənd orta məktəbində (1972-ci ildə orta məktəbə çevrilib) ayrı-ayrı illərdə ibtidai sinif, təbiyyat-coğrafiya, əmək təlimi, bədən tərbiyəsi müəllimi işləyən Fərəməz Quliyev, eyni zamanda, Leninabad kənd orta məktəbində də çalışıb.

1965-ci il sentyabrın 4-də Zeynəddin məktəbindəki bədən tərbiyəsi dərsləri ondan alınıb Leninabad məktəbinin ali təhsilli müəllimi Cəlil Seyidova verilib. Fərəməz Quliyev müəllim, sinif və sahə rəhbəri olmaqla Leninabad orta məktəbində saxlanılıb. Rayon Maarif şöbəsinin 6 sentyabr tarixli ikinci əmri ilə o, Zeynəddin kənd səkkizillik məktəbinə 1-ci sinif müəllimi təyin edilib. 10 yanvar 1973-cü ildə Leninabad məktəbinə ali təhsilli müəllim – Azərbaycan Dövlət Universitetinin məzunu Qarayev Əhməd Məmməd oğlu gəldiyinə görə biologiya müəllimi Fərəməz Quliyev azad edilib və ancaq Zeynəddin məktəbində müəllim kimi fəaliyyət göstərib. 2004-cü ildə yaşına görə öz sevimli işindən ayrılan, vaxtilə mənə də dərs demiş Fərəməz müəllim 2005-ci il sentyabrın 6-da haqq dünyasına qovuşub.

**Bu gün yaxşı bir müəllim kimi xatırlanan Fərəməz Quliyev həm də xeyirxah əməlləri ilə yaddaşlarda yaşayır.** Kənd əhlinin, xüsusilə müəllim həmkarlarının xeyir-şər işlərində yayın istisində, qışın soyuğunda həmişə ocaq başında dayanan

bu xeyirxah insanı mən də böyük minnətdarlıq hissilə xatırlayır, Uca Yaradandan ona rəhmət diləyirəm. 1978-ci ilin fevral günlərində kənd məktəbinin Azərbaycan dili və ədəbiyyat müəllimi, 60 yaşında dünyasını dəyişmiş (14 fevral) atam Hümmətov Əli Muradəli oğlu üçün keçirdiyimiz yas mərasimlərində çəkdiyi böyük zəhmətləri ailəmiz heç zaman unuda bilməz.

***Oktyabr 2013-cü il***

## KÖNÜLLƏRDƏ YAŞAYIRLAR



**Abdullayev Hüseyn Məşəhəsən oğlu və Abbasova Ceyran Xəlil qızı 1950-ci illərin ortalarından başlayaraq Zeynəddin kənd 7 illik (sonralar orta) məktəbində müəllim işləyiblər.** Hüseyn müəllim təbiət, Ceyran müəllim isə riyaziyyat-fizika fənlərini tədris edib. Hüseyn Abdullayev (kənddə Buluş adı ilə tanınır, elə məktəbdə də ona "Buluş müəllim" deyə müraciət edirdilər) gənclik çağlarında bir müddət daxili işlər orqanında polis (keçmişdə milis) işləyib, sonradan pedaqoji işə keçib.

Bu müəllim ailəsi haqqında məqaləni övladları Mehmanın təqdim etdiyi şəxsiyyət vəsiqəsi, hərbi bilet, diplom, evlənmə haqqında şəhadətnamə və digər sənədlər, kəndin ziyalıları barədə oçerklər hazırlayarkən əldə etdiyim faktlar əsasında yazıram.

**Hüseyn Abdullayev 1930-cu ildə Zeynəddin kəndində doğulub.** 1953-cü ildə ikiillik Naxçıvan Müəllimlər Institutunu bitirib. 1961-1966-cı illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun qiyabi şöbəsində Təbiət ixtisası üzrə ali təhsil alıb, 31 mart 1966-cı ildə Dövlət Imtahan Komissiyasının qərarı ilə ona orta məktəbin Təbiət müəllimi ixtisası verilib. Bu barədə onun adına diplom 14 aprel 1966-cı ildə yazılıb. Evlənmə haqqında qeydiyyat 5 noyabr 1954-cü ildə Naxçıvan rayonunun Təzəkənd kənd sovetliyində aparılıb, qeyd olunub ki, Abdullayev Hüseyn M.Həsən oğlu-1930, Abbasova Ceyran Xəlil qızı -1934-cü ildə (əslində 1935 Ə.H.) anadan olub.

Naxçıvan MSSR Hərbi Komissarlığı tərəfindən 6 iyun 1964-cü ildə Hüseyn Abdullayevə verilən hərbi biletdə də qeyd

olunub ki, o, 1953-cü ildə ikiillik Naxçıvan Müəllimlər İnstitutunu bitirib, ADPI-nin dördüncü kursunda oxuyur. Zeynəddin kənd 8 illik məktəbin müəllimidir, hərbi xidmətdə olmayıb, 1955-ci ildə iki aylıq hərbi kurs keçib – kəşfiyyatçıdır.

Hüseyn müəllim kənd məktəbində 40 ilə yaxın çalışıb. Təbiəti, canlı aləmi uşaqlara sevdirib. Təbiət fənlərini tədris edib, dərnək məşğələlərini yüksək səviyyədə aparıb. Yetirmələri ilə fəxr edib, onlarla birlikdə də işləyib.

Hüseyn Abdullayev 10 aprel 1994-cü ildə Zeynəddin kəndində evdə vəfat edib.



**Ceyran Abbasova 20 noyabr 1935-ci ildə Naxçıvan rayonunun Təzəkənd kəndində doğulub.** 2 sentyabr 1952-ci ildə verilən doğum haqqında şəhadətnamədə göstərilib ki, 1948-ci il fevralın 25-də doğum haqqında akt qeydiyyatında yaş bərpa olunub. Atası – Abbasov Xəlil Abbas oğlu. Anası – Abbasova Nazlı Vəliqulu qızı. Ceyran Abbasovaya pasport 1952-ci il noyabrın 10-da verilib. 14 avqust 2003-cü ildə ona verilən şəxsiyyət vəsiqəsində də 20 noyabr 1935-ci ildə Təzəkənd kəndində doğulduğu qeyd edilib.

Ceyran Abbasova 1952-ci ildə Naxçıvan Müəllimlər Institutuna daxil olub, 1954-cü ildə orada Fizika-riyaziyyat ixtisası üzrə tam kurs bitirib. Dövlət Imtahan Komissiyasının 1954-cü il 3 iyul tarixli qərarı ilə ona yeddiillik məktəbdə Fizika-riyaziyyat müəllimi ixtisası verilib.

1966-1967 və 1967-1968-ci tədris illərində Ceyran Abbasova Zeynəddin kənd 8 illik məktəbin direktoru vəzifəsində çalışıb. O, bu vəzifədə Ibrahim Salayevi əvəz edib. Ceyran

müəllim 14 mart 1968-ci ildə Naxçıvan Rayon Xalq Maarif Şöbəsinin əmri ilə tutduğu vəzifədən azad edilərək yenidən həmin məktəbdə müəllim saxlanılıb. Məktəbin tədris hissə müdiri Əli Novruzov müvəqqəti direktor, məktəbin dil-ədəbiyyat müəllimi Əli Hümmətov isə dərs hissə müdiri təyin ediliblər.

Ceyran müəllim məktəbdə öz fənnini yaxşı bilən və tədris edən müəllimlərdən biri idi. **Bugünkü riyazi biliyimə görə ibtidai sinif müəllimlərim - atam Əli Hümmətova, Hüseyn Hüseynova və daha çox 1958-1961-ci illərdə 7 illik məktəbdə oxuduğum müddətdə - 5-6-7-ci siniflərdə mənə dərs demiş Ceyran Abbasovaya minnətdaram.** Sinif yoldaşlarımın çoxu riyaziyyatı öyrənməyə həvəs göstərmirdi. Ceyran müəllim isə deyirdi ki, uşaqlar riyaziyyatı öyrənin, unutmayın ki, riyaziyyat elmlərin şahıdır, açarıdır. Məsələ-misalları həll etməyə lövhəyə ya məni, ya da Mirzə Əsgərovu çağırardı. Əli yaman "ağır" idi. Dərsə hazır olmayanda və ya lövhədə məsələ-misalı düzgün həll etməyəndə deyərdi "əliyi sal yanıya" və təbaşirli əli ilə bir-iki sillə, vəssalam.

Hüseyn Abdullayev və Ceyran Abbasova 5 övlad dünyaya gətirib, onları böyüdüb, tərbiyə edib, təhsil veriblər. Natəvan (1956) Heyran xanım adına Naxçıvan Tibb Məktəbini, Həsən (1959) Naxçıvan Politexnik Texnikumunu bitirib. Mətanət (1961) və Kəmalə (1964) pedaqoji təhsil alıblar. Mehman (1966) isə Azərbaycan Xalq Təsərrüfatı Institutunun (sonradan Leninqrad Iqtisad Universitetinin filialı, indi Azərbaycan Dövlət Iqtisad Universiteti) məzunudur.

Bu gün Hüseyn Abdullayev və Ceyran Abbasova doğma və yaxınlarının, yetirmələrinin könüllərində yaşayır və unudulmurlar.

***Fevral 2015-ci il***

## YETİRMƏLƏRİ İLƏ FƏXR EDƏR, QÜRUR DUYARDI



Məmmədov Murtuz Məmməd oğlu 63 il yaşayıb. Ömrünün 43 ilini vətən övladlarının təlim-tərbiyəsi yolunda şam kimi əridib. Yetirmələri ilə həmişə fəxr edib, onların hər bir naliyyətinə ürəkdən sevinib. Övladları - Bəxtiyar, Nərgiz, Akif, Səfər və Firəngiz də atalarının yolunun seçib, ali pedaqoji təhsil alıb və bu gün adların ən şərəflisi olan müəllim adını fəxrlə daşıyırlar.

**Murtuz Məmmədov 1932-ci ildə Naxçıvan rayonunun (indiki Babək) Zeynəddin kəndində anadan olub.** Pedaqoji fəaliyyətə 1952-ci ildə rayonun Şıxmahmud kənd orta məktəbində pioner baş dəstə rəhbəri kimi başlayıb. 1953-cü ildə Xal-Xal kənd, 1954-cü ildə isə Zeynəddin kənd yeddiillik məktəblərinə Azərbaycan dili və ədəbiyyatı müəllimi təyin edilib. Daima pedaqoji təhsilini artırmağı düşünən Mürtuz müəllim 1961-ci ildə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji Institutunun qiyabi şöbəsinə, Azərbaycan dili və Ədəbiyyatı fakültəsinə qəbul olunub və 1966-cı ildə oranı müvəffəqiyyətlə bitirib. Instituta daxil olduğu ildə ona böyük etimad göstərilib, kənd 7 illik məktəbinə dərs hissə müdiri vəzifəsinə, 1969-cu ildə isə kənd 8 illik məktəbinə direktor vəzifəsinə irəli çəkilib. 1972-ci ildə bu təhsil ocağı orta məktəbə çevriləndə də Murtuz müəllim yenə də direktor təyin olunub. 1975-ci ilin aprelində onu məktəbin fizika-riyaziyyat müəllimi Yaranmış Hüseynov əvəzləyib, o, Azərbaycan dili və ədəbiyyat müəllimi kimi pedaqoji fəaliyyətini davam etdirib.

O illərdə respublikamızda 8 illik məktəblərin orta məktəbə çevrilməsinə çalışılırdı. Şagird kontigenti buna imkan versə də,

son illərdə kollektivin təşəbbüsü və vəsaiti hesabına əlavə sinif otaqlarının inşa edilməsinə baxmayaraq kənd məktəbinin orta məktəbə çevrilməsi müşkül məsələ idi. Lakin Yaranmış Hüseynov fədakarlığı, qətiyyəti, Təhsil Nazirliyi və digər yuxarı təşkilatlar qarşısında bu barədə dəfələrlə məsələ qaldırması, rəhbər təşkilatlarla yaxşı əlaqələr qurması nəticəsində kənddə müasir tipli yeni məktəb binasının tikilməsinə və 1979-cu ildə istifadəyə verilməsinə nail oldu.

1979-cu ildə Şəmsəddin Əhmədovun təşəbbüsü ilə məktəbin köhnə binasında 145 nömrəli Nehrəm kənd Texniki Peşə Məktəbinin əvvəlcə şöbəsi, sonra filialı yaradılıb və Murtuz müəllim bu peşə ocağına rəhbərlik edib. Şəmsəddin müəllim baş usta vəzifəsini aparıb. 1983-cü ildə Murtuz müəllimin təşəbbüsü ilə filialın əsasında 188 nömrəli Zeynəddin kənd Texniki Peşə məktəbi yaradılıb. Sonradan Murtuz müəllim yenidən kənd orta məktəbinə qayıdıb, ömrünün sonuna kimi şagirdlərə Azərbaycan dili və ədəbiyyat fənnini tədris edib. Onlara dilimizin incəliklərini öyrədib, Nizamini, Füzulini, S.Ə.Şirvanini, Qasım bəy Zakiri, M.F.Axundovu, Əbdürrəhim bəy Haqverdiyevi, Nəcəf bəy Vəzirovu, Cəlil Məmmədquluzadəni, Sabiri, Abdulla Şaiqi və digər yazıçı və şairlərimizi tanıdıb, yetirmələri - Salman Hüseynov, Məhəmməd Nuriyev, Izzət Quliyeva, Saleh Hüseynov, Vəcihə Əsgərova, Yaşar Pənahov, Ibrahim Ibrahimov, Əlfida Nuriyev və başqaları ilə çiyin-çiyinə çalışıb, şagirdlərin vətənpərvərlik ruhda inkişaf etməsində öz bilik və bacarığını, zəngin pedaqoji təcrübəsini əsirgəməyib.

O, tələbkarlığı ilə digər müəllimlərdən fərqlənirdi. Əzbərçiliyi sevməzdi. Şagirdlərindən mövzunu sərbəst danışmağı, şərh etməyi, fikir söyləməyi tələb edərdi. Yaxşı oxuyan şagirdlərin adları dilindən düşməzdi. Onların gələcəyinə böyük ümidlər bəsləyər və daha yaxşı oxumağa ruhlandırar, ali təhsil almağa, müxtəlif ixtisaslara istiqamətləndirərdi. Hərdən də başqa müəllimlər kimi şagirdləri danlayardı. Murtuz müəllim yetirmələri - Texnika elmlər namizədi, Naxçıvan Dövlət Universitetinin do-

senti Vahid Əsgərov, Naxçıvan Muxtar Respublikası Daxili işlər nazirin müavini, general Qaçay Quliyev, Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktyoru, Azərbaycan Respublikasının Əməkdar artisti, Prezident təqaüdçüsü Xəlil Hüseynov, Bakıdakı 34 nömrəli tam orta məktəbin direktoru, tarix elmləri üzrə fəlsəfə doktoru Rəhman Hacıyev, Sankt-Peterburqda yaşayan, uzun illər rəhbər vəzifələrdə işləmiş, hazırda təqaüddə olan Hüseyn Hümmətov və onlarla başqaları ilə həmişə fəxr edərdi, qürur duyardı. 1961-1966-cı illərdə, Bakıda qiyabi təhsil aldığı dövrdə tikintidə işləyən iki dost - Hüseyn və Xəlillə həmişə görüşərdi. Hüseyn foto həvəskarı idi və onun "Zenit" foto-aparatı vardı. 1962-ci ildə çəkilmiş bir fotonu da onları tanıyanların diqqətinə çatdırıram.



Murtuz Məmmədov bu sətirlərin müəllifinə də kənd 7 illik məktəbində oxuyanda dərs deyib. O və atam Əli müəllim məni həmişə sərbəst mövzularda inşa yazmağa həvəsləndiriblər. Elə jurnalist ixtisasını seçməyimin də əsası o zaman qoyulub, yuxarı

siniflərdə isə bu seçimim qətiləşib. Bu gün orta məktəb müəllimlərimi minnətdarlıqla xatırlamağı, onlar haqqında qəzet səhifələrində çıxış etməyi, kitab yazmağı özümə borc bilirəm.

Murtuz müəllim 1995-ci il oktyabr ayının 28-də vəfat edib. Zeynəddin kəndinin sakinləri, məktəbin pedaqoji kollektiv və yetirmələri onu həmin gün son mənzilə yola salıblar.

***Yanvar 2014-cü il***

***Qeyd:*** *Yetirmələri ilə fəxr edən, qürur duyan Murtuz müəllim yeddiillik məktəbdə mənə də dərs deyib, Azərbaycan dili və ədəbiyyatını sevdirib. Onun fotosunu əldə etməkdə xeyli çətinlik çəkirdim. Əvvəlki yazımda (kitabda) verdiyim şəkli kollektivdən ayırmışdıq. Yeni fotonu isə müəllimimin yaxın qohumu, 1961-ci il təvəllüdlü Məmmədov Teyyub Əyyub oğlu təqdim edib. Ona minnətdarlığımı bildirirəm.*



# FƏDAKAR TƏHSİL İŞÇİSİ



**Hüseynov Yaranmış Məmməd (Kərbəlayi Məhəmməd) oğlu 1934-cü ildə Naxçıvan rayonunun Zeynəddin kəndində dünyaya gəlib.** 1937-ci ildə atası Kərbəlayi Məhəmməd əmlakı müsadirə olunmaqla sürgünə göndərilib. 5 azyaşlı uşağı böyütmək Səkinə xalanın öhdəsinə düşüb. 9-cu sinifdə oxuyan böyük qardaşı Məhərrəm müharibəyə gedib və 1945-ci il mayın əvvəllərində Berlin şəhəri uğrundakı döyüşdə qəhrəmancasına həlak olub. Qardaşı, 1929-cu il təvəllüdlü Rəhim isə təhsilini davam etdirib. Bacıları Ağca və Növrəstə anaları ilə birlikdə kolxozda işləyiblər. 1941-ci ildə kəndin ilk qadın müəllimi Sara Vəliyeva onun əlindən tutub kənddəki 7 illik məktəbə aparıb.

Yaranmış Hüseynov 7 illik məktəbi tamamladıqdan sonra Leninabad (indi Kərimbəyli) kənd orta məktəbində təhsilini davam etdirib. 1952-ci ildə orta məktəbi bitirib, yaxşı yaddaşa və riyaziyyatı yaxşı qavradığına görə Naxçıvan Dövlət Müəllimlər Institutunda (ikiillik) təhsilini davam etdirməyi qərara alıb. Həmin ildə institutun Fizika-riyaziyyat şöbəsinə daxil olub və 1954-cü ildə oranı müvəffəqiyyətlə bitirib, təyinatla Lerik rayonunun Biləvər kənd 7 illik məktəbinə müəllim təyin edilib. Doğma şəhərdən, kənddən uzaqda müəllim sevinci, müəllim ömrü yaşamağa başlayıb. Bir il ərzində kollektivdə özünü savadlı, bilikli, qayda-qanunu sevən bir müəllim kimi tanıdıb. 1955-ci il noyabr ayının 1-də onu hərbi xidmətə aparıblar. O vaxt gənclərin həqiqi hərbi xidmət müddəti 3 il olduğundan Yaranmış Hüseynov da 1958-ci il noyabr ayının əvvəllərinədək ordu sıralarında vətənə xidmət edib.

Yaranmış Hüseynov 19 noyabr 1958-ci ildə Naxçıvan Rayon Xalq Maarif Şöbəsinin 45 nömrəli əmri ilə rayonun Leninabad kənd orta məktəbinə müəllim təyin olunub. Pedaqoji işdən ayrılmadan 1960-1967-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Institutun Riyaziyyat fakültəsində ali təhsil alıb və orta məktəbdə riyaziyyat müəllimi işləmək hüququnu qazanıb. 17 il Leninabad kənd orta məktəbində rayonun Zeynəddin, Qahab, Kültəpə, Sirab, Yarımca, Qara-qala və digər kəndlərindən gələn şagirdlərə təlim-tərbiyə verib. Vətən üçün layiqli gənclər yetişdirilməsində var qüvvəsini sərf edib. 1961-1965-ci illərdə (VIII-XI siniflərdə) bu sətirlərin müəllifinin də ən sevimli müəllimlərindən biri olub.

***17 aprel 1975-ci il. Naxçıvan Rayon Xalq Maarif şöbəsi onu bir neçə il öncə orta təhsil ocağına çevrilmiş Zeynəddin kənd məktəbinə direktor təyin edib.*** O, bu vəzifədə Murtuz Məmmədovu əvəzləyib. Bu təyinatdan əvvəl o, Naxçıvan Müəllimləri Təkmilləşdirmə Institutunda kabinet müdiri işləyən qardaşı Rəhim müəllimlə məsləhətləşib. Rəhim müəllim əvvəlcə razı olmayıb. Yaranmış müəllim deyəndə ki, rəhmətlik dayımız Zeynalabdin müəllim 1955-1956-cı illərdə kolxoz sədri işləyəndə kənddə kolxoz idarə heyətinə yeni bina, mədəniyyət evi, klub, müasir tövlə, silos quyusu tikdirib və digər abadlıq, xeyirxah işlər görüb, məktəb binası tikdirmək istəsə də qismət olmayıb, o, yenidən məktəbə müəllim qayıdıb, istəyi kənddə yeni müasir tipli məktəb tikdirməkdir, sonra yenə sıravi müəllim işləyə bilər, onda razılaşıb və deyib ki, mən sənə dəstək olacağam, amma sənin üçün çox çətin olacaq, məktəb tikdirmək məsələsi də çox çətin işdir.

Rəhim müəllimin sözləri həqiqətə çevrildi. Yaranmış müəllimin döymədiyi qapı, idarə, təşkilat qalmadı. Rayon Maarif şöbəsi, Respublika Xalq Maarif Nazirliyi qarşısında məktəb tikintisi ilə bağlı dəfələrlə məsələ qaldırdı, bunun vacibliyini rəhbər işçilərin diqqətinə çatdırdı. Nəhayət, istəyinə nail oldu. 1977-ci ilin son aylarında ciddi hazırlıq işləri aparıldı

və 1978-ci ildə 624 yerlik müasir tipli məktəb binasının tikintisinə başlanıldı. Həmin ilin sonunda yarımçıq məktəb tikintisinin başa çatması sənədləşdirildi. Elə buna görə də 2008-ci ildə Naxçıvanda "Qızıl Dağ" mətbəəsində buraxılmış "Babək rayonu-30" tarixi-statistik məcmuədə məktəbin istifadəyə verilmə tarixi 1978-ci il göstərilib. Lakin inşaat işləri Yaranmış müəllimin ciddi nəzarəti altında davam etdirildi. 1979-cu ildə - yeni dərs ilinə lazımi avadanlıqlarla təchiz olunmuş məktəb binası, fənn kabinetləri, laboratoriyalar, 3 hektar abadlaşdırılmış həyətyanı sahə və sairə müəllim və şagirdlərin istifadəsinə verildi.



1979-cu ilin iyul ayında keçirilmiş və iyulun 19-da «Şərq qapısı» qəzetində dərc edilmiş Babək rayon sovetinin sessiyasındakı çıxışında maarif şöbəsinin müdiri Nəcəfqulu Nəcəfquliyev deyib: "… Buzqov, Zeynəddin və Yuxarı Uzunoba kəndlərində isə yeni məktəb binaları inşa edilir. Həmin binalar sentyabrın 1-dək şagirdlərin istifadəsinə veriləcəkdir". Eyni zamanda, Babək Rayon Xalq Maarif Şöbəsinin müdiri N.Nəcəfquliyevin "Şərq qapısı" qəzetinin 25 avqust 1979-cu il tarixli nömrəsində dərc

edilmiş "Mütəşəkkil hazılıqla" məqaləsində də oxuyuruq: "Rayonun Zeynəddin kəndində 624 yerlik və Aşağı Buzqov kəndində 320 yerlik məktəb binası sentyabrın 1-dən istifadəyə veriləcəkdir".

Məktəb binasının təntənəli açılış mərasimi Yaranmış müəllimin, pedaqoji kollektivin, valideyn və şagirdlərin böyük sevincinə səbəb oldu.

Yaranmış Hüseynov 23 aprel 1981-ci ildə öz ərizəsi əsasında direktorluqdan azad edilib, məktəbdə psixoloq-müəllim vəzifəsinə keçirilib, ixtisas fənn müəllimi kimi fəaliyyət göstərib. 2004-cü ildə pensiyaya çıxıb.

36 yaşında həmkəndlisi Laləzər Əsgərova ilə ailə quran Yaranmış müəllimin 4 övladı və nəvələri var. Böyük oğlu Elşən müharibə veteranıdır, işləyir, kiçik oğlu Şulan dövlət qulluqçusudur. Qızları Səkinə və Ellada evdardır. Yaranmış müəllim deyir ki, əsgərlikdə sualtı təlimlərdə çox iştirak etdiyinə görə bronxit xəstəliyinə tutulmuşdu. Vaxtilə dərs dediyi həkim şagirdləri – tibb elmləri doktoru, professor Nadir Əliyev, əməkdar həkim Ibrahim Ağayev və Məmməd Şahverdiyev müalicədən sonra Qara dəniz sahillərində çox olmağını məsləhət biliblər. Onların tövsiyələri hesabına artıq yaş 80-i ötüb.

Biz də, Yaranmış Hüseynova can sağlığı, nəvə-nəticələri ilə birlikdə firavan yaşamağı arzulayırıq.

***Yanvar 2015-ci il***

## YADDAŞLARDA YAŞAYAN MÜƏLLİM



***1934-cü ildə üzünü görmədiyim babam Muradəli kişi ilə divar qonşusu Hüseyn Novruzovun (kəndə ona «Ispalkom Hüseyn» də deyirdilər) ailəsində bir oğlan uşağı dünyaya gəldi, adını Əli qoydular.*** Yaşıdları kimi onun da uşaqlıq və yeniyetməlik illəri çox ağır vaxtlara düşdü. Atası çox dünyagörmüş, zəhmətkeş kişi idi. Övladını təhsilli görmək istəyirdi. Şirin arzulara işıqlı gələcəyə doğru addımlamaq üçün balaca Əli doğulduğu Naxçıvan rayonunun (indi Babək) Zeynəddin kəndindəki 7 illik məktəbə yollandı. Əli 7 illik təhsilini kənddə, orta təhsilini isə qonşu Leninabad kəndində (indi Kərimbəyli) «əla» və «yaxşı» qiymətlərlə tamamladı. O, Tarix və Ədəbiyyat fənnlərini daha çox sevirdi. Kənd kitabxanasının ən fəal üzvlərindən biri idi. Nəyinki məktəbdə, burada da keçirilən tədbirlərdə həvəslə iştirak edirdi. Qonşusu, Azərbaycan dili və ədəbiyyat müəllimi Əli Hümmətov (mənim atam) onu təhsilini davam etdirməyə, müəllim olmağa istiqamətləndirib. Elə onun özü də tarix müəllimi olmağa meyllənib və 1952-ci ildə Naxçıvan Müəllimlər Institutuna daxil olub. 1954-cü ildə institutu müvəffəqiyyətlə bitirib, Tarix müəllimi ixtisasına yiyələnib.

***Əli Novruzov rayonun Qahab kənd 7 illik məktəbinə müəllim göndərilib.*** Bir neçə həftədən sonra onu əsgərliyə çağırıblar və 4 oktyabr 1954-cü ildə ordu sıralarında hərbi xidmətə yollanıb. Üçillik hərbi xidməti Leninqrad şəhərində və vilayətində (indi Sankt-Peterburq) keçib. Lakin onu hərbi xidmət dövründə işlədiyi elektrostansiyada 4 oktyabr 1957-ci ilədək çalışmaq şərti ilə bir növ ordu sıralarından tərxis ediblər. ***Əli***

***Novruzov 19 dekabr 1956-cı ildə 1938-ci il təvəllüdlü Alla Anatolyevna ilə ailə qurub.*** 1959-cu ildə doğma kəndə qayıdıb və yeni dərs ilindən Qahab kənd 7 illik məktəbində müəllimlik fəaliyyətini davam etdirməyə başlayıb, həmin ildə ilk övlad sevincini yaşayıb. Sadıq anadan olub.

***Əli Novruzov Naxçıvan Rayon Xalq Maarif Şöbəsinin 4 sentyabr 1963-cü il tarixli əmri ilə Zeynəddin kənd 8 illik məktəbinə tarix müəllimi təyin edilib və ömrünün axırınadək – 39 il pedaqoji fəaliyyət göstərib.*** Ixtisas fənn müəllimi, təlim-tərbiyə işləri üzrə direktor müavini, şagird istehsalat briqadasının rəhbəri vəzifələrini aparıb. 14 mart 1968-ci ildə Naxçıvan Rayon Xalq Maarif Şöbəsinin müdiri Şərif Şərifovun imzaladığı 45 nömrəli əmrlə dərs hissə müdiri vəzifəsindən azad edilib və direktor olmaq niyyətində olmadığına görə müvəqqəti olaraq məktəbə direktor təyin edilib və bir neçə ay bu vəzifəni uğurla yerinə yetirib. On illər ərzində məktəbdə fənn kabinetlərinin, Tarix-diyarşünaslıq və Böyük Vətən müharibəsi muzeylərinin təşkilində həmkarları ilə çiyin-çiyinə çalışıb, gənc nəslin hərtərəfli böyüməsində bilik və bacarığını əsirgəməyib. Vaxtı ilə şagirdi olmuş rayonda çıxan «Əmək bayrağı» qəzetinin ştatdankənar əməkdaşı Zahid Salayev qəzetin 7 dekabr 1979-cu il tarixli nömrəsində «Şagird istehsalat briqadasında» məqaləsində Əli müəllimin fəaliyyətindən söz açıb: «Zeynəddin kənd orta məktəbinin şagird istehsalat briqadası bir il bundan qabaq fəaliyyətə başlamışdır. Kollektivin 24 nəfər üzvü vardır. Briqadaya məktəbin müəllimi Əli Novruzov rəhbərlik edir. Şagird istehsalat briqadası cari ildə 3 hektar yem çuğunduru sahəsinə qayğı ilə qulluq göstərərək planda nəzərdə tutulduğundan ikiqat artıq məhsul götürmüşlər. Bu nailiyyətin qazanılmasında briqadanın üzvlərindən Zemfira Əsgərova, Səidə Qasımova, Xurşud Bayramova, Ələkbər Novruzov, Zöhrə Salayeva, Vəfa Hacıyeva və başqaları böyük fəallıq göstərmişlər».

1985-ci ildən 2005-ci ilədək kənd məktəbinin direktoru işləmiş, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi

Zeynalabdin Nadirov da «Təhsil problemləri» qəzetinin 01-07 aprel 2014-cü il tarixli nömrəsində dərc olunmuş «Əməkdar müəllim» məqaləsində (həmin məqaləni «Təhsilmizin tərəqqisi yolunda» (2014) kitabına da daxil etmişəm) müxbirlə söhbətində Əli Novruzovun rəhbərliyi ilə şagird istehsalat briqadasının ötən illər ərzində böyük nailiyyətlər qazandığını vurğulayıb. 1988-ci ildə Zeynəddin kəndini də əhatə edən «Naxçıvan» üzümçülük sovxozundan 10 hektar üzüm bağı, 10 hektar otaq sahəsi, 5 baş inək, 1 şum traktoru alınaraq məktəbin balansına verilməsini qeyd edib.

Kənd məktəbində Əli Novruzov kimi tarix müəllimlərinin bu fənni və müəllimliyi şagirdlərə sevdirmələrinin nəticəsidir ki, onların bir qismi Tarix ixtisası üzrə ali təhsil alıb və bu gün ümumtəhsil məktəblərində geniş fəaliyyət göstərir. Bu sıradan Bakı şəhəri, Bəhruz Sultanov adına 34 nömrəli tam orta məktəbin direktoru, Tarix üzrə fəlsəfə doktoru Rəhman Hacıyev, Babək rayonundakı Gərməçataq kənd tam orta məktəbin direktoru Mehman Əliyev, Bakı şəhəri, Azərbaycanın Milli Qəhrəmanı Alı Mustafayev adına 202 nömrəli tam orta məktəbin müəllimi, Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının Tarix fənni üzrə buraxdığı bir neçə test tapşırıqları kitabının həmmüəlliflərindən və rəyçilərindən olan kurikulum üzrə «Təlimçi» Nuriyyə Hümmətova, Babək rayonunun Zeynəddin kənd tam orta məktəbinin qabaqcıl tarix müəllimi Səfər Məmmədov və başqalarının adını çəkmək olar ki, həmin yetirmələr Əli Novruzovu həmişə ehtiramla yad edir, dərin minnətdarlıqla xatırlayır və onun haqqında xoş sözlər söyləyirlər.

***Novruzov Əli Hüseyn oğlu şaxtalı bir qış günündə - 18 fevral 2002-ci ildə gözlərini əbədi yumdu, Alla Anatoliyevanın, kənddə, Bakıda və Rusiya Federasiyasında yaşayan övladlarının, kənd sakinlərinin, məktəb müəllimlərinin, yetirmələrinin, onu tanıyanların qəlbinə, yaddaşına köçdü.***

***Dekabr 2014-cü il***

***Qeyd:*** *Alla Anatoliyevna 2017-ci ildə vəfat edib.*

# XATİRƏLƏRDƏ YAŞAYAN MÜƏLLİM



***Naxçıvan rayonunun (indiki Babək) Zeynəddin kəndinin ilk ali təhsilli qadın müəllimi Hənifəyeva Tamara Zeynalabdin qızı 1939-cu ildə həmin kənddə anadan olub.*** Natamam orta (7 illik) məktəbi bitirdikdən sonra Leninabad (indiki Kərimbəyli) kəndində tam orta təhsil kursunu tamamlayıb. Sonra həmin məktəbdə Pioner baş dəstə rəhbəri (Uşaq Birliyinin rəhbəri) vəzifəsində pedaqoji fəaliyyətə başlayıb. Muxtar respublikanın tanınmış ziyalılarından olan, Naxçıvan Maşın Traktor Stansiysının siyasi şöbəsində çalışmış, təsərrüfat rəhbəri olmuş, müəllim işləmiş, elin böyük hörmətini qazanmış və bu gün də məhəbbətlə, hörmətlə xatırlanan Hənifəyev Zeynalabdin Allahverdi oğlu qızının pedaqoji fəaliyyətinə daim dəstək olmuş, istiqamət vermişdir.

Tamara Hənifəyeva 1959-cu ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin (indi Bakı Dövlət Universiteti) qiyabi şöbəsinə daxil olub və 1965-ci ildə orada Biologiya ixtisası üzrə tam kurs bitirib. Dövlət imtahan komissiyasının 1965-ci il 28 iyun tarixli qərarı ilə ona bioloq-zooloq, bilologiya və kimya müəllimi ixtisası verilib.

Tamara müəllim bir neçə il qonşu kənd məktəbində işlədikdən sonra doğma kəndindəki 8 illik məktəbə dəyişdirilib və ömrünün sonunadək həmin təhsil ocağında şagirdlərə təlim-tərbiyə verib, onları kimya, biologiya elminin sirlərindən agah edib. 1966-cı il sentyabr ayının 13-də dünyasını dəyişən atasının dərsləri müəllimlər arasında bölüşdürülərkən qızı Tamaraya da həmin dərslərdən verilib.

XIX əsrin birinci yarısında ömür sürmüş rus inqilabçı demokratı, ədəbi tənqidçi Vissarion Qriqoryeviç Belinski demişdir: "Tərbiyə böyük işdir, insanın taleyini o həll edir". Belinskinin müasiri, dahi fransız yazıçısı Onore de Balzak isə yazmışdır: "Elə bir namuslu əmək yoxdur ki, əvvəl-axır mükafatlandırılmasın." Tamara müəllimin də maarif, təhsil sahəsindəki səmərəli fəaliyyəti, yetirmələrinin, uşaqların diqqətdən kənarda qalmayıb. Babək Rayon Təhsil Şöbəsinin, Naxçıvan Müəllimləri Təkmilləşdirmə Institutunun, eləcə də Muxtar Respublika Təhsil Nazirliyinin əməkdaşları onun iş təcrübəsinə diqqətlə yanaşıblar. Naxçıvan Müəllimləri Təkmilləşdirmə Institutu 1983-1984-cü illərdə onun qabaqcıl iş təcrübəsini öyrənib, təhlil edib, çap etdirərək muxtar respublikanın təhsil ocaqlarına, fənn müəllimlərinə çatdırıb. Tamara müəllimin iş təcrübəsinin yayılması ona böyük uğur gətirib. Azərbaycan SSR Maarif Nazirliyinin 165 nömrəli 10 iyul 1984-cü il tarixli əmri ilə Zeynəddin kənd orta məktəbinin biologiya müəllimi Hənifəyeva Tamara Zeynalabdin qızına Baş müəllim adı verilib. Bu barədə ona verilən vəsiqəni Maarif naziri Kamran Rəhimov imzalayıb. Zəngin pedaqoji təcrübəyə malik, həmkarlarına daim diqqət və qayğı ilə yanaşan, yetirmələri ilə fəxr edən, onlarla çiyin-çiyinə çalışan Tamara müəllim 20 avqust 1986-cı ildə "Əməkdə fərqlənməyə görə" medalı ilə təltif edilib. Tamara müəllim "Sosializm yarışının qalibi" döş nişanına (1977), Fəxri fərmanlara, diplomlara və digər mükafatlara da layiq görülüb.

Tamara Hənifəyevaya pensiyaya çıxmaq qismət olmayıb. Həssaslığı, duyğuluğu, çoxlarından fərqli olaraq hər hansı bir hadisədən təsirlənən, ailəcanlı, qohumcanlı, gənc müəllimlərin hamisi qəflətən 55 yaşında - 1994-cü il fevral ayının 10-da bu işıqlı dünyadan əbədi köç edib. Kənd məktəbinin pedaqoji kollektivi həssas qəlbli, öncül bir müəllimini əbədi itrib.

***Zeynəddin kəndinin ilk ali təhsilli mühəndisi Məcnun Nəbiyevlə ailə qurub, ömür yaşamış Tamara müəllimin övladlarından yalnız qızı Təranə onun yolunu davam etdirir.*** 1987-

ci ildə Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji Institutunu (indiki Naxçıvan Dövlət Universiteti) bitirən Təranə Nəbiyeva anasının işlədiyi Sadıq Nadirli adına Zeynəddin kənd tam orta məktəbinə kimya-biologiya müəllimi təyin edilib. Tamara müəllimin yetirmələri - kimya-biologiya ixtisasına yiyələnmiş Vəcihə Əsgərova və Səidə Qasımova vaxtı ilə Tamara müəllimlə, bu gün isə qızı Təranə müəllimlə birlikdə, Nəbiyeva Aytən Akim qızı isə Şahbuzda çalışır, gənc nəslin təlim-tərbiyəsi yolunda öz bilik və bacarıqlarını əsirgəmir, onu minnətdarlıqla yad edir, xoş xatirələr söyləyirlər. Hazırda Bakıda yaşayan yetirməsi, kimya-biologiya müəllimi Sənubər Seyidova və digər yetirmələri, müxtəlif peşə sahibləri də müəllimlərini xatırlayanda Tamara Hənifəyevanın adını ən sevimli müəllimləri sırasında çəkirlər.

Bəs, Tamara müəllim mənim xatirində necə qalıb? Əvvəla o anamın xalası Gülpəri nənənin ilk qız nəvəsi idi və anam Tamaranı onun anası Xədicədən və uşaqların hamısından çox istəyirdi. Bu istək qarşılıqlı idi. Şübhəsiz ki, bu istək bizim qəlbimizə köçürdü. Mən 1961-ci ildə kənddəki 7 illik məktəbi bitirdikdən sonra Leninabad kənd orta məktəbində təhsilimi davam etdirməyə başladım. O zaman Tamara müəllim orada Pioner Baş Dəstə Rəhbəri vəzifəsində çalışırdı. Tez-tez müxtəlif tədbirlər keçirirdi və biz o tədbirlərdə həvəslə iştirak edirdik. O, bizim tərbiyəmizə, məktəbdə və məktəbdənkənar davranışımıza böyük diqqət yetirirdi. Deyirdi ki, təhsil tərbiyədən başlayır. Tamara müəllim bəzən digər müəllimləri də əvəz edir, bizimlə məşğul olur və söhbətlər aparırdı. Həlim xasiyyəti vardı və biz şagirdlər onun xətrini çox istəyirdik.

Tamara müəllim mənim üçün doğmadır və hər dəfə adı çəkiləndə onun sürəti gözlərim önündə canlanır, ötən günlər, ötən illər bir daha yadıma düşür.

***Avqust 2014-cü il***

## ÜRƏKLƏRDƏ YAŞAYIR



Iyirminci əsrin ikinci yarısında Zeynəddin kənd məktəbində pedaqoji fəaliyyətə başlamış, uzun illər Azərbaycan dili və ədəbiyyat müəllimi işləmiş Əhmədov Şəmil Qəzənfər oğlu indi könüllərdə yaşayır, şirin xatirələrlə yada düşür. Həqiqətsevərlik, vətənpərvərlik, xeyirxahlıq, qayğıkeşlik, insanlara mehriban münasibət bəsləmək, şagirdləri sevərək onları yaxşı oxumağa sövq etmək və digər bu kimi müsbət keyfiyyətlər onun canına, qanına, bütün varığına hakim idi. Xətir-hörmət saxlayardı, hər şeyi düzünə çəkərdi, hörmət-izzəti aradan götürməzdi.

***Şəmil Əhmədov 1941-ci ildə Naxçıvan rayonunun (1979-cu ildən Babək) Zeynəddin kəndində kolxozçu ailəsində anadan olub.*** Əvvəl kənddəki yeddiillik məktəbdə, sonra qonşu Leninabad (indi Kərimbəyli) kənd orta məktəbində oxuyub. Orta məktəbi bitirdikdən sonra təsərrüfatda çalışıb. 1959-1960-cı tədris ilində Naxçıvan şəhərindəki peşə məktəbində təhsil alıb, peşə öyrənib. 18 iyun 1960-cı ildə ona Maşın-traktor təmiri üzrə 4-cü dərəcə çilingər peşə ixtisası verilib. Mütaliəni sevən gənc Şəmil Əhmədov "Şərq qapısı" qəzetinin 17 yanvar 1960-cı il tarixli nömrəsində "Kitabxana oxuculara yaxşı xidmət edir" məqaləsi ilə çıxış edib: "Zeynəddin kəndindəki kitabxananın müdiri Adil Hacıyev öz vəzifəsinə məsuliyyətlə yanaşır. Adil Hacıyev kitab təbliğinə ciddi fikir verir və kitab seçməkdə oxuculara yaxından kömək edir. Kitabxanaya çoxlu qəzet və jurnal gətirilir. Oxucular istifadə etdikdən sonra həmin qəzet və jurnallar səliqə ilə saxlanılır. Fəal oxuculardan Vahid Əsgərov, Qurban Nəbiyev və Arif Hənifəyev yoldaşlar kitabxananın işinə yaxından kömək

edir, mədəni tədbirlərin keçirilməsində fəallıq göstərirlər". Qəzetin 1962-ci il 11 avqust nömrəsində həmkəndlisi Telman Salayev isə onun peşə fəaliyyəti ilə əlaqədar xoş bir xəbər verib: "Naxçıvan rayonunun Zeynəddin kəndindəki klubda kino qurğusu qoyulmuşdur. Qurğunun mexaniki Şamil Əhmədov ilk gündən başlayaraq tamaşaçıların dərin hörmətini qazanmışdır. O, qurğunun saz saxlanılmasına, tamaşa zamanı lentlərin qırılmamasına və kadrların düzgün göstərilməsinə ciddi fikir verir".



**Ş.Əhmədovun anası Səkinə və bacısı Sənubər**

Şəmil Əhmədov hələ orta məktəb illərindən ali təhsil almaq, müəllim olmaq istəyində olub. Lakin o zaman Naxçıvanda ali təhsil ocağının olmaması, iqtisadi çətinliklər, ailənin dolanışığı, 1960-cı ilin oktyabr ayında atası, Böyük Vətən müharibəsi veteranı Qəzənfər kişinin 57 yaşında dünyasını dəyişməsi və digər səbəblər onun bu arzusunun gerçəklənməsini bir neçə il ləngidib. Nəhayət, 1962-ci ildə Naxçıvanda fəaliyyət

göstərən, ibtidai sinif müəllimləri hazırlayan birillik müəllimlər kursuna daxil olub, 1963-cü ildə kursu müvəffəqiyyətlə bitirərək Zeynəddin kənd səkkizillik məktəbində pedaqoji fəaliyyətə başalyıb.

***Şəmil Əhmədov 1967-ci ildə ali təhsil almaq istəyini reallaşdırmağa qədəm qoyub, Azərbaycan Dövlət Pedaqoji Institutun Naxçıvan filialına (qiyabi) qəbul olunub, 1973-cü ildə artıq müstəqil olan akademik Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji Institutunu bitirib, orta ümumtəhsil məktəblərində Azərbaycan dili və ədəbiyyatı fənnini tədris etmək hüququnu qazanıb.***

12 may 1976-cı ildə onu Azərbaycan Kommunist Partiyası Naxçıvan Şəhər Komitəsində partiya sıralarına qəbul ediblər. O, müəllimlik fəaliyyətindən ayrılmadan 1981-1983-cü illərdə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin ikiillik Marksizm-Leninizm Universitetinin Naxçıvan filialında Ideoloji kadrlar fakültəsində öz siyasi bilik və dünyagörüşünü zənginləşdirib.

Əli Hümmətov, Əsgər Əliyev, Abbas Hacıyev, Murtuz Məmmdəov, Əli Novruzov və başqa təcrübəli, bilikli və geniş dünyagörüşlü müəllimlərlə çiyin-çiyinə çalışan Şəmil Əhmədov bir neçə ilin ərzində özü rayonda yaxşı tanınan Azərbaycan dili və ədəbiyyat müəllimlərindən biri oldu. Sinif rəhbəri, fənn müəllimi kimi müəllim və valideynlərin, şagirdlərin hörmətini qazandı. Dərs dinləmələrdə, pedaqoji şura iclaslarında, müxtəlif tədbirlərdə fəallıq, obyektivlik göstərdi. Həmkarlarının, şagirdlərin və məzunların naliyyətlərinə ürəkdən sevindi. Illər ötdü, yetirmələri ilə bir yerdə də işlədi.

1979-cu ildə məktəbin direktoru Yaranmış Hüseynovun fədakarlığı sayəsində 624 şagird yerlik məktəb binasının tikilib istifadəyə verilməsi, hər cür avadanlıqlarla təchiz edilməsi pedaqoji işdə, şagirdlərin təlim-tərbiyəsində geniş imkanlar açdı.

1981-ci il aprelin 23-də Yaranmış müəllim öz ərizəsi ilə direktor vəzifəsindən azad edilərək məktəbdə psixoloq-müəllim

saxlanıldı. ***Şəmil Əhmədov direktor olmaq istəməsədə, kollektiv onu istədi, dəstəklədi, Babək Rayon Maarif Şöbəsinin əmri ilə məktəbə direktor təyin edildi.*** Bir ilə yaxın müddətdə - 1982-ci il fevral ayının 2-dək bu vəzifəni daşıdı və yenidən sinif rəhbərliyi və ixtisas fənn müəllimi kimi pedaqoji fəaliyyətini davam etdirdi, səhhətini qorumağa çalışdı. Fəqət, xəstəlik güc gəldi, həkimlər onu ölümün pəncəsindən qurtara bilmədilər.



*Şəmil Əhmədov və həyat yoldaşı Fatma Vəliyeva*

Əhmədov Şəmil Qəzənfər oğlu 51 yaşında bu işıqlı dünyaya əbədi göz yumdu. Xalq şairi Rəsul Rzanın təbirincə söyləsək, "Bu dünyanın iki qapısı var deyirlər, birindən girir, o birindən çıxırlar. Bu iki qapı arası ömür yoludur, həyatdır". Gərək bu ömrü elə yaşayasan ki, bu dünyadan köçəndən sonra el-obada unudulmayasan. Şəmil müəllim də belə bir ömür yaşadı, Zeynəddin kəndində unudulmaz insanlardan biri kimi 12 oktyabr 1992-ci ildə bu dünyadan əbədi dünyasına köç etdi.

***Yanvar 2015-ci il***

# ÖMRÜN MƏNALI ANLARI



Hər şey təsadüfdən başladı. Ötən ilin elə bu vədələrində Zeynəddin kəndində fəaliyyət göstərən 188 nömrəli kənd orta texniki-peşə məktəbində ucaboy, gözlərindən sevinc yağan, xoşsifət Qabil Əliyevlə tanış olduq. Məktəbdə istehsalat təlimi ustası kimi fəaliyyət göstərən Qabillə söhbətimiz çox şirin keçdi. Onun barəsində hələ heç nə yazılmayıb. Kənd sakinlərinin, o cümlədən də məktəb pedaqoji kollektivinin dərin hörmətini qazanan bir insanın həyat kitabçasını qısaca da olsa varaqladıq.

...1959-cu ildə Naxçıvan şəhərindəki 7 nömrəli texniki-peşə məktəbinin avto-traktorların təmiri çilingəri kursunu bitirən Q.Əliyev 1964-cü ilədək Rayonlararası Texnika Birliyində çilingər kimi fəaliyyət göstərmişdir. İlk günlərdən o, kollektivdə qabaqcıllar sırasında olmaq üçün daim yeni-yeni axtarışlar aparmış, texnikanın dilini dərindən bilməyə səy etmişdir.

Qabil Əliyev 1964-cü ildə 6 nömrəli su tikinti idarəsinin avtomobil parkında çilingər və mexanik kimi fəaliyyət göstərmişdir. Elə həmin vaxt Naxçıvan kənd təssərrüfatı texnikumunun mexanikləşdirmə şöbəsinə daxil olmuş, 1966-cı ildə məktəbi bitirərək öz ixtisasına uyğun "Naxçıvan" üzümçülük sovxozunda mexanik-mühəndis və qaraj müdiri kimi fəaliyyətini davam etdirmişdir.

("Naxçıvan" üzümçülük sovxozu komsomol komitəsinin katibi Dilsuz Qasımovun "Əmək bayrağı" qəzetinin 8 avqust 1969-cu il tarixli nömrəsində dərc olunmuş "Hünər göstərirlər" məqaləsindən: "Naxçıvan kənd təsərrüfatı texnikumunun məzunu Qabil Əliyev indi savxozumuzda inşa edilmiş 700 ton üzüm tutacaq soyuducuda mexanik işləyir. O, istehsalat qabaqcılıdır,

gördüyü işin keyfiyyətinə ciddi fikir verir. Q.Əliyev bu yaxınlarda yeni tikdiyi yaraşıqlı evə köçmüş və ailə həyatı qurmuşdur”. – Əşrəf Hümmətov).

1972-ci ildə onu Naxçıvan avtomobil məktəbinə istehsalat təlimi ustası qəbul edirlər. Həmin vaxtı o, yüzlərlə şagirdə texnikanın sirlərini incəliklərinə qədər öyrətmişdir.

Q.Əliyev 1982-ci ildən Zeynəddin kəndindəki texniki-peşə məktəbində istehsalat təlimi ustası kimi fəaliyyətini davam etdirir. Onun yetirdiyi şagirdlərin səsi-sorağı indi ayrı-ayrı təsərrüfatların hünər meydanlarından gəlir. “Naxçıvan” üzümçülük sovxozunda mexanizator işləyən Əli Piriyev, Məhərrəm Məmmədov, Sabir Axundov və başqaları sovxozun qabaqcıllarından hesab olunurlar. Dərs dediyi şagirdlərdən bir neçəsi isə ali məktəbi bitirib, onunla birlikdə çiyin-çiyinə texniki-peşə məktəbində müəllim və istehsalat təlimi ustası işləyirlər. Onlardan Zeynalabdin Quliyev, Əbülfəz Qasımov və başqalarını göstərmək olar.

Qabil Əliyev daim yeni qüvvə ilə, gənclik həvəsi ilə öz şagirdlərinə texnikanı dərindən mənimsəməkdə kömək edir.

Bəli, mənalı ömrünün ötən hər anını mənalandıran Qabil Əliyevin hələ bundan sonra biz nə qədər xoş sorağını eşidəcək, dərs dediyi şagirdlərinin əmək cəbhələrində qazandıqları nailiyyətləri ilə sevinəcəyik. Sənə xeyirxah işində uğurlar arzulayırıq, Qabil!

***Pərviz Cəfərov,***
***“Əmək bayrağı” qəzeti,***
***28 aprel 1985-ci il***

# TEXNİKA ELMLƏRİ ÜZRƏ



Əsgərov Vahid Məmməd oğlu texnika elmləri namizədi, Naxçıvan Dövlət Universitetinin dosentidir. Zeynəddin kəndinin ilk alim yetirməsidir.

**Vahid Əsgərov 1 may 1945-ci ildə Naxçıvan rayonunun (indiki Babək) Zeynəddin kəndində kolxozçu ailəsində anadan olub,** 7 illik məktəbi kənddə, orta məktəbi isə 1961-ci ildə qonşu Leninabad (indiki Kərimbəyli) kəndində bitirib. Sənədlərini Çingiz İldırım adına Azərbaycan Politexnik İnstitutuna (indiki Azərbaycan Texniki Universitetinə) verib, qəbul imtahanlarını müvəffəqiyyətlə başa vurub, lakin müsabiqədən keçə bilməyib. Qiyabi şöbədə oxumağı məsləhət görüblər. Vahid bu təklifdən imtina edib, bir il fəhlə işləyib. 1962-ci ildə Məşədi Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutuna (indiki Azərbaycan Dövlət Neft Akademiyasına) qəbul olunub və 1967-ci ildə Elektromexanik mühəndisliyi ixtisasını fərqlənmə ilə bitirib.

Vahid Əsgərov göndərişlə Azərbaycan Elmlər Akademiyasının Kibernetika İnstitutunda baş laborant vəzifəsində işə başlayıb və 1971-ci ildə aspiranturaya daxil olub. 1974-cü ildə "Texnoloji proseslərin riyazi modelləşdirilməsi və optimallaşdırılması" mövzusunda dissertasiya müdafiə edərək 29 yaşında Texnika elmləri namizədi alimlik dərəcəsini alıb. Bu münasibətlə Leninabad kənd orta məktəbinin tarix müəllimi Əsgər Əliyev "Şərq qapısı" qəzetində "Uğurlu addım" məqaləsi ilə çıxış edib. Əsgər müəllim yazıb: "Mən ona altıncı sinifdə dərs demişəm (Zeynəddin kənd 7 illik məktəbində - Ə.H.), hamıdan o qədər də

fərqlənmirdi. Yaxşı oxuyurdu, təvazökar idi. Bəzən bütün uşaqlar kimi o da şuluq salardı… Tribunada bəstəboy bir gənc dayanmışdı. O, həvəslə danışır, dediklərini sübuta çatdırır, lövhədə müxtəlif düsturlar yazırdı… opponentlərin verdikləri suallara dolğun və ətraflı cavab verirdi.

Vahid xitabət kürsüsündən düşdü. Kimya elmləri doktoru, professor Seyidov, texnika elmləri namizədi Topçubaşov, moskvalı alim Arutyunov, Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü, professor Qədimov və başqaları çıxış edərək dissertasiyanı yüksək qiymətləndirdilər, onun xalq təsərrüfatındakı əhəmiyyətindən danışdılar.

Elmi şura yekdilliklə Vahid Əsgərova Texnika elmləri namizədi, alimlik dərəcəsi adı verməyi qərara aldı…

Dissertasiyanın elmi və xalq təsərrüfat dəyəri hər şeydən əvvəl onunla izah edilir ki, etilen və propilen kauçuk və rezin istehsalında əhəmiyyətli yer tutur. Eyni zamanda, bu maddələrdən elektrotexnika sənayesində, yüksək keyfiyyətli avtomobil şinləri hazırlanmasında, müxtəlif elmi-texniki cihazların yaradılmasında geniş istifadə olunur. Məhz bu nöqteyi-nəzərdən Vahid Əsgərovun işi təqdirəlayiq bir hadisədir. Mən bir müəllim kimi Vahidin müvəffəqiyyətinə sevinir, onu ürəkdən təbrik edirəm… gələcək işində və elmi axtarışlarında daha böyük müvəffəqiyyətlər arzulayıram".

1975-ci ildən Azərbaycan SSR Elmlər Akademiyasının Naxçıvan Elm Mərkəzində baş elmi işçi kimi çalışan Vahid Əsgərov 1985-ci lidən Naxçıvan Dövlət Pedaqoji İnstiutunda (indiki Naxçıvan Dövlət Universitetində) dosent vəzifəsində elmi-pedaqoji fəaliyyətini davam etdirir. O, yüzə yaxın elmi məqalənin, dərslik, dərs vəsaiti və metodik vəsaitin müəllifidir. Elmi işləri müxtəlif təsərrüfat sahələrində texnoloji proseslərin riyazi modelləşdirilməsi və optimallaşdırılmasına həsr olunub və bunlardan 20-yə yaxını Rusiyada nəşr edilib.

Kitabları əsasən mexanizmlər nəzəriyyəsinə, tətbiqi mexanikaya, maşın detallarının layihələndirilməsinə həsr olunub.

Bunları o, 2000-2012-ci illərdə uzunmüddətli oxuduğu mühazirələri əsasında hazırlayıb və müvafiq qriflə çap etdirərək müəllim və tələbələrin, bu sahədə çalışanların ixtiyarına verib.

Ömrünu elmi axtarışlara, müəllim kadrlarının hazırlanmasına həsr edən sadə, saf, təvazökar və açıq qəlbli, məktəb illərindən tanıdığım həmkəndlim Vahid müəllimlə 2013-cü ilin iyun ayında Naxçıvanda - mənzilində görüşdüm. Çayı hazır idi. Gilənar mürəbbəsi ilə çay içə-içə ötən illəri yada saldıq, bugünkü dövrandan söhbət açdıq. Öyrəndim ki, qız həkim, oğlu mühəndis, nəvəsi isə orta məktəb şagirdidir. Gələn il - 2015-ci ildə ailədə, Naxçıvan Dövlət Universitetində 70 illik yubileyi qeyd ediləcək Vahid Əsgərova möhkəm can sağlığı, elmi-pedaqoji fəaliyyətində yeni-yeni uğurlar arzulayıram.

***Mart 2014-cü il***

## UĞURLU ADDIM

Adətən yaxından tanıdığın adam haqqında danışmaq çətin olur. Bilmirsən hansı keyfiyyətindən, xarakterinin hansı yaxşı cəhətindən deyəsən.

Xatirələr yada düşdükcə epizodlar bir-birini əvəz edir. Düşündüyün adamın sifəti gözün qarşısında canlanır. Lakin aradakı fərqi görmürsən. Elə bilirsən ki, o yenə də sənin qarşında partada oturub maraqla dərsi dinləyir. Nədənsə şagird müəllim üçün həmişə şagird olaraq qalır.

Mən ona altıncı sinifdən dərs demişəm. Hamıdan o qədər də fərqlənmirdi. Yaxşı oxuyurdu. Təvazökar idi. Bəzən bütün uşaqlar kimi o da şuluqluq salardı.

1961-ci ildə Bahid Leninabad kənd orta məktəbin bitirdi. O sənədlərini Azərbaycan Politexnik İnstitutuna verdi. Burada müsabiqədən keçə bilmədi. Qiyabi şöbədə oxumağı məsləhət gördülər. İmtina elədi. Bakıda qalıb fəhlə işlədi. Bir ildən sonra Azərbaycan Neft və Kimya İnstitutuna daxil oldu. Hamıdan yüksək bal topladı.

İllərə quşqanadlı deyənlər yanılmırlar. Çox tez keçir. Vahidin də təhsil illəri qurtardı. O, kibernetik ixtisası ilə institutu bitirdi. Elə belə yox, Fərqlənmə diplomu ilə. Vahidi elmi şura aspiranturaya tövsiyyə etdi. O, Azərbaycan SSR Elmlər Akademiyasının Kibernetika institutunda elmi işini davam etdirdi. Gecəli-gündüzlü işləyir, elmin sirlərinə bələd olur, axtarışlar aparırdı. O, əsasən neft proseslərinin avtomatlaşdırılması işi üzərində daha çox məşğul olurdu.

Bu yaxınlarda Vahid arzusuna çatdı. O, işlədiyi mövzunu tamamilə hazırlamışdı.

Kibernetika institutunun salonu adamla dolu idi. Müəllimləri, iş yoldaşları, dostları buraya yığışmışdı. Tribunada bəstəboy bir gənc dayanmışdı. O, həvəslə danışır, dediklərini sübuta çatdırır, lövhədə müxtəlif düsturlar yazırdı. Əsas məsələ kimyəvi proseslərin tədqiqatı və bu prosesdə reaktorların daxili

temperaturunun avtomatik surətdə istənilən səviyyədə saxlanılması idi. Bundan əlavə bir sıra başqa məsələlər, o cümlədən avtomatik idarə məsələsi də dissertantın elmi işinə aid idi. O, bütün bunları böyük həvəslə sübuta çatdırır, opponentlərin verdikləri suallara dolğun və ətraflı cavab verirdi.

Vahid xitabət kürsüsündən düşdü. Kimya elmləri doktoru professor Seyidov, texnika elmləri namizədi Topçubaşov, moskvalı alim Arutyunov, Azərbaycan SSR Elmlər Akademiyasının muxbir üzvü, professor Qədimov və başqaları çıxış edərək dissertasiyanı yüksək qiymətləndirdilər, onun xalq təsərrüfatındakı əhəmiyyətindən danışdılar.

**Elmi şura yekdilliklə Vahid Əsgərova texnika elmləri namizədi, alimlik dərəcəsi adı verməyi qərara aldı.** Bu ada o, "Etilen, propilen sintezi prosesinin riyazi modelləşdirilməsi və optimizasiyası" mövzusunda müdafiə etdiyi dissertasiyasına görə layiq görülmüşdü.

Dissertasiyanın elmi və xalq təsərrüfat dəyəri hər şeydən onunla izah edilir ki, etilen və propilen kauçuk və rezin istehsalında əhəmiyyətli yer tutur. Eyni zamanda bu maddələrdən elektrotexnika sənayesində, yüksək keyfiyyətli avtomobil şinləri hazırlanmasında, müxtəlif elmi texniki cihazların yaradılmasında geniş istifadə olunur. Məhz bu nöqteyi-nəzərdən Vahid Əsgərovun işi təqdirəlayiq bir hadisədir.

Mən bir müəllim kimi Vahidin müvəffəqiyyətinə sevinir, onu ürəkdən təbrik edirəm. 28 yaşlı bu gəncə gələcək işində və elmi axtarışlarında daha böyük müvəffəqiyyətlər arzulayıram.

***Əsgər Əliyev,***
***Naxçıvan rayonunun Leninabad***
***kənd orta məktəbinin müəllimi,***
***"Şərq qapısı" qəzeti, 13 iyul 1974-cü il***

***Qeyd:*** *Qəzetdə V.Əsgərovun fotosu var.*

# XEYİRXAH ƏMƏLLƏRİ İLƏ



Əhmədov Şəmsəddin Qəzənfər oğlu. Kənddə onun adını hörmətlə çəkirlər. O, bu nüfuzu müəllim, təsərrüfat işçisi olaraq öz xeyirxah əməlləri ilə qazanıb. Kənd sakinlərinin güzəranının yaxşılaşması, yeniyetmələrin peşələrə yiyələnməsində səy və bacırığını əsirgəməyib. Həmişə çalışıb ki, kənd sakinlərinin əli çörəkli olsun. **Şəmsəddin Əhmədov 1951-ci ilin baharında, aprelin 10-da Naxçıvan rayonunun (indiki Babək) Zeynəddin kəndində dünyaya gəlib**. 1958-ci ildə kənd məktəbinin 1-ci sinfinə daxil olub, 8-ci sinfi bitirdikdən sonra Leninabad (indi Kərimbəyli) kənd orta məktəbində orta təhsilini davam etdirib. 1968-ci ildə buraxılış imtahanlarını yüksək qiymətlərlə başa vuran Şəmsəddin elə həmin ildə də Naxçıvan Kənd Təsərrüfatı Texnikumunun Aqrokimya şöbəsinə qəbul edilib və 1971-ci ildə təhsilini fərqlənmə diplomu ilə başa vurub. Təyinatla Naxçıvan rayonunun bir neçə kəndini, o cümlədən Zeynəddin kəndini də əhatə edən "Naxçıvan" üzümçülük sovxozuna göndərilib. 3 il briqadir işləyən Şəmsəddin Əhmədov 1975-ci ildə texniki peşə təhsili sahəsinə keçib, 1975-1976-cı tədris ilində Naxçıvan şəhərindəki 32 nömrəli Texniki Peşə Məktəbində istehsalat təlimi ustası vəzifəsində çalışıb. 1976-1978-ci illərdə "Naxçıvan" sovxozunun Şərab zavodunda sex müdiri və aqronom vəzifəsində işləyib. 1978-ci ilin aprelindən 1979-cu ilin sentyabr ayınadək Naxçıvan Dayaq məntəqəsində aqronom kimi fəaliyyətini davam etdirib. Ötən əsrin 70-80-ci illərində peşə-ixtisas təhsilinə diqqət və qayğı artırılır. Bu sahə sürətli inkişaf dövrünü yaşayır. Yeni peşə

ocaqları yaradılırdı. Aqronom-müəllim Şəmsəddin Əhmədov da zamanın, dövrün tələbinə uyğun fəaliyyət göstərir. Həmkarları ilə birlikdə Zeynəddin kəndində texniki peşə məktəbinin təşkilinə nail olur.



*Bacısı Sənubərlə*

1979-cu ildə kənddə 145 nömrəli Nehrən Kənd Texniki Peşə məktəbinin şöbəsi açılır, Şəmsəddin Əhmədov istehsalat təlimi ustası və ictimai əsaslarla dərs müdiri vəzifələrini tutur. 1981-ci ildə şöbə filiala, 1983-cü ildə isə 188 nömrəli Zeynəddin Kənd Texniki Peşə Məktəbinə çevrilir. Şəmsəddin müəllim 1994-cü ilə, yəni bu peşə ocağı ləğv edilənədək baş usta vəzifəsində öz bilik və bacarığını əsirgəmir. Kənd orta məktəbini bitirib ali və orta ixtisas məktəblərinə qəbul ola bilməyən gənclər burada kənd təsərrüfatı üzrə müxtəlif peşələrə yiyələniblər.

Bu illər ərzində Şəmsəddin müəllimin əməyi layiqincə qiymətləndirilib. 1984-cü ildə SSRİ Dövlət Texniki Peşə Təhsili

Komitəsi, 1985-ci ildə isə Azərbaycanın Texniki Peşə Təhsili Komitəsinin fəxri fərmanları ilə təltif edilib. 1986-cı ildə yüksək ixtisaslı fəhlə kadrların hazırlanması və sosializm yarısının qalibi çıxmasına görə də fəxri fərmana layiq görülüb. 1987-ci ildə Naxçıvan Muxtar Respublikasının texniki peşə təhsili işçiləri ona böyük ehtimad göstərib, Azərbaycan müəlimlərinin onuncu qurultayına nümayəndə seçiblər. O, 1987-ci ilin iyun ayında Bakı şəhərində indiki Heydər Əliyev sarayında keçirilən qurultayda həmkarlarını ləyaqətlə təmsil edib.



*Həyat yoldaşı Gilas xanımla*

Həmin illərdə Naxçıvanda çıxan "Şərq qapısı" və "Əmək bayrağı" qəzetlərində 188 nömrəli Zeynəddin Kənd Texniki Peşə Məktəbinin, Şəmsəddin müəllimin uğurlu fəaliyyətindən bəhs edən məqalələr dərc olunub. O zaman mən də Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində işləyirdim və dəfələrlə peşə ocağında keçirilən tədbirlərdə iştirak etmiş,

televiziya və radio verilişləri hazırlamışam. Təbii ki, həmin verilişlərdə Şəmsəddin müəllimin də fəaliyyətindən söz açmışam.



Şəmsəddin Əhmədov 1995-ci ildə Babək rayon Meyvə-Tərəvəz İdarəsinə, 1996-1997-ci illərdə Barama İdarəsinə rəhbərlik edib, 2000-2002-ci illərdə Sadıx Nadirli adına Zeynəddin kənd orta məktəbində tərbiyəçi işləyib. 2003-2004-cü illərdə ADRPA firmasının kənddə fəaliyyət göstərməsinə nail olub və özü də orada çalışıb. 2005-2006-cı illərdə Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşə Tingliyi Müəssisəsində aqronom kimi əmək fəaliyyətini davab etdirib. Hazırda "Cahan" Holdinqdə mühafizə xidməti vəzifəsini yerinə yetirir.

2014-cü ilin aprel ayında Şəmsəddin Əhmədov pensiyaya çıxmaq yaşına çatır. Ona möhkəm cansağlığı, uzun ömür arzulayırıq.

***Dekabr 2013-cü il***

# GÖRKƏMLİ ALİMLƏRDƏN DƏRS ALIB



7 oktyabr 1979-cu il. Babək rayonu (keçmiş Naxçıvan rayonu), «Əmək bayrağı» qəzeti. Qəzetin bu nömrəsində redaksiyanın əməkdaşı, şair Muxtar Qasımzadənin «Şam kimi...» məqaləsi dərc edilmişdi. Müəllif rayonun Zeynəddin kənd orta məktəbinin Azərbaycan dili və ədəbiyyatı müəllimi Salman Hüseynov haqqında yazmışdı: «1 sentyabr 1976-cı il. Bu günü Salman səbirsizliklə, həyəcanla gözləmişdi. Ilk qırx beş dəqiqə, ilk sınaq, ilk fərəh… O, dərs danışdıqca qeyri-iradi olaraq sevinc hissi keçirir, şagirdləri maraqlandıran suallara doğru, düzgün cavab verməyə çalışırdı.

Artıq dördüncü ildir ki, Salman müəllim Zeynəddin kənd orta məktəbində sevimli şagirdlərinə ədəbiyyat dərslərini tədris edir. Həmişə axtarışda olan gənc filoloq əldə etdiyi bilikdən heç də arxayınlaşmır, həmişə axtarışda olur. Onunla söhbət etdiyimiz zaman dedi:

- Müəllim gərək keçdiyi mövzunun hissi ilə yaşasın, dərsə verilən müasir tələblərdən məharətlə istifadə edə bilsin. Nəhayət, mütaliəsi çox olsun…

Salman müəllim hər dəfə sinif otağına girəndə Azərbaycan ədəbiyyatının milli korifeylərinin həyat və yaradıcılığından böyük coşğunluqla söhbət açır. Gənc müəllimin tədris etdiyi ədəbiyyat dərslərinə şagirdlər həmişə diqqətlə qulaq asır, əsil ədəbiyyatçı olmaq üçün onun dəyərli məsləhətlərini diqqətlə dinləyirlər. Salman müəllimin yaxşı işi barədə üzvü olduğu pedaqoji kollektivdən də xoş sözlər eşitdik…

Salman Hüseynovu müəllim günü münasibətilə təbrik edir, ona yeni müvəffəqiyyətlər diləyirik».

**Hüseynov Salman Hüseynalı oğlu 1952-ci il mart ayının 25-də Naxçıvan rayonunun (indi Babək) Zeynəddin kəndində kolxozçu ailəsində anadan olub.** Orta təhsilini kənddəki səkkizillik məktəbi bitirdikdən sonra qonşu Leninabad (indi Kərmbəyli) kənd orta məktəbində tamamlayıb. Şeirə, sənətə, ədəbiyyata və doğma dilinə sonsuz məhəbəti onu o zaman respublikada yeganə universitet olan Azərbaycan Dövlət Universitetinə (indiki Bakı Dövlət Universiteti) gətirib çıxarıb. 1971-ci ildə universitetə daxil olan Salman Hüseynov 1976-cı ildə oranı yüksək müvəffəqiyyətlə bitirib. Beş il ərzində Mir Cəlal Paşayev, Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Qulu Xəlilov, Abbas Zamanaov, Əlövsət Abdullayev, Firudin Hüseynov kimi görkəmli alimlərin mühazirələrini dinləyib, onlardan dərs alıb, ədəbiyyatımızı, dilimizin incəliklərini dərindən öyrənib. Bütün bunlar onun həyatında silinməz izlər buraxıb.

Salman Hüseynov 1976-cı ildə təyinatla Naxçıvan Muxtar Respublikası Maarif Nazirliyinin sərəncamına göndərilib, Naxçıvan rayonunun Zeynəddin kənd orta məktəbinə Azərbaycan dili və ədəbiyyatı müəllimi təyin olunub. Qısa bir müddət ərzində pedaqoji kollektivdə və kənddə savadlı, bilikli, vətənpərvər bir müəllim kimi böyük hörmət və nüfuz qazanıb. 1970-1990-cı illərdə dəfələrlə rayon və muxtar respublika səviyyəli konfranslarda, yığıncaqlarda iştirak edib, dərin məzmunlu aktual çıxışları ilə diqqəti çəkib. Dəfələrlə Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində pedaqoji mövzuda bir-birindən maraqlı, yaddaqalan söhbətlər aparmaqla geniş ictimaiyyət arasında yaxşı tanınıb. Əldə etdiyi bir sıra nailiyyətlərin nəticəsi olaraq Baş müəllim adına layiq görülüb. Yetirmələrinin sorağını, xoş sədasını müxtəlif ünvanlardan alan Salman Hüseynov həmişə böyük fərəh, qürur hissi keçirib.

Salman Hüseynov həmkəndlim olmağına baxmayaraq onu tələbəlik illərində yaxından tanımışam. 1975-1995-ci illərdə mən Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində müxtəlif vəzifələrdə çalışırdım və əsasən təhsil sahəsinə

aid televiziya və radio verilişləri hazırlayırdım. Ştatdankənar əməkdaşlar arasında Salman Hüseynov, Bağır Qədimov, Nurəddin Əkbərov, Əbülfəz Ağcaoğlu, Rəcəb Ağayev, Əbülfəz Əsgərov və başqaları çoxlarından fərqlənirdilər. **Məni Salman və Bağır müəllimlə həm də möhkəm dostluq telləri bağlayırdı** və demək olar ki, hər gün görüşürdük. Bu gün də dostluğumuz davam edir.

Məlum olduğu kimi, müstəqilliyimizin ilk illərində ölkəmiz bir çox çətinliklərlə üzləşib. Iqtisadi vəziyyət gərginləşib, əhalinin yaşayış səviyyəsi xeyli aşağı düşüb, dolanışıq ağırlaşıb. Ailələri böyük olan kişi müəllimlərinin bir qismi ümumtəhsil məktəblərindən aralanmaq məcburiyyətində qalıb. Çox təəssüf ki, sonralar onların cüzi bir hissəsi yenidən məktəbə qayıdıb.

Həmin illərdə pedaqoji fəaliyyətdən uzaqlaşan Salman Hüseynov özəl sahədə çalışmasına baxmayaraq bu gün də müəllim kimi tanınır. Zəngin kitabxanası var. Orada vaxtilə ona dərs demiş atam Əli müəllimə və mənə məxsus kitablar da var. Azərbaycan və dünya ədəbiyyatının ən yaxşı nümunələri, ensiklopediyalar, lüğətlər və digər nəşrlər kənd ziyalılarının ixtiyarındadır. Salman müəllim deyir ki, yaxşı bir kitab, əsər onu mütaliə edən hər bir insan üçün mənəvi qidadır. Mütaliə hər zaman lazımdır. Bunu mən demirəm, on beşinci əsrdə yaşamış görkəmli tacik şairi və filosofu Əbdürrəhman Cami yazıb:

*Kitab işıq saçar bir günəş kimi.*
*Kitablar arifin könül həmdəmi.*

Əziz dostum Salman Hüseynov gözəl atadır, babadır. Ulu Tanrıdan ona doğmaların ətrafında bundan sonra da sağlam və uzun illər yaşamağı arzulayıram.

***İyul 2015-ci il***

## ŞAM KİMİ…



Salman orta məktəbi bitirən ili sənədlərini S.M.Kirov adına Qırmızı Əmək Bayrağı ordenli Azərbaycan Dövlət Universitetin filologiya fakültəsinə təqdim etdi. Sinif otağından böyük auditoriyaya qədəm qoyan Salman çətin və çətin olduğu qədər də şərəfli olan sınağın öhdəsindən ləyaqətlə gəldi. Qəbul imtahanlarını müvəffəqiyyətlə verib ali məktəbə daxil oldu.

Filologiya elmləri doktorları A.Zamanovun, B.Vahabzadənin, P.Xəlilovun, Ə.Abdullayevin, M. Hüseynzadənin, F.Hüseynovun və digər tanınmış alimlərin mühazirələrini dinlədikcə maraq göstərdiyi elmin dərinliklərini öyrənir, keçdiyi fənlərin, bir növ, ilhamçısı olurdu. Günlər ötdükcə universitet həyatı onu filoloq kimi yetişdirirdi.

Təbiət beş dəfə donunu dəyişdi. Salman ali məktəbi bitirib təyinatını Zeynəddin kənd orta məktəbinə aldı.

1 sentyabr 1976-cı il. Bu günü Salman səbirsizliklə, həyəcanla gözləmişdi. Ilk qırx beş dəqiqə, ilk sınaq, ilk fərəh… O, dərs danışdıqca qeyri-iradi olaraq sevinc hissi keçirir, şagirdləri maraqlandıran suallara doğru, düzgün cavab verməyə çalışırdı.

Artıq dördüncü ildir ki, Salman müəllim Zeynəddin kənd orta məktəbində sevimli şagirdlərinə ədəbiyyat dərslərini tədris edir. Həmişə axtarışda olan gənc filoloq əldə etdiyi bilikdən heç də arxayınlaşmır, həmişə axtarışda olur. Onunla söhbət etdiyimiz zaman belə dedi:

- Müəllim gərək keçdiyi mövzunun hissi ilə yaşasın, dərsə verilən müasir tələblərdən məharətlə istifadə edə bilsin.

Nəhayət, mütaliəsi çox olsun. Əgər belə olarsa onda gələcəyin kommunizm qurucularına elmin, biliyin əsaslarını dərindən öyrətmək olar.

S.Hüseynov həm də ictimaiyyətçidir. O, məktəbdə keçirilən maraqlı tədbirlərin həmişə təşkilatçılarından biri olur. Ədəbi gecələrin, kitab müzakirələrinin keçirilməsində onun böyük əməyi vardır.

Salman müəllim hər dəfə sinif otağına girəndə Azərbaycan ədəbiyyatının mili korifeylərinin həyat və yaradıcılığından böyük coşqunluqla söhbət açır. Gənc müəllimin tədris etdiyi ədəbiyyat dərslərinə şagirdlər həmişə diqqətlə qulaq asır, əsil ədəbiyyatçı olmaq üçün onun dəyərli məsləhətlərini diqqətlə dinləyirlər. Salman müəllimin yaxşı işi barədə üzvü olduğu pedaqoji kollektivdən də xoş sözlər eşitdik: Gənc müəllim sabahın qurucularına böyük ehtirasla, həvəslə tədris etdiyi fənnin sirlərini öyrədir, daim axtarışda olur.

S.Hüseynovu müəllim günü münasibəti ilə təbrik edir, ona yeni müvəffəqiyyətlər diləyirik.

***Muxtar Qasımzadə,***
***«Əmək bayrağı» qəzeti, 7 oktyabr 1979-cu il***

# PEŞƏSİNƏ SADİQ İNSAN



***1954-cü ilin may ayında, günəşli bir yaz günündə Naxçıvan rayonunun (indi Babək) Zeynəddin kəndində tarix müəllimi Əliyev Əsgər Həsən oğlunun ailəsində bir övlad dünyaya gəldi. Adını Mehman qoydular.*** Illər ötdü o, əvvəlcə Zeynəddin kənd səkkizillik məktəbində, sonra Leninabad (indi Kərimbəyli) kənd orta məktəbində oxudu. 1971-ci ildə onuncu sinfi bitirən Mehman müəllim olmaq arzusunu reallaşdırmaq üçün ali məktəbə qəbul imtahanlarından keçə bilmədi, lakin ruhdan da düşmədi. Sumqayıt şəhərində əvvəl Kimya, sonra isə Superfosfat zavodunda ştamplayıcı işlədi. Eyni zamanda, işdən sonra M.F.Axundov adına Azərbaycan Pedaqoji Xarici Dillər Institutunda fəaliyyət göstərən hazırlıq kursunda təhsil aldı və nəticədə növbəti il institutun Rus dili və ədəbiyyatı fakültəsinə qəbul olundu.

Idmanın sərbəst güləş növü ilə məşğul olan Mehman qısa bir zamanda institutda tanındı. Institutda çıxan "Bilik" qəzeti 1972-ci il 1 dekabr tarixli nömrəsində Mehmanın yarışda qazandığı uğurdan yazdı: "Idman zalında SSRI-nin təşkil edilməsinin 50 illiyinə həsr edilmiş ümuminstitut spartakiadasının proqramına daxil olan sərbəst güləşmə növü üzrə yarış başladı. Yarışda üç fakültənin 40 idmançısı iştirak edirdi.

Yüngül çəkili güləşçilərin mübarizəsi çox maraqlı keçdi. Xalça üzərinə Valeh Əbilov və Mehman Əliyev çağırıldılar. Mehman heç də onun rəqibinin I idman dərəcəsi, Azərbaycan ali məktəblərinin birinciliyində mükafata layiq 3-cü yeri tutması qorxutmadı. Görüşün əvvəlində 2 xal itirmiş Mehman yeddinci dəqiqədə rəqibinin kürəklərini yerə vuraraq öz çəki dərəcəsində birinci yeri tutdu". Özünün söylədiyi kimi, idmana maraq onu

təhsildən yayındırdı. Ikinci semestrin imtahanlarını verə bilmədiyi üçün tələbələr sırsından xaric edildi.

1973-cü ilin may ayında hərbi xidmətə yollanan Mehman 1975-ci ildə əsgəri xidmətini orta tank komandiri olaraq, serjant rütbəsində başa vurub. Instituta bərpa olunmaq cəhdi baş tutmayıb. Iyun ayında Naxçıvan Elektrotexnika zavodunda ştamplayıcı kimi işə başlayan Mehman Əliyev oktyabr ayında akademik Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji Institutun hazırlıq şöbəsinə qəbul olunub. Növbəti ildə yenidən tələbə adını qazanıb, institutun Tarix fakültəsində təhsil almağa başlayıb. Tələbəlik illərində Mehmanın "nadincliyi", necə deyərlər, bəzən müəllimlərlə yola getməməyi də vardı. Heç yadımdan çıxmaz, Naxçıvan teleradiosunun əməkdaşı kimi semestr imtahanlarında iştirak edirdim. Bir dəfə "Orta əsrlər tarixi" kursundan imtahan götürən dekan Firuz Rəhimov Mehmanın oxumağından yox, "nadincliyindən" gileyləndi, lakin imtahanda ədalətli oldu, qiymətin kəsmədi.

1980-ci ildə institutu bitirib orta məktəbdə Tarix və Ictimaiyyət müəllimi ixtisasına yiyələnən Mehman Əliyev azad təyinat alaraq Zeynəddin kənd orta məktəbində müəllimliyə başlayıb.

***Tələbə ikən ailə qurub. Bu barədə onun özünün qeydlərindən:*** "Leninabadda oxuduğum zaman sinif yoldaşım Nəcəfova Svetlana Mustafa qızı ilə əhd-peyman bağladıq. Məndən fərqli olaraq o, orta məktəbi bitirdiyimiz ili Naxçıvan Dövlət Pedaqoji Institutunun Riyaziyyat fakültəsinə daxil oldu. Qiyabi təhsil alaraq Leninabad kənd orta məktəbində Pioner baş dəstə rəhbəri kimi əmək fəaliyətinə başladı. Mən hərbi xidmətdən qayıtdıqda o, artıq həmin məktəbdə riyaziyyat müəllimi işləyirdi. 1976-cı ilin payızında ailə qurduq. Mən oxuyurdum, o işləyirdi. Atamın yanında yaşayırdıq. 1979-cu ildə ilk övladımız - Əfqan dünyaya gəldi. 1983-cü ildə kiçik bir ev tikib, öz evimizə köçdük. 1981-ci ildə Ləman dünyaya gəldi. O zamankı müəllim maaşı ilə ev tikmək və iki uşağa baxmaq çətin olduğu

üçün 1988-ci ildə işdən çıxdım, Naxçıvan Taksomotor müəssisəsində sürücü işləməyə başladım".

***Bakı şəhərindəki Azərbaycanın Milli Qəhrəmanı Alı Mustafayev adına 202 nömrəli tam orta məktəbin tarix müəllimi Nuriyyə Hümmətova:***

- Mən Zeynəddin kənd orta məktəbində fəaliyyət göstərdiyim zaman müəllimlik peşəsinin sirlərini Mehman müəllim və Svetlana xanımdan öyrənməyə çalışırdım. Svetlana xanımdan icazə alaraq dərslərini dinləyər, onun şagirdlərinə necə pedoqoji ustalıqla yanaşmasından özüm üçün nəticə çıxarardım. Svetlana xanımın nurlu çöhrəsi, mehriban baxışları, gözəl təbəssümü və insanlara qayğıkeş münasibəti var idi. Bizim dostluğumuz bu günlərdən başlamışdır.

Mehman müəllim direktor müavini işləyirdi. Məktəbdə elə bir sistem qurmuşdu ki, iş otağından hər bir sinifdə keçən dərsi dinləmək imkanı var idi. Müəllimlər bunu bildikləri üçün dərslərinə daha ciddi yanaşırdılar. Mehman müəllim yeni işləyən müəllimlərin dərslərini dinləyər və onlara dəyərli məsləhətlər verərdi. Bir gün məni yanına çağırdı. Dərsimi dinlədiyini və "Yeni bilik öyrədən" dərs üsulundan istifadə etməklə uğurlu metod seçdiyimi bildirdi. Digər dərslərimdə də bu metoddan istifadə etməyi məsləhət gördü. Əgər hər hansı bir çətinliklə qarşılaşaramsa o zaman mənə dəstək olacağını bildirdi. Bu məni çox ruhlandırdı.

Bir gün rayon təhsil şöbəsinin inspektoru dərs keçdiyim sinif otağına gəldi, dərsi dinləmək istədiyini bildirdi. Mən ondan sinif otağını tərk etməsini istədim və dərsi yalnız Mehman müəllimlə dinləyə biləcəyini söylədim. Inspektor pərt olaraq sinif otağını tərk etdi. Tənəffüsdə Mehman müəllim məni yanına çağırdı, inspektor da otaqda idi. Dərs metodumu bəyəndiyini söylədi. Ikinci dərsimi Mehman müəllimlə birlikdə sinif otağında əyləşərək dinlədilər. Çox razı qaldılar. Mehman müəllim mənə yanlışlıqlarımla yanaşı biliyimi, cəsarətimi və düzgün yolda olduğumu söylədi.

Bugünkü gündə peşəkar müəllim olmağım Mehman müəllim və Svetlana xanımın mənə göstərdikləri düzgün istiqamət və qayğıkeş münasibətlərinin nəticəsidir. Svetlana xanım indi aramızda yoxdur. Onun yoxluğu ailəsi ilə birlikdə dostlarını, şagirdlərini də kədərləndirir. Onu hər zaman xoş xatirələrlə yad edəcəyik.

***Mehman Əliyev 1995-ci ildə yenidən Zeynəddin kənd orta məktəbində müəllim işləməyə başlayıb.*** Pedaqoji kollektivdə böyük hörmət, nüfuz qazanıb. Şagirdlərinə tariximizi öyrədib, onlarda yüksək vətənpərvərlik ruhu aşılayıb, tarixi yurd yerlərimizdən, keçmişimizin gizli saxlanılan səhifələrindən söhbət açıb.

2009-cu ildə Babək Rayon Təhsil Şöbəsi Mehman Əliyevi Ermənistanla sərhəd olan Gərməçataq kənd tam orta məktəbinə direktor, ömür-gün yoldaşı Fəridə Nəcəfovanı isə riyaziyyat müəllimi təyin edib. Fəridə müəllim 2014-cü il yanvar ayının 21-də uzun sürən xəstəlikdən sonra vəfat edib. Ailənin ilk övladı Əfqan Bakıda SOCAR-da çalışır. Qızı Ləman Naxçıvan Dövlət Universitetini bitirib, Sadıq Nadirli adına Zeynəddin kənd tam orta məktəbində Coğrafiya müəllimidir. Kiçik oğlu Sərxan isə ədliyyə polisində işləyir. Beş nəvəsi var.

Mehman Əliyev çətinliklərə baxmayaraq Gərməçataq kənd tam orta məktəbində direktor və tarix müəllimi kimi vəzifəsinin öhdəsindən layiqincə gəlir. Kənd sakinlərinin, müəllim və şagirdlərin dərin hörmətini qazanmış Mehman müəllim haqqında Naxçıvan MR Təhsil Nazirliyində və Babək Rayon Təhsil Şöbəsində həmişə xoş sözlər deyilir.

***Yanvar 2015-ci il***

## DİLİMİZİ, ƏDƏBİYYATIMIZI ÖYRƏDƏN MÜƏLLİM



Müəllim olmaq, bu adı layiqincə daşımaq, doğrultmaq şərəflidir və şərəfli olduğu qədər də çətindir, böyük məsuliyyət tələb edir. Özü də Azərbaycan dili və ədəbiyyatı müəllimi olmaq, bu dili, bu ədəbiyyatı sevərək öyrənmək və öyrətmək xoşbəxtlikdir. Bunu arzu edib, ona çatanlar da var, yetməyənlər də. Bu ixtisasa yiyələnib istəyinə ail olanlardan biri Binəqədi rayonunda yerləşən Nizami Nərimanov adına 248 nömrəli tam orta məktəbin müəllimi Hüseynova Ləzifə Əbürrəhman qızıdır.

**Ləzifə Hüseynovanın 1956-cı il mart ayının 20-də, Novruz bayramında Naxçıvan rayonunun (indi Babək rayonu) Zeynəddin kəndində dünyaya gəlməsi Əbdürrəhman kişinin ailəsinə ikiqat bayram sevinci yaşadıb.** Ləzifə səkkizllik, yəni ümumi orta təhsilini Zeynəddin kənd əsas məktəbində bitirdikdən sonra qonşu Leninabad (indi Kərimbəyli) kənd orta məktəbində 9-cu və 10-cu siniflərdə yüksək qiymətlərlə oxumaqla orta təhsilini (yəni tam orta) başa vurub. Onun dilimizə, ədəbiyyatımıza olan dərin sevgi və sonsuz marağı ali təhsil almaq üçün öz layiqli ünvanını tapıb: Akademik Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji Institutu (indi Naxçıvan Dövlət Universiteti). 1973-cü ildə orta məktəbi bitirən Ləzifə qəbul imtahanlarında yüksək nəticə göstərməklə ali məktəbə daxil olub. 4 il ərzində biliyi, çalışqanlığı ilə müəllimlərinin etimadını tam doğruldub. 28 iyun 1977-ci ildə Dövlət imtahan komissiyasının qərarı ilə ona orta məktəbdə Azərbaycan dili və ədəbiyyatı müəllimi ixtisası verilib.

Pedaqoji institutu Fərqlənmə Diplomu ilə bitirən Ləzifə Hüseynova Zeynəddin kənd orta məktəbinə (1977-ci ildən) Pioner baş dəstə rəhbəri (indi Uşaq Birilyi Təşkilatı) vəzifəsinə işə düzəlib. Burada bir tədris ili fəaliyyət göstərib, ailə qurub. 1978-ci ildə Sovet Ittifaqı Qəhrəmanı Qəzənfər Əkbərov adına Cəhri kənd orta məktəbinə Azərbaycan dili və ədəbiyyatı müəllimi təyin edilib. Şagirdlərə dilimizin incəliklərini, qrammatikasını öyrədib, Nizamini, Füzulini, Qasım bəy Zakiri, Seyid Əzim Şirvanini, Mirzə Fətəli Axundovu, Mirzə Ələkbər Sabiri, Cəlil Məmmədquluzadəni, Səməd Vurğunu, Cəfər Cabbarlını, Bəxtiyar Vahabzadəni və digər onlarla yazıçı və şairlərimizi şagirdlərə sevdirib. Həmkarlarının, ən fəal şagirdlərin köməyi ilə Məmməd Əmin Rəsulzadənin, Hüseyn Cavidin, Yunis Imrənin, Xəlil Rza Ulutürkün və digər dahi şəxsiyyətlərin həyat və yaradıcılığı, yubileyləri münasibəti ilə və ən önəmli tarixi-əlamətdar günlərlə əlaqədar tədbirlər keçirib, gənc nəslin vətənpərvərlik ruhunda böyüməsi və tərbiyə almasında səy və bacarığını əsirgəməyib.

**1994-cü ildə ailəlikcə Bakıya köçən Ləzifə Hüseynova yuxarıda qeyd etdiyim kimi Bakı şəhər 248 nömrəli tam orta məktəbdə ixtisası üzrə işlə təmin olunub və hazırda da orada çalışır.** Onun fəaliyyəti məktəb rəhbərliyi və yuxarı təşkilatlar tərəfindən dəfələrlə yüksək qiymətləndirilib. 2005-ci ildə Binəqədi Rayon Təhsil Şöbəsi onu gənc nəslin təlim-tərbiyəsindəki xidmətlərinə görə, 2009-cu ildə Bakı Şəhəri üzrə Təhsil Idarəsi pedaqoji sahədə səmərəli fəaliyyətinə, gənc nəslin təlim-tərbiyəsində qazandığı uğurlara görə və «Beynəlxalq müəllim günü» münasibətilə fəxri fərmanlarla təltif ediblər. Ləzifə Hüseynova 2008-2009-cu tədris ilinin sonunda gənc nəslin təlim-tərbiyəsindəki xidmətlərinə, səmərəli pedaqoji fəaliyyətinə və məktəbin ictimai həyatında fəal iştirakına görə məktəb rəhbərliyi tərəfindən də fəxri fərmanla təltif olunub.

Ləzifə müəllimin biliklərə səylə yiyələnən, çalışqan, xüsusilə qəbul imtahanlarına inamla hazırlaşdırdığı yetirmələrinin sorağı bu gün Ingiltərədən, Almaniyadan və digər xarici ölkə-

lərdən, respublikamızın ali təhsil ocaqlarından gəlir: tələbə kimi, müəllim kimi, başqa bir peşənin sahibi kimi.

Ləzifə müəllimin oğlu Hüseynov Arzu Əli oğlu 2004 -cü ildə 671 balla Azərbaycan Respublikası Prezidenti yanında Dövlət Idarəçilik Akademiyasına qəbul olunub və Prezident təqaüdünə layiq görülüb. Berlin şəhərində magistr təhsili alıb. Hazırda Litva Respublikasında doktoranturada təhsilini davam etdirir. Qızı Aynur isə 2005-ci ildə Azərbaycan Dillər Universitetinin Ingilis dili fakültəsinə daxil olub, bakalavr və magistr təhsili alıb. Hazırda məzunu olduğu Azərbaycan Dillər Universitetində işləyir.

**Ulu öndər Heydər Əliyev demişdir:** «Həyatın əsas mənası bu həyatda öz yerini tutmaq, ləyaqət göstərmək və başqaları üçün nümunə olmaqdır». Həqiqətən də, sözün əsl mənasında insanı həyatda tutduğu mövqe, fəaliyyəti gözəlləşdirir, ən azından çalışdığı kollektivdə özünü sevdirir, böyük hörmət və nüfuz sahibi edir.

Hüseynova Ləzifə Əbdürrəhman qızı belə müəllimlərdən biridir. Əminik ki, qarşıdan gələn 2015-2016-cı tədris ilində o, yeni uğurlar qazanacaq, dərs dediyi şagirdlərin, məzunların əldə edəcəkləri nailiyyətlərlə fəxr edəcək, qürurlanacaq və deyəcəkdir: onlar biz müəllimlərin yetirmələridir, onların hər biri uğrunda biz müəllimlərin də əməyi vardır.

***İyul 2015-ci il***

# ƏMƏKDAR MÜƏLLİM



Zeynalabdin Nadirov hazırda Naxçıvan Muxtar Respublikası İqtisadi İnkişaf Nazirliyində işləyir. 28 il pedaqoji sahədə çalışıb, onun 21 ilini məktəb direktoru olub. Özü də yalnız bir təhsil ocağında: Babək rayonunun Sadıx Nadirli adına Zeynəddin kənd tam orta məktəbində.

**Nadirov Zeynalabdin Məhəmməd oğlu 1956-cı il oktyabr ayının 7-də Naxçıvan rayonunun Zeynəddin kəndində kolxozçu ailəsində anadan olub.** Atası Məhəmməd kişi Böyük Vətən Müharibəsində iştirak edib, əlil olmasına baxmayaraq ömür-gün yoldaşı Dilbər xanımla kənddəki Sabir adına kolxozda təsərrüfatın müxtəlif sahələrində işləyiblər. Zeynalabdin 1971-ci ildə Zeynəddin kənd 8 illik məktəbini bitirdikdən sonra qonşu Leninabad (indi Kərimbəyli) kənd orta məktəbində təhsilini davam etdirib. 1973-cü ildə orta təhsilini tamamlayan Zeynalabdin həmin ili ali məktəbə daxil ola bilməyib, lakin ruhdan da düşməyib. 1974-cü ildə Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutun (indiki Naxçıvan Dövlət Universiteti) Təbiət-Coğrafiya fakültəsinin Coğrafiya-Biologiya ixtisasına qəbul olunub. 5 illik ali təhsili müvəffəqiyyətlə başa vurub, 1979-cu ildə Babək rayonunun Zeynəddin kənd tam orta məktəbinə (1972-ci ildə orta məktəbə çevirib) ixtisası üzrə müəllim təyin edilib. Müəllim işləməklə bərabər 1983-cü ildə Təlim-tərbiyə işləri üzrə direktor müavini, 1985-ci ilin aprelində isə Direktor vəzifəsinə irəli çəkilib.

Ötən illəri yada salan Zeynalabdin müəllim deyir: - 1985-ci il aprel ayının ortalarında məktəbin direktoru Səadət Rəsulova Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyində işlə təmin

olunduqdan sonra məktəbə rəhbərlik etməyə başlamışam. 1988-1992-ci illərdə məktəb məktəb-bağçaya çevrilmiş, məqsəd də kənddə uşaq bağçası olmadığından uşaqların bağçadan məktəbə gəlməsini təmin etmək olmuşdur. 1992-ci ildə məktəb-bağça ləğv edilmiş, lakin uşaqların məktəbə hazırlığı müəllim və valideynlərin diqqətindən kənarda qalmamışdır. 1986-cı ildən məktəbdə tarix müəllimi Əli Novruzovun rəhbərliyi ilə şagird istehsalat briqadası fəaliyyət göstərmiş və bu sahədə böyük nailiyyətlər qazanmışdır. 1988-ci ildə 60-cı illərin ortalarından təşkil olunmuş və bir neçə kəndi, o cümlədən Zeynəddin kəndini də əhatə edən "Naxçıvan" üzümçülük sovxozundan 10 hektar üzüm bağı, 10 hektar otlaq sahəsi, 5 baş inək, 1 şum traktoru alınaraq məktəbin balansına verilmişdir. 1994-cü ilin oktyabr ayından Zeynəddin kənd orta məktəbi "Zeynəddin kənd Kənd Təsərrüfatı Təmayüllü Məktəb-Müəssisə Kompleksi Məhdud Məsuliyyətli Cəmiyyəti"nə çevrilmişdir. Məktəb internattipli olduğundan burada muxtar respublikanın hər yerindən az təminatlı ailələrin və ailə başçılarını itirmiş ailələrin uşaqları da təhsil alırdı. Yeni tipli bu təhsil ocağında uşaqlar 4 yaşından məktəbin bağçasına qəbul olunaraq oradan da birinci sinfə daxil olurdular.

Doqquzuncu sinfi bitirən şagirdlər isə müsabiqə yolu ilə ixtisas siniflərinə - "Kənd təsərrüfatında mühasibatlıq", "Kənd təsərrüfatı maşınlarının idarə olunması" və "Kənd təsərrüfatının idarə olunması" siniflərinə daxil olur, qalan şagirdlər isə müxtəlif təmayüllü siniflərdə təhsillərini davam etdirirdilər.

1994-cü ildən məktəbdə diferensial təhsil sistemi fəaliyyət göstərmişdir ki, bu Naxçıvan təhsilində ilk idi. Şagirdlər məktəbi bitirərkən attestatla bərabər həm də ixtisas diplomları alırdılar. Bu illər ərzində məktəbin yardımçı təsərrüfatı tam formalaşmışdır. 40 hektar yardımçı təsərrüfat sahəsi, 4 traktoru, 1 kombaynı və sairə var idi. Yardımçı təsərrüfatdan əldə olunan gəlirlə 40 başlıq müasir tövlə binası, 860 kvadratmetr istilikxana, sutkada 2 ton un üyüdən dəyirman, 14 otaqdan ibarət 2 mərtəbəli yataqxana binası tikilmişdir. Hazırda yataqxana binasında

Uşaq musiqi məktəbi fəaliyyət göstərir. Qazanılan gəlirin bir qismi isə uşaqların yeməyinə sərf edilirdi.

Hər il məktəbi bitirən məzunların 40-45 faizi, bəzi illərdə daha çoxu ali məktəblərə qəbul olunurdu. 1996-2003-cü illərdə Naxçıvan Müəllimləri Təkmilləşdirmə İnstitutu tərəfindən məktəbin qabaqcıl iş təcrübəsi yayılmışdır.

Kənd məktəbində qazanılan nailiyyətlər, pedaqoji kollektivin uğurları, məzunların ali məktəblərə qəbulu zamanı göstərdiyi nəticələr, məktəb direktorun çoxşaxəli fəaliyyəti həmişə diqqət mərkəzində olub. Zeynalabdin Nadirov 2 dəfə Azərbaycan Respublikası Təhsil Nazirliyinin Fəxri fərmanına layiq görülüb. 1998-1999-cu tədris ilinin sonlarında keçmiş Təhsil naziri Misir Mərdanov Naxçıvan MR-də olduğu vaxt məktəb-müəssisə kompleksinin direktoru Zeynalabdin Nadirovun təşkilatçılıq fəaliyyətini və əldə etdiyi uğurları yüksək qiymətləndirərək ona Fəxri fərman təqdim edib. 1998-ci ildə onun hərtərəfli səmərəli fəaliyyəti daha yüksək qiymətləndirilib, Zeynalabdin müəllimə Naxçıvan Muxtar Respublikasının "Əməkdar müəllim"i fəxri adı verilib. Onu da qeyd edək ki, o, kənd məktəbinin ilk Əməkdar müəllimidir. Zeynəddinli Həsən Talıb oğlu Salayev isə Naxçıvan şəhərində yaşayıb və muxtar respublikada təhsilin inkişafındakı xidmətlərinə görə 1957-ci ildə bu ada layiq görülüb.

2005-ci ilin axırlarında məktəb-müəssisə kompleksi ləğv edilərək adi orta məktəbə çevrildikdən sonra Zeynalabdin Nadirov 2007-ci ilin iyun ayının 7-dək ixtisası üzrə müəllim kimi fəaliyyət göstərib. Öz ərizəsi ilə işdən azad olunaraq Naxçıvan Muxtar Respublikası İqtisadi İnkişaf Nazirliyində əmək fəaliyyətini davam etdirməyə başlayıb. Zeynalabdin Nadirovun üç övladı var. Qızı Dilbər nənəsinin adını daşıyır, Naxçıvan Dövlət Universitetinin Tarix, Toğrul həmin universitetin Gənclərin çağırışaqədərki hazırlığı və idman, ikinci təhsili hüquqşünas, Bəhruz isə Azərbaycan Kooperasiya Universitetinin Beynəlxalq münasibətlər ixtisaslarını bitiriblər.

***Aprel 2014-cü il***

## ELDAR QASIMOVUN UĞURLARI



Qasımov Eldar Məhərrəm oğlu kənd təsərrüfatı üzrə fəlsəfə doktoru, Azərbaycan Milli Elmlər Akademiyası Torpaqşünaslıq və Aqrokimya İnstitutunun böyük elmi işçisidir. "Təbii çayların su təmizləyici qurğularında toplanan çöküntülərin kənd təsərrüfatında təkrar istifadəsi" və "Ərzaq təhlükəsizliyi stategiyasında torpaq minerallarının rolu" kitablarının müəllifidir. Birinci kitabdan ölkəmizin universitetlərində, o cümlədən Bakı Dövlət Universitetində əlavə dərslik kimi istifadə edilir. Onun 40-da çox elmi məqaləsi var və Azərbaycan, rus, ingilis və digər dillərdə çap olunub.

**Eldar Qasımov 14 noyabr 1957-ci ildə Naxçıvan rayonunun (indiki Babək) Zeynəddin kəndində anadan olub.** O dövrün qaydasına uyğun olaraq 1964-cü ildə, 7 yaşında kənd məktəbinin 1-ci sinfinə qəbul edilib. 1972-ci ildə səkkizillik, yəni natamam orta təhsilini başa vuran ili kəndəki məktəb orta məktəbə (onillik məktəbə) çevrilib və Eldar əvvəlki məzunlar kimi qonşu kənddəki orta məktəbə getməyib, kənddəki məktəbdə təhsilini davam etdirib və 1974-cü ildə orta məktəbi bitirib.

O, "Naxçıvan" üzümçülük savxozunda işə düzəlib, torpağa, təsərrüfata bağlanıb. 1976-1978-ci illərdə vətənə hərbi xidmət borcunu yerinə yetirib və yenidən təsərrüfata qayıdıb. Sovxozun rəhbərliyi Eldarın əməksevərliyini və ali təhsil almaq istəyini nəzərə alaraq 1983-cü ilin payızında ona ali məktəbin hazırlıq şöbəsinə qəbul olunması üçün müvafiq sənəd verib. Eldar İnşaat Mühəndisləri İnstitutunun hazırlıq şöbəsini (indiki

Azərbaycan Memarlıq və İnşaat Universiteti) 1984-cü ildə müvəfəqiyyətlə bitirib və birinci kursa qəbul olunub. 1989-cu ildə Su elektrik stansiyalarının tikintisi üzrə ali təhsilini tamamlayıb və bir müddət özəl sahədə çalışıb.

Atalar doğru deyib: niyyətin hara, mənzilin ora. Fransız yazıçısı Emil Zolya da deyib: "Heç vaxt dayanmaq bilməyən həyatla bərabər daim irəliyə, irəliyə doğru getmək lazımdır". Eldar Qasımov da irəliyə doğru inamla addımlayıb. 1991-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının Torpaqşünaslıq və Aqrokimya İnstitutuna elmi işçi qəbul edilib və Akademiyanın aspiranturasına daxil olub. Aspirantura təhsilini başa vurduqdan bir müddət sonra çalışdığı institutda **"Naxçıvan Muxtar Respublikasında suvarılan torpaqların fiziki-kimyəvi mineraloji xüsusiyyətləri və onların üzüm bitkisinin məhsuldarlığına təsiri" mövzusunda dissertasiya müdafiə edib.** Həmin ərəfədə anası Mənsurə xanım da kənddən Bakıya gəlib və oğlunun dissertasiya işinin müdafiəsində iştirak etməklə fərəh, sevinc, qürur hissi keçirib.

*Qüvvət elmdədir, başqa cür heç kəs,*
*Heç kəsə üstünlük eyləyə bilməz.*
*Hər uca rütbədən biliniz, fəqət,*
*Alimin rütbəsi ucadır əlbət.* ***(Nizami Gəncəvi)***

Eldar Qasımov ailəlidir, üç oğul atasıdır. Səməd Qasımzadə Azərbaycan Milli Ordusunun zabitidir. Baş leytenant rütbəsində Vətənin keşiyindədir. Ömrünün mənasını Vətənə hərbi xidmətdə görür. Yaxşı bilir ki, ordu Vətənin, Müstəqilliyin dayağıdır. Əhməd Qasımzadə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin məzunudur. İncəsənətin kino sahəsində çalışır, quruluşçu rəssamdır. 120 illik tarixə malik Azərbaycan kinosuna o da öz töhfəsini verir. Nemət Qasımzadə isə Azərbaycan Milli Elmlər Akademiyasında mühafizə xidmətindədir.

***May 2018-ci il***

## İŞGÜZAR, TƏMKİNLİ VƏ TƏLƏBKAR DİREKTOR



Bir ilə yaxın idi ki, Naxçıvan MSSR Dövlət Televiziya və Radio Verilişləri Komitəsində redaktor işləyirdim. Çalışdığım redaksiyanın işinə müvafiq olaraq məktəblilər, tələbələr və gənclər haqqında verilişlər hazırlayırdım. 1976-cı ilin iyun ayı idi, ümumtəhsil məktəblərinin 10-cu siniflərində buraxılış imtahanları gedirdi. Naxçıvan rayonundakı (1979-cu ildən Babək rayonu) Zeynəddin kənd orta məktəbin pedaqoji kollektivinin fəaliyyətindən, bir neçə həftədən sonra müstəqil həyata qədəm qoyacaq yeniyetmələrin hazırlığından, buraxılış imtahanlarının gedişindən məqalə hazırlayırdım. Imtahan başlamazdan əvvəl bəstəboy, qarayanız bir oğlan şagirdlər arasında apardığım söhbət zamanı diqqətimi daha çox cəlb etdi. Imtahanda həmin oğlan qismətinə düşən biletin suallarına həyəcanlı, lakin tam dolğun "əla" qiymətə layiq cavab verdi. Müəllimlərin əlavə suallarına da həmçinin. Həmin oğlan haqqında söhbət açacağım Hacıyev Rəhman Balabəy oğlu idi.

Öncədən qeyd edim ki, hazırda ümumtəhsil məktəblərində işləyən fəlsəfə elmləri doktorları, Əməkdar müəllimlər, "Tərəqqi" medalına, Azərbaycan Respublikasının "Qabaqcıl təhsil işçisi" döş nişanına layiq görülmüş müəllimlər, məktəb rəhbərləri az deyil. Onlardan biri də Bakıdakı Bəhruz Sultanov adına 34 nömrəli tam orta məktəbin direktoru Rəhman Hacıyevdir.

***Rəhman Hacıyev 1959-cu il oktyabr ayının 1-də Naxçıvan rayonunun Zeynəddin kəndində dünyaya göz açıb.*** 1966-cı ildə birinci sinfə qədəm qoyub və əvvəldə qeyd etdiyim kimi, 1976-cı ildə orta məktəbi bitirib. Iki il Naxçıvan şəhərində istehsalatda çalışıb. 1978-ci ildə Yusif Məmmədəliyev adına

Naxçıvan Dövlət Pedaqoji Institutunun (Naxçıvan Dövlət Universiteti) Tarix fakültəsinə daxil olub. 1982-ci ildə ali təhsilini başa vuran Rəhman Hacıyev ordu sıralarına çağırılıb və 1982-1984-cü illərdə Leninakan şəhərində (Ermənistan) hərbi xidmət keçib. 1984-cü ilin sentyabr ayından 1991-ci ilədək Naxçıvan şəhərində və Babək rayonunda fəaliyyət göstərən dövlət və özəl idarə və müəssisələrdə müxtəlif vəzifələrdə çalışıb.

Rəhman Hacıyev pedaqoji fəaliyyətə o zaman Şıxmahmud kənd orta məktəbin binasında fəaliyyət göstərən Naxçıvan Sovxoz Texnikumunda başlayıb. 1 fevral 1991-ci ildən 1 avqust 1995-ci ilədək orada müəllim işləyib. Bakı şəhərinə köçüb. Pedaqoji fəaliyyətini davam etdirmək istəyi 12 yanvar 1998-ci ildə reallaşıb. Nəriman Nərimanov rayonundakı 36 nömrəli orta məktəbə tarix müəllimi təyin edilib. Onun səmərəli pedaqoji fəaliyyəti, işgüzarlığı yuxarıların diqqətindən yayınmayıb. 2003-cü il aprelin 8-də həmin rayondakı 57 nömrəli orta məktəbə direktor vəzifəsinə irəli çəkilib və 18 noyabr 2004-cü ildə 34 nömrəli orta məktəbə direktor göndərilib, hazırda da bu vəzifəni icra edir.

**Nərimanov rayonundakı Natiq Tağıyev adına 212 nömrəli tam orta məktəbin direktoru**, ***Azərbaycan Respublikasının Əməkdar müəllimi Qurban Həsənovun Rəhman Hacıyevi yaxşı tanıdığından onunla görüşdüm.*** Rəhman müəllim haqqında "Təhsil problemləri" qəzetinə məqalə hazırladığımı və sonradan həmin məqaləni Zeynəddin kəndi və yetirmələri ilə bağlı hazırladığım kitaba daxil edəcəyimi söylədim, diktafonu işə saldım. Qurban müəllim xoş təbəssümlə və məmnuniyyətlə söhbətə başladı:

- Rəhman Hacıyev haqqında fikirlərimi belə ifadə edərdim. O, olduqca işgüzar, təmkinli, öz yerini bilən və eyni zamanda, obyektiv bir insandı. Rəhman müəllim mən 36 nömrəli məktəbdə direktor işləyərkən orada tarix müəllimi işləyirdi. Məktəbdə sayılıb-seçilən, nüfuzlu müəllimlərdən biri idi. Məsələ burasındadır ki, biz elə o, müəllim işlədiyi dövrdən

dostluq etməyə başladıq. 15 ildən çoxdur ki, bizim dostluğumuz davam edir. Indi Rəhman müəllim məktəb rəhbəri kimi çalışır, eyni rayonda işləyirik. O, məktəbdə intizamı sevən, çox tələbkar bir insandı. Mən onun tələbkarlığına qibtə ilə yanaşıram. O, dediyi sözün üstündə axıradək dayanan və dediyi hər hansı bir təklifini həyata keçirməyə çalışandı. Bu gün Rəhman müəllimin pedaqoji ictimaiyyətdə özünəməxsus yeri var və eyni zamanda, millətini və xalqını sevən, çox böyük milli qürura malik bir insandı. Rəhman müəllim doğrudan da xüsusi xarakterə malikdi, bir mənada ki, o, daima millətimiz haqqında, tariximiz haqqında tarixi faktları həmişə araşdırır. O haqda həmişə söhbətlərimiz olur, o, mənim fikirlərimlə, mən də onun fikirləri ilə əksəriyyət vaxt razılaşırıq.

Onun dediyi bir söz var. Deyir ki, mən məktəb işinin başlanğıcını Qurban müəllimdən öyrəndim. Amma bu gün Rəhman müəllim özü bir sıra cavan məktəb rəhbərinə bir örnəkdir. Cavan məktəb rəhbərləri, təcrübəsi az olanlar Rəhman müəllimdən öyrənirlər. Yəni Rəhman müəllim həm öyrənir, həm öyrədir, həm tədqiqat aparır, həm də mili qürurlu bir adamdır. Mən bir faktı qeyd etmək istəyirəm. Biz Rəhman müəllimlə hərdən oturub Qarabağ məsələləri, Azərbaycanın keçmiş tarixi, Azərbaycanın keçmiş torpaqları haqqında, inanırsınızmı, ürək ağrısı ilə söhbətlər aparırıq, müəyyən fikirlər irəli sürürük ki, gələcəkdə bu necə ola bilər.

Rəhman müəllim öz yerini, öz yurdunu, öz obasını, öz kəndini çox sevən bir adamdı. Müxtəlif sahələrdə, müxtəlif yerlərdə dostları çoxdur. O, həmişə hər hansı bir işdə çox zaman atasından bir misal çəkir. Bu o deməkdi ki, Rəhman müəllim yaxşı bir ailədə böyüyüb. Hiss olunur ki, atası güclü bir insandı, ailədə böyük təsiri olub, əlbəttə, inkişafında, gələcəyində…

***Babək rayonundakı Gərməçataq kənd tam orta məktəbinin direktoru, tarix müəllimi Mehman Əliyev:***

- Rəhman müəllimlə hələ orta məktəb illərindən dostluq edirəm. Institutda da məndən bir kurs aşağıda oxuyurdu. Eyni

ixtisasa yiyələnirdik. Tələbəlik illərindən xoş xatirələr çoxdur. O, dosta, yoldaşlığa çox sədaqətlidir. Sözünə bütövdür, çalışdığı bütün işlərdə öz xeyirxahlığı, səmimiliyi, diqqətcilliyi ilə həmişə fərqlənib. Rayonda yaşasam da onunla dostluq əlaqələrimiz bu gün də davam edir. Mən Bakıda, o rayonda olanda görüşürük. Rəhman müəllimə möhkəm cansağlığı, özünə və rəhbərlik etdiyi pedaqoji kollektivə gənc nəslin təlim-tərbiyəsində müvəffəqiyyətlər arzulayıram.

***2012-ci il Rəhman Hacıyev üçün ən unudulmaz, yaddaqalan illərdən biridir. Həmin ilin dekabrında Azərabycan Milli Elmlər Akademiyasında "Heydər Əliyev və Azərbaycan Respublikasında gənclər siyasəti (1993-2003-cü illər)" mövzusunda dissertasiya işini müvəffəqiyyətlə müdafiə etmiş və ona Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi verilmişdir.***

Hacıyev Rəhman Balabəy oğluna həm pedaqoji işində, həm də elmi yaradıcılıq fəaliyyətində yeni-yeni uğurlar diləyirik.

***Oktyabr 2014-cü il***

## ÖMRÜNÜN 20 İLİNİ İDMAN ALƏMİNDƏ KEÇİRİB



Mübariz Quliyev qaçış üzrə SSRİ çempionatında 4 dəfə və birinciliyində 3 dəfə fəal iştirak edib. Keçmiş Sovetlər birliyinin, Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində keçirilən idman yarışlarında iştirak edən ilk Zeynəddinlidir. 1995-ci ilin aprel ayında Moskva şəhərində 20km məsafəyə qaçış üzrə yarışda iştirak edən Mübariz adının fərqlənənlər sırasında çəkilməsinə nail olub.

Mübariz 1977-ci ildə doqquzuncu sinifdə oxuyan zaman Bakıda keçirilən Azərbaycan məktəblilərinin spartakiadasında 5 min metr məsafəyə qaçışda birinci yeri tutub, fəxri kürsünün ən yüksək pilləsinə qalxmağa nail olub və Azərbaycan çempionu adını qazanıb. Naxçıvan Muxtar Respublikasında keçirilən uzaq məsafəyə qaçış yarışlarında da uğurla iştirak edib, dəfələrlə "Dinamo" Cəmiyyətinin və digər müvafiq təşkilatların fəxri fərmanlarına, diplomlara və digər mükafatlara layiq görülüb.

**Quliyev Mübariz Fərəməz oğlu 2 oktyabr 1960-cı ildə Zeynəddin kəndində müəllim ailəsində təvəllüd edib.** 1978-ci ildə kənddəki orta məktəbi bitirib və yeni məktəb binasının tikintisində əmək fəaliyyətinə başlayıb. 1979-cu ildə hərbi xidmətə yollanıb. 1981-ci ildə ordu sıralarından xərxis olunan Mübariz Babək rayonundakı kərpic zavodunda işə düzəlib. Yaxşı işini və idman sahəsindəki uğurlarını nəzərə alan müəssisə rəhbərliyi 1983-cü ilin sonlarında onun Azərbaycan Bədən Tərbiyəsi və İdman İnstitunun hazırlıq şöbəsində təhsil almasına göndəriş verib. Hazırlıq şöbəsini müvəffəqiyyətlə bitirən Mübariz 1984-cü ildə İnstituta (indiki Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası) qəbul olunub. Bir il sonra,

1985-ci ilin sentyabr ayında institutun qiyabi şöbəsinə keçib və oktyabr ayının 1-də Zeynəddin kənd 188 nömrəli orta texniki-peşə məktəbində bədən tərbiyəsi rəhbəri vəzifəsinə təyin edilib. 1988-ci ilin sentyabr ayından kəndəki Sadıq Nadirli adına orta məktəbdə pedaqoji fəaliyyətini davam etdirən Mübariz müəllim, eyni zamanda, 1988-1990-cı illərdə Naxçıvan Dövlət Pedaqoji İnstitutunda laborant vəzifəsində çalışıb. Tələbə və məktəblilərin Naxçıvanda və Bakıda keçirilən idman yarışlarında iştirak etməsində fəallıq göstərib, komandalara rəhbərlik edib.

1995-ci ildə mövcud şəraitə uyğun olaraq pedaqoji fəaliyyətini dayandıraraq özəl sahədə çalışan Mübariz Quliyev elə həmin ildən də Bakı şəhərində yaşayır. Ömür-gün yoldaşı Məmləkət Əliyeva Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında işləyir. Qızı Rübabə Quluzadə bu ali təhsil ocağının ikinci kurs, oğlu Rasim isə Azərbaycan Dövlət Sərhəd Xidməti Akademiyasının dördüncü kurs tələbəsidir.

Rübabə 2 iyun 2018-ci ildə gənclər arasında güllə atıcılığı üzrə keçirilən Azərbaycan çempionatında birinci yeri tutub, çempion adını qazanıb. Rasim də tezliklə bir zabit kimi su sərhədlərimizi qoruyacaq. Osetin xalqında belə bir atalar sözü var: “Polad odda bərkiyər, insan mübarizədə və çətinliklərdə”.

***İyun 2018-ci il***

## TARİXİMİZİ ÖYRƏDƏN MÜƏLLİM



2001-2002-ci tədris ilindən Bakının Nərimanov rayonundakı Azərbaycanın Milli Qəhrəmanı Alı Mustafayev adına 202 nömrəli tam orta məktəbdə tarix müəllimi işləyən Hümmətova Nuriyyə Əli qızı 2003-cü ildən Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının nəzdində fəaliyyət göstərən tarix fənni üzrə elmi-metodik şuranın iştirakçısıdır. TQDK tərəfindən nəşrə verilmiş Tarix dərs vəsaitində və 11-ci sinif Ən yeni tarix, 10-cu sinif Yeni Tarix, 9-cu sinif Azərbaycan tarixi, 8-ci sinif Orta əsrlər tarixi test tapşırıqları kitablarında rəyçilərindən, 6-cı sinif Azərbaycan tarixi və 7-ci sinif Azərbaycan tarixi test kitablarının həmmüəlliflərindən biridir. Bu yaxınlarda işıq üzü görəcək 6-cı sinif Qədim dünya tarixi test kitabının da həmmüəlliflərindəndir. Bir sıra mətbu orqanlarında çap olunmuş metodik məqalələrin müəllifidir. "Öz qüvvəsinə inamsızlığa qarşı mübarizə" ("Azərbaycan dəmiryolçusu" qəzeti, 25-31 avqust 1999-cu il), "Xalçalarımız dünya muzeylərini bəzəyir" ("Iki sahil" qəzeti, 7 yanvar 2000-ci il), "Ərəb əsarətinə qarşı xalq azadlıq hərəkatının başlanması" ("Təhsil problemləri" qəzeti, 1-7 fevral 2013-cü il), "Sacilər dövləti" ("Təhsil problemləri" qəzeti, 24-28 fevral 2013-cü il), "Şagirdlərin idrak fəaliyyətinin inkişaf etdirilməsi yolları" ("Azərbaycan məktəbi" jurnalı, 2013-cü il, №4) məqalələri təhsil işçiləri, oxucular tərəfindən maraqla qarşılanmışdır.

Azərbaycan Respublikası Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin (indiki "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti) 7 dekabr 1998-ci ildə Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyinə ünvanladığı arayışda deyilir: "… Nuriyyə Hümmətova Şirkətlə əlaqə sax-

layır, "Araz" proqramında, əsasən təhsildə aparılan islahatlar, təlim-tərbiyə sahəsində görülən işlər, çalışdığı məktəbdə keçirilən tədbirlər haqqında informasiyaları səslənir. Noyabr-dekabr aylarında efirə verilmiş materiallarda Babək rayonundakı Zeynəddin kənd təsərrüfatı təmayüllü məktəb-müəssisə kompleksinin iş təcrübəsindən, yeniyetmələrin vətənpərvərlik tərbiyəsindən və dünya muzeylərini bəzəyən xalçalarımızdan ətraflı söhbət açılıb".

Nuriyyə müəllim son 3 ildə bir neçə təlim kursunda iştirak edib. 2011-ci ildə "Smart Technologies" şirkəti tərəfindən təşkil edilmiş "Dymo/Mimio Interaktiv Texnologiyaları ilə tədris", 2012-ci ildə Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunun "İnformasiya Kommunikasiya Texnologiyalarının köməyi ilə tədris prosesinin təşkili", 2013-cü ildə "Unikal" MMC-nin Tarix fənn kurikulumlarının tətbiqi ilə əlaqədar təşkil etdiyi, tədrisi Təhsil Problemləri Institutunun əməkdaşları tərəfindən aparılan "Öyrədənlərin öyrədəni" təlim kurslarını müvəffəqiyyətlə bitirərək Sertifikatlara layiq görülüb. "Öyrədənlərin öyrədəni" təlim kursunu yüksək göstəricilərlə başa vurduğuna görə ona "Təlimçi" statusu verilib.

**Nuriyyə Hümmətova 14 fevral 1964-cü ildə Naxçıvan rayonunun (indiki Babək) Zeynəddin kəndində ziyalı ailəsində dünyaya gəlib.** Atası Hümmətov Əli Muradəli oğlu Naxçıvanda yaxşı tanınan Azərbaycan dili və ədəbiyyatı müəllimi olub. Anası Hümmətova Nənəxanım Qurban qızı əvvəlcə kolxozda sonra isə sovxozda işləyib. Nuriyyə müəllim 8-ci sinfi kənd məktəbində, 10-cu sinfi Naxçıvan şəhərindəki Əkbər Ağayev adına internat məktəbində bitirib. Internat məktəbində dərslər digər təhsil ocaqlarına nisbətən 1 saat gec başladığına görə, kənddə yaşayan Nuriyyə hər gün dərsə vaxtında çatmaq üçün burada oxuyub və tam orta təhsilini 1981-ci ildə başa vurub. Həmin ili pedaqoji instituta daxil ola bilməyib, Naxçıvan Gənc Turistlər Stansiyasında Tarix-diyarşünaslıq dərnəyinin rəhbəri kimi pedaqoji fəaliyyətə başlayıb.

1982-ci ildə Akademik Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutunun (indiki universitet) Tarix ixtisasına qəbul olunub və 1987-ci ildə ali təhsilini tamamlayıb. 1982-ci ilin oktyabr ayında Zeynəddin kənd tam orta məktəbinə kitabxana müdiri təyin edilən Nuriyyə Hümmətova üçüncü kursu bitirdikdən sonra həm də, eyni zamanda tarix fənnini də tədris etməyə başlayıb. Bir neçə il sonra isə ali təhsilli müəllim kimi həmkarları ilə çiyin-çiyinə çalışıb, şagirdlərin ən sevimli müəllimlərindən biri olmaqla kollektivdə böyük hörmət və nüfuz qazanıb. Hazırda müxtəlif sahələrdə çalışan yetirmələri hər zaman onun haqqında xoş sözlər söyləyirlər. Elə Nuriyyə müəllimin özü də ötən əsrin 80-90-cı illərində birlikdə çalışdığı dünyasını dəyişmiş, təqaüddə olan, hazırda işləyən müəllimlər haqqında böyük ehtiramla, xoş xatirələrlə söhbət açır.

30 ildən artıq bir müddətdə pedaqoji fəaliyyət göstərən, müasir təlim texnologiyalarından bacarıqla istifadə edən, həmkarları arasında fərqlənən, məktəb rəhbərliyi tərəfindən dəfələrlə mükafatlandırılan, şagirdlərə elm, billik öyrədən, həyatı bacarıqlar aşılayan, onları həyatda fəal mövqe tutmağa səsləyən Nuriyyə müəllimi ad günü münasibətilə təbrik edir, ona möhkəm cansağlığı, hər bir işində yüksək nəticələr qazanmağı arzulayırıq.

***Fevral 2014-cü il***

***Qeyd:*** *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 3 oktyabr 2017-ci il tarixli Sərəncamı ilə Hümmətova Nuriyyə Əli qızı Azərbaycan təhsilinin inkişafındakı xidmətlərinə görə "Tərəqqi" medalı ilə təltif edilib.*

# CƏFAKEŞ ANA, TƏCRÜBƏLİ MÜƏLLİM



Alman və ingilis dillərini mükəmməl bilən, Naxçıvan Muxtar Respublikasının Babək rayonundakı Sadıx Nadirli adına tam orta məktəbin ingilis dili müəllimi Axundova Vəfa Tahir qızı bu il 50 illik yubileyini qeyd edəcək. Tarixə çevrilən 2013-cü il isə onun üçün ən uğurlu illərdən biri kimi yadda qalacaq. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 6 avqust 2013-cü il tarixdə imzaladığı "2012-2013-cü tədris ilində keçirilmiş "Ən yaxşı müəllim" müsabiqəsinin qaliblərinin mükafatlandırılması haqqında" Sərəncamı ilə Vəfa Tahar qızının (yəqin ki, əvvəlki sənədlərində atasının adı Tahar yazılıb. Əslində Tahir ərəb sözüdür və təmiz, pak mənasını daşıyır - Ə.H.) əməyinə dövlət səviyyəsində yüksək qiymət verilib, digər qaliblər kimi o da layiqincə mükafatlandırılıb. Respublika müəllimlərinin növbəti qurultayına nümayəndə seçilib və ilin son ayında - dekabrın 14-də on dördüncü qurultayda iştirak edib. Bakıdan xoş təəssüratlarla qayıdan Vəfa müəllim görüb-eşitdikləri barədə həmkarlarına söhbət açıb.

**Vəfa Axundova (əvvəlki familyası Hacıyeva - Ə.H.) 1964-cü il oktyabrın 20-də Naxçıvan rayonunun (23 oktyabr 1978-ci ildən Babək rayonu) Zeynəddin kəndində bənna Tahirin və Tamaranın ailəsində dünyaya gəlib.** 1972-1982-ci illərdə orta məktəbdə təhsil alıb. Gələcəkdə xarici dil müəllimi olmaq fikrini qətiləşdirib, alman və ingilis dillərinə böyük maraq göstərib. Həqiqət Şirəliyev və Qasım Qasımovdan alman dilini həvəslə öyrənib. Alman dilini öyrənməkdə Qasım müəllim ona daha çox yardımçı olub, qəbul imtahanına hazırlaşdırıb. Vəfa orta məktəb illərində əlavə məşğələlər, ciddi çalışmalar sayə-

sində alman dilini yaxşı mənimsəyib. Ali məktəbə qəbul zamanı müsabiqədən keçə bilməməsi onu ruhdan salmayıb. Bir neçə kəndi, o cümlədən Zeynəddin kəndini də əhatə edən "Naxçıvan" üzümçülük sovxozunda işləyib. 1984-cü ildə SSRİ-nin 50 illiyi adına Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutuna (indiki Azərbaycan Dillər Universitetinə) qəbul olunub. Atası dünyasını dəyişib, çətinliklərə baxmayaraq Vəfa 1989-cu ildə institutu Alman-ingilis dilləri üzrə fərqlənmə diplomu ilə bitirib. 1989-1992-ci illərdə Babək Rayon Komsomol Komitəsində III katib-Məktəbli-gənclər şöbəsinin müdiri vəzifəsində çalışıb. 1992-ci ildə Zeynəddin kənd tam orta məktəbində əvvəlcə alman dili, sonra isə ingilis dili müəllimi kimi bugünədək gənc nəslin təlim-tərbiyəsi ilə məşğuldur, şagirdlərə ingilis dilini öyrədir.

**Məktəbin direktoru Raiq İsmayılov:** -Vəfa müəllim kollektivimizin fəxridir. Adını ən yaxşı müəllimlərimizin sırasında çəkməyə bilmərəm. Peşəsinin vurğunudur, hər zaman həmkarlarına dəstək olur. Dərslərini müasir tələblər səviyyəsində qurur, nümunəvi açıq dərslər verir, dərs dinləmələrdə fəal iştirak edir və müzakirələrdə geniş fikir mübadiləsi aparır, öz fikirlərini açıq şəkildə söyləyir, çalışır ki, nöqsanlar vaxtında aradan qaldırılsın. Vəfa müəllim işində çox məsuliyyətlidir, diqqətcil və qayğıkeşdir. Müəllim və şagirdlər arasında böyük hörmət və nüfuza malikdir. "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi olması, Azərbaycan müəllimlərinin on dördüncü qurultayında muxtar respublikamızı, rayonumuzu təmsil etməsi pedaqoji kollektivimizdə sevinc və fərəh doğurur…

**İngilis dili müəllimi Aysel Abdullayeva:** -Vəfa müəllimin yetirməsi olmağımla fəxr edirəm. O, mənə orta məktəbdə 1998-ci ildən 2004-cü ilədək dərs deyib. İngilis dilinə, müəllimliyə məndə böyük maraq oyadıb. Hazırda sevimli müəllimlə birlikdə çalışdığıma çox şadam. Bundan qürur duyuram. Hər zaman onun məsləhətlərinə əməl etməklə uğur qazanır, şagirdlərimin qəlbinə yol tapıram. Çalışıram ki, Vəfa müəllim kimi onların sevimlisi olum, dərin hörmətini qazanım. Hər bir uğuruma

ilk növbədə o sevinir. Ötən tədris ilində "Ən yaxşı müəllim" müsabiqəsində qalib gəlməsi münasibətilə Vəfa müəllimi bir daha təbrik edir, əziz müəllimimə uzun ömür, möhkəm cansağlığı və pedaqoji fəaliyyətində yeni-yeni uğurlar diləyirəm.

Vəfa Hacıyeva 14 oktyabr 1990-cı ildə Azərbaycan Memarlıq və Inşaat Universitetinin məzunu, mühəndis Axundov Sahib Ismayıl oğlu ilə ailə qurub. Övladları - Mahirə 1992-ci, Məhsəti 1994-cü, Eldəniz isə 1997-ci ildə dünyaya göz açıblar. Tam orta məktəbi 1998-ci ildə fərqlənmə attestatı ilə bitirən Mahirə elə həmin ildə də Naxçıvan Dövlət Universitetinin "Beynəlxalq münasibətlər və xarici dillər" fakültəsinin ingilis dili ixtisasına qəbul olunub, 2013-cü ildə təhsilin bakalavr pilləsini başa vurub və Dilşünaslıq ixtisası üzrə magistraturaya daxil olub. Qızının bu ixtisası seçməsi Vəfa müəllimin ürəyincədir, çünki onun yolunu yüksəlişə doğru uğurla davam etdirir. 2011-ci ildə tam orta məktəbi gümüş medalla bitirən Məshəti həkim olmağı qərara alıb və 681 balla Azərbaycan Tibb Universitetinin Müalicə işi ixtisasına qəbul olunub və Prezident təqaüdünə layiq görülüb. Birinci kursda oxuyanda atasını itirən Məshəti III kurs tələbəsidir. Oğlu Eldəniz isə onbirinci sinifdə təhsil alır. Sınaq imtahanlarında 600-dən yuxarı bal toplayan Eldəniz Azərbaycan Diplomatik Akademiyasının tələbəsi olmaq arzusundadır. Vəfa Axundova gözəl ailə başçısı, cəfakeş ana, mahir təhsil işçisi, müəllimdir. Olduqca diqqətcil və həssas bir insandır. Anamın xalası Gülpərinin və Məmmədqasım kişinin oğul nəvəsi olan Vəfagil bizim qonşuluqda yaşayırdılar, aramızda bir həyət vardı. O zaman 6-7-ci siniflərdə oxuyan Vəfa həmişə bizə gələr, astma-sinəgir, təngənəfəslik xəstəliyindən əziyyət çəkən atamın qayğısına qalardı. Onun bu hərəkəti nəcibliyin, humanistliyin bir nümunəsidir.

Vəfa müəllimə və övladlarına, onunla çiyin-çiyinə çalışan, gənc nəslin təlim-tərbiyəsində səy və bacarığını əsirgəməyən Babək rayonundakı Zeynəddin kənd tam orta məktəbinin kollektivinə yeni-yeni nailiyyətlər arzu edirik.

***Fevral 2014-cü il***

## MƏQSƏDƏ ÇATMAQ ÜÇÜN İNAMLA ÇALIŞMALISAN



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 13 dekabr 2013-cü il tarixdə Azərbaycan müəllimlərinin XIV qurultayının iştiraklarına göndərdiyi məktubda müəllimlərin əməyini yüksək dəyərləndirib:** "Azərbaycan müəllimlərinin tarixən xalqımızın intellektual potensialının formalaşmasında böyük xidmətləri vardır. Dilimizin, ədəbiyyatımızın, mədəniyyətimizin və mənəviyyatımızın keşiyində duran müəllim daim cəmiyyətimizdə hörmət və ehtiramla əhatə olunmuşdur. Azərbaycanın əldə etdiyi bütün nailiyyətlərin əsasında məhz müəllimin gərgin zəhməti və gündəlik fəaliyyəti durur".

**Məhz belə fədakar müəllimlərdən biri də Naibə Əli qızı Əliyevadır. O, 2006-cı ildən Naxçıvan şəhərindəki Heydər Əliyev adına tam orta məktəbdə ixtisası üzrə pedaqoji fəaliyyət göstərir.** Şagirdlərə bilik verir, Vətənə sevgi hissi aşılayır və onları yuxarı siniflərə pərvazlandırır. Vəzifəsinin öhdəsindən layiqincə gələn Naibə müəllimin şagirdləri məktəbdə keçirilən sınaq imtahanlarında yüksək bal toplayır, bilik yarışlarında fərqlənirlər. Onun yetirmələri arasında Naxçıvan Qızlar Liseyinə daxil olanlar da az deyil. Bilik yarışlarında, olimpiadalarda, məktəbin ictimai işlərində fəal iştirak edən bu şagirdlər xalqımız üçün əsl vətəndaş kimi formalaşırlar. Təbii ki, Naibə müəllimin şagirdlərinin xoş sədası gələcəkdə daha yüksək yerlərdən gələcək. Onlar əsl vətənpərvər şəxslər kimi formalaşacaq, dəyanətli, qətiyyətli və mübariz olacaqlar. Çünki yalnız belə yüksək keyfiyyətlərə malik olanlar doğma Azərbaycanın adını daha yüksək zirvələrə qaldırıb xalqını xoşbəxt, Vətənini firavan edə bilər.

**Naibə Əliyeva 1977-ci il iyul ayının 28-də Naxçıvan Muxtar Respublikasında, Babək rayonunun Zeynəddin kəndində zəhmətkeş bir ailədə anadan olub.** Atası Əli kişi sürücü işləyib. Hazırda təqaüddə olmasına baxmayaraq, özəl sahədə çalışır. Anası Xalidə xanım isə Sovet hakimiyyəti illərində kənddəki "Naxçıvan" üzümçülük sovxozunda işləyib və qabaqcıl üzümçü kimi tanınıb.

1983-cü ildə Zeynəddin kənd orta məktəbin birinci sinfinə daxil olan Naibə 1994-cü ildə 11-ci sinfi - tam orta təhsilini "əla" qiymətlərlə başa vurub. 1995-ci ildə Heyran Xanım adına Naxçıvan Tibb Məktəbinə (indi kollecdir) qəbul olunub və 1997-ci ildə Tibb bacısı ixtisası üzrə tam kurs bitirib. Müəllim olmaq arzusunu 2001-2005-ci illərdə reallaşdırıb. Naxçıvan Müəllimlər İnstitutunu fərqlənmə Diplomu ilə bitirib. "İbtidai təhsilin pedaqogikası və metodikası" ixtisasına yiyələnib. İnstitutda təhsil aldığı müddətdə ictimai işlərdə, tədbirlərdə yaxından iştirak edib və dəfələrlə tələbə elmi konfranslarında birinci yeri tutub.

**Naibə müəllim deyir:**

- On bir ildir ki, ibtidai sinif müəllimi işləyirəm. Ali təhsil almağıma, tələbəlik illərində ümumtəhsil məktəblərində pedaqoji təcrübələr zamanı əldə etdiyim müəyyən səriştələrə baxmayaraq birinci il, xüsusən ilk aylar mənim üçün bir az çətin oldu. Təbii ki, təcrübəli müəllimlərin tövsiyələri, verdikləri dəyərli məsləhətləri köməyimə çatırdı. İllər ötdü və indi daha sərbəstəm, xeyli təcrübə toplamışam. Lakin qeyd etməliyəm ki, ibtidai sinif müəllimi işləmək, xüsusilə birincilərə dərs demək çətindir. Müəllimdə uşaqlara sonsuz sevgi hissi, ana məhəbbəti olmalıdır. İbtidai siniflərdə şagirdlərin sayı normadan çox olduqda iş daha da çətinləşir və onların hamısına lazımi diqqət yetirmək olmur.

Ənənəvi təhsildən fərqli olaraq, yeni kurikulumlarla işləyərkən qarşıya çıxan çətinliklər daha aydın görünür. Bildiyimə görə, bəzi inkişaf etmiş ölkələrdə ibtidai siniflərdə, xüsusən birinci siniflərdə işləyən əsas müəllimlərə köməkçi müəllim təyin olunur. Çünki ilk dəfə məktəbə qədəm qoyan uşaqlarla işləməyin çətin-

likləri çoxdur. Hətta Almaniya və Kanadanın ümumtəhsil məktəblərində müəyyən olunmuş müddətdə müəllim köməkçi kimi çalışmayanları birbaşa müəllim vəzifəsinə qəbul etmirlər. Ölkəmizdə isə hələlik bir neçə özəl məktəb və liseylərdə köməkçi müəllim işə götürülür. Bir neçə il bundan əvvəl “Azərbaycan müəllimi” qəzetində (14 noyabr 2014-cü il. Redaksiya) ibtidai siniflərə müəllim köməkçisinin lazım olub-olmaması barədə bir məqalə oxumuşdum. Xəzər Universiteti “Dünya Məktəbi”nin ibtidai sinif müəllimi qeyd edirdi ki, pedaqoji fəaliyyətə köməkçi müəllim kimi başlayıb. İndi də onunla birlikdə çalışan köməkçi müəllim var. Birlikdə daha səmərəli fəaliyyət göstərirlər. O, dərs vaxtını tədrisə sərf edir, yerdə qalan işləri isə köməkçi müəllim yerinə yetirir. Yəni təşkilatı işləri görür. Şagirdlərin gündəliklərinin yazılması, cədvəldəki dəyişikliklərlə bağı görülən işlər, valideynlərlə ünsiyət əsasən onun üzərinə düşür. Günün ikinci yarısında keçirilən fiziki-tərbiyə dərslərində şagirdlərin soyunub-geyinməsi, zəif şagirdlərlə məşğul olmaq və digər işlərlə də köməkçi müəllim məşğul olur.

Hər bir insanın qarşısına qoyduğu xoş məqamlı məqsədə çatması üçün inamla çalışması, fəaliyyət göstərməsi onun həyatının əsl mənasıdır. Müəllim daim irəliyə, inkişafa doğru getməli və öz peşəsinə aid yeni biliklərə mütləq yiyələnməlidir. Əgər belə etməsə, o geri qalmış olar və böyüyən nəslin təlim-tərbiyəsində səmərəli fəaliyyət göstərə bilməz. Belə bir müdrik kəlam var: “Xoşbəxtliyə nail olmağın yeganə vasitəsi bilikdir, maarifdir, müdriklikdir”.

Naibə müəllim ailəlidir, iki övladı var. Oğlu Ülvi Mahir oğlu Quluzadə 2015-ci ildə yüksək balla Naxçıvan Dövlət Universitetinin İqtisadiyyat fakültəsinə daxil olub. 2016-cı ildə təhsildəki uğurlarına görə Heydər Əliyev adına adlı təqaüdə layiq görülüb. Qızı Quluzadə İnci Mahir qızı onbirinci sinif şagirdidir.

Biz də, Naibə müəllimə pedaqoji fəaliyyətində, övladlarına isə təhsildə yeni-yeni uğurlar arzulayırıq.

***Yanvar 2017-ci il***

## BABASININ LAYİQLİ DAVAMÇISI

Məmmədova (Qəribova) Şəkər Heyvəli qızı – bacım Yaqutun övladı, Azərbaycan dili və ədəbiyyatı müəllimi ana babası Hümmətov Əli Muradəli oğlunun layiqli davamçısıdır. Atam 1936-cı ildən 1978-ci ilin fevral ayınadək, yəni dünyasını dəyişənədək 30-cu illərdə Noraşen rayonunun (indiki Şərur), sonra Naxçıvan rayonunun (indiki Babək) kənd məktəblərində, o cümlədən 1955-ci ildən doğma Zeynəddin kəndində müəllim, tədris işləri üzrə direktorun müavini və direktor vəzifələrində işləyib, Azərbaycan dili və ədəbiyyatı fənnini tədris edib. Zəngin şəxsi kitabxanası olub. İndi həmin kitabların bir qismi övladlarında, bir qismi isə nəvəsi Şəkər müəllimdədir.

Atam mənim də Azərbaycan dili və ədəbiyyatı müəllimi olmağımı istəsə də jurnalist olmağımın da əleyhinə deyildi. O da vaxtı ilə "Şərq qapısı" qəzetinə xeyli məqalələr yazmışdı. Ailəmizin sonbeşiyi Nuriyyə Hümmətova isə Naxçıvan Dövlət Pedaqoji İnstitutunun qiyabi şöbəsini (indiki universiteti) 1987-ci ildə bitirib. 1982-ci ildə Zeynəddin kənd tam orta məktəbində işə başlayan Nuriyyə müəllim 2001-2002-ci tədris ilindən Bakıda, Azərbaycanın Milli Qəhrəmanı Alı Mustafayev adına 202 nömrəli tam orta məktəbdə tarix fənnini tədris edir, yəni o da atasının yolunu uğurla davam etdirir. Təkcə onu qeyd etmək kifayətdir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 3 oktyabr 2017-ci il tarixli Sərəncamı ilə Hümmətova Nuriyyə Əli qızı Azərbaycan təhsilinin inkişafındakı xidmətlərinə görə "Tərəqqi" medalı ilə təltif edilib.

**Şəkər Məmmədova 29 noyabr 1986-cı ildə Naxçıvan Muxtar Respublikasının paytaxtı Naxçıvan şəhərində anadan olub.** 1993-2004-cü illrdə Naxçıvan şəhər 15 nömrəli məktəbdə tam orta təhsil alıb. 2005-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsinin qiyabi şöbəsinə qəbul olunub və oranı 2010-cu ildə Azərbaycan dili və ədəbiyyatı müəllimliyi ixtisası üzrə bitirib. 2011-ci ildən Bakı şəhəri,



Kürdəxanı qəsəbəsi, Hüseynbala Ağaverdiyev adına 113 nömrəli tam orta məktəbdə ixtisası üzrə pedaqoji fəaliyyət göstərir. 2012-2014-cü illərdə Qafqaz Universitetində (indi Bakı Mühəndislik Universiteti) magistr təhsili alan Şəkər müəllim yenə də pedaqoji fəaliyyətini davan etdirməklə bərabər həm də 2014-cü ildən Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində "Azərbaycan dili" ixtisası üzrə doktorantura təhsilini davam etdirir. "Naxçıvan dialekt və şivələrində frazeoloji vahidlər" onun əsas tədqiqat sahəsidir. Elmi rəhbəri AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, Əbülfəz Quliyevdir.

Şəkər Məmmədovanın çap olunmuş tezis və məqalələri diqqəti çəkir.

- Feillərin semantik inkişafı. Tezis. Gənc tədqiqatçıların I Beynəlxalq Elmi Konfransı. Qafqaz Universiteti, 25-26 aprel 2013-cü il.
- Semantik hadisələr tarixi prosesdir. Məqalə. "Azərbaycan məktəbi" jurnalı, 2013-cü il, №4.
- Azərbaycan dilində zaman məzmunu ifadə edən sözlər. Tezis. Gənc Tədqiqatçıların II Beynəlxalq Elmi Konfransı. Qafqaz Universiteti, 2014-cü il.
- Şifahi nitqimizdə ümumişlək olan varvarizmlər. Məqalə. Azərbaycan Dillər Universiteti, "Elmi xəbərlər" jurnalı, 2013-cü il, №4.
- Yusif Vəzir Çəmənzəminli hekayələrində feli frazoloji birləşmələr. Tezis. Magistrantların ənənəvi XIV Respublika

Elmi Konfransı. Sumqayıt Dövlət Universiteti, 15-16 may 2013-cü il.

- Şahbuz şivəsində feli frazoloji vahidlər. Məqalə. Azərbaycan Dillər Universiteti, "Dil və ədəbiyyat" jurnalı, 2015-ci il, №3.
- Naxçıvan dialekti və şivələri ilə Azərbaycanın digər dialekt və şivələrində eyni və müxtəlif mənada işlənən frazeoloji vahidlər. Məqalə. AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutu. "Axtarışlar" jurnalı, 2016-cı il, №2.

Şəkər müəllimin komputer biliyi yüksəkdir. Microsof Word və Power Point proqramlarında bacarıq səviyyəsi və elektron lövhədə işləmək bacarığı 5 ballıq sistemlə "əla" qiymətləndirilib. İngilis dilində sərbəstdir. Bu dil üzrə də təqribi səviyyəsi 5 ballıq sistemlə "yaxşı" və "əla"dır. O, bu biliklərə yiyələnmək üçün hər zəhmətə qatlaşıb, inamla, yorulmadan çalışıb. Öndər Elm Mərkəzində "Win XP, Mic office" (1 aprel - 6 iyul 2010-cu il), Esperantoda "Rus dili və Kompüter" (15 oktyabr 2010 − 10 mart 2011-ci il), Azərbaycan Respublikası Təhsil Nazirliyi və "Smart technologies" təşkilatında "Dymo/Mimo İnteraktiv Texnologiyaları ilə tədris (2010), GRBS-da "İngilis dili – İntermediate level" (16 iyul – 21 oktyabr 2015-ci il), GRBS-da "İngilis dili – uper-intermediate level" ( 1 oktyabr – 6 yanvar 2016-cı il) kurslarından keçib, bilik və bacarıqlarını artırıb.

Gənc olmasına və pedaqoji sahədə 7 ilə yaxın bir müddətdə çalışmasına baxmayaraq Şəkər müəllim kollektivdə özünə layiq yer tutub. 2017-ci ilin oktyabr ayında 113 nömrəli məktəbin uğurlarından qəzetə məqalə yazmaq niyyətində oldum. **Məktəbin daxilində olan direktor Rövşən Qasımovu** foyedə gözlədiyim zaman dərsə gələn Şəkər müəllimlə çox səmimi görüşməyimiz bəzi işçiləri bir az təəccübləndirdi. Mən onlara Şəkərin dayısı olduğumu söylədim. Rövşən müəllimlə görüşəndə də ona Şəkər müəllimin bacımın qızı olduğunu bildirdim. **O, "Çox savadlı və məsuliyyətli müəllimdir"** dedi. Görülən işlər,

müəllim və şagirdlərin nailiyyətləri barədə məqalə yazmağı isə saxladıq gələcəyə.

Şəkər Məmmədova 2007-ci ildə Azərbaycan Milli Aviasiya Akademiyasının məzunu Məmmədov Rəşad Fəxrəddin oğlu ilə ailə qurub. İki qızı var. Fidan 202 nömrəli tam orta məktəbin 4-cü sinif şagirdidir. Yaşıdları arasında bilik və bacarığı ilə fərqlənir. Nuriyyənin isə 4 yaşı var. Ailə qayğıları, məktəbdə şagirdlərin təlim-tərbiyəsi yolunda çalışmaq, həm də elmi yaradıcılıqla məşğul olmaq heç də asan deyil. Bunlar hamısı vaxt və böyük zəhmət tələb edir. Şəkər müəllim qarşısına qoyduğu məqsədlərə inamla, addım-addım, uğurla nail olur.

***Mart 2018-ci il***

# BABASININ DAVAMÇISI

Həmkəndlim Əliyev Əli İbrahim oğlu (Əlibəy) 29 oktyabr 2017-ci ildə zəng edib dedi ki, Əşrəf sabah Müslüm müəllimin oğlu Qorxmaz Salayevi ürəyindən əməliyyat edəcəklər. Bu gün onun yanına getmək lazımdı.

Axşam Nərimanov rayonunun ərazisində yerləşən "Zəfəran" klinikasına getdik. Qorxmazın ömür-gün yoldaşı Fatma, qızları – Səbinə və Sevinc, bacısı Mahirə də onun yanında idi. Xeyli söhbətləşdik. Qorxmaz da rahat oldu. Mahirə atası Salayev Müslüm Mehralı oğlu haqqında yazdığım "Xoş xatirələrlə yada düşür" oçerkinə görə mənə minnətdarlığını bildirdi. Oçerk "Təhsil problemləri" qəzetinin 16-23 avqust 2014-cü il tarixli nömrəsində dərc olunmuşdu və onu 2015-ci ildə çap edilmiş "Müəllimlər, məktəblər, tədbirlər" kitabına da daxil etmişdim. Zeynəddin kəndində yaşayan Mahirəyə həm qəzet, həm də kitab göndərmişdim. Mahirə də qardaşı qızlarının müəllim peşəsini seçdiklərinə görə kitabı onlara bağışlamışdı. Ehtiyat üçün götürdüyüm kitabdan birini də onlara hədiyyə verdim. Binə qəsəbəsindəki 121 nömrəli tam orta məktəbdə babsının yolunu davam etdirən Səbinəyə söz verdim ki, haqqında əvvəlcə qəzetə yazacaq, 2018-ci ildə nəsrinə hazırlaşdığım "Naxçıvanın Zeynəddin kəndi" kitabına da daxil edəcəyəm.

Xəstəxanadakı söhbətimizdən bir müddət keçdikdən sonra "Azərbaycan Televiziya və radio verlişləri" Qapalı Səhmdar Cəmiyyətində (Milli Teleradioda) çalışdığım illərdən səmimi və alicənab bir insan, yüksək təşkilatçılıq qabiliyyətinə malik ziyalı, təcrübəli **məktəb direktoru kimi tanıdığım Abdullayev Akif Sahib oğlu** ilə görüşmək qərarına gəldim. "Təhsil problemləri" qəzeti ilə əməkdaşlığa başladığım 2010-cu ildən bəri 121 nömrəli tam orta məktəbə yolum düşməmişdi. Müasir tələblərə cavab verən təhsil ocağı elə kənardan hər bir kəsin diqqətini cəlb edir. Məktəbə daxil olanda ilk növbədə yüksək nizam-intizamın şahidi oldum. Akif müəllim başqa yerə tədbirə getmişdi.

Təlim-tərbiyə işləri üzrə direktorun müavini Həmişəxanım Bayramova və Səbinə ilə görüşdüm, yuxarıda qeyd etdiyim fikirlərimi Həmişəxanım müəllimə bildirdim. Həmişəxanım müəllim söylədi ki, Səbinə müəllim çox gəncdir, pedaqoji işdə hələ təzədir. Çalışqanlığı var, peşəsinə maraqlıdır, diqqətlidir.



**Salayeva Səbinə Qorxmaz qızı** 19 iyun 1995-ci ildə Naxçıvan Muxtar Respublikasında, Babək rayonunun Zeynəddin kəndində dünyaya göz açıb və ilk övlad olmaqla valideyinlərinə böyük sevinc və xoşbəxtlik gətirib. O, 2001-ci ildə Bakıda, Nərimanov rayonundakı Azərbaycanın Milli Qəhrəmanı Gültəkin Əsgərova adına 200 nömrəli tam orta məktəbin 1-ci sinfinə daxil olub. 2012-ci ildə tam orta təhsilini başa vuran Səbinə elə həmin ildə də tələbə adını qazanıb. Dörd il ərzində Bakı Slavyan Universitetində İbtidai sinif müəllimi ixtisasına yiyələnib. Ümumtəhsil məktəblərindəki pedaqoji təcrübələr zamanı həmişə fərqlənməyə çalışan Səbinə 2016-cı ildə bakalavr təhsilini tamamlayıb. 2017-ci ildə Təhsil Nazirliyinin işə qəbul üzrə keçirdiyi imtahanda yüksək nəticəyə nail olub, 55 bal toplayaraq Xəzər rayonunun Binə qəsəbəsindəki 121 nömrəli tam orta məktəbdə pedaqoji fəaliyyətə başlayıb.

**Səbinə müəllimin söhbətindən bəzi məqamlar:**

-Çox mehriban, işgüzar, məsuliyyətli bir kollektivdəyəm. Bu, mənim də işimə, peşəmə daha ciddi yanaşmağımı tələb edir. Metodbirləşmə sədri Könül Mürsəlovanı "bezdirmişəm". Nəyi bilmirəmsə daha çox ondan soruşuram. Sorğularıma təmkinlə cavab verir, öyrədir, doğru yol göstərir. Həmkarlarımın hər birindən, xüsusilə Könül müəllimdən çox-çox razıyam. Təhsil,

nəzəriyyə, universitet dövründəki pedaqoji təcrübələr başqa, məktəbdə, pedaqoji kollektivdə işləmək, kiçikyaşlı məktəbliləri öyrətmək tam başqa bir aləmdir. Müəllimdən çox ciddi məsuliyyət tələb edir.

Bacım Sevinc də Bakı Mühəndislik Universitetində (keçmiş Qafqaz Universiteti) ibtidai sinifdə ingilis dili müəllimi ixtisası üzrə dördüncü kurs tələbəsidir.

Babamız Müslüm müəllim kənddə, rayonda yaxşı pedaqoq kimi tanınıb. "Qabaqcıl Maarif Xadimi" döş nişanı ilə təltif edilib. İndi onu xoş xatirələrlə yada salırlar.

Qəsəbədən geri qayıdanda Qarabağ müharibəsində qəhrəmancasına şəhid olmuş məktəbin məzunu Əmirəhməd Quliyevin büstü önündə xeyli dayandım. Müstəqilliyimiz uğrunda, erməni təcavüzkarılarına qarşı döyüşlərdə həlak olanları ehtiramla yad etdim. İkinci Cahan müharibəsində böyük sücaətlər göstərmiş, orden və medallarla təltif olunmuş, təhsilimizdə fədakarlıqla çalışmış Müslüm müəllimi bir daha xatırladım.

Səbinə Salayeva pedaqoji işdə ilk addımlarını atır. Təbii ki, ilk addımlar heç də asan olmur. Lakin, məqsəd, inam, həvəs, maraq olan yerdə uğur qazanılır. Səbinə Salayevaya mənim də böyük inamım var. Uğur olsun Səbinə müəllim.

***Mart 2018-ci il***

# NÖVBƏTİ YARIŞLARA HAZIRLAŞIR



Quluzadə Rübabə Mübariz qızı Bakı şəhəri, Nərimanov rayonu Məktəb-Lisey Kompleksinin (200 nömrəli məktəbin) onuncu sinif şagirdidir. O, yaxşı oxumaqla bərabər, 2012-ci ildən idmanın güllə atıcılığı növü ilə məşğul olur. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və Idman Akademiyasında məşqlərə müntəzəm davam edən Rübabənin hazırlığından məşqçi Olqa Stepanovna həmişə razılıq edir və onun gələcəyinə böyük ümid bəsləyir.

Bakı şəhər "Spartak" cəmiyyətinin üzvü olan Rübabə ilk dəfə 2013-cü ildə akademik Ziya Bünyadovun xatirəsinə həsr olunmuş turnirdə III yeri tutub. Elə həmin ildə "Spartak" cəmiyyətinin birinciliyində və Azərbaycan birinciliyində də III yerlə kifayətlənməli olub. Əlbəttə, bu heç də məktəbli qız üçün kiçik uğur deyil. Məşqçi Olqa Stepanovnanın onu yeni nailiyyətlərə həvəsləndirməsi, məşqlərə ardıcıl davam etmək, gələcək uğurlara inam 2014-cü ildə öz bəhrəsini verdi. Mart ayında keçirilən Bakı şəhər birinciliyində II, aprel ayında keçirilən Azərbaycan birinciliyində I, avqust ayında keçirilən Azərbaycan çempionatında isə II yerə sahib çıxan Rübabə növbəti yarışlara səylə hazırlaşır.

***Məktəb-Lisey Kompleksinin direktor müavini Əliyeva Xədicə Natiq qızı söyləyir ki, Rübabənin atıcılıqla məşğul olması dərslərinə mane olmur.*** Digər şagirdlər kimi dərsə müntəzəm davam edir, sinif rəhbəri Nərminə Allahverdiyeva və fənn müəllimləri onun hazırlığından narazı deyillər. Rübabə bütün fənləri öyrənməyə meyl göstərir, ciddi hazırlaşır, gələcəkdə təhsilini Azərbaycan Dövlət Bədən Tərbiyəsi və Idman Akademi-

yasında davam etdirmək niyyətindədir. Dünya şöhrətli Türkiyə yazıçısı, ictimai xadim Nazim Hikmət demişkən, gənclik - arzu, inam, igidliyə həvəs deməkdir. Gənclik - lirika və romantikadır. Bu gələcək üçün tükənməz arzulardır. Bütün yaxşı əməllərin başlanğıcıdır. Biz ümid edirik ki, Rübabə gələcəkdə böyük uğurlara nail olacaqdır.

Məktəbli Rübabənin idmana meyli, marağı haradan qaynaqlanır? Ata babası Quliyev Fərəməz Abbas oğlu uzun illər Babək rayonunun (keçmiş Naxçıvan) Leninabad (indi Kərimbəyli) və Zeynəddin kənd məktəblərində təbiət-coğrafiya, əmək təlimi, bədən tərbiyəsi müəllimi işləyib. Atası Mübariz Quliyev və anası Məmləkət Əliyeva (Qax rayonunun Armudlu kəndindəndir) Azərbaycan Bədən Tərbiyəsi və Idman Institutunu (indi akademiya) 1989-cu ildə bitiriblər. Atası özəl sahədə çalışır, anası isə ali təhsil aldığı akademiyada işləyir. Qardaşı Quluzadə Rasim isə Azərbaycan Dövlət Sərhəd Xidməti Akademiyasının birinci kurs tələbəsidir.

Ənənə davam edir, Rübabəyə təhsildə və idmanda yeni uğurlar arzulayırıq.

***Dekabr 2014-cü il***

***Əlavə:*** *Səkkizinci sinifdən güllə atıcılığı ilə məşğul olan Rübabə Quluzadə 9 yanvar 2015-ci ildə keçirilmiş Bakı şəhər çempionatında güllə atıcılığı üzrə yarışda I yeri tutub. Beləliklə, idman ustası normasını yerinə yetirib.*

*Atası Mübariz Quliyev 1985-1995-ci illərdə əvvəlcə üç il 188 nömrəli Babək rayon Zeynəddin kənd texniki peşə məktəbində, sonra kənd orta məktəbində bədən tərbiyəsi müəllimi işləyib. Hazırda Bakı şəhərində qeyri-ixtisas üzrə özəl sahədə çalışır.*

## UĞUR OLSUN, TƏLƏBƏ DOSTLAR!

2016-2017-ci tədris ilində ölkəmizin ali təhsil müəssisələrinə qəbul olunmuş, tələbə adını qazanmış gəncləri təbrik edir, onlara tələbəlik illərində uğurlar diləyirik.

**Quluzadə Rübabə Mübariz qızı Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında dövlət sifarişi əsasında təhsilini davam etdirəcək.**



Bakının Nərimanov rayonunda fəaliyyət göstərən Məktəb-Lisey Kompleksinin (200 nömrəli tam orta məktəbin) builki məzunu olan Rübabə 2012-ci ildən idmanın güllə atıcılığı növü ilə məşğul olur. O, 2014-cü ilin mart ayında keçirilən Bakı şəhər biriciliyində ikinci, aprel ayında keçirilən Azərbaycan çempionatında birinci, avqust ayında keçirilən Azərbaycan çempionatında ikinci yerə sahib çıxıb. 2015-ci ilin yanvar ayında güllə atıcılığı üzrə Bakı çempionatında birinci, aprel ayında Azərbaycan çempionatında yenə də birinci yeri tutub, idman ustalığına namizəd normasını yerinə yetirib. İyul ayında Qəbələ şəhərində keçirilən Beynəlxalq yarışda da uğurla iştirak edib. Məşqçi Olqa Stepanovanın inam və ümidlərini doğruldub.

Rübabə Quluzadənin anası Məmləkət Əliyeva Qax rayonunun Armudlu kəndindəndir. Rübabə 1998-ci il noyabr ayının 27-də Qaxda anadan olub. Valideynləri də Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasını bitiriblər. Qardaşı Rasim Quluzadə Azərbaycan Dövlət Sərhəd Xidməti Akademiyasının üçüncü kurs tələbəsidir.

***Sentyabr 2016-cı il***

***Qeyd:*** *Rübabə 2 iyun 2018-ci ildə gənclər arasında güllə atıcılığı üzrə keçirilən Azərbaycan Çempionatında I yeri tutub.*

# AKTYORLAR

## İSTEDADIN, ZƏHMƏTİN BƏHRƏSİ



**Hüseynov Xəlil Ərrəhman oğlu 12 avqust 1945-ci ildə Naxçıvan rayonunun (indiki Babək) Zeynəddin kəndində anadan olub.** Zeynəddin kənd 7 illik məktəbini bitirib, orta təhsilini 1962-ci ildə Naxçıvan şəhər 4 nömrəli ümumtəhsil məktəbində alıb. 17 yaşında Bakı şəhərinə gedib və fəhlə kimi əmək fəaliyyətinə başlayıb. **Kiçik bir haşiyə:** Xəlillə mənim qardaşım Hüseyn, onun qardaşı Ibrahimlə mən uşaqlıq illərindən bu günədək səmimi, təmənnasız dostluq edirik. Hüseyn bir il ondan əvvəl Bakıya gəlib, buradan ordu sıralarına yollanıb, Leninqradda (indiki Sankt-Peterburq) hərbi xidmət keçib, orada məskunlaşıb. Ibrahim isə Bakıda yaşayır, rabitə sahəsində çalışır. Xəlili Bakıya çəkib gətirən də paytaxta yaşamaq, işləmək, inkişaf etmək və Hüseynlə dostluq telləri olub.

Bir müddət tikinti obyektlərində işləyib. Bakı mühiti onun aktyorluq sənətinə olan meyl-marağını daha da artırıb. Özü mənə verdiyi qeydlərində bu barədə yazıb: «Aktyorluq sənətinə olan marağım fəhlə işlədiyim müddətdə məni Neft ayıranların mədəniyyət sarayında fəaliyyət göstərən Xalq teatrına apardı. Həvəskar aktyor kimi Xalq teatrında bir sıra rollar oynadım. Aydın Hüseynzadə və Cəlal Cavadovun «Nənəmin sandıqcası» əsərində Etibar, C.Cabbarlının «Sevil» pyesində Balaş, S.Vurğunun «Vaqif» əsərində Vaqif, S.S.Axundovun «Anaların səsi»

əsərində leytenant Sahib və digər rollardakı uğurlu çıxışlarım mənə geniş tamaşaçı rəğbəti qazandırdı və məni aktyorluq sənətinə bağladı».

Xəlil Hüseynov 1964-cü ildə sovet ordusu sıralarına hərbi xidmətə yollanıb. 1967-ci ildə ordudan təxris olunduqdan sonra C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram teatrında artıq təcrübəli aktyor kimi sevimli sənətini davam etdirməyə başlayıb. Bu teatrın səhnəsində N.Hikmətin «Kor padşah»ında padşahın ortancıl oğlu, S.Vurğunun «Vaqif»ində Əli bəy, M.Şamxalovun «Qaynana»sında Ilqar, N.Nərimanovun «Nadir şah» əsərində Mirzə Mehdixan, N.Həsənzadənin «Atabəylər»ində Memar Əcəmi, H.Cavidin «Iblis» əsərində Ixtiyar Şeyx, «Topal Teymur»unda Divanbəyi, «Afət»də Özdəmir, «Şeyx Sənan»da Şeyx Abuzər, I.Əfəndiyevin «Hökmdar və qızı» əsərində Mirmöhsün ağa, Elçinin «Mənim ərim dəlidi» əsərində kişi, Ə.Nesinin «Ölən adamı»nda Ölən adam, Ü.Hacıbəyovun «O olmasın bu olsun» komediyasında Hambal, yenə həmin əsərdə Həsən bəy, «50 yaşında cavan»da Orduxan bəy, «Ər və arvad» komediyasında Kərbəlayi Qubad, M.S.Ordubadinin «5 manatlıq gəlin» əsərində Kərbəlayi Hüseynalı, Şəmil Sadiqin «Qana qan qarışdı» əsərində Dədə Qorqud, S.Səfərlinin «Göz həkimi»ndə professor Şahbazov və digər əsərlərdə müxtəlif xarakterli obrazları canlandırıb.

Cəlil Vəzirov və Həsənəli Eyvazlı Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram teatrının 125 illiyinə həsr etdikləri kitabda Xəlil Hüseynovun yaradıcılığını, onun səhnə fəaliyyətini çox gözəl, olduğu kimi və çox yığcam bir şəkildə səciyyələndiriblər: «O, əsl xarakter aktyorudur, aydın və məlahətli diksiyaya malik sənətçidir… Bu keyfiyyət həmişə onun karına gəlib. Xüsusən də mənzum pyeslərdə bu hal özünü daha qabarıq nəzərə çatdırıb.

… Xəlil əsl mənada xarakter ustasıdır. Yaratdığı hər bir obrazın spesifik aləmini – yerişini, danışığını, qrimini, geyimini tutarlı vasitələrlə sənətsevənlərə təqdim etməyi bacarır.

… Xəlil oynadığı obraza əsl yaradıcı münasibət bəsləyir. Onun üçün rolun böyüyü-kiçiyi yoxdur, xarakteri əməlli başlı açıb tamaşaçıya təqdim etmək prinsipi var. Məhz buna görə də Xəlili xarakter ustası adlandırırlar. Xəlil həyatda təbii və səmimi insandır.

Hüseynov Xəlil Ərrəhman oğlu 1999-cu il avqust ayının 28-də Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti, 2006-cı il iyunun 26-da Azərbaycan Respublikasının Əməkdar artisti fəxri adlarına, 2005-ci il aprelin 1-də Prezident mükafatına, 2008-ci il sentyabrın 25-də isə Prezident təqaüdünə layiq görülüb. Bu gün də Naxçıvan teatrında statdankənar aktyorluq fəaliyyətini davam etdirir. Naxçıvan televiziyasına dəvət olunur.

2014-cü il aprelin 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Naxçıvan Respublikasına səfərə gedib.



Prezident bir sıra obyektlərin açılışında və aprelin 8-də Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə iştirak edib və geniş nitq söyləyib. Xəlil Hüseynov təntənəli mərasimdə xüsusi dəvətlə iştirak edib.



1973-1989-cu illərdə Naxçıvan Televiziya və Radio Verilişləri Komitəsində diktor vəzifəsində işləmiş Xəlil Hüseynov televiziya tamaşaçılarının da xatirində silinməz izlər salıb. Televiziya tamaşalarının hazırlanmasında bilik və bacarığını, təcrübəsini əsirgəməyib. Bir sıra teletamaşalara quruluş verib, müxtəlif xarakterli obrazlar yaradıb və tamaşaçıların rəğbətini qazanıb. Mən də bir dost, həmkəndli kimi onunla birlikdə Naxçıvan teleradiosunda çalışdığım illəri tez-tez xatırlayır, onunla fəxr edir, qürur duyuram. O Bakıda, mən Naxçıvanda olanda görüşür və ötən illəri yada salırıq.

***2013-2014-cü il***

## «Ölən adam» tamaşası ilə bağlı bir əhvalat

1992-ci ildə Naxçıvan teatrı «Ölən adam» əsərini tamaşaçılara təqdim etdi. Əsər türk yazıçısı Əziz Nesinin «Taxtalı göydən məktublar» hekayələrinin motivləri əsasında rejissor Əsgər Əsgərov tərəfindən səhnələşdirilmiş, özü tərəfindən quruluş verilmiş və «Ölən adam» adı ilə tamaşaçılara göstərmişdir.

Tamaşada əsas rolu – Ölən adamı mən oynayardım. Tamaşa uzun müddət teatrın repertuarında qaldı. Tamaşanı Bakıda, Azərbaycanın bir çox rayonlarında oynadıq.

***

Günlərin birində Naxçıvan Dövlət Pedaqoji Institutunun (indi universitetdir) üç müəllimi tamaşa ilə bağlı söhbət edə-edə yol gedirmişlər. Onlardan ikisi tamaşaya baxıbmış, biri isə yox. Tamaşaya baxan müəllimlərdən biri o birisinə «Ölən adam kim idi?» - deyə soruşur.

–Xəlil idi, Zeynəddinli. Əvvəllər də televiziyada diktor işləyirdi.

–Hə, hə tanıdım – deyə ikinci müəllim dillənir.

Tamaşaya baxmayan üçüncü müəllim söhbətə qarışır:

–Siz nə vaxt getmişdiniz?

–Sırağa gün – deyə o biri müəllim cavab verir.

Bu üç müəllimin söhbətini təsadüfən eşidən Xəlilin qohumu Mehdi isə işdən çıxıb yaşadığı Cəhri kəndinə gedirmiş. Öz-özünə deyir ki, necə olub, Xəlilin ölməyini eşitməmişik. Deməli sırağa gün… Bu gün üçü olur ki.

Mehdi evlərinə çatır və atasına:

–Adınızı da qohum qoymusunuz, Xəlil üç gündür ki, ölüb heç birinizin də xəbəri yoxdu.

Mehdinin atası narahat halda məsələni dəqiqləşdirmək üçün başqa qohumlara zəng edir və eşitməmişik, xəbərimiz yox-dur cavabını alır.

Təcili qohum-qəbələ yığılır, kənddən bir avtobus tutub «rəhmətlik» Xəlilin yaşadığı Zeynəddin kəndinə yollanırlar. Av-tobus Xəlilin yaşadığı həyətin aşağı hissəsində dayanır. 25-30 adam avtobusdan düşüb, avtobusun yanında sıralanır və diqqətlə həyətə nəzər salırlar.

–Yəqin yası başqa yerdə keçirirlər – deyə birisi dillənir.

Bir başqası:

–Həyətdə kimsə var, gəlin gedib dil-ağız edək, xəbərimiz olmadığını bildirək.

Beləliklə, yasa gələn qonaqlar Xəlillə eyni həyətdə yaşayan qardaşı Salehin evinə daxil olurlar.

«Rəhmətlik» Xəlil öz evindən avtobusu və qardaşıgilə gələn qonaqları görür və onlardan bir çoxunu tanıyır. Təəccüblənir ki, bu qədər adam görəsən nə əcəb gəlib. Öncə düşünür ki, qardaşının bir qız övladından sonra uşağı olmayıb. On ildən sonra bir oğlu olub. Yəqin ki, uşağın görüşünə gəliblər. Adamların çoxluğu onu çaşdırır: «Bəlkə bacım Hafizəyə elçi gəlib? Nə isə məlum olacaq da…»

Çox keçmir ki, qardaşıgildən kimsə Xəlilin dalınca gəlir, söyləyir ki, Soltan əmigil gəlib, onu görmək istəyirlər. Xəlil bir daha düşünür: «Elçilik məsələsidi, axı böyük qardaşam, sağ olsunlar ki, hörmət qoyurlar».

Xəlil içəri daxil olarkən hamının baxışları ona dikilir. O, qonaqlarla görüşüb, Soltan kişinin yanında əyləşir. Soltan kişi əlini Xəlilin çiyninə qoyaraq sözə başlayır:

–Çox şükür ki, sağ-salamatsan… Nə var, nə yox? Işlərin necə gedir?

–Sağ olun, Soltan əmi, təşəkkür edirəm.

–Deməli belə… Xəlil, sizin kənddə başqa Xəlil də var?

–Var – deyə Xəlil cavab verir – təsadüfən onun da soyadı Hüseynovdur. Bircə atamızın adı ayrıdı.

Tələm-tələsik Soltan kişi soruşur:

–Ölməyib ki?

–Yox. Sağ-salamatdır. Hər halda kənd yeridir, elə bir şey olsaydı bilərdik. Hə, nə olub ki?

Soltan kişi nəyi isə gizlədirmiş kimi:

–Əşi heç. Deyirsən lap yaxşısan hə?

–Soltan əmi, sözlü adama oxşayırsınız. Axı nə olub?

–Xəlil, Allahdan gizlin deyil, səndən nə gizlədim. Sənin ölüm xəbərini eşidib gəlmişik. Şükür olsun ki, sağ-salamatsan. Necə deyərlər, ömrün uzanıb. Bizim o Mehdi şəhərdən gələndə

kimdən nə eşidibsə, gəlib sənin ölüm xəbərini dedi. Nə isə, şükürlər olsun ki, yalanmış.

Xəlil nə cavab verəcəyini bilmədi. Bircə onu dedi ki, yəqin nə isə bir anlaşılmazlıq olub. Kiminsə onunla belə bir zarafat edəcəyini də düşünmür.

Xəlil qonaqlara çay-çörək təklif edir, onlar isə ayağa qalxaraq:

–Yox, biz tez getməliyik ki, bu xəbərin yalan olduğunu kəndə çatdıraq. Yoxsa, indi kənd camaatı tökülüb gələcək.

–Bu hadisənin yalan olduğunu bilən «yasa» gələnlər kəndə çatan kimi düşürlər Mehdinin üstünə:

–Heç utanmırsan, bu nə xəbərdi gətirmisən? Kişi sağ-salamat evində oturub, bizi də göndərmisən onun yasına.

Mehdini o ki var danlayırlar. Pərt olmuş Mehdi səhərisi gün Xəlilin ölüm xəbəri ilə bağlı dünən söhbət edən üç müəllimdən birini tanıdığı üçün onu axtarıb tapır və soruşur ki, dünən axşamçağı nə söhbətdi siz edirdiniz.

–Nə söhbət bala?

–Deyirdiniz ki, ölən adam Xəlildi, Zeynəddinli. O bizə qohum olduğu üçün sizdən eşitdiyim bu vay xəbəri gedib evdə demişəm, camaat da yığılıb başsağlığı üçün yasa gedib. Kişi də sağ-salamat oturub evində. Sizin sözünüzə görə mən də camaatı yasa göndərirəm. Onlar da gəlib abrımı bükdülər ətəyimə, ta nə qalmadı mənə deməsinlər.

Müəllim dünənki söhbəti xatırlayır, Mehdinin bu yanlışlığına gülür və deyir:

–Oğul, Xəlil sənin qohumundursa, bizim də yaxın dostumuzdur. O, istedadlı aktyordur. Dünənki söhbətimizsə teatrda göstərilən tamaşa barəsində idi. Teatrda «Ölən adam» tamaşası gedir. Biz də həmin tamaşaya gedib baxmışdıq. Tamaşada Ölən adam rolunu gözəl aktyorumuz Xəlil oynayır. Dünən mənim yanımda olan cavan müəllimlərdən biri tamaşaya baxmışdı, ancaq aktyoru tanımamışdı. Soruşanda ki, Ölən adam kimdi,

mən də dedim ki, Xəlildi, Zeynəddin kəndindəndir, uzun illər televiziyanın diktoru işləyib.

Mehdi müəllimlərin söhbətini yanlış anladığını dərk edib, üzr istəyir və evlərinə tələsir ki, dünən yasa göndərdiyi yaxınlarından bir daha üzr istəsin.

## Təbriz əhvalatı

Elçin Mirzəbəylinin rejissorluğu ilə keçən əsrin sonlarında Nəriman Nərimanovun «Nadir şah» əsəri Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının repertuarına daxil oldu. Naxçıvan teatrının tarixində ilk dəfə olaraq 2000-ci ildə Iran Islam Respublikasına qastrol səfərinə getdik. Bu qastrol səfərinə də «Nadir şah» tamaşasını aparmışdıq. Mən Mirzə Mehdi Xanı oynayırdım. Mirzə Mehdi Xan tarixi şəxsiyyət olaraq Nadir şahın baş vəziri və dövrün tarix yazanı idi.

***

Təbriz şəhərində növbəti tamaşa başa çatmışdı. Qrim otağında paltarlarımızı dəyişirdik. Bizim texniki işçilərdən biri yanıma gəldi və bayırda kimlərinsə məni görmək istədiklərini bildirdi. Təbrizdə mənim tanışım yox idi.

Görəsən kim olar? – deyə düşündüm, - yəqin tamaşaçılardı.

Belə hallar tez-tez olur. Tamaşadan sonra tamaşaçı aktyoru görmək istəyir. Ya iradını söyləyir, ya da ki, oyunundan razı qaldığını bildirərək ünvanına xoş sözlər deyir.

Bayıra çıxdım. Ətafda çox adam var idi. Görəsən kimdi məni soruşan? Mənə yaxın məsafədə 10 nəfərə yaxın adam var idi. Gözləmədiyim halda bu adamların arasından təxminən 80 yaşlı bir qoca mənə yaxınlaşdı, qollarını açaraq məni qucaqladı və hönkürtü ilə ağladı. Çaş-baş qalmışdım. Görəsən bu kimdi?

Sonra o biri adamlar mənə yaxınlaşdı, hamısı da məni qucaqlayır, öpür, çox isti münasibət göstərirdilər. Qadınlar əl uzadıb görüşür, əlimdən öpürdülər. Məni təəccüb bürümüşdü. Fikirləşirdim ki, məni kiminləsə səhv salıblar, oxşadırlar kiməsə. Çox narahat idim. Bu insanların ümidlərini qıracağımdan qorxurdum. Məsələ aydın olanda isə rahatlıq tapdım. Onu deyim ki, aktyorluq həyatımda ilk dəfə idi ki, belə bir hadisə ilə rastlaşırdım.

Deməli, mənim səhnədə canlandırdığım Mirzə Mehdi Xan ətrafıma toplaşan və mənimlə isti təmasda olan bu insanların üzünü görmədikləri ulu babalarıdır. Mənimlə ilk görüşən yaşlı kişi dedi ki, babam haqqında ondan-bundan eşitmişəm, eşitdiklərimi sizin timsalınızda gördüm. O da sizin kimi alçaqboy, təmkinli, aramla danışan müdrik bir insan olub. Biz ulu babamızı ilk dəfə sizin timsalınızda gördük.

Bəli, bu hadisə mənim həyatımda ən maraqlı bir hadisə kimi qalıb.

## Tamaşa vaxtı baş verən qeyri-adi, maraqlı hadisə

1970-ci illərdə Əbil Yusifovun «Məhəbbət abidəsi» əsərinin Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi Baxşı Qələndərlinin quruluşunda tamaşası hazırlandı.

***

Şamxor – indiki Şəmkir rayonunda qastrol səfərində idik. Hadisə də həmin rayonun kəndlərindən birində, tamaşanın gedişində baş verdi.

Əsərdə Şah (Aydın Şahsuvarov) öz qızına aşiq olur. Qız isə başqasına nişanlıdır. Nişanlısı sərkərdədir və döyüşdə vuruşur. Qız çox yalvar-yaxar edir ki, Şah bu ağılsız inadından əl çəksin. Şahınsa fikri qətidir, hansı yolla olursa-olsun, bu çirkin niyyətini həyata keçirmək istəyir. Qız heç cür çıxış yolu tapa bilmədiyi üçün vaxtı uzatmaq məqsədilə Şahdan xahiş edir ki,

onun üçün hündür bir qəsr tikdirsin. Qəsr tikilib hazır olandan sonra Şah öz fikrini gerçəkləşdirə bilər.

Qızın niyyəti bu olur ki, qəsrin tikintisi uzun bir vaxt aparacaq. Bu tikilib başa çatana qədər olar ki, nişanlısı qayıdar və onu Şahın əlindən xilas edər.

Bəli, qəsr Şahın əmri ilə tikilməyə başlayır. Uzun bir müddət keçir. Qız eşidir ki, qəsr artıq başa çatmaq üzrədir. Narahat olur və gizlincə qəsrin inşa olunduğu yerə gəlir. Ustadan xahiş edir ki, usta, siz bu binanı elə edə bilərsinizmi ilk içəri daxil olan adam qapıları bağlayandan sonra o qapılar bir daha açılmasın?

Usta təəccüblənir və deyir:

–Qızım, siz nə danışırsız? Bu qəsr böyük bir sənət əsəridir. Əyər mən bu cür etsəm, tarix bizi bağışlamaz.

Qız əlacsız qalıb Şahın niyyətini ustaya danışır. Usta qızı diqqətlə dinləyəndən sonra məsələnin nə yerdə olduğunu dərk edir və razılıq verir.

Bir gün şaha xəbər çatır ki, qəsr hazırdır. O, öz əyanları ilə tikilib başa çatmış qəsrə tərəf gedirlər. Öz namusunu qoruyan qız isə onlardan qabağa düşüb qəsrə gəlir və içəri daxil olaraq qapıları bağlayır.

Şah qəsrin qapılarının bağlı olduğunu görüb ustaya əmr edir:

–Açın qapıları!

Usta isə təmkinlə cavab verir:

–Qapılar açılmayacaq.

***Elə qeyri-adi, maraqlı hadisə bundan sonra baş verir.***

Tamaşanı göstərdiyimiz kəndin klubu köhnə və səhnəsi zaldan təxminən 1 metr hündür idi. Səhnənin döşəməsi də köhnə taxta döşəmə idi. Maraqlı idi ki, səhnənin ortasında heç bir yerdə görmədiyimiz kip örtülməyən, əyri-üyrü bir qapaq var idi. Tamaşa boyu diqqətimiz o qapaqda idi ki, mizanlar yerinə yetirilərkən ora düşməyək.

Şahla (Aydın Şahsuvarov) Ustanın (Kazım Hüseynov) dialoqu çox çəkmədi. «Açın qapıları!» deyən Şaha «Qapılar açılmayacaq!» deyən ustanın cavabı Şahı özündən çıxartdı və qılınca əl ataraq hökmlü səslə əmr etdi:

–Açın qapıları!

Usta da qürurla və eyni tonla Şaha cavab vermək üçün özünü bir addım qabağa atdı ki, desin: «Qapılar açılmayacaq!» Bu vaxt ayağı o əyri-üyrü qapağın üstünə düşdü. Qapaq yerindən oynadı və ustanın bir ayağı büdrəyib çalaya düşdü. Usta rolunu oynayan Kazım Hüseynov nə fikirləşdisə özünü çalaya salıb çöməldi və tamaşa zalından görünməz oldu. Şah Aydın Şahsuvarov pis vəziyyətdə qalmışdı, lakin aktyor ustalığı onun karına gəldi. O, çalanın ətrafına ağır hərəkətlərlə dövrə vurdu və əsərə bir cümlə əlavə etdi: Get!.. sənin yerin oradı.

Tamaşaçıya çatan bu oldu ki, Şahın əmrinə tabe olmadığı üçün Şah onu cəzalandırdı, zindana saldı.

Şah ilə Ustanın bu görüşü final səhnə idi. Şah ustanın üstünə qılınc çəkmək istərkən xəbər gəlir ki, sərkərdə Elcan öz qoşunu ilə qəsri dövrəyə alıb. Ancaq nə etməli, usta çöməlib oturub səhnənin ortasındakı çalada. Pərdəni çəkib bağladılar. Usta – Kazım çaladan çıxıb səhnənin sol böyrünə keçdi, pərdə yenidən açıldı. Şah qəzəblə səhnədə sağa-sola hərəkət edir və birdən üzünü əyanlardan birinə tutub deyir: Gedin ustanı zindandan çıxarıb yanıma gətirin. Usta səhnəyə daxil olur. Şah qəzəblə: «Sənə dedim ki, aç qapıları!» Usta da həmin tonla: «Qapılar açılmayacaq» deyəndə Şah əl atır qılınca və bu zaman qızın nişanlısı sərkərdə Elcan öz döyüşçüləri ilə səhnəyə daxil olur. Şahı öldürür, ustanı və qızı xilas edir.

***Xəlil Hüseynov,***<br>
***Azərbaycan Respublikasının Əməkdar artisti,***<br>
***Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü***<br>
***2013-cü il***

## XALQ ARTİSTİ KAMRAN QULİYEV



**Quliyev Kamran Məmmədqulu oğlu 9 sentyabr 1958-ci ildə Naxçıvan rayonunun (indiki Babək) Zeynəddin kəndində anadan olub.** 1979-cu ildən C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında aktyorluq fəaliyyətinə başlayıb. 1981-ci ildə M.A.Əliyev adına Azərbaycan Dövlət Incəsənət İnstitutunun Mədəni-maarif fakültəsinin qiyabi şöbəsinə daxil olub və 1986-cı ildə bitirib. 1987-ci ildə Azərbaycan Respublikasının Əməkdar artisti, 1999-cu ildə isə Azərbaycan Respublikasının Xalq artisti fəxri adına, iki dəfə Prezident mükafatına layiq görülüb. 1997-ci ildə teatrın baş rejissorunu əvəz edib. 2004-cü ilin fevralından 2013-cü ilin iyun ayınadək teatrın direktoru və baş rejissoru vəzifələrində fəaliyyət göstərib. Hazırda Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyində məsul vəzifədə işləyir.

Teatrda işlədiyi müddətdə Hüseyn Cavidin «Şeyx Sənan», «Uçurum», «Ana» və «Topal Teymur» əsərlərində müvafiq olaraq Keşiş, Uluğ bəy, Səlim və Əmir Teymur, «Günahsız müqəssirlər»də (A.N.Ostrovski) Neznamov, «Astana»da (A.Dudayev) Nikolay, C.Məmmədquluzadənin «Kamança» əsərində Qəhrəman Yüzbaşı, «Anamın kitabı»nda Mirzə Məmmədəli, O.Kamalın «Yad qızı»nda Məzhər bəy, A.Turan Oflazoğlunun «Dəli Ibrahim» əsərində Silahdar Yusif, N.Nərimanovun «Nadir şah» əsərində Nadir şah, N.Həsənzadənin «Atabəylər»ində Qızıl Arslan, «Pompeyin Qafqaza yürüşü»ndə Pompey, I.Əfəndievin «Hökmdar və qızı» əsərində Ibrahim xan, H.Arzulunun «Əlincə qalası»nda Əmir Altun, «Itilənən xəncərlər»ində Qubuşov və

digər müəlliflərin əsərlərində müxtəlif xarakterli obrazlar yaratmış və tamaşaçılar tərəfindən sevilmişdir. Rejissor kimi Anarın «Sizi deyib gəlmişəm» (1992), Həmid Arzulunun «Itilənən xəncərlər» (1996), «Ərsizlər və arsızlar» (1999), «Mərhəmət məhəbbət deyil» (2003), «Əlincə qalası» (2007), Rauf İçərişəhərlinin «Arzum çin oldu» (1997) və «Kələkbaz qızlar» (1999), Ramiq Muxtarın «Şəhərli kürəkən» (1998), Üzeyir Hacıbəyovun «Arşın mal alan» (1999), H.Cavidin «Topal Teymur» (2000), «Iblis» (2003), Həsən Elsevərin «Qorxulu oyun» (2000), Elçinin «Mənim ərim dəlidir» (2001), «Mənim Sevimli dəlim» (2002), I.Əfəndiyevin «Şeyx Xiyabani» (2001), Adil Babayevin «Yarmıçıq şəkil» (2001), I.Məlikzadənin «Gəl qohum olaq» (2002), N.Həsənzadənin «Pompeyin Qafqaza yürüşü» (M.Fərzəlibəyli ilə birlikdə, 2002), M.F.Axundovun «Lənkəran xanının vəziri» (2004), Hidayətin «Bu dünyanın adamları» (2004), C.Məmmədquluzadənin «Dəli yığıncağı» (2005), Elman Həbibin «Sahilsiz çaylar» (2005), Mir Cəlalın «Dirilən adam» (2006), S.Vurğunun «Fərhad və Şirin» (2006), H.Cavidin «Səyavuş» (2007), Həsənəli Eyvazlının «Araz sahilində doğan günəş», Adil Babayevin «Koroğlunun Çənlibelə qayıdışı» (2008), Elçinin «Ah, Paris… Paris…», Şəmil Sadıqın «Qana qan qarışdı» (2009), Q.E.Lessinqin «Müdrik Natan» (2010), Kamran Nəzirlinin «Şeytan işığı» (2011), Lənkəran teatrında Nazim Hikmətin «Kəllə», H.Cavidin «Şeyx Sənan» (2012), M.C.Cəfərovun «Mirzə Cəlil taleyi» (2013) əsərlərinə quruluş vermişdir.

Şair-publisist, Əməkdar elm xadimi Həsənəli Eyvazlı Azərbaycan Respublikasının Xalq artisti Kamran Quliyevin həyat və yaradıcılığını əks etdirən «Bir aktyorun ömür yolu» monoqrafiyasını yazmış, teatrşünas Cəlil Vəzirovla birlikdə hazırladığı Naxçıvan teatrının 125 illiyinə həsr olunmuş «Naxçıvan teatrı: dünən, bu gün» kitabında da ustad sənətkar haqqında ətraflı məlumat vermişdir.

***2013-cü il***

# AKTYOR, REJİSSOR



**Seyidov Tofiq Həbib oğlu 1959-cu ildə Naxçıvan rayonunun (indiki Babək) Zeynəddin kəndində anadan olub.** Hələ orta məktəb illərindən meylini aktyorluq sənətinə salıb, məktəbdə həyata keçirilən müxtəlif tədbirlərdə fəallıq göstərib və gələcəkdə bu sənətə sahib olmağı qarşısına ən ümdə bir məqsəd qoyub. 1975-ci ildə Zeynəddin kənd orta məktəbini bitirib və M.Əliyev adına Azərbaycan Dövlət Incəsənət Institutuna qəbul imtahan verib, müsabiqədən keçə bilməməsinə baxmayaraq heç də ruhdan düşməyib. Növbəti qəbul imtahanlarına daha səylə hazırlaşıb və 1978-ci ildə həmin institutun Dram və kino aktyorluğu fakültəsinə daxil olub.

1982-ci ildə institutu müvəffəqiyyətlə bitirən Tofiq C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Müsiqili Dram Teatrında ali təhsilli aktyor kimi sənət aləminə qədəm qoyub. Müəyyən fasilələrlə bu sənət ocağında çalışan Tofiq klassik və müasir yazarların əsərlərindəki müxtəlif xarakterli obrazları məharətlə canlandırıb. H.Orucov «Məni qınamayın» (Şahin), K.Ağayeva «Mənim tanrım gözəllikdir, sevgidir» (Şeyx Sənan), H.Arzulu «Əlincə Qalası» (Şeyx Ömər Osman), Hüseyn Cavid «Uçrum» (Əkrəm), «Şeyx Sənan» (Şeyx Hadi), M.Araz «Atamın kitabı» (Məmməd Araz), R.Rza «Bir gün də insan ömrüdür» (Rəsul Rza), Ü.Hacıbəyov «O olmasın bu olsun» (Həsən bəy), R.N.Güntəkin «Çalı quşu» (Kənan), V.Hüqo «Gülən adam» (Botl), M.Cəfərov «Mirzəcəlil dünyası» (Yusif xan) və başqa əsərlərdəki rolları ilə tamaşaçı qəlbində iz buraxıb.

Tofiq Seyidov neçə-neçə əsərə yaddaqalan quruluş verib. Bu sırada M.F.Axundovun «Hacı Qara», S.Behrəngin «Təbriz

almaları», S.Rüstəmovun «Beş manatlıq gəlin», A.Çexovun «Rus sayağı evlənmə» və digər əsərləri göstərmək olar.

Tofiq Seyidov bu gün C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının rejissoru və aparıcı aktyorlarından biridir. O, eyni zamanda Naxçıvan Dövlət Universitetinin müəllimidir, gənc aktyor kadrlarının hazırlanmasında öz bilik və bacarığını əsirgəmir.

***2013-cü il***

***Qeyd:*** *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2017-ci il 9 mart tarixli sərəncamı ilə Tofiq Seyidov Azərbaycan Respublikasının Əməkdar artisti fəxri adına layiq görülüb.*

# DEPUTATLAR

## TƏRLAN MƏMMƏD QIZI HƏSƏNOVA



1912-ci ildə Noramen rayonunu Dəmirçi kəndində yoxsul kəndli ailəsində anadan olmuş Tərlan Məmməd qızı Həsənova 6 yaşında olarkən Naxçıvan rayonunun Zeynəddin kəndində yaşayan böyük bacısının yanına gəlib burada qalır.

Ailədəki vəziyyət imkan vermədiyindən O, ancaq beşinci sinfədək oxuyub, kolxozda cərgəvi üzv kimi işləməyə başlamışdır. Kolxozun bütün işlərində fərasətli olan Tərlan sonralar kolxoz sədrinin müavini vəzifəsinə yüksələ bilmişdi.

1953-cü ildən Naxçıvan rayonundakı Qahab kənd ZDS icariyyə komitəsinin sədridir. Bu sovetlikdə dövlət tədarükü və maliyyə planları bütün növlər üzrə yerinə yetirilmişdir.

T. M Həsənova 1953-cü ildən Sov. İKP üzvü olub üçüncü çağırış Naxçıvan MSSR Ali Sovetinin, həmçinin Qahab kənd sovetinin deputatıdır. Naxçıvan vilayət və rayon partiya komitələri plenumlarının üzvüdür.

T. M. Həsənova Naxçıvan rayonundakı Sabir seçki dairəsinin seçiciləri tərəfindən Naxçıvan MSSR Ali Soveti deputatlığına namizəd göstərilmişdir.

***"Şərq qapısı" qəzeti, 23 fevral 1955-ci il***

***Qeyd: Tərlan xanım yenidən deputat seçilib.***

## Y.İ.VƏLİYEVİN NAXÇIVAN MUXTAR RESPUBLİKASI KƏND TƏSƏRRÜFATI VƏ ƏRZAQ NAZİRİ TƏYİN EDİLMƏSİ HAQQINDA

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı**

Yusif İbrahim oğlu Vəliyev Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı və ərzaq naziri təyin edilsin.

*Naxçıvan Muxtar Respublikası*
*Ali Məclisinin Sədri H.Əliyev*
*Naxçıvan şəhəri, 9 oktyabr 1991-ci il.*

### Yusif İbrahim oğlu Vəliyev



Yusif İbrahim oğlu Vəliyev 1956-cı ildə Babək rayonunun Zeynəddin kəndində kolxozçu ailəsində anadan olmuşdur. 1976-cı ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun Xalq təsərrüfatının iqtisadiyyatı və planlaşdırılması fakültəsinin İqtisadi-maliyəçi ixtisası üzrə bitirdikdən sonra 1976-1977-ci illərdə Kirovoqrad şəhər tikinti trestində mühəndis işləmişdir.

1977-ci ildə hərbi xidmətə çağırılmışdır. 1979-cu ildə hərbi xidmətini başa vurduqdan sonra Kirovoqrad radio zavodunda iqtisadçı, 1980-ci ildən 1986-cı ilə qədər Naxçıvan Aqrar İstehsalat Birliyində iqtisadçı, şöbə müdiri vəzifələrində çalışımışdır.

1985-ci ildən SOV.İKP üzvüdür.

1986-cı ildə SSRİ Dövlət Bankı Babək rayon kontorunun müdiri işləmişdir. 1989-cu ilin avqustundan Azərbaycan KP Naxçıvan Vilayət Komitəsində Sosial-iqtisadiyyat şöbəsində təlimatçı vəzifəsində çalışmışdır.

1991-ci ilin iyul ayında Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı və Ərzaq nazirinin müavini vəzifəsinə təyin edilmişdir.

Evlidir. Bir oğlu var.

***“Şərq qapısı” qəzeti, 11 oktyabr 1991-ci il.***

**Qeyd:** *Yusif Vəliyev 1994-cü ilədək nazir vəzifəsində çalışıb. 1990-1995-ci illərdə Birinci Çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı olub. Hazırda Bakı şəhərində yaşayır. Foto əlavə olunur.*

***

## Y.İ.VƏLİYEVİN NAXÇIVAN MUXTAR RESPUBLİKASI KƏND TƏSƏRRÜFATI VƏ ƏRZAQ NAZİRİ TƏYİN EDİLMƏSİ HAQQINDA

### Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qərara alır:

Yusif İbrahim oğlu Vəliyev Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı və ərzaq naziri təyin edilsin.

***Naxçıvan Muxtar Respublikası***
***Ali Məclisinin Sədri H.Əliyev***
***Naxçıvan şəhəri, 26 oktyabr 1991-ci il.***

***

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI DÖVLƏT MƏTBUAT KOMİTƏSİ YARADILMASI HAQQINDA

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı**

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qərara alır:

1.Naxçıvan Muxtar Respublikası Qəzet-Nəşriyyat, Kitab Ticarəti Üzrə İstehsalat Birliyinin bazasında Naxçıvan Muxtar Respublikası Dövlət Mətbuat Komitəsi yaradılsın.

2.Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinə tapşırılsın ki, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti haqqında Naxçıvan Muxtar Respublikası Qanununun 23-cü maddəsinə müvafiq dəyişiklik etsin.

***Naxçıvan Muxtar Respublikası***
***Ali Məclisinin Sədri H.Əliyev***
***Naxçıvan şəhəri, 26 oktyabr 1991-ci il.***

## İ.M.İBRAHİMOVUN NAXÇIVAN MUXTAR RESPUBLİKASI DÖVLƏT MƏTBUAT KOMİTƏSİNİN SƏDRİ TƏYİN EDİLMƏSİ HAQQINDA

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı**

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qərara alır:

İbrahim Məşəhilal oğlu İbrahimov Naxçıvan Muxtar Respublikası Dövlət Mətbuat Komitəsinin sədri təyin edilsin.

***Naxçıvan Muxtar Respublikası***
***Ali Məclisinin sədri H.Əliyev***
***Naxçıvan şəhəri, 26 oktyabr 1991-ci il.***

**İbrahim Məşəhilal oğlu İbrahimov**



1952-ci ildə Babək rayonunun Zeynəddin kəndində anadan olmuş, 1969-cu ildə Leninabad (indiki Atabəylər) kənd orta məktəbini bitirdikdən sonra Naxçıvan Su Təsərrüfatı Nazirliyində fəhlə işləmişdir. 1971-1973-cü illərdə hərbi xidmətdə olmuş, 1973-1974-cü illərdə Su Təsərrüfatı Nazirliyində fəhlə işləmişdir.

1974-cü ildə Naxçıvan Dövlət Pedaqoji İnstitutunun Tarix-filologiya fakültəsinə daxil olmuş, 1978-ci ildə institutu bitirdikdən sonra 1989-cu ilə qədər Babək rayonunun Zeynəddin kənd orta məktəbində müəllim, 1990-cı ildən isə Azərbaycan Xalq Cəbhəsi Naxçıvan Vilayəti Şöbəsinin təşkilat işləri üzrə sədr müavini işləyir.

Ailəlidir, 3 övladı var.

***"Şərq qapısı" qəzeti, 27 oktyabr 1991-ci il.***

**Qeyd:** *İbrahim İbrahimli (İbrahimov) 1990-1995-ci illərdə Azərbaycan Resublikası Ali Məclisinin deputatı olub. Yeni Musavat Partiyasında çalışıb. Müxalifətdədir. Hazırda Bakı şəhərində yaşayır. Foto əlavə olunur.*

## ZEYNƏDDİNLİLƏR «QIRMIZI TABOR»DA

«Qırmızı tabor» 1920-ci ilin sentyabr ayında Naxçıvan İnqilab Komitəsinin qərarı ilə yaradılıb və Abbasqulu bəy Şadlınski tabora komandir təyin olunub. 1921-ci ilin axırlarında Naxçıvan ölkəsində Sovet hakimiyyəti qurulub möhkəmləndirilməsi tam təmin edildiyi üçün digər hissələr kimi «Qırmızı tabor»da tərxis edilib.

**Tarixçi-alim, Naxçıvan Muxtar Respublikası Dövlət Arxivinin direktoru Fəxrəddin Cəfərov 2009-cu ildə Bakıda nəşr olunmuş «Erməni vəhşiliyi» kitabında ermənilərə qarşı vuruşan qırmızı taborçulardan da bəhs edib.** Kitabda Qırmızı taborçulardan 1930-cu ildə Qırmızı partizan adı alanların siyahısı da verilib: 186 nəfər. **Siyahıda 95-ci şəxsin Baxşəliyev Səbzəm Əli oğlunun və 98-ci şəxsin Əliyev Mehdiqulunun Zeynəddin kəndindən olduqları göstərilib.** Müəllif zeynəddinli Əli Əhmədov, Kərbəlayi Qasım Hüseynov (fotoları ilə) və Ağalar Məmmədqulu oğlu Əliyev haqqında ayrıca məqalələr yazıb. Onları eynilə oxuculara təqdim edirəm.

### Hüseynov Kərbəlayı Qasım

O, Vətən və xalq işi uğrunda mübarizə aparmışdır. Xalq və Vətən uğrunda mübarizlər tarix boyu unudulmur.



Kərbəlayı Qasım Hüseynov 1878-ci ildə Naxçıvan rayonunun (Babək) Zeynəddin kəndində, yoxsul kəndli ailəsində anadan olmuşdur.

Birinci rus inqilabı ərəfəsində bütün Azərbaycanda olduğu kimi Naxçıvan ölkəsində də çoxlu kəndli çıxışları baş verirdi. Naxçıvan qəzasının Qaraçuğ, Qaraxanbəyli, Zeynəddin, Keçili, Külüs, Üstüpü, Yayçı və s. kəndlərində çıxışların sayı daha da artmışdı.

Bir xəfiyyə sənədində göstərilir ki, Puşkin küçəsində «Ülfiyyət» (dostluq) adı altında bir çayxana açılır. Buna çayxana deyil, klub desək daha doğru olar. Çünki buraya toplaşanlar monarxiya əleyhinə təbliğat aparandılar.

Çayxanadakı işlər barədə Irəvan quberniyası xəfiyyə idarəsinin rəisi polkovnik Vasilyev tərəfindən Qafqaz canişinliyi dəftərxanasına göndərilən bir məlumatda göstərilir ki, dərnəyin üzvləri öz işlərini yalnız və yalnız şifahi aparır, bütün yazılar və məktublar qəti qadağandır. Bununla bərabər dərnəyin üzvləri bir-birini şərti işarələrlə tanıyırlar, çünki yazının tapılması üzündən onlar hərbi vaxtın qanunu ilə ciddi cəzalandırıla bilərlər.

Məhz bu cəhətdən də «çayxananın» fəaliyyəti çox ciddi polis nəzarəti altına alınır. Çox ciddi polis təqibindən sonra, 1916-cı il dekabrın 19-da təşkilatın üzvlərindən 31 nəfəri həbsə alınır.

Onlar əvvəlcə Naxçıvan, sonra Irəvan quberniya həbsxanasında saxlanırlar. Kərbəlayı Qasım da tutulanlar arasında idi.

Kərbəlayı Qasım Hüseynov Məmmədrza bəy Allahverdiyevin Qırmızı partizan dəstəsində Naxçıvan, Şərur, Dərələyəz qəzalarının daşnak qoşunlarından azad edilməsində fəal iştirak etmişdir.

Kərbəlayı Qasım Hüseynov «Qırmızı tabor»dan tərxis olunduqdan sonra doğma kəndinə qayıdır.

O, kolxoz təsərrüfatında çalışmışdır. Kərbəlayı Qasım 1941-ci ildə Zeynəddin kəndində vəfat etmişdir.

***Qeyd:*** *2014-cü il iyun ayının 3-cü ongünlüyündə Naxçıvanda olarkən təsadüfən Kərbəlayi Qasımın nəvəsi Xıdırı gördüm və babasının fotosunu işlədim. Səhəri günü fotonu mənə göndərdi. Çox sağ olsun, göndərən də, gətirən də.*

**Əliyev Ağalar Məmmədqulu oğlu**

Ağalar Məmmədqulu oğlu Əliyev 1903-cü ildə Naxçıvan (Babək) rayonunun Zeynəddin kəndində anadan olmuşdur. 1920-ci ildən 1921-ci ilin axırına kimi «Qırmızı tabor»da erməni daşnaklarına qarşı vuruşmuşdur. 28 may 1934-cü ildə 4№-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir. (Nax.MRDA. f.574. siy.2. iş.48. vər.3-4)

**Əhmədov Əli**



1900-cu ildə Naxçıvan (Babək) rayonunun Zeynəddin kəndində yoxsul bir ailədə dünyaya göz açmış Əli Məmməd oğlu Əhmədov çox çətin bir həyat yolu keçmişdir. Ata-anasının vəfatından sonra Əli böyük qardaşı Əhmədin himayəsində böyümüşdür.

1918-ci ilin əvvəllərində Naxçıvan qəzasında daxili asayiş tamamilə pozulur. Ermənilər Naxçıvana soxulmağa çalışır. Buna qarşı Naxçıvan qəzasının kəndlərindən bir çoxunda özünümüdafiə dəstələri, qırmızı partizan dəstələri yaradılır.

Əli Əhmədov həmin dəstələrdən birinə (Məmmədrza bəy Allahverdiyevin rəhbərlik etdiyi özünümüdafiə dəstəsinə – F.C.) qoşulur. 1920-ci ilin payızında Əli Əhmədov «Qırmızı tabor»un tərkibində, M.Allahverdiyevin rəhbərlik etdiyi dəstədə Naxçıvan, Şərur, Dərələyəz, Ordubad, Meğri, Cəhri, Qarçivan cəbhələrində gedən döyüşlərdə cəsarətlə vuruşdu. «Birəlli» adlanan yerdə daşnaklar möhkəm istehkam yaratmışdılar. Komandanlıq tərəfindən xüsusi tapşırıq alan Əli Əhmədov həmin istehkamın dağıdılmasında və 14 nəfər düşmən əsgərinin tərksilah edilib lazımi yerə gətirilməsində fədakarlıq göstərmişdi.

Meğri və Qarçivan istiqamətlərində gedən vuruşmalarda əsil hünər və rəşadət göstərdiyinə görə ona 4 min manat pul mükafatı verilmişdir (Nax.MRDA. f.574. siy.2. iş.43. vər.3-4).

1921-ci ilin axırlarından Qırmızı taborun döyüşçüləri dinc quruculuq işlərinə keçirlər. Lakin Əli Əhmədov silahı yerə qoymur. O, 1923-1924-cü illərdə Nehrəm Dəstə sərhəd gözətçisi, 1924-cü ildən 1933-cü ilə kimi Naxçıvan rayon milis şöbəsində milis işçisi olmuşdur. Ona 1934-cü ildə Naxçıvan MSSR qırmızı partizanı adı verilmişdir.

***

## Mənalı ömrün səhifələri

- Bu cavan oğlanı mənim palatama verin.

Elə bu vaxt xəyaldan ayrıldım. Nurani simasından mərdlik yağan orta boylu kişiyə baxdım. Növbətçi feldşer məni həmin palataya yazdı. Əli Əhmədovla ilk tanışlığım buradan başladı.

Əli əminin mənə olan qayğısı həyəcanlarımı unutdurdu. Demə, Əli Əhmədov insanların qeydinə qalan, yoxsulların istismar edilməsi əleyhinə çıxan, əsil mənada ölkəmizdə yeni dünyanın qurulmasında, qaranlıq zülmətin parçalanmasında fəal iştirak edənlərdən biri olmuşdur.

Əli Əhmədov inqilab illərində «Qırmızı tabor»un üçüncü bölməsinin fəal üzvü olmuşdur. O, **Abbasqulubəy Şadlinski** və üçüncü bölmənin komandiri **Ibrahim Fərzəliyevlə** olan görüşləri yaxşı xatırlayır.

**Ibrahim Fərzəliyevin vaxtilə Əli Əhmədova verdiyi yoxlamada yazılmışdır:** «Zeynəddin kənd əhli Əhmədov Əli Məhəmməd oğlu 1920-1921-ci ildə Vedibasarda, Dərələyəzdə, Meğridə, Qarçivanda və Xor-Xat dərəsində qırmızı partizan dəstəsində fəal iştirak etdiyindən ona mükafat verilmişdir».

Arxiv sənədlərində 1923-1930-cu illərdə Əli Əhmədovun qaçaq dəstələrinə qarşı və sonralar banditlər əleyhinə mübarizə aparması qeyd edilmişdir.

Əli Əhmədov qırmızı partizan hərəkatında iştirak etdiyi illəri xatırlayaraq söhbətə başladı:

… 1921-ci ilin yazında «Qırmızı tabor»un komandiri Abbasqulubəy Şadlinski və Bahadur Vəlibəyov əsgərləri yığıb bildirdilər ki, bizim dörd dəvə yükü patronumuz yoxa çıxıb. Çox

ehtimal ki, bu sursat daşnaqlar olan ərazidədir. Necə olursa-olsun biz axtarıb tapmalıyıq. Bu məqsədlə Əli Əhmədovun başçılığı ilə Məmməd Nuriyev, Səfəralı Hüseynov və Ələsgər Əhmədov (dördü də Zeynəddin kəndindəndir) sərəncam alıb elə o dəqiqə işə başladılar. Onlar səhərə yaxın Meğri, Qarçivan dağlarının ətəyində dəvələri tapıb geri qaytardılar. Bu hadisə partizanlar arasında böyük sevincə səbəb oldu.

Meğri və Qarçivan dağlarında banditlər lap quduzlaşmışdılar. Onlar dinc əhaliyə zərər vurur, daşnaqlarla əlaqə saxlayırdılar.

Bu dəstələrin darmadağın edilməsində də Əli Əhmədovun xidməti olmuşdur.

**Əli Əhmədov öz yoldaşları ilə birlikdə Dərələyəzin Qoytul kəndində daşnaqlardan 750 tüfəng saldırmış, Keşiş kəndində 18 nəfər əsgəri xilas etmişdir.**

Əli Əhmədov igidliyə görə medalı almışdır. M.I.Kalininin imzası olan Qırmızı partizan biletini ən qiymətli xatirə kimi cibində gəzdirir.

O, Böyük Vətən müharibəsinin iştirakçısıdır. Əli əmidə olan mənəvi saflığa və nikbinliyə heyran oldum. O gənclərə məxsus əhval-ruhiyyə ilə danışır, Oktyabr bayramı günü xəstəxanada olduğu üçün parada gedə bilmədiyindən təəssüflə danışırdı. Bu il Əli əminin 77 yaşı tamam olur. Dediyimiz kimi, o nikbin və gümrahdır. Naxçıvanda Sovet hakimiyyəti qurulmasında onun da xidməti çoxdur. O bununla fəxr edir. Bir də Əli kişi partiya və hökumətin böyük qayğısı ilə fəxr edir. Əli Əhmədov yoldaş Lenin yubiley medalı və Böyük Vətən müharibəsinin 30 illiyi medalı ilə təltif edilmişdir. Əli Əhmədov şəxsi (fərdi – Ə.Hümmətov) təqaüd alır, ona verilən güzəştlərdən istifadə edir. Əli Əhmədovun iki oğlu, iki qızı, 28 nəvə və nəticəsi vardır.

Əli Əhmədovun nəvə və nəticələri qayğı ilə böyüyür. Əli əmi yeni nəslin firavan həyatına baxdıqca daxili bir rahatlıq keçirir.

***Tofiq Eyvazov,***
***«Şərq qapısı» qəzeti, 4 mart 1978-ci il***

# BÖYÜK VƏTƏN MÜHARİBƏSİNDƏ

1941-1945-ci illər Sovet Ittifaqının Böyük Vətən müharibəsində Naxçıvan rayonunun Zeynəddin kəndindən təxminən 160-170 nəfər iştirak edib. Onların yarısı müharibədə həlak olub. Tarix müəllimi Əliyev Əsgər Həsən oğlunun 1999-cu ilədək hazırladığı siyahını, əlavə siyahı və qeydlərini 2013-cü ilin iyun ayında özü ilə birlikdə bir daha dəqiqləşdirmə apardıq. Məlum oldu ki, müharibə iştirakçılarından iki nəfəri sağdır: Əhmədov Müzəffər Ələsgər oğlu və Salayev Yusif Mehralı oğlu. Müzəffər Əhmədov 2013-cü ilin dekabr ayında, Yusif Salayev isə 2014-cü ilin yayında vəfat ediblər. Kənddə müharibə veteranı qalmayıb.

## Müharibədən qayıtmayanlar

1. Abbasov Rza Həmzə oğlu
2. Axundov Müslüm Əhməd oğlu
3. Bayramov Ələkbər Müseyib oğlu
4. Bayramov Vəli Həsən oğlu
5. Bayramov Yusif Müseyib oğlu
6. Baxşəliyev Səbzalı Əli oğlu
7. Əliyev Alı Həsən oğlu
8. Əliyev Əli Qurban oğlu
9. Əliyev Məhərrəm Hüseyn oğlu
10. Əsgərov Abbas Mirzə oğlu
11. Əsgərov Hidayət Müseyib oğlu
12. Hacıyev Səfər Məşədəli oğlu
13. Hacıyev Hacı Məmmədhəsən oğlu
14. Hacıyev Ibrahim Məmmədqasım oğlu
15. Hacıyev Salman Həmzə oğlu
16. Hacıyev Murtuz Orucqulu oğlu
17. Hacıyev Musa Məşədəli oğlu
18. Heydərov Manaf Kalba Səfər oğlu

19. Həsənov Cəfər Əhməd oğlu
20. Həsənov Əli Muradəli oğlu
21. Həsənov Əsədulla Kalba Məhəmməd oğlu
22. Həsənov Hidayət Müseyib oğlu
23. Həsənov Məmməd Musa oğlu
24. Həsənov Səfər Ələkbər oğlu
25. Həsənov Vəli Muradəli oğlu
26. Həziyev Abbas Rzaqulu oğlu
27. Həziyev Ələkbər Hacıisa oğlu
28. Həziyev Ələsgər Hacıisa oğlu
29. Həziyev Məşdi Orucqulu oğlu
30. Hüseynov Abbas Alkərim oğlu
31. Hüseynov Məhərrəm Kalba Məhəmməd oğlu
32. Hüseynov Mir Allahverdi Qurbanəli oğlu
33. Hüseynov Muradəli Salman oğlu
34. Imamalıyev Imaməli
35. Imaməliyev Əli Mövləqulu oğlu
36. Ismayılov Abduləli Qurbanəli oğlu
37. Ismayılov Əli
38. Ismayılov Rza Zülfü oğlu
39. Kərimov Əli Canan oğlu
40. Kərimov Hidayət Cilovxan oğlu
41. Kərimov Məmməd Cilovxan oğlu
42. Kərimov Sultan Mehdi oğlu
43. Kərimov Şirin Canan oğlu
44. Qasımov Ismayıl Əhməd oğlu
45. Qasımov Yunis Kalba Qasım oğlu
46. Quliyev Cavad Əhməd oğlu
47. Quliyev Ələsgər Kalba Məhəmməd oğlu
48. Quliyev Əli Ismayıl oğlu
49. Quliyev Əvəz Kalba Zeynalabdin oğlu
50. Quliyev Məmmədəli Talıb oğlu
51. Qurbanəliyev Abbas
52.Məhərrəmov Əli Həsənqulu oğlu (Ingiltərədə yaşayıb)

53. Məhərrəmov Məmmədəli Həsənqulu oğlu
54. Məmmədov Manaf Əlabbas oğlu
55. Məmmədov Məmməd Alməmməd oğlu
56. Məmmədov Talıb Qəhrəman oğlu
57. Mustafayev Həsən Ələsgər oğlu
58. Nadirov Sadıx Kalba Qasım oğlu
59. Nəbiyev Ələkbər Həsən oğlu
60. Nəsirov Ismayıl
61. Nəbiyev Müslüm Həsən oğlu
62. Nuriyev Ələkbər Məhəmməd oğlu
63. Nuriyev Həsən Məhəmməd oğlu
64. Nuriyev Hüseyn Səfəralı oğlu
65. Piriyev Əli Alməmməd oğlu
66. Piriyev Xanməmməd Məmməd oğlu
67. Piriyev Pirəli Xasməmməd oğlu
68. Seyidov Mir Yusif Mir Abbas oğlu
69. Tağıyev Isa Muxtar oğlu
70. Tağıyev Məmmədtağı Rzabəy oğlu
71. Tağıyev Tağı Kalbalı oğlu
72. Vəliyev Əli Mirzalı oğlu
73. Vəliyev Məhərrəm Musa oğlu
74. Vəliyev Rza Yusifəli oğlu
75. Vəliyev Yaqub Kalba Sadıx oğlu

***Qeyd:*** *Müharibədən qayıtmayanların ailələrinə həlak olmaları və itkin düşmələri barədə xəbərlər göndərilib. Biz düşünürük ki, müharibədə itkin düşmüş hesab edilən həmvətənlərimiz də qızğın gedən döyüşlərdə həlak olublar. Bunu son illərdə gizli saxlanılan sənədlərin üzərindən məxviliyin götürülməsi, döyüşçülərin həlak olmaları faktlar da sübut edir. ("525-ci qəzet", 29 mart 2016-cı il)*

## Müharibədən qayıtdıqdan sonra vəfat edənlər

1. Abbasov Həmid Həmzə oğlu
2. Abdullayev Ismayıl Abdulla oğlu
3. Abdullayev Məhəmməd Məşəhəsən oğlu
4. Axundov Məmməd Mahmud oğlu
5. Babayev Abbas Qəhrəman oğlu
6. Babayev Abbas Mehrac oğlu
7. Babayev Qədim Qəhrəman oğlu
8. Bağırov Qasım
9. Bayramov Əziz Həbib oğlu (1920-1957)
10. Əhmədov Əli Məhəmməd oğlu (1912-1980)
11. Ələkbərov Qəzənfər Əhməd oğlu (1903-1960)
12. Əhmədov Müzəffər Ələsgər oğlu (....-2013)
13. Əliyev Əmir Hüseyn oğlu
14. Əliyev Fərhad (Məhərrəmov)
15. Əliyev Məhəmməd Kalba Paşa oğlu
16. Əliyev Möhsün Məmmədxan oğlu
17. Əliyev Həsən Cəfərqulu oğlu
18. Əliyev Hüseynqulu Qulamirzə oğlu
19. Əliyev Səbzalı
20. Əliyev Səfəralı Qulamirzə oğlu
21. Əsgərov Əli
22. Əsgərov Əli M.Mirzə oğlu (1917-…)
23. Hacıyev Abbas Əsəd oğlu (1911-1985)
24. Hacıyev Əli Qurbanəli oğlu
25. Hacıyev Hacı Vəli oğlu
26. Hacıyev Kitay Balakişi oğlu (1911-…)
27. Hacıyev Məhəmməd (Məmməd) Məşədi Həsən oğlu (1909-1954)
28. Hacıyev Nəsir Isgəndər oğlu
29. Hacıyev Nəsir Məhəmmədəli oğlu
30. Həsənov Məhəmməd Müseyib oğlu (1916-198…)
31. Həziyev Hüseyn Rzaqulu oğlu

32. Hüseynov Ərrəhman Xəlil oğlu
33. Hüseynov Hüseyn Əsgər oğlu (1918-1977)
34. Hüseynov Hüseynalı Kalba Salman oğlu
35. Hüseynov Ibadulla Əsgər oğlu
36. Hüseynov Mənsum Hüseyn oğlu (1899-…)
37. Imaməliyev Islam Əzim oğlu (1905-1981)
38. Imaməliyev Məhəmməd Əzim oğlu (1907-1962)
39. Ismayılov Ismayıl
40. Qasımov Abbas Əhməd oğlu
41. Qasımov Kalba Hüseyn Kalba Qasım oğlu (1895-1950)
42. Qasımov Qasım Abdulla oğlu (1905-2000)
43. Quliyev Abbas Ismayıl oğlu
44. Quliyev Ələsgər Kalba Məhəmməd oğlu
45. Quliyev Hüseyn Kalba Nəcəf oğlu (1919-1959)
46. Quliyev Həsənxan Rza oğlu (1907-1970)
47. Quliyev Ibrahim Kalba Məhəmməd oğlu (1907-1961)
48. Quliyev Nurəli Kalba Məhəmməd oğlu
49. Qurbanəliyev Heydərəli
50. Qurbanəliyev Vəli Allahverdi oğlu
51. Məhərrəmov Ismayıl Məhərrəm oğlu (1920-1965)
52. Məhərrəmov Səməd Məşədi Əhməd oğlu
53. Məmiyev Bayram Məhəmməd oğlu
54. Məmiyev Əli Məhəmməd oğlu (1907-1995)
55. Məmmədov Ibrahimxəlil Kalba Hüseyn oğlu
56. Məmmədov Isa Kalba Hüseyn oğlu (1912-…)
57. Məmmədov Murtuzəli
58. Muradov Musa Gülmalı oğlu
59. Nadirov Əsgər Kalba Qasım oğlu
60. Nadirov Məhəmməd Emin oğlu
61. Nadirov Mehralı Səfəralı oğlu
62. Nağıyev Qasım Nağı oğlu
63. Nəbiyev Əli Həsən oğlu (1900-1970)
64. Nəbiyev Məhəmməd Ağabəy oğlu (1915-1952 ?)

65. Nəbiyev Yusif Ağabəy oğlu (1917-1968)
66. Novruzo Kətən
67. Nuriyev Ələkbər Məhəmməd oğlu
68. Nuriyev Nurməmməd Kalba Şaməməmd oğlu
69. Piriyev Cəlil (Cəlal) Alməmməd oğlu
70. Piriyev Heydərəli Kalba Xaməmməd oğlu
71. Piriyev Ismayıl Dədəkişi oğlu
72. Piriyev Məmməd Kalba Xaməmməd oğlu
73. Salayev Əli Hüseyn oğlu
74. Salayev Müslüm
75. Şahbazov Əli Süleyman oğlu
76. Salayev Yusif Mehralı oğlu (...-2014)
77. Seyidov Mir Qafar Mir Abbas oğlu (1905-1987)
78. Tağıyev Abdulla Ələkbər oğlu (1916-1985)
79. Tağıyev Əsədulla Əli oğlu (1916-1978)
80. Teymurov Əli
81. Vəliyev Mirzə Yusifəli oğlu
82. Vəliyev Zeynalabdin Kalba Vəliyullah oğlu (1915-1989)
83. Zeynalov Məhəmməd Məmməd oğlu
84. Zeyniyev Imamqulu Əli oğlu

***Qeyd:*** *Siyahını gələcəkdə arxiv mənbələri əsasında tam dəqiqləşdirmək mümkündür.*

## SADIX NADİRLİ HAQQINDA QISA ARAYIŞ

Nadirov Sadıx Qasım oğlu 1910-cu ildə Naxçıvan rayonunun (indiki Babək) Zeynəddin kəndində anadan olub. 1927-ci ildə kənddəki 7 illik məktəbi, 1929-cu ildə Naxçıvan şəhər sovet-partiya məktəbini, 1932-ci ildə isə Bakı şəhərində Kooperativ texnikumunu bitirmişdir.

1935-ci ildən 1940-cı ilədək Naxçıvan Kənd təsərrüfatı və Tibb məktəbində hərbi rəhbər işləmişdir. 1939-cu ilin aprelində Sov.IKP sırasına daxil olmuşdur. («Şərq qapısı» vilayət qəzetinin 28 aprel 1938-ci il tarixli nömrəsində Naxçıvan Tibb Məktəbində Sadıx Nadirovun 4 tələbəyə atıcılıq öyrətdiyi zaman çəkilmiş bir fotosunu vermişdir – Ə.Hümmətov.)

Sovet Ittifaqının Böyük Vətən müharibəsi başlanan kimi Naxçıvanda 76-cı dağ atıcı diviziyası təşkil edilməyə başlanmışdır və Sadıx Nadirov da dərhal leytenant rütbəsində həmin diviziyanın takım komandiri təyin edilmişdir.

1942-ci ilin əvvəllərində Şimali Qafqaz uğrunda gedən döyüşlərdə iştirak edən Sadıx müəllim axırıncı məktubu Krımdan anasına yazmışdır. Buradakı qızğın vuruşmalar zamanı çiynindən yaralanan gənc leytenant əsir düşmüşdür.

Sadıx Nadirlinin sonrakı taleyi barədə uzun illər çalışmalarım, axtarışlarım qismən öz bəhrəsini vermişdir. Hazırda Zeynəddin kənd tam orta məktəbi onun adını daşıyır.

Kitabda veriləcək digər yazılardan oxucular bu alovlu, cəsur vətənpərvər zabitin əsirlikdəki fəaliyyəti, mübarizliyi haqqında ətraflı məlumat ala biləcəklərinə əminəm.

***Əsgər Əliyev,***
***Pensiyaçı, tarix müəllimi, ehtiyatda olan zabit***

# «MİXAYLO»NUN SİLAHDAŞLARI

1975-ci ildə televiziyanın «Heç kim unudulmayıb...» verilişində Naxçıvanın Zeynəddin kənd orta məktəbinin müəllimi Əsgər Əliyevin göndərdiyi belə bir sorğunu elan etmişdik: "Həmkəndlimiz Sadıq Nadirli Italiyada əfsanəvi partizan, Sovet Ittifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin yaxın dostu və silahdaşı olub. Mehdi Hüseynzadənin sağ qalan dostlarının hamısı – Cavad Həkimli, Mikayıl Qulubəyov, Fərrux Sultanov, Qədir Isgəndərov, Rza Orucov və başqaları öz xatirələrində Sadıq Nadirliniıı adını dönə-dönə çəkir, onun gizli təşkilatlardakı mübariz fəaliyyətindən qısaca bəhs edirdilər. Ümid edirik ki, Nadirlinin sağ qalan partizan dostları onun haqqında əlavə məlumatlarla redaksiyamıza müraciət edəcəklər."

Sorğudan bir neçə gün sonra Tovuzdan zəng edib bizə şad xəbər verdilər. Həmin gizli təşkilatın fəal üzvlərindən biri olan Fərrux Sultanov hazırda Tovuzda yaşayır. Fərrux Sultanovla görüşmək, onun xatirələrini dinləmək üçün mən həmin rayona ezam olundum...

...Əsirlik həyatından danışmaq, dəhşətli günləri bir daha xatırlamaq Fərrux Sultanov üçün çox ağırdır. Tale onu vətəndən uzaqlarda çox adamlarla görüşdürüb, həyatın minbir məşəqqətinin acısını dadıb.

Tez-tez vaxtsız həlak olan silah dostlarını xatırlayır, onların vətən üçün əvəzsiz xidmətini kədər və qürur hissi ilə yad edir. Ötüb keçən illər bu kövrək insanın hafizəsindən hələ çox şeyi qoparda bilməyib. Faşistlər onu yeddi ay Simferopol həbsxanasında müalicəsiz saxladıqdan sonra hərbi əsirlər dəstəsində Almaniyaya göndərirlər. Ştrans qəsəbəsindəki əsirlər düşərgəsində o, ilk dəfə cəsur Mehdi Hüseynzadə ilə tanış olur.

- Mehdi ilə ilk dəfə 1943-cü ilin sentyabr ayında həmin həbs düşərgəsində tanış oldum.

Fərrux susdu, onun kədərli üzü sanki daşa dönmüşdü. Biz onunla Tovuzdakı kiçik həyətində oturmuşduq. Üzü günəşə

baxan evin kölgəsində. Dama qədər dırmaşan meynəliyin kölgəliyi çox sərin idi. Müsahibimin alnında, üzündə tər damcıları almaz dənələri kimi parıldayırdı. Ara vermədən papiros çəkən Fərrux bizə tərəf uzanan budağı tutub dedi:

- İndi mən bunu sındırsam, gövdəsindən ayırsam, göz yaşı axıdacaq. Insan da belədi. Kim onu vətəndən, anadan ayırsa, kədərlənib göz yaşı tökəcək. Ilk vaxtlar günlərimiz çox kədərli keçirdi. Elə ki Mehdiylə tanış olduq, bu nikbin və şən oğlan hamımızı ələ aldı. Əsir düşən ağlamaz, - dedi, gəlin burdan çıxmaq üçün bir çarə axtaraq. Düşərgədəki iyirmi üç min əsir arasında möhkəm təbliğat apardıq. Ilk dəfə olaraq almanlara qarşı gizli təşkilat yaratdıq. Təşkilatın ümumi rəhbəri Mehdi, qrup rəhbərləri isə Cavad Həkimli, Sadıq Nadirli, Mikayıl Qulubəyov, Qasım Əmrahov və başqaları oldu.

O vaxtlar almanlar yerli əhalini də çox incidirdilər. Odur ki, onlardan bəziləri partizanlıq edirdilər. Biz də imkan axtarırdıq ki, faşist gözətçilərini məhv edib, onlara qoşulaq.

1943-cü ilin noyabrında bizi vaqonlara doldurub Şimali İtaliyanın Triyest şəhəri yaxınlığındakı Opçina qəsəbəsinə istehkamlar qurmaq üçün gətirdilər. Burada işlədiyimizə görə nisbətən «azadlıq» qazanmışdıq. Hətta almanlar Mehdiyə, Cavada etibar edib qəsəbəyə getmələrinə də icazə verirdilər. Onlar partizanlarla əlaqə yarada bilmişdilər. Gizli təşkilatımızın qərarına əsasən Mehdi, Cavad və Əsəd Qurbanov partizanlığa göndərildi. Sadıq Nadirli, Qasım Əmrahov və mən Mehdinin göstərişi ilə əsirlikdə fəaliyyət göstərməli, almanların hərəkəti haqqında onlara müntəzəm məlumat verməli və əsirlərin kütləvi partizanlığa qaçmasına şərait yaratmalı idik. Bizim göstərişlərimizlə Mehdigil kinoteatrları, körpüləri, fahişəxanaları, restoran və barları dağıdırdılar. Ümumiyyətlə, bizim əsas vəzifəmiz faşist əsgər və zabitinin çox olduğu yeri nişan vermək idi.

- Fərrux müəllim, Mehdigillə harada, necə görüşürdünüz, bəs faşist nəzarəti?

- Bizi gündüzlər çox işlədib yorsalar da, gecələr gözətçini

yuxuya verəndən sonra yatmırdıq. Nəyin bahasına olursa olsun, təşkilatın tapşırığı yerinə yetirilməli idi. Axı təşkilatın əsas rəhbərlərindən biri cəsur sovet kapitanı Cavad Həkimlinin dəmir kimi möhkəm andı vardı: “Lazım gələrsə, vətən yolunda həlak olmalı!” Təşkilat yaranan günü bu anda son nəfəsimizə qədər sadiq qalmağa söz vermişdik. Gecələr Mehdigillə qabaqcadan müəyyən olunmuş yerlərdə - restoranlarda (əlbəttə, alman formasında), qoca bir qarının evində və ayrı-ayrı tinlərdə görüşüb məlumat alıb-verirdik.

- Mehdinin nəsillərə nümunə olan əfsanəvi qəhrəmanlığı haqqında haqlı olaraq mətbuatımızda çox yazılıb. Bəs cəsur dostunuz Sadıq Qasım oğlu Nadirlinin fəaliyyətindən necə, yadınızda qalan bir epizod varmı?

- Mən inamla deyərdim ki, Mehdi kimi, Sadıq Nadirli də misilsiz rəşadət göstərmişdir. 1943-cü il, payızın son ayları idi. Bir gün mən Mehdinin buraxdığı “Hüququnu itirmiş dostuma” sərlövhəli vərəqələri başqa bir düşərgəyə çatdırmalı idim.

Vərəqələr alman faşistlərinin yaxın vaxtlarda darmadağın olunmasından, Sovet qoşunlarının bütün cəbhə boyu müvəffəqiyyətli hücumundan bəhs etməklə bərabər, həm də əsirləri intiqama səsləyən mübariz bir ittihamnamə idi. Onun son sətirləri “Alman faşistlərinə ölüm!” cümləsi ilə qurtarırdı.

Azərbaycan dilində olan bu vərəqə “Qürbətzadə Mixaylo” imzası ilə buraxılırdı.

Mən Mehdidən iki yüzdən çox vərəqə götürüb, əlavə tapşırıqlar da aldım. Düşərgələr bir-birindən xeyli aralı idi.

Həmin gün bizim parolumuz “Xəzər dalğası” idi. Onu da deyim ki, ehtiyat üçün hər görüşdə bir parolumuz olurdu.

Qaranlıq, çiskinli bir gecə idi. Pencəyimin sağ qolunda gizlətdiyim tapançamı hazır vəziyyətdə saxlamışdım. Görüş yerinə lap az qalmış qəfildən gözümə gur işıq salındı. Bir səs "hendi hox’’- deyə bağırdı. Faşist patrulları ilə üzbəüz gəldiyimə şübhə etməyib yerimdən tərpənmədim. Kiçicik bir hərəkətimdən, tərpənişimdən məni yerimdəcə güllələyə bilərdilər. Sağ və

solumda avtomat şaqqıldadı. Almanca gecənin adını soruşduqda, dinmədim.

Üstümdəki vərəqələrdən birisi kimdə tapılsaydı, onun ən yüngül cəzası asılmaq idi. Məndə isə bu vərəqələrdən iki yüzdən çox idi.

Son dəqiqələrim olduğunu hiss edib, xəyalımdan min bir fikir keçirdim. Faşist cəlladlarının dəhşətli, dözülməz cəzalarını xatırlayıb burada özümü məhv etmək qərarına gəldim. Yavaş-yavaş əllərimi yuxarı qaldırıb tapançadan möhkəm yapışdım. Faşist yenə “Parol! ”-deyə bağırdı. Bu vaxt arxadan kimsə, "Xəzər dalğası” deyib bir anda faşistləri yerə sərdi. Mən qorxudan donub qalmışdım. Güllə atılan tərəfdən:

- Fərrux, mənəm, Nadirliyəm, özünü ələ al, - sözləri eşidildi. Sadıq faşist avtomatlarını soyuqqanlılıqla yerdən götürdü. Sonra:

- Hələ özünə gəlməmisənmi? - deyə soruşdu. Mən onda xatırladım ki, bura həmişə Nadirli ilə görüşdüyümüz yerdir. Sadıq Nadirli də Mehdi kimi faşistlərin qənimi idi. Sloveniyada və Yuqoslaviyada adı dillərdə gəzirdi. O, Naxçıvanın Zeynəddin kəndində anadan olmuşdu. Bu cəsur vətənpərvər həbs düşərgəsində əsirlərə olmazın cəza verən faşist zabiti Rabeni və baş feldfebel Ştiki aldadıb bara aparmış və orada məhv etmişdi.

- Nadirlinin son taleyi necə, yadınızdadırmı?

- Artıq 1944-cü il, mart ayının sonlarında düşərgədəki iki mindən çox azərbaycanlının partizanlığa qaçmaq planını hazırlamışdıq. Hər şey əvvəlcədən müəyyənləşdirilmişdi. Əməliyyat necə olursa olsun, yerinə yetirilməli idi. O vaxt faşistlər bizdən bir az şübhələnib ayrı-ayrı düşərgələrə bölmüşdülər. Düşərgələr bir-birindən iyirmi beş-otuz kilometr aralı idi. Bir gün Qasım Əmrahov xəbər gətirdi ki, Nadirli həbs olunub, silahdaşlarını da darmadağın ediblər, təşkilatın uzun müddət hazırladığı plan təhlükə qarşısındadır. O, vətənpərvərlərdən ibarət gizli bir dəstə toplamışdı. Onun ən böyük arzusu gizli fəaliyyətə son qoyub silahdaşları ilə birgə Mehdinin partizan dəstəsinə qoşulmaq idi.

Həmin gecə səhərə yaxın Nadirli sloven qızı Savvanın ("Uzaq sahillərdə " filmindəki Anjelikanın əsl adı) yanına gedib, məxfi məlumatları və partizanların göndərdiyi buraxılış vərəqələrini alıb qayıdanda bir satqın tərəfindən ələ verilir. Axtarış zamanı onun portfelindən məxfı sənədlər çıxır. Satqın Nadirlinin öz dəstəsində imiş. Bir neçə gün sonra hamını Nadirlinin olduğu düşərgəyə gətirdilər. Ona dəhşətli əzab, işgəncə vermişdilər. Müavini Məmmədağa ilə ikisini də düşərgədə əsirlər qarşısında dirəyə bağlayıb vicdansızcasına döydülər. Onu bu vəziyyətdə tanımaq çox çətin idi. Lakin o, bütün əzablara mərd bir sovet zabiti kimi dözərək nə təşkilat, nə də onun üzvləri haqqında heç bir şey demədi.

Son sözləri indi də qulaqlarımda səslənir: "Əlvida, qardaşlar, məndən arxayın olun, sağ qalsanız anama, Vətənə çoxlu salam deyin!".

Boğula-boğula danışan müsahibim hıçqırtıdan özünü saxlaya bilmirdi. Mən donmuş halda onun üzünə baxırdım. Amma göz yaşlarını görə bilmirdim. Hardansa nənəmdən eşitdiyim bir fikir yadıma düşdü: "Dost üçün ağlayan gözün yaşı qəlbə axar". Bəlkə insan öz daxilindəki odu, atəşi, yanğını söndürmək üçün gözünün yaşını qəlbinə axıdır. Adam ancaq onda nisbətən rahatlıq tapır, öz əzabı özünü dincəldib sakitləşdirir. Dərdini danışmaqla rahatlıq tapmasan, ürəyin varsa, gərək mütləq ağlayasan…

***

Lori dərəsinin girəcəyindəki - Gürcüstanla Ermənistanın sərhədində yerləşən Ləmbəli kəndilə bizi on, on beş kilometr ayırırdı. Amma adama elə gəlir ki, bu ucdan əl uzatsan çatarsan. Aşağılarda - Kür üstündəki pənbə buludlar şairanə bir nazla sürünə-sürünə harasa baş alıb gedir.

Mixaylo və Cavad - hər iki ad uşaqlıqdan mənə tanış və doğmadır. Yadımdadır, 1957-ci ildə Mehdi Hüseynzadəyə Sovet Ittifaqı Qəhrəmanı adı verilməsi xəbəri ildırım sürətilə ölkəmizin hər bucağına yayıldı. Onda biz məktəblilər tənəffüsdə

bildiyimizi dil boğaza qoymadan bir-birimizə əfsanə kimi danışardıq. Hətta ən tələbkar riyaziyyat müəllimimiz Qiyas Hacıyev də dərsini həmkəndlisi Cavadın Mehdi ilə dostluğuna qurban verərdi. Bizim təsəvvürümüzdə Mixaylo və Cavad dünyanın ən cəsur, ən nəhəng qəhrəmanları idi…

Yolda Fərrux Sultanovdan dönə-dönə Cavadın boy-buxununu soruşdum:

Ortaboylu, yerişdən və dildən iti bir adamdır, - dedi. Sonra gülə-gülə əlavə etdi: - O da mənim kimi qara qıvrım tellərini qürbət küləklərinə verib.

Doğrudan da Cavad Həkimli ilk baxışdan qeyri-adiliyi ilə heç kimdən fərqlənmir. Yalnız cəsur dostu Mehdidən danışanda adam onun yaddaşına, təvazökarlığına qibtə edir...

- Bəs həbs düşərgəsində gizli iş aparan, tağım komandiri kimi böyük etibar qazanmış igid Sadıq Nadirlini necə, xatırlayırsınızmı?

Baş leytenant Nadirli ilə mən hələ 1942-ci ilin axırlarında Ukraynada tanış olduq. Tale bizi ikinci dəfə Almaniyanın Ştranst şəhərindəki əsir düşərgəsində görüşdürdü. Düşərgəmizdə ukraynalı Jenya Zoporojets adlı bir qız vardı. O, alman qərargahında işləyirdi. Özünü "Folks doln", yəni "alman qatışığı, almana məxsus” adlandırırdı. Qızın Nadirliyə xüsusi hörməti, rəğbəti vardı. Bir neçə dəfə onu sınadıq. Etibarlı qız idi. Biz, xüsusilə, Sadıq Nadirli bu qızdan təxribat işini öyrəndik.

Xoşum gəlir, - deyərdi, - etibarlı adamdan, müharibədən sonra harada olsa Jenyanı tapıb əbədi dostluq edəcəm.

1944-cü ilin yanvarında (kitabda texniki səhv olaraq 1943-cü il yazılıb – Ə.H.) Mehdinin, Əsəd Qurbanovun və mənim partizanlığa keçməyimizə şərait yaradan Nadirli oldu. Gizli təşkilatın rəhbərləri arasında aparılan vəzifə bölgüsünə görə Nadirli düşərgədə qaldı. Azərbaycanlı əsirlərin partizanlığa qaçmasını təşkil etdi. Sadıq Nadirli həm də alman komandanlığının hərəkət planları, döyüşçü və hərbi sursat daşıyan qatarların, avtomobillərin hərəkət cədvəli haqqında əvvəlcədən biz partizan-

lara məlumat verirdi. Bu cəsur oğlan belə çətin və qorxulu işin öhdəsindən şərəflə gəlirdi. Nadirli partizanların buraxdığı xüsusi vərəqələri əsirlər arasında yayırdı. Bu vərəqələr partizanların yanına keçmək üçün etibarnamə, buraxılış vərəqəsi idi.

Həmin il (yəni 1944-cü il – Ə.H.) martın 14-də əsirlik həyatına son qoymaq istəyən Nadirli öz tağımı ilə birlikdə partizanların tərəfinə keçmək üçün plan hazırlayır. Partizanlarla görüşəcəyi yeri və vaxtı dəqiqləşdirib, yaxın adamlarını planla tanış edir. Martın 16-da səhər tezdən əsir döyüşçülərinə məşq üçün həyəcan siqnalı verir. Döyüşçülər silahlanıb partizanlar olan tərəfə «hücuma» keçməli, özlərilə alman keşikçilərini də aparmalı idilər. Almanlar duyuq düşsə, vuruşa-vuruşa, duyuq düşməsələr, sakitliklə partizanlar tərəfə keçməli idilər.

Lakin bu plan baş tutmur. Həmin gecə Nadirli özü partizan rabitəçisi ilə görüşüb müxtəlif sənədləri və buraxılış vərəqələrini alıb geri qayıdarkən düşərgədə yaxalanır. Axtarış vaxtı onun hərbi çantasından çıxan bu sənədlər onun gənc həyatına son qoydurur…

Cavad Həkimlidən sağ qalan keçmiş partizanlarla indi görüşüb-görüşmədiyini soruşdum. O, eynəyini gözünə taxdı. Özünəməxsus cəldliklə stolun üstündəki qovduqları kənara qoyub:

- Bax, - dedi, bu qovluqda silah dostlarının ünvanlarını saxlayıram.

Vərəqləyib baxıram. Müxtəlif ünvanlar, şəhərlər, kəndlər.

Yaşıl cildli bir dəftərdə beş yüzdən çox partizan haqqında məlumat var. Hansı partizan harada, neçənci ildə yaralanıb, harada dəfn olunub, adı, familiyası, təvəllüdü və s. Bu dəftəri qərargah rəisi Cavad Həkimli partizanlıqda olanda tərtib etmişdir. Sərhədlər, şəhərlər keçib gələn dəftərin üstündə müxtəlif qeydlər, icazə möhürləri var.

**Dəftərdən qeydlər:** Firudin Hüseynov, Naxçıvanda anadan olub. Təvəllüdü 1908-ci il. Smolensk şəhəri uğrunda vuruşarkən ağır yaralanıb, əsir düşüb. Anatoli Dyaçenkonun

rotasında bölmə komandiri. Avça faşist düşərgəsini və avtomobil dəstəsini məhv etmişdir. 1944-cü il iyulun 21-də Vipava dərəsindəki ölüm-dirim vuruşmasında həlak olub. Qəbri Solla kənd qəbiristanlığındadır.

- Ötən il Naxçıvanda olanda Firudinin oğlu Tofiq və Vaqiflə görüşdum - deyə Cavad müəllim silah dostunun oğlanları ilə təsadüfi tanışlığından həyəcanla söhbət açır.

- Atalarının unudulmaz qəhrəmanlığı haqqında onlara məlumat verdim. Bu igidin qeyri-adi şücaətindən rota komandiri Anatoli Dyaçenkonun danışdığı epizodlarla onları tanış etdim. Tofiqlə Vaqif el-obamızda fəxrlə, başı uca gəzməyə haqlıdırlar. Mərd atanın oğulları buna layiqdirlər. Bu təsadüfi görüş məni otuz beş illik xatirələrə qaytardı. Onları heç kəs mənə təqdim etmədi. Atalarına oxşayan bu gəncləri içəri keçən kimi tanıdım.

… Söhbətinə azacıq ara verən Cavad Həkimli durub işığı yandırdı. Divarda ürək kimi aramsız döyünən saata baxdım. Artıq səkkiz idi. Beş saatdan çox vaxtın necə gəlib-keçdiyini hiss etməmişdim. Gözucu qeyd dəftərçəmi vərəqlədim. Onun özü haqqında ara-sıra məlumatlara rast gəldim. Bir daha onun təvazökarlığına qibtə etdim. Rota komandiri Cavad Həkimli rota komissarı Mehdi Hüseynzadə qədər gözümdə əfsanələşdi…

***Qeyd:*** *«Mixaylo»nun silahdaşları» məqaləsi Şəmistan Nəzirlinin (Əmiraslan oğlu) 2013-cü ildə Bakıda nəşr olunmuş «Əfsanəvi Mixaylo» kitabından götürülüb, Sadıq Nadirliyə və Firudin Hüseynova aid hissələri oxuyuca təqdim edilib.*

# JURNALİST ƏZİZƏ ŞAMİLOVANIN QEYDLƏRİ




*Əzizə Şamilova, Sevindik Həmzəyev və Cavad Həkimli*

İllər keçdikcə insanın yaddaşında, dünyagörüşündə də dəyişikliklər baş verir, ancaq əqidə, amal dəyişmir. 40 ilə yaxındır ki, az-çox qələmə üz tuturam, haqqında yazdığım insanların mətinliyi, igidliyi, çətinliyə sinə gərə bilməsi məni cəlb edir. Hər dəfə əlimə qələm alanda buna saqdiq qalmağa çalışıram.

Zeynəddin kəndinin camaatına da xüsusi hörmətim var. Heç vaxt haqqı nahaqqa verməz, kimsənin yaxşılığını unutmazlar, öz el-obalarının adını, şərəfini uca tutarlar. Mən ilk dəfə Sadıq Nadirli haqqında 70-ci illərin sonlarında kəndin ziyalısı, el ağsaqqalı əsgər müəllimdən, həmkarım Əşrəfdən eşitmişdim. Təəccüblənmişdim ki, bu adamın özü və yaxınları çoxdan həyatda olmamasına rəğmən həmyerliləri faşizmə qarşı mübarizədə canını fəda etmiş Sadıq Nadirlinin xatirəsini necə yüksək qiymətləndirirlər.

Bu məni çox duyğulandırdı və bir jurnalist kimi axtarışlara başladım. İlk növbədə Sadıq Nadirlinin adı keçən "İntiqam" kitabının müəlliflərindən biri Cavad Həkimliyə müraciət etdim. Mənə Sadıq Nadirlini yaxından tanıyanlar, canlı şahidlər lazım idi. Çünki onun xatirəsinin Zeynəddin kəndində əbədiləşdiril-

məsini, cəsur həmyerlilərinə ölümündən sonra qiymət vermək istəyənlər çox idi. Bu istəyə, arzuya isə DTK-dan (Dövlət Təhlükəsizlik Komitəsindən) müsbət rəy gəlmirdi. Səbəb Sadıq Nadirlinin əsirlikdə almanların legionunda xidmət etməsi idi. Lakin Sadıq Nadirlini İtalyadan tanıyanlar onun haqqında tamam başqa şeylər deyirdilər.

Artıq əsl həqiqəti üzə çıxarmaq vaxtı çatmışdı. Mən buna əsaslanaraq ruhdan düşmədim və 1979-cu ilin qışında Mehdi Hüseynzadənin (11 aprel 1957-ci ildə Mehdi Hənifə oğlu Hüseynzadəyə Sovet İttifaqı Qəhrəmanı adı verilib) də İtaliyada faşist Almanyasına qarşı vuruşduğu partizan hərəkatının ən fədakar üzvlərindən olan partizan dəstəsinin qərargah rəisi, canlı informasiya mənbəyi ermənistanlı Cavad Həkimlinin və legion-dan qaçaraq partizanlara qoşulmuş, sonra almanlar tərəfindən qiyabi ölüm hökmü verilmiş tovuzlu Fərrux Sultanovu Naxçıvan televiziyasında hazırladığım verlişə dəvət etdim.

Mövzumuz Sadiq Nadirli və onun həyatının bilinməyən tərəflərinə açıqlıq gətirmək oldu. Verlişin qonaqlarını Naxçıvan televiziyasında görüb tanıyanlar dəstə-dəstə studiyaya axışırdılar.

Özləri partizan olanlar C.Həkimli və F.Sultanov ilə görüşmək istəyir, yaxınlarından xəbər almaq istəyənlər isə yeni məlumat eşitməyə tələsirdilər. Cavad Həkimli əlində gətirdiyi partizan dəstəsinə daxil olanların qeydiyyat jurnalını açmadan belə suallara əzbər cavab verirdi. Hətta elə oldu ki, itkin bilinən bir naxçıvanlı Firudun Hüseynov haqqında onun kitabında qey-diyyat aparıldığı məlum oldu. İnsnların göz yaşları sevinc yaşla-rına qarışmışdı. **Mən isə heç vaxt unuda bilmədiyim bir günü yaşayırdım. Naxçıvan Televiziya və Radio Verlişləri Komi-təsinin sədri Elxan Əliyevlə mən keçmiş partizanlarla birlik-də xatirə şəkli də çəkdirdik.** Cavad Həkimli və Fərrux Sulta-novu Naxçıvanın görkəmli yerlərini gəzdidik, ictimaiyyətlə, gənclərlə görüşlərini keçirdik. II Dünya müharibəsinin insanları düçar etdiyi dəhşətli hadisələrin canlı salnaməsi olmuş bu insanların danışdıqları hamı üçün maraqlı və unudulmaz idi.



*Ön cərgədə: Cavad Həkimli, Əzizə Şamilova, Elxan Əliyev, İbrahim Bağırov və Fərrux Sultanov, arxa cərgədə: partizanlar*

Cavad Həkimli və Fərrux Sultanovla dönə-dönə Sadiq Nadirli haqqında söhbətləşdik, ən xırda detalları nəzərdən keçirdik. Məlum oldu ki, Sadiq Nadirli İtalyadakı legiondan azərbaycanlıların qaçışını təşkil edir, onların partizanlara qoşulmasına nail olurdu. Belə təhlükəli işi həyata keçirmək, almanların diqqətini özünə cəlb etməmək çox çətin idi. Bu ancaq Sadiq Nadirli kimi təcrübəli zabitin əlindən gələrdi. O müharibədən əvvəl də Naxçıvanda hərbi komissarlıqda işləmişdi.

Bu təcrübə onun köməyinə əsirlikdə də gəlmişdi. Hələ Almaniyanın Ştrasse şəhərində düşərgədə olarkən Jenya adlı qadınla tanış olmuş, onunla yaxın münasibəttlər qurmuşdu. İtaliyada Sadıq Nadirlinin gizli fəaliyyəti nəticəsində legiondan qaçırılanların partizanlara qoşulmasına Jenya köməklik edirdi. Bu faktların canlı şahidi olan Cavad Həkimli və Fərrux Sultanov deyirdilər ki, legiondan qaçışları Sadiq Nadirli canı bahasına təşkil edirdi.

Belə qaçışlardan birini başa çatdırdıqdan sonra almanlar həyacan qaldırmış, axtarış aparmışdılar, ələ aldıqları bir satqın

Sadiq Nadirlini ələ vermişdi. Sonra almanlar Sadiq Nadirlini köməkçisi Dəvəçili Məmmədağa Nəzirovla birlikdə legionun gözü qarşısında güllələdilər.

Qeyd etməliyəm ki, mən bunları öyrənəndən sonra sakit dayana bilmədim. Sadiq Nadirlini tanıyan, onunla legionda olmuş digər azərbaycanlılara və Jenyaya məktubla müraciət etdim, bildiklərini yazmağı xahiş etdim. Mənə gələn cavablar çox ilginc idi, hətta Gəncədən bir nəfər Sadiq Nadirlini satanın yerini və adını da yazmışdı.

Mənim üçün Jenyanın taleyi çox maraq doğururdu. Bu istəklə Ukraynanın Zaporoje şəhər qəzetinə bir məktub yazaraq belə bir insanı axtardığımı bildirdim. Bir neçə ay sonra mənə bir məktub gəldi. Jenyadan gələn məktubun üstündə ünvan yox idi. Konvertin (zərfin) möhüründə isə Özbəkistanın Fərqanə şəhərinin adı yazılmışdı. Jenya öz ünvanını bildirmək istəmədiyini məktubda açıq etiraf edirdi. Sadiq Nadirlini yaxşı tanıdığını, deyilənlərin doğru olduğunu təsdiq edirdi. Hazırdakı ailəsinin onun əsirlikdə olduğundan xəbər tutmasını istəmədiyi üçün ünvan bildirmirdi. Mənim çağırışıma cavab verdiyinə görə çox minnətdar idim. Çətinliklərə baxmayaraq o həqiqətin üzə çıxarılması üçün bildiklərini mənə yazmışdı.

***Əzizə Şamilova, jurnalist***
***10 fevral 2017-ci il***

# İGİD ÖLƏR, ADI QALAR

Zeynəddin kənd orta məktəbinin ibtidai hərbi hazırlıq kabinəsində kənarı qara haşiyə ilə örtülmüş bir lövhə var. burada 86 nəfərin adı yazılmışdır. Onlar Böyük Vətən müharibəsindən geri qayıtmayan həmvətənlərimizdir. Onların birinin döyüş yolu və taleyi haqqında söhbət açmaq istəyirəm.

**Sadıq Kərbalayı Qasım oğlu Nadirov 1915-ci ildə (1910-cu ildə-Ə.Hümmətov) Naxçıvan rayonundakı Zeynəd-din kəndində anadan olmuş,** uşaqlıq və gənclik illərini orada keçirmiş, ilk təhsilini də bu kənddəki natamam orta məktəbdə almışdır. Sonra Bakı şəhərindəki sənaye pedaqoji texnikumuna daxil olmuş, 1939-cu ildə (1932-ci ildə. Bax: "Sadıq Nadirli haqqında qısa arayış"a) həmin texnikumu və bir qədər sonra zabitlər hazırlayan xüsusi məktəbi bitirərək leytenant rütbəsi almışdır. Naxçıvana qayıdan gənc leytenant SSRI-nin müdafiəsinə və kimya-aviasiya quruculuğuna yardım cəmiyyətinin (Osoaviaxim) şəhər təşkilatında uçot və informasiya üzrə təlimatçı vəzifəsində işə başlamışdır. Sadıq Nadirov həm də 1940-1941-ci (1935-1941-ci illərdə – Ə.H.) illərdə Naxçıvan şəhər pedaqoji texnikumunda, tibb məktəbində hərbi hazırlıq dərslərini demişdir.

1941-ci ilin iyulunda alman faşist işğalçıları ölkəmizə xaincəsinə basqın etdiyi ilk günlərdə leytenant Nadirov ordu sıralarına daxil olur və dağ atıcı diviziyasının süvari eskadronuna komandir təyin edilir. 1942-ci ilin əvvəllərində həmin diviziya Şimali Qafqaz uğrunda gedən qızğın döyüşlərdə iştirak edir.

Faşistlərin hücum planında Qafqaza xüsusi əhəmiyyət verilirdi. 1942-ci ilin aprel ayında Hitlerin imzaladığı direktivdə göstərilirdi ki, cənub istiqamətlərdə hərbi əməliyyatların əsas məqsədi Qafqazın neft rayonlarını da ələ keçirmək və Qafqaz aşırımından keçib Rusiyanın içərilərinə soxulmaqdır. Qafqaz uğrunda qanlı döyüşlər getdiyi bir vaxtda Krımda və Kerçdə də hər qarış torpaq uğrunda ölüm-dirim mübarizəsi gedirdi. Sadıq

Nadirovu Şimali Qafqaz cəbhəsindən Krıma göndərirlər. Ailələrinə son məktubu da Krımdan gəlir.

Döyüşlərin birində çiynindən yaralanan baş leytenant Nadirov düşmən tərəfindən əsir alınır. Əsirlərin qeyd etdiyi kimi «ölümdən min dəfə pis olan əzablı günlər» bundan sonra başlanır. Onları hər addımda ölüm gözləyirdi. 1943-cü ilin fevralında Priluki vağzalından əsirləri qatarla Çankoya, oradan da Ştrans şəhərindəki hərbi əsir düşərgəsinə aparırlar. Əsirlər arasında Sadıq Nadirov sadəcə olaraq Nadirli kimi tanınır.

Ştrans düşərgəsində Nadirli Azərbaycan xalqının qəhrəman oğlu Mehdi Hüseynzadə, Cavad Həkimli (hazırda Ermənistan SSR-in Noyamberyan rayonunun Ləmbəli kəndində yaşayır), Mikayıl Qulubəyov (hazırda Kirovabad şəhərində yaşayır və S.Ağamalıoğlu adına Kənd Təsərrüfatı Institutunun müəllimidir) və həmyerlimiz Firudin Hüseynovla tanış olur. Bu tanışlıq sonradan səmimi dostluğa çevrilir. Dostlar gizli təşkilat yaradır və antifaşistlərlə əlaqə yaratmağa səy göstərirlər.

1943-cü ilin avqustunda əsirləri Avstriyanın paytaxtı Vyana şəhərinə, oradan da Şimali Italiyanın Uden şəhəri yaxınlığındakı Remonzakka əsir düşərgəsinə aparırlar. Burada əsirlərdən ibarət legionlar yaradılır. Hər bir legionun üzərinə bir neçə alman əsgəri nəzarətçi təyin edilir. Oktyabr ayında Nadirli və yoldaşları Triyestin şimalına gətirilir. Nadirlinin başçılıq etdiyi takım, Kontavella kəndində, Fərrux Sultanovun başçılıq etdiyi takım isə bir qədər aralıda yerləşdirilir. (F.Sultanov hazırda Tovuz şəhər kino birliyinin rəisi işləyir).

Italiyaya gəldikdən sonra M.Hüseynzadə, S.Nadirli, C.Həkimli və M.Qulubəyov gizli təşkilata yeni-yeni üzvlər cəlb edir, Italiya meşələrində Harribaldi adına güclü partizan dəstəsinin fəaliyyət göstərdiyini və yerli əhalinin partizanlara rəğbət bəslədiyini öyrənirlər.

**Gizli təşkilat 1943-cü ilin axırı, 1944-ci ilin əvvəllərində əsirlərin tək-tək və dəstə-dəstə qaçıb partizanlara qoşulmasını təşkil edir. Gizli təşkilatın rəhbərləri arasında aparılmış**

**vəzifə bölgüsünə görə Nadirli düşərgədə qalmalı, azərbaycanlı əsirlərin qaçmasını təşkil etməli, almanların hərəkətləri haqqında partizanlara məlumat verməli idi. 1944-cü ilin fevralında Nadirlinin köməyi ilə M.Hüseynzadə, C.Həkimli, Ə.Qurbanov və başqaları partizanların tərəfinə keçirlər.**

Bundan sonra partizanlar, xüsusən alman zabiti forması geymiş Mehdi bir neçə dəfə Nadirli, hərbi həkim Ağazadə, Mikayıl Qulubəyov və başqaları ilə görüşmüş lazımi məlumat və köməklik almışdır.

Almanların içərisində gizli iş aparan, takım komandiri kimi etibar qazanmış Nadirlinin əsas işi əsirlərin qaçıb partizanlara qoşulmasını təşkil etmək, alman komandanlığının hərəkət planları, döyüşçü və hərbi sursat daşıyan qatarların, avtomobillərin hərəkət cədvəli haqqında əvvəlcədən partizanlara məlumat vermək idi. O, bu vəzifənin öhdəsindən şərəflə gəlirdi. Nadirli partizanların buraxdığı xüsusi vərəqələri inandığı əsirlər arasında yayırdı. Bu vərəqələr partizanların yanına keçmək üçün buraxılış vərəqəsi rolunu oynayırdı.

Azərbaycan televiziyasının «Hünər» verilişində çıxış edən Fərrux Sultanov qeyd etmişdir ki, hər biri bir insan həyatı demək olan 2000 (200-dən çox – Ə.H.) vərəqəni Nadirlinin tapşırığı ilə düşərgəyə apardığı zaman alman keşikçiləri onu saxlayıb parolu soruşurlar. Parolu bilməyən Fərrux çətin vəziyyətdə qalır. Elə bu vaxt gecənin qaranlığında lap yaxından tapançadan atılan atəş alman əsgərlərinin ikisini də yerə sərir. Təşvişə düşən Fərrux çiyninə bir əl toxunduğunu hiss edib geri döndükdə Nadirlini görür.

1944-cü ilin yazında Nadirli rəhbərlik etdiyi takımla birlikdə partizanların tərəfinə keçmək haqqında tədbirlər hazırlayırdı. Takımın partizanlarla görüşəcəyi yeri və vaxtı dəqiq müəyyənləşdirmək üçün tez-tez rabitəçilər vasitəsilə partizan komandanlığı ilə əlaqə saxlayır, lazımi məsləhətlər alır, bəzən özü də görüşlərdə iştirak edirdi.

Budur belə görüşlərdən biri. Dəhlizdə gəzinən növbətçi alman əsgəri ucaboylu qaraşın zabitə əsgəri salam verib onu Nadirlinin otağına ötürür. Bu zabit M.Hüseynzadə idi. Bir qədər sonra növbətçi eyni qayda ilə zabiti yola salır. Lakin çox diqqətlə onun sifət cizgilərini və hərəkətlərini süzsə də səsini çıxarmır, növbəni təhvil verdikdən sonra alay komandiri Pollenin yanına gedib Nadirlinin yanına gəlmiş zabitdən şübhələndiyini bildirir. Pollenin çağırışı ilə onun kabinetinə girən Nadirli işin nə yerdə olduğunu duyur. Nadirli müxtəlif bəhanələrlə vəziyyətdən çıxıb, alman zabitini tanımadığını bildirsə də bu hadisədən sonra hər an izləndiyini hiss edir. Belə vəziyyətin uzun sürməyəcəyini başa düşərək partizanlara qoşulmağı sürətləndirmək üçün tələsik plan hazırlayır.

1944-cü ilin mart ayının 14-də Nadirli rəhbərlik etdiyi takımla birlikdə partizanların tərəfinə keçmək üçün hazırladığı planı əvvəlcə müavini Dəvəçi rayonundan olan Məmmədağa Nəzirova, sonra isə öz yaxın adamlarına bildirir. Dostlar bu planı bəyənirlər. Plana əsasən martın 16-da səhərə yaxın Nadirli məşq etmək adı altında hissəyə həyəcan siqnalı verməli idi. Döyüşçülər silahlanıb partizanlar olan tərəfə «hücuma» keçməli və özləri ilə alman keşikçilərini də aparmalı idilər. Almanlar başa düşsə vuruşa-vuruşa, başa düşməsə isə sakitliklə partizanlar tərəfinə keçməli idilər.

Mart ayının 15-dən 16-sına keçən gecə Nadirli rabitəçi ilə görüşüb lazımi sənədləri və buraxılış vərəqələrini alıb geri qayıdarkən düşərgədə yaxalanır. Axtarış zamanı hərbi çantanın içərisindən çıxan sənədlər Nadirlinin partizanlar tərəfə keçmək istədiyini aydınlaşdırır. Lakin bu cəsur insan dostlarını satmır, yalnız özünün partizanlar tərəfinə keçmək istədiyini, başqalarının bundan xəbərsiz olduğunu bildirir.

Bütün bunlara baxmayaraq alman komandanlığı Nadirli və Məmmədağa haqqında ölüm hökmü çıxarır. Günorta çağı cəlladlar bütün əsirlərin və döyüşçülərin qarşısında onları güllələyirlər. Son anda Nadirli üzünü həmvətənlilərinə tutub deyir ki,

hansınıza Vətən torpağına qayıtmaq qismət olsa bizim əvəzimizdən o torpağı öpün və bizim hansı amal uğrunda həlak olduğumuzu xalqımıza çatdırın.

Hazırda Dəvəçi rayonunun mərkəzində Məmmədağa Nəzirovun əzəmətli bürcü ucalır. Küçələrdən biri və rayondakı orta məktəb bu cəsur insanın adını daşıyır.

Sadıq Nadirlinin dayısı oğlundan başqa bir kimsəsi qalmamışdır. Lakin onun əziz xatirəsi kəndimizin bütün sakinlərinin, onu yaxından tanıyanların, döyüş dostlarının qəlbində əbədi yaşayır.

***Əsgər Əliyev,***
***Naxçıvan rayonundakı Zeynəddin***
***kənd orta məktəbinin müəllimi,***
***«Şərq qapısı» qəzeti, 24 fevral 1978-ci il***

## PARTİZANLARLA GÖRÜŞ

Sovet Ordusu və Hərbi Dəniz Donanmasının 60 illiyi münasibəti ilə Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji Institutunda təntənəli yığıncaq keçirilmişdir. Yığıncağı **institutun prorektoru Yavuz Axundov** açmışdır. Tarix elmləri namizədi, **dosent Ibrahim Bağırov** Sovet Ordusunun və Hərbi Dəniz Donanmasının keçdiyi şanlı döyüş yolundan danışmışdır.

Müharibə illərində Yuqoslaviya torpaqlarında partizanlardan təşkil edilmiş IX ordunun 11-ci briqadasının qərargah rəisi **Cavad Həkimov** və əsirlər arasında gizli iş aparan təşkilatın rəhbərlərindən biri olan **Fərrux Sultanov** yoldaşlar keçmiş əzablı günlərdən danışmış, bu səmimi görüşün təşkili üçün öz minnətdarlıqlarını bildirmişlər.

***

Zeynəddin kənd klubu həmişəkindən izdihamlı idi. Kəndin əməkçiləri bu gün (fevralın 22-də - Ə.Hümmətov) klubda həm-

yerliləri **Sadıq Nadirlinin silahdaşları,** sonradan Yuqoslaviya torpaqlarında faşist işğalçılarına qarşı əfsanəvi qəhrəmanlıq göstərən, partizanlarla – **Cavad Həkimov** və **Fərrux Sultanovla** görüşə gəlmişdilər.



Görüşdə Naxçıvan rayonundakı «Naxçıvan» sovxozunun partiya komitəsinin katibi Səttar Şahverdiyev qısa giriş sözü söyləmişdir. Sonra Zeynəddin kənd orta məktəbinin tarix müəllimi Əsgər Əliyev, klubun müdiri Bulud Hacıyev yoldaşlar Vətənimizin hər daşı, hər qarış torpağı uğrunda canlarından keçməyə hazır olan partizanlar haqqında danışmışlar.

Qonaqlar cəbhə xatirələrini danışmışlar.

***«Şərq qapısı» qəzeti, 26 fevral 1978-ci il***

***Qeyd:*** *Foto əlavə olunub*

# MİXAYLONUN SİLAH DOSTLARI

Xeyli vaxt idi ki, Mehdi Hüseynzadə müşahidə aparırdı. O, əsirlərin içərisində Cavad Həkimli, Sadıq Nadirli, Mikayıl Qulubəyovla yaxınlıq edirdi. Bir gün onlar öz ürək sözlərini bir-birlərinə açdılar… beləliklə də, azərbaycanlı əsirlərdən ibarət gizli təşkilat yaradıldı. Lakin o vaxt bu ərazidə qaçmaq mümkün deyildi. Yaxınlıqda partizan dəstəsi fəaliyyət göstərmirdi. Buna görə də təşkilat yalnız əsirlər arasında təbliğat işi aparırdı.

Bu təşkilatın başçılarından biri Sadıq Nadirli idi. Sadıq Qasım oğlu Nadirov Babək rayonunun (keçmiş Naxçıvan rayonu) Zeynəddin kəndində doğulub, uşaqlıq və ilk gənclik illəri də bu kənddə keçmişdir. Bakı şəhərində sənaye-pedaqoji texnikumunu bitirmiş, sonra zabitlik məktəbində oxumuş, ley-tenant rütbəsi almışdır. Orduda xidmət etdikdən sonra 1939-cu ildə Naxçıvan hərbi komissarlığının sərəncamına göndərilmiş, elə həmin ildən də Naxçıvan pedaqoji və tibb texnikumlarında müəllimliyə başlamışdır. (İl səhvdir. "Şərq qapısı" qəzetinin 28 aprel 1938-ci il tarixli nömrəsində Tibb Məktəbində çalışması və təlim zamanı fotosu verilib. Kitabdakı "Sadıq Nadirli haqqında qısa arayış"ı oxu – Ə.H.)

1941-ci ildə alman-faşist qoşnları Vətənimizə xaincəsinə basqın etdikləri günün sabahı Sadıq Nadirli 76-cı dağ-atıcı diviziyasının süvari rotalarından birinə komandir təyin edildi. Sentyabr ayında ilk döyüşdə oldu. Vətənimizin hər qarış torpağı uğrunda qəhrəmanlıqla vuruşdu. Döyüşlərin birində yaralandı. Müalicədən sonra yenə də Krım uğrunda vuruşmalarda iştirak etdi. Döyüşlərin birində o, yenə ağır yaralandı və əsir düşdü.

… 1943-cü ilin payızında əsirlərlə dolu qatarlar Almaniyadan cənuba doğru hərəkət edirdi. Azərbaycanlı əsirləri gətirən qatar Italiyanın Udine şəhərində dayandı. Bu şəhər bir tərəfdən Avstriya, digər tərəfdən Yuqoslaviya dağları ilə əhatə edilmişdir.

Remanzakkonu hərbi düşərgəsi… Gizli təşkilat burada öz fəaliyyətini genişləndirdi. Onlar dağlarda partizan olduğunu öyrəndilər. Təşkilatın başçıları tez-tez bir yerə toplaşır, əməliyyat planı hazırlayırdılar. Bu plana uyğun olaraq bir neçə ay içərisində **Mehdi Hüseynzadə, Cavad Həkimli, Firudin Həsənov (Hüseynov – Ə.Hümmətov), Mikayıl Qulubəyov, Cabbar Əliyev, Məzahir Quliyev** və başqaları ayrı-ayrı dəstələrlə qaçıb partizanlara qoşuldular. Triyest torpağında əvvəlcə Cavad Həkimlinin başçılığı ilə azərbaycanlılardan ibarət partizan rotası təşkil edildi. Az sonra sovet partizanları birləşərək rus batalyonu yaratdılar.

**Mehdi Hüseynzadə və Cavad Həkimlinin tapşırığı ilə Sadıq Nadirli, Məmmədağa Nəzərov və Fərrux Sultanov partizanlara qoşulmayıb, əsir düşərgəsində qaldılar.** Onlar burada partizanların tapşırığını yerinə yetirir, onlara silah, partlayıcı maddə və s. tədarük edir, qalmış əsirləri də hissə-hissə dağlara göndərirdilər. Alman komandanlığının hərəkət planını, qatar və avtomobillərin hərəkət cədvəlini öyrənir, rabitəçi vasitəsilə partizanlara çatdırırdılar. Həmin dəstədə sağ qalan partizanlar düşərgədəki bu təşkilatın fəaliyyətinə yüksək qiymət verirlər və partizan dəstəsinin nailiyyətlərinin bir çoxunu onların adı ilə bağlayırlar.

Mixaylo – Mehdi Heseynzadə tez-tez alman paltarında Opçinaya gəlir, gizli mənzildə Sadıqla görüşür, tapşırıqlar verir və onların əldə etdiyi silahları partizanlara çatdırırdı.

**Cavad Həkimli 1963-cü ildə Yerevanda buraxılmış «Intiqam» adlı kitabında Sadıq Nadirlinin Mehdinin verdiyi tapşırıqları necə yerinə yetirməsindən geniş bəhs edir.**

… 1944-cü ilin martında partizan qərargahından tapşırıq alındı ki, Sadıq Nadirli və Fərrux Sultanov könüllülərlə birlikdə qaçıb partizanlara qoşulsunlar. Üç nəfər – Sadıq, Fərrux və Məmmədağa bu məsələni götür-qoy etdilər. Onlar martın 14-də öz yaxın adamlarına bu plan haqqında məlumat verdilər. Plan bəyənildi. Könüllülər seçildi. Fərrux Sultanovun dəstəsi 129 nəfər idi. Bir o qədər də Sadığın dəstəsində var idi.

Sadığın dəstəsi düşərgədən çıxmağa macal tapmadı. S.Nadirli rabitəçi ilə görüşüb, lazımi tapşırıqlar alıb, geri qayıdarkən düşərgədə yaxalandı. Elə həmin gecə Sadığın köməkçisi (müavini – Ə.Hümmətov) işləyən Məmmədağa Nəzərov da həbs edildi. Bir neçə gün onlara ağlagəlməz əzab və işgəncə verildi. **Cavad Həkimli partizan kəşfiyyatının dəqiq məlumatına əsaslanaraq deyir ki, almanlar ciddi axtarış nəticəsində S.Nadirlinin üç ilə yaxın bir müddətdə məharətlə gizləyib saxladığı partiya biletini tapa bilmişdilər. Ölüm hökmü üçün bu kifayət idi. Faşistlər belə də etdilər…**



*Cavad Həkimli, İbrahim Bağırov və Fərrux Sultanov*

Bu hadisədən 34 il sonra, 22 fevral 1978-ci il Zeynəddin kəndindəki mədəniyyət evinin 300 nəfərlik tamaşa salonu ağzınadək dolu idi. Kənd camaatı Sovet Ordusunun 60 illik yubileyi təntənəsinə toplaşmışdı. Xeyli qonaq da gəlmişdi. Onların arasında məşhur partizan komandiri Cavad Həkimli, Sadıq Nadirlinin silah dostu və onun həyatının son dəqiqələrini öz gözləri ilə görmüş Fərrux Sultanov da vardı. Gecədə müharibə və kolxoz veteranları, gənclər çıxış etdilər.

Söz Fərrux Sultanova verildi. O, Sadığın son sözlərini onun həmkəndlərinə çatdırdı. O dedi:

- Faşistlər Sadığa və Məmmədağaya verdikləri ölüm hökmünü yerinə yetirmək üçün ətraf düşərgələrin əsirlərini bir yerə toplamışdılar. Sadığı da, Məmmədağanı da ağaca sarımışdılar. Açıq hiss olunurdu ki, onları çox döymüşdülər. Alman zabiti hökmü oxudu. Sonra o, əsirləri hədələdi, dedi ki, partizanlarla əlaqə saxlamaq istəyən hər bir əsiri bax belə dar ağacı gözləyir. Son anda Sadıq bir qədər boğuq səslə dedi:

- Qardaşlar, ruhdan düşməyin, faşistlərin sonu çatıb. Kim sağ qalarsa, mənim salamımı Vətənə və anama çatdırsın…

Indi Zeynəddin kəndində üçmərtəbəli orta məktəb binasının inşası qurtarmaq üzrədir. Həmkəndləri həmin məktəbə Sadıq Nadirlinin adını vermək və təntənəli açılış keçirmək üçün hazırlıq görürlər.

Yeri gəlmişkən onu da qeyd edək ki, Yuqoslaviya partizan hərəkatında Mixaylonun silah dostlarından Mirzəli Abdullayev, Məzahir Quliyev, Canbaxış Canbaxışov, Məmməd Axundov Naxçıvan MSSR-də yaşayır və əmək cəbhəsində fəaliyyət göstərirlər.

Bu dəstənin ən fəal başçılarından biri, Mixaylonun keçirdiyi bir çox əməliyyatın yaxın iştirakçısı **Firudin Hüseynov isə Vətənimizdən çox-çox uzaqlarda qəhrəmancasına həlak olmuşdu. Indi onun məzarı Triyestin Solla kəndindədir.**

Haqqında «Azərbaycan Sovet Ensiklopediyası»nın I cildində ayrıca yazılan (bax.səh.519) Italiyada partizan batalyonlarından birinin məşhur komandiri Əli Babayev də Mixaylo ilə yaxından tanış idi və geniş əlaqə saxlayırdılar.

**Sov. IKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi H.Ə.Əliyev** yoldaş Vətən uğrunda canlarından keçən və sağ qalan belə qəhrəmanlar haqqında Naxçıvan MSSR-ə Xalqlar Dostluğu ordeni təqdim edərkən demişdir: «Bütün ölkə ilə birlikdə Sovet Naxçıvanı da Böyük Vətən müharibəsi cəbhələrində Oktyabrın nailiyyətlərini

qorumuşdur… Sovet partizanlar qrupunun rəhbəri Əli Babayev faşizmə qarşı mübarizədə göstərdiyi mərdlik və igidliyə görə Italiyanın yüksək hərbi mükafatına layiq görülmüşdür». Bu, Azərbaycan xalqının mərd oğullranını əməyinə verilən ən yüksək qiymətdir.

***İbrahim Bağırov,***
***Tarix elmləri namizədi, dosent***
***«Azərbaycan müəllimi» qəzeti, 6 dekabr 1978-ci il***

## SADIQ NADİRLİ KİMDİR?



Həmin günü zeynəddinlilər heç vaxt yaddan çıxarmayacaqlar. Ona görə ki, Böyük Vətən müharibəsi illərində azğın düşmənə qarşı amansız döyüşlərdə xalqımıza xas qeyrət mücəssəməsi olan, hərbin o dəhşətli günlərində son damla qanına qədər azadlıq uğrunda mübarizə aparan həmyerliləri Sadıq Nadirlinin adı məktəbə verildi. Bu münasibətlə sentyabr ayının brində məktəbin həyətinə toplaşanlar-məktəbyaşlı uşaqdan tutmuş müəllimlərə, valideynlərə qədər Sadıq Nadirlinin adının əbədiləşdirilməsi gününüdə iştirak edirdi. Keçirilən bu təntənəli yığıncaqda çıxış edənlərin ürəklərindən qopub gələn fikirlərdə, sözlərdə həmyerlilərinin əziz xatirəsinin uzun zaman məsafəsində qalacağı qeyd olunurdu. Yığıncaqda toplananların arasında daha çox sevinən, bəlkə də birincisi elə Əsgər müəllim idi. Həmyerlisinin adının əbədiləşdirilməsində onun zəhmət payı az olmamışdır.

-Bəs Sadıq Nadirli kimdir?

-Bu sual yəqin ki, oxucularımızın çoxunu düşündürəcəkdir. Belə olan təqdirdə onun cəbhə yoldaşı, tovuzlu Fərrux Sulqanovun dediyi bir fikri onlara çatdırmaq istərdik: "Mən inamla deyərdim ki, Mehdi kimi Sadıq Nadirli də misilsiz rəşadət göstərmişdir" Yəqin ki, əfsanəvi Mixaylonu xatırladınız. Tale onların hər ikisini əsirlikdə görüşdürüb tanış etmişdir.

Bu cəsur insanın keçdiyi döyüş yolunu, həyatının yaddaqalan anlarını uzun axtarışlardan sonra Zeynəddin kənd günüuzadılmış orta məktəbinin müəllimi Əskər Əliyev sənədlərdə, yaddaşında yaşadır. Tarixi ardıcıllığı gözləyərək fikirlərini çox səlis ifadə edir. Keçmiş cəbhəçilərdən aldığı məktublar, saxladığı qəzetlər, kitablar Sadıq Nadirli haqqında çox şey deyir. Əlimizi hansı kitaba, hansı qəzetə vurduqsa Əskər müəllim yaddaşının köməkliyi ilə xatirələri söylədi. Həmyerlisi haqqında ilk məlumatı nə vaxt əldə etdiyini soruşduqda fikirləşmədən belə dedi:

– Cavid Həkimovun və Vəli Seyidovun birlikdə yazdıqları "İntiqam" adlı kitabı 1964-cü ildə oxudum. Sadıq Nadirli ad-familiyasına kitabda rast gələndə xeyli fikirləşdim. Mənə elə gəldi ki, o, elə həmyerlimiz Nadirlidir. Ona görə də Cavad Həkimovla məktublaşdım. Onunla vuruşan cəbhəçilərin ünvanlarını istədim. Axtarışlarım bəhrə verdi.

Sadıq Nadirli ilə bağlı Əskər müəllimin topladığı sənədlər çox şey deyir. Biz Əskər müəllimlə birlikdə Sadıq Nadirlinin keçdiyi həyat yolunu sənədlərin dili ilə qiyabi səyahətə çıxdıq...

...Müharibə başlananda Zeynəddin kəndindən döyüşə 156 nəfər gedib. Cəmi 79 nəfəri hərbinin odlu – alovlu günlərindən qayıdıb.

Sadıq Nadirlinin həyatı isə müharibədə yarımçıq qalıb. O, 1910-cu ildə Zeynəddin kəndində anadan olmuş, uşaqlıq və yeniyetməlik dövrünü kənddə keçirmiş, ilk təhsilini də burada almışdır. Sonra isə Bakıda Sənaye-pedaqoji texnikumuna daxil olmuş, təhsilini başa vuraraq, eyni zamanda, zabitlər hazırlayan xüsusi məktəbi bitirərək 1939-cu ildə Naxçıvana qayıtmışdır (İl

səhvdir. “Şərq qapısı” qəzetinin 28 aprel 1938-ci il tarixli nömrəsində onun Naxçıvan Tibb Məktəbində çalışmasını, tələbələrə atıcılıq öyrətməsini əks etdirən foto var). O vaxtdan gənc leytenant S.Nadirli Naxçıvan şəhərində Osoviaxim (Orduya Aviasiyaya Donanmaya Könüllü Yardım Cəmiyyəti) təşkilatında uçot və informasiya üzrə təlimatçı vəzifəsində işə başlamışdır. Müharibəyə qədər o Naxçıvan pedaqoji texnikumunda və tibb məktəbində hərbi təlimdən dərs demişdir. Bütün bacarıq və səyini tələblərin təlim-tərbiyəsinin yüksəlməsinə, vətənpərvərlik tərbiyəsinə həsr etmişdir. Böyük Vətən müharibəsi başlananda Naxçıvanda təşkil olunan dağ atıcı diviziyasının tərkibində bir sıra döyüşlərdə yaxından iştirak edir. Krım uğrunda gedən qanlı vuruşların birində S.Nadirli yaralanaraq çoxlu qan itirmiş və gözlərini açarkən özünü faşistlərin əhatəsində görür. Anası Səkinə xanıma və həyat yoldaşına (indi onların heç biri həyatda yoxdur) axırıncı məktubu Krımdan gəlir.

1943-cü ilin fevralında onu Almaniyanın Ştrans şəhərindəki hərbi əsirlik düşərgəsinə gətirirlər. Və ilk dəfə olaraq əfsanəvi qəhrəman Mehdi Hüseynzadə, Cavad Həkimli, Mikayıl Qulubəyov və Firudin Hüseynovla burada tanış olur. Onların səyi ilə ilk dəfə olaraq almanlara qarşı gizli təşkilat yaradılır. Təşkilatın ümumi rəhbəri Mehdi Hüseynzadə qrup rəhbərləri isə Cavad Həkimli, Sadıq Nadirli və başqaları olur. 1943-cü ilin noyabrında onları vaqonlara doldurub Şimali İtaliyanın Triyest şəhəri yaxınlığındakı Opçina qəsəbəsinə istehkamlar qurmaq üçün gətirirlər. Gizli təşkilatın qərarına əsasən M.Hüseynzadə, C.Həkimli, Ə.Qurbanov partizanlığa göndərilməli, S.Nadirli, Q.Əmrahov və F.Sultanov Mehdinin göstərişi ilə əsirlikdə fəaliyyət göstərməli, almanların hərakatı haqqında onlarla müntəzəm məlumat verməli, əsrlərin kütləvi partizanlığa qaçmasına şərait yaratmalı idilər.

Tovuzlu, keçmiş cəbhəçi Fərrux Sultanov öz xatirələrində qeyd edir ki, Sadıq Nadirli də Mehdi kimi faşistlərin qənimi idi. Sloveniyada və Yuqoslaviyada adı dillərdə gəzirdi. Bu cəsur

vətənpərvər həbs düşərgəsində əsirlərə olmazın cəza verən faşist zabiti Rabeni və baş feldfebel Ştiki aldadıb bara aparmış və orada məhv etmişdir...

Əskər müəllim əldə etdiyi məlumatlara əsasən Sadıq Nadirlinin həyatının son dəqiqələrini elə yana-yana xatırladı ki... 1944-cü ilin əvvəllərində düşərgədəki iki mindən çox azərbaycanlının partizanlığa qaçmaq planı hazırlanmışdı. O vaxt faşistlər onlardan şübhələnərək ayrı-ayrı düşərgələrə bölmüşdülər. Nadirli vətənpərvərlərdən ibarət gizli bir dəstə toplamışdı. Onun ən böyük arzusu gizli fəaliyyətə son qoyub silahdaşları ilə birlikdə Mehdinin partizan dəstəsinə qoşulmaq idi. Bu əməliyyat ərəfəsində hissədə olan alman əskərlərinin silahlarının çaxmağı çıxarılmalı idi. Səhərə yaxın Nadirli sloven qızı Savvanın ("Uzaq sahillərdə" filmindəki Anjelikanın əsl adı) yanına gedib məxfi məlumatları və partizanların göndərdikləri buraxılış vərəqlərini alıb qayıdanda bir satqın tərəfindən ələ verilir. Axtarış zamanı onun portfelindən məxfi sənədlər çıxır. Bir neçə gündən sonra hamını Nadirlinin olduğu düşərgəyə gətirirlər. Müavini Məmmədağa ilə ikisini də düşərgədə əsirlər qarşısında dirəyə bağlayıb amansızcasına döyürlər. Bütün əzablara mətanətlə sinə gələn Sadıq Nadirli nə təşkilat nə də, onun üzvləri haqqında heç bir şey demir. Onları bütün əsirlər qarşısında güllələyirlər. Sadiq Nadirli son anında üzünü cəbhədaşlarına tutaraq deyir: - Əlvida qardaşlar. Məndən arxayın olun, sağ qalsanız anama, Vətənə çoxlu salam deyin. Bizim əvəzimizdən o torpağı öpün. Nə amal uğrunda həlak olduğumuzu xalqımıza deyin.

Bəli, amansız müharibədə misilsiz qəhrəmanlıqlar göstərən Sadıq Nadirlinin şəxsiyyəti, indiki gənclərimiz üçün bir örnəkdir. Zeynəddin kənd günüuzadılmış orta məktəbində təhsil alan şagirdlər onun adına layiq oxumalı və mübarizə aparmalıdırlar.

***P.Qafaroğlu,***
***"Əmək bayrağı" qəzeti, 18 sentyabr 1990-ci il***

# TORPAĞIN VƏTƏNPƏRVƏR ÖVLADI



**Ələkbərov Qəzənfər Əhməd oğlu 1903-cü ildə Zeynəddin kəndində kasıb bir ailədə anadan olub.** Yeniyetmə vaxtlarından vətənpərvərliyi, cəsurluğu və igidliyi ilə yaşıdlarından seçilib. Oğlu Şəmsəddin Əhmədov deyir ki, yaşlı adamlardan eşitdiyinə görə atası gənclik illərində Naxçıvanın müstəqilliyi uğrunda, erməni daşnaqlarının bu ərazilərdən qovulub çıxarılmasında könüllülər sırasında döyüşüb. Sovet hökuməti qurulduqdan sonra dinc həyata qayıdıb. Öz təsərrüfatlarında çalışıb, kolxoz quruculuğunda iştirak edib, biliyini, savadını artırıb. Şəmsəddinin söylədiklərini çoxları təsdiqləyir. Əgər arxiv sənədlərini araşdırmaq imkanımız olsaydı, yəqin ki, ətraflı və dəqiq faktlar əldə edərdik.

Şəmsəddinin qoruyub saxladığı sənədlərdən məlum olur ki, Qəzənfər Ələkbərov 1942-ci ilin yanvar-may aylarında Naxçıvan Hərbi Komissarlığında 101-ci atıcı batalyonda atıcı kimi xidmət edib. 1942-ci ilin may-oktyabr aylarında 818-ci atıcı polkda kursant olub. Alman faşizminə qarşı döyüşlərdə mərdliklə vuruşub. 1943-cü ilin sentyabrında yaralanıb və noyabr ayınadək hospitalda (hərbi xəstəxanada) müalicə olunub. Noyabr ayında yenidən cəbhəyə gedib, 402-ci atıcı diviziyanın tərkibində olan batalyonların birində bölük komandiri kimi qələbəyədək igidliklə döyüşüb. 1945-ci ilin iyul ayında ordu sıralarından tərxis edilib.

**Qəzənfər Ələkbərov 1944-cü ilin avqust ayında «İgidliyə görə», 6 sentyabr 1944-cü ildə «Qafqazın müdafiəsinə görə» və 30 yanvar 1946-cı ildə «Böyük Vətən müharibə-**

**sində Almaniya üzərində qələbəyə görə» medalları ilə təltif olunub.** Bütün bu faktlar Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının (indi Naxçıvan Muxtar Respublikası) Hərbi Komissarlığının 30 avqust 1959-cu ildə 492114 nömrəli hərbi biletə əsasən verdiyi arayışda öz əksni tapıb.



*Həyat yoldaşı Səkinə xanım və qızı Sənubər*

Onu da qeyd edək ki, Qəzənfər ərəb sözüdür və aslan, şir mənasındadır. Məcazi mənası isə şücaətli, igid adam deməkdir. Qəzənfər kişi də müharibədə adını inamla doğruldub.

Qəzənfər Ələkbərov müharibədən qayıtdıqdan sonra kənddəki «Nümunə» (sonralar Sabir adına) kolxozda işləyib. 1960-cı ilin oktyabr ayında, 57 yaşında bu dünyadan köçüb.

Torpağın vətənpərvər oğlu Qəzənfər Ələkbərov doğmalatının və onu tanıyanların qəlbində uyuyur və yaşayır.

***2014-cü il***

## NƏSİR ƏMİ



Zeynəddin kənd orta məktəbində hamı ona elə beləcə “Nəsir əmi” deyə müraciət edir. İşlədiyi kollektivin, kənd camatının arasında böyük hörməti var. Bu da təsdüfü deyil. O, xalqımızının milli iftixarı, təşkil edilməsinin 40 illiyini bu il qeyd edəcəyimiz Qırmızı Bayraqlı, II dərəcəli Suvorov ordenli 416-cı Taqanroq atdıcı diviziyasının tərkibində şanlı bir döyüş yolu keçib. Qanlı-qanlı o illərdən söhbət düşəndə Nəsir əmi deyir:

-Faşist Almanyası Vətənimizə xaincəsinə hücum edəndə qonşu Lelinabad kənd orta məktəbinin IX sinfində oxuyurdum. Biz şagirdlər də o vaxt Sovet məlumat bürosunun xəbərlərini intizarla gözləyir, onları həyəcanla, düşmənə qarşı sonsuz nifrətlə, qəzəblə dinləyirdik.

**1942-ci ilin yanvarında mən də bir komsomolçu kimi Vətənin müdafiəsinə yollandım.** Bizi Qroznı şəhərinə gətirdilər. Bir müddət təlim-məşqlər keçdikdən sonra hissələrə bölünüb, ön cəbhəyə yola düşdük. Həmin ilin oktaybrında 68-ci atıcı polkunun tərkibində mən də hücum əməliyyatına qoşuldum. Düşmənlərdən azad etdiyimiz şəhər və kəndlərin sakinləri bizi böyük sevinclə, göz yaşları, öpüşlərlə qarşılayırdılar. Digər şəhərlərdə də çətinliklə qazanılan qələbələr bizi yalnız irəliyə səsləndirdi. 1944-cü ilin aprelində Taqanroq şəhəri uğrunda çox ciddi vuruşlar gedirdi. Ayın 7-də döyüş meydanında sağ qıçımdan ağır yaralandım. Şəfqət bacıları tez köməyimə çatırlar və döyüş meydanındaca mənə ilk tibbi yardım göstərdilər. Diviziyamız qısa vaxta Taqanroqu düşməndən azad etdi.

Hissələrimiz çoxlu döyüş texnikası ələ keçirdilər. Lakin mən bunları görə bilmədim. 6 ay hərbi xəstəxanada müalicə

oldum və 1944-cü ilin noyabrında ordu sıralarından tərxis edildim. Bundan sonra onlara şəhər və kəndi düşməndən təmizləmiş və Birinci Belarusiya cəbhəsi 5-ci zərbə ordusunun tərkibində Berlinə hücum əməliyyatında iştirak etmiş, müharibəni mayın 2-də Unterden Liden küçəsində sona çatdırmış diviziyamızın keçdiyi şanlı döyüş yolunu mətbuatda və radioda izlədim. Ordumuzun cəbhədə göstərdiyi şücaətlər bizi arxada daha böyük inamla işləməyə, Vətənin, partiyanın qarşıya qoyduğu tapşırıqları ləyaqətlə yerinə yetirməyə qanadlandırırdı.

**Bəli, Hacıyev Nəsir Məmməd (Məmmədli) oğlu doğma kəndə müharibə əlili kimi qayıtdı.** 1958-ci ilə kimi kolxozun fermalarında, pambıq tarlalarında, taxıl zəmilərində, üzüm bağlarında çalışdı. Artıq 24 ildir ki, o, Zeynəddin kənd orta məktəbində təsərrüfat işləri üzrə direktor müavinidir. Sinəsini Böyük Vətən müharibəsi illərində göstərdiyi şücaətlərə görə Vətənin 3 medalı bəzəyir. III dərəcəli Böyük Vətən müharibəsi əlili Nəsir əmini tez-tez pioner və məktəblilər arasında görmək olar. O, gənc nəslə öz xatirələrini söyləyir, onları yaxşı oxumağa, ictimai-faydalı işlərdə fəal olmağa, Vətənimizi sonsuz bir məhəbbətlə sevməyə çağırır.

Biz də, Nəsir əmini 9 may-Qələbə Günü münasibətilə ürəkdən təbrik edir, ona üzün ömür və işində daim müvəffəqiyyətlər arzulayırıq.

***Əşrəf Hümmətov,***
***"Əmək bayrağı" qəzeti, 9 may 1982-ci il***

***Qeyd:*** *Nəsir Hacıyev dünyasını dəyişib.*

# ERMƏNİ TƏCAVÜZÜNƏ QARŞI DÖYÜŞLƏRDƏ

## İKİ ŞƏHİD HAQQINDA

Maqsud Mahmudzadə (Mahmudov – Ə.H.) və Allahverdi Məmmədovun 2004-cü ildə Naxçıvanda «Əcəmi» nəşriyyatında buraxılmış «Babək şəhidlər» (Babək rayonunun) kitabında erməni təcavüzünə qarşı döyüşlərdə həlak olmuş 46 şəhidin həyatından və keçdiyi döyüş yolundan bəhs edilir. Vətənpərvər oğullarımız Dağlıq Qarabağ, Kəlbəcər, Murovdağ, Ağdam, Füzuli, Sədərək və başqa bölgələrdə gedən döyüşlərdə mərdliklə vuruşaraq həlak olmuşlar. Onlardan ikisi – **Əliyev Malik Qabil oğlu və Həziyev Namiq Əyyub oğlu Zeynəddin kəndindəndir.**

Əvvəlcə onlar haqqında ayrı-ayrılıqda yazmaq fikrində idim. Amma sonradan həmin kitabdakı məqalələri eynilə oxuculara təqdim etməyi daha məqsədəuyğun saydım.

### Şair bacının şəhid qardaşı

Günortadan xeyli keçmişdi. Günəş qüruba tərəf sallanmışdı. Çöl-bayırda adamlar gündəlik qayğıları ilə, iş-güclə məşğul idilər. Kərimbəyli kənd icra nümayəndəsi Nuriddin Qasımovla Zeynəddinli Qabil kişinin qapısını döyüb, həyətə keçirik. Bizi Qabillə, həyat yoldaşı Zenfira mehribançılıqla qraşılayır. Evin qabağındakı artırmada olan masanın ətrafında bizə yer göstərirlər. Zenfira ana öz qonaqpərvərliyini göstərmək üçün qonşu otağa keçir. Çox çəkmir ki, çay dəsgahı düzəldir. Elə çay içə-içə Qabil kişidən və Zenfira anadan oğlanları Malik haqqında

danışmalarını xahiş edirəm. Mənim bu sualım onların qəlbində qövr edən bir yaranın qaysağını qopardır. Ata və ana kövrəlsələr də, istəkli övladlarından danışmağa başlayırlar. Onların söhbəti mənə çox şey deyir.



**Malikin adi tərcümeyi-halı var. O, 1973-cü il oktyabr ayının birində Zeynəddin kəndində anadan olub.** 1980-ci ildə Sadıq Nadirli adına Zeynəddin kənd orta məktəbinin birinci sinfinə daxil olub və 1990-cı ildə həmin təhsil ocağını bitirib. Sonra Zeynəddin kəndindəki 188 nömrəli texniki-peşə məktəbində oxuyaraq, tarktorçu-maşinist peşəsinə yiyələnib. Sonra isə hərbi komissarlığın xəttilə sürücülük məktəbini də bitirib. Bir müddət kənddəki kolxozda sürücü işləyib. 1992-ci il yanvarın 24-də Maliki hərbi xidmətə çağırıblar. Bir müddət Naxçıvan şəhərindəki hərbi hissədə qulluq göstərib. Sonra Maliki Muxtar Respublikamızın qaynar döyüş yeri olan Sədərəyə göndəriblər.

Qabil kişi söhbətinə davam edir. Maliki Sədərəyə aparandan sonra fikrim qaldı onun yanında. Günlərin birində o vaxt bizim kolxozda sədr işləyən Nuriddin Qasımovla birlikdə Maliki görməyə getdik. Onun olduğu hissəni tapdıq. O vaxt hərbi hissənin komandiri Israfil Rəhimov idi. Bizim görüşümüzü təşkil etdi. Malikin anası Zenfira bir neçə xörək bişirib gətirmişdi Sədərəyə. Komandir, Malik, onun əsgər dostları bir yerdə nahar elədilər. Hərbi hissənin komandiri Malik Əliyevin nümunəvi xidmət etdiyindən danışdı. Hətta dedi ki, Malik gizli yolla ermənilərin tərəfinə keçib vəziyyəti öyrənmək istəyəndə görür ki, yaxınlıqda bir «ZIL» markalı maşın var, tez onu işə salaraq sürüb gətirmişdi hərbi hissəmizə.

Əsgərlər yeməyi qurtaran kimi komandir Qabil kişidən üzr istəyib, onları xidmət etdikləri yerlərə göndərir. Malik isə bir

saat valideynləri ilə birlikdə olur. Onlar xeyli söhbət etdikdən sonra Qabil kişi əmin olur ki, Malikin yeri həqiqətən yaxşıdır və nümunəvi qulluq edir. Vəziyyətə tam əmin olduqdan sonra qayıdırlar kəndlərinə.

- Bilirsən, oğlum, o vaxtlar hərbi hissələrdən tez-tez şəhidlər gətirirdilər – deyə Malikin anası Zenfira sözünə davam edir. Biz də valideyn kimi övladımızdan narahat idik. Ona görə ayda bir dəfə gedirdik Sədərəyə onu görməyə.

Bu dəfə Sədərəyə getməyə hazırlaşanda Novruz bayramına bir-iki gün qalırdı. Zəfəranlı yaxşı bir plov bişirdim, həyətdən bir beçə kəsib qızartdım. Payızda həyətimizdəki qozu çırpıb yığanda Malikin payını ayrı saxlamışdım. Qozdan da iki kiloya yaxın yığdım bir torbaya. Nə bilim, ay bala anayam da əlimə keçən meyvədən Malikə pay düzəltdim. Yenə Nuriddin müəllim bizimlə bir yerdə idi. Birbaşa maşını sürdülər hərbi hissənin yaxınlığına. Malik növbədə olmadığından maşını tanıyan kimi tez qapıya gəldi. Görüşdük, öpüşdük, keçdik bir otağa, orada xeyli söhbətləşdik. Qabil özü müharibədə iştirak etdiyindən bəzi şeyləri bilirdi və Malikdən onların vəziyyətini soruşub cavab alırdı. Özüm termosda dəmləyib apardığım çaydan Malik iki stəkan içdi. O içdikcə elə bil mənim canıma yayılırdı. Bu dəmdə Malikin komandiri də gəlib çıxdı. Ona da bir stəkan çay süzdüm. Xahiş etdim ki, əsgərlərdən hissədə olanları çağırsın. Malikə gətirdiyim plovdan bir tikə də onlar yesin. Sağ olsun, əsgərləri çağırdı. Plov qazanının ağzını açanda xörəyin ətri otağı bürüdü. Nə isə, əsgərlər plovdan doyunca yedilər. Elə bil bundan sonra Qabil də, mən də özümüzə gəldik. Yeməkdən sonra qayıtdıq Zeyənddinə.

Aradan bir xeyli keçmişdi. Istəyirdik yenə gedək Sədərəyə. Bu vaxt qonşu uşaqlarından biri özünü hövlank saldı həyətə. Ay Zenfira xala, muştuluğumu ver, Malik gəlir. Bu sözdən sonra tez tökülüşdük küçəyə. Malik, yanında da bir əsgər gəlirdi. Onların ikisini də qucaqlayıb öpdüm. Malik, sənə də qurban olum, əsgər yoldaşına da. Keçdilər içəri. Qabillə görüşüb, hal-

əhval tutdular. Tez onlara yemək hazırladım. Kənd yeridir, qatıq, pendir qoydum süfrəyə. Doyunca yedilər. Eşidən qohum-qonşu tökülüşüb gəldilər Maliki görməyə. Evdə bir gecə qaldılar. Səhərisi, mayın 2-də onları yola saldıq Sədərəyə. Özüm küncdə-bucaqda Malikə saxladığım yer-yeməlini yığdım torbalarına, dedim ki, Sədərəkdə əsgər dostların ilə birlikdə yeyərsiniz.

Malik dostu ilə gedəndən bir neçə gün sonra söhbət gəzirdi ki, Sədərəkdə atışma var – deyə Qabil kişi söhbətə qoşulur. Tez-tez Naxçıvana müdafiə komitəsinə gedirdim ki, gəlib-gedən olsa, Malikdən bir xəbər tutum. Bir dəfə yenə getmişdim müdafiə komitəsinə dedilər ki, Sədərəkdən bir yaralı əsgər gətiriblər, xəstəxanadadır. Qaçaraq getdim respublika xəstəxanasına, soraqlaşıb xəstənin yerini öyrəndim. Onun palatasına girəndə gördüm ki, xeyli adam var. Əsgərin kefini soruşdum, yarasının ağır, yüngül olması ilə maraqlandım. Birdən əsgər-Qabil əmi, məni tanımadın? Malikin əsgər yoldaşıyam-deyə dilləndi. Novruz bayramı ərəfəsində gəlmişdiniz Sədərəyə, Zenfira xalanın bişirib gətirdiyi plovun dadı hələ damağımdadır. Narahat olma, Malik sağ-salamatdır. Mən Mil təpəsində yaralanandan sonra Malik gətirib hərbi hissəyə, oradan da yolladılar xəstəxanaya. Malikdən arxayın ol, yaxşıdır. Bu sözlərdən sonra bir az rahatlandım və qayıtdım kəndə. Əhvalatı olduğu kimi Zenfiraya danışdım, bundan sonra o da təskinlik tapdı. 1992-ci il Mayın 18-də Mil təpəsində, onun tərafında qızğın döyüşlər gedirdi. Gecənin bir vaxtı Maliki də bir neçə əsgərlə birlikdə aparırlar döyüşə. Yeni qüvvə gələndən sonra ermənilər döyüşün sürətini bir az azaldırlar. Bu vaxt Malik də olmaqla 18 nəfər ermənilərə arxadan zərbə vurmaq üçün səhərə yaxın manevr edirlər. Pusquda duran ermənilər həmin 18 nəfəri mühasirəyə alırlar və onları həmin vaxt vəhşicəsinə güllələyirlər. Əsgərlərin 17-i elə yerindəcə ölür, bir nəfər yaralı isə huşunu itirib orada qalır. Bir müddətdən sonra özünə gəlir və ətrafındakı əsgər dostlarının Şakirin, Nüsrətin, Hidayətin, Vahidin və başqalarının qətlə yetir-

diklərini görürü, vahimədən özünü ələ ala bilməyən əsgər karıxmış vəziyyətdə qalır. Hiss edir ki, kənardan həmin yerə ciddi nəzarət olunur. Əsgər çox çətinliklə mühasirədən çıxıb hissəyə gəlir. Onda artıq hissədə elə bilirdilər ki, onların hamısı şəhid olub. Yaralı əsgər hissəyə qayıdandan sonra məlum olur ki, şəhid olanlar 17 nəfərdir.

Sağ qalmış döyüşçülər əsgər dostlarının meyitlərini üç gün mühasirədən çıxara bilmirlər. Təsadüfən həmin vaxt Beynəlxalq Qırmızı Xac Cəmiyyətinin nümayəndələri orada imişlər və onlar məsələyə müdaxilə edəndən sonra Sədərək şəhidlərinin meyitləri oradan çıxarılır. **Malikin tabutu da Zeynəddin kəndinə gətirilir və onu Naxçıvan şəhərindəki Şəhidlər xiyabanında dəfn edirlər.** Oğullarının Sədərəkdən sağ-salamat gələcəyini gözləyən valideynlər Malikin şəhid olmasından hədsiz sarsılırlar.

Malikin şairə bacısı Kamilə Dönməz göz yaşlarını saxlaya bilməsə də, qardaşının şəhidliyini nəzmə köçürür. Kamilə Dönməzin kitabındakı «Şəhid oldu Malikim Sədərək dağlarında» adlı şerin bir hissəsini oxuculara təqdim edirəm:

*Ömrünün gənclik çağı dava vaxtına düşdü,*
*Qorxu, hürkü bilmədən düşmən ilə döyüşdü,*
*Yaddaşlarda yaşadı, daim əbədiləşdi,*
*Şəhid oldu Malikim Sədərək dağlarında.*

*«Qırmızılar» postunda on yeddi igid əsgər,*
*Vətənin dar günündə dayandılar səfərbər,*
*Ana-bacı üstünə gəldi ağır bir xəbər,*
*Şəhid oldu Malikim Sədərək dağlarında.*

*Neçə igid oğullar geriyə dönmədilər,*
*Məşəl kimi yandılar, alışıb sönmədilər,*
*Şakir, Nüsrət, Hidayət, Vahid ilə bərabər,*
*Şəhid oldu Malikim Sədərək dağlarında.*

Zenfira ananın bu kitabı mənə tərəf uzadanda əllərinin necə titrədiyini indi də xatırlayıram. Kədər, hüzn dolu baxışları

ilə mənə baxsa da, gözlərinin yol çəkdiyini duydum. Ana üçün oğul itkisindən böyük dərd ola bilməz. Zenfira ana belə bir dərdi düz 11 ildir qəlbində yaşadır və bundan sonra neçə il də yaşadacaqdır.

Malik Qabil oğlu Əliyevin şəhidlik xatirəsi əbədiləşdirilib. Vaxtı ilə oxuduğu Zeynəddin kənd 188 nömrəli texniki-peşə məktəbinə onun adı verilib. Düzdür, bu məktəb indi yoxdur, ancaq bir neçə il şəhid Malik Əliyevin adını daşıyıb. Kəndin mərkəzində, bələdiyyə binasının qarşısındakı iki büstdən biri Malik Əliyevindir. Onların hər ikisi Sədərək uğrunda gedən döyüşlərdə şəhid olub. Igid döyüşçülər şəhid olmaqla özlərinə əbədi bir zirvə – şəhidlik zirvəsi fəth ediblər. Zeynəddinlilər onların hər birinin ehtiramını layiqincə saxlayırlar. Hər kəs əli yetən, ünü çatan şəhid ünvanını müqəddəs ziyarətgaha döndərir.

## Oğul həsrətli ana

*Gül yerinə daş qəbirlər,*
*Bitiribdir ana torpaq.*
*Elə bil ki, gəncliyini,*
*Itiribdir ana torpaq.*

**Əyyub Həziyevin ailəsi böyük idi.** Ailənin 9 uşağı vardı, altısı qız, üçü isə oğlan. Evin bütün qayğıları Əyyuba baxırdı. Düzdü, həyat yoldaşı Surə və iki böyük qızı kənddəki kolxozda işləyirdilər. Ailədə ataya kömək olmaq, işləyib qazanmaq zərurəti yaranmışdı. Buna görə də 1989-cu ildə oğlu Namiq (Həziyev Namiq Əyyub oğlu 20 iyun 1974-cü ildə anadan olub - Ə.Hümmətov) kənddəki Sadıq Nadirli adına orta məktəbin səkkizinci sinfini bitirəndən sonra özünə iş axtarmağa başladı. Namiq məktəbdə oxuyan illərdə iməciklər zamanı əkilmiş ağaclara, müxtəlif gül kollarına boş vaxtlarında qulluq göstərər, onları suvarardı. Onun bu cəhəti direktorun nəzərindən

yayınmamışdı. Eşidəndə ki, Namiq özünə iş axtarır, sifariş göndərdi ki, gəlsin məktəbdə təsərrüfat müdiri işləsin, boş vaxtlarında gül kollarını, ağacları becərər. Diretkor Namiqin əmrini verib, işə götürdü. Hər dəfə boş vaxt tapan kimi Namiq özünü salırdı ağacların arasına, başlayırdı onlara qulluq göstərməyə. 3 ildən bir qədər artıq bu işdə çalışaraq məktəb müəllimlərinin rəğbətini qazandı.



1992-ci ilin baharında onu hərbi qulluğa çağırdılar Hərbi komissarlıqda müəyyən oldu ki, Namiq Qıvraq kəndindəki «N» hissəsində qulluq edəcək. Beş aydan sonra ana oğlunu görmək üçün Qıvraq kəndinə gedir, həmin hissənin komandirini tapır və Namiq Həziyevin anası olduğunu bildirir. Komandir Namiqi çağıtdırır və ana-bala görüşürlər. Namiq hərbi hissədə qulluğunu uğurla davam etdirdiyini anasına bildirir. Surə arvad oğlu ilə xeyli söhbətləşdikdən sonra gətirdiyi pay-puşu oğluna verərək hərbi hissədən ayrılır. Ana bir xeyli uzaqlaşandan sonra qanrılıb oğlunun xidmət etdiyi hərbi hissəyə tərəf baxanda oğlunun ağacın kölgəsində dayanıb ona baxdığını görür. Sağ ol oğlum, qısa müddətdə komandirin sənin xidmətindən razılıqla danışdı. Halal olsun südüm sənə…

Namiq bu hissədə bir ilə yaxın xidmət etdikdən sonra onun yerini dəyişirlər. Bir müddət Şərur rayonunun Havuş kəndində, sonra isə Sədərəkdə xidmət edir. Hər iki kənddə olarkən ermənilərlə döyüşlərin hamısında iştirak edib. Çevikliyi, qorxmazlığı ilə komandirin rəğbətini qazanıb.

Anası Surə arvad bizə oğlunun haqqında çox danışdı. Bildirdi ki, Namiq Havuşda xidmət edəndə bir əsgər dostu ilə gəlmişdi evimizə. Namiq gələndə hiss elədim ki, ayağını çəkir.

Soruşdum, and verdim, nə olduğunu demədi. Handan-hana dedi ki, yıxılmışam, ayağım ağrıyır. Buna inanmadım. Qardaşı Vilayətə pıçıldadım ki, soruş, öyrən, Namiq ayağını niyə çəkir? Vilayətə də axsamağının səbəbini demişdi. Sonralar öyrəndik ki, Havuşda döyüş zamanı ermənilər vurublar. Ikinci dəfə kəndə gələndə, bilirsiz mənimlə necə zarafat elədi? Onda Sədərəkdə qulluq edirdi. Həmin əhvalatı qoy danışım yazın.

Ala-toran təzə düşürdü. Həyətdə işə başım qarışdığından iki əsgərin küçədən həyətimizə necə keçdiklərindən xəbər tutmamışdım. Başımı qaldıranda gördüm ki, əsgərlərin biri həyət tərəfdə, biri isə küçə qapısının ağzında durub. Onları görən kimi ürəyim qırıldı. Fikirləşdim ki, olmaya Namiqimin başında bir hadisə var. Bu dəmdə əsgərlərdən biri yaxınlaşıb, Surə xala, biz gedəcəyik Vayxır kəndinə, bu şəklə bax gör oğlunuza oxşayır? – deyərək mənə bir şəkil uzatdı. Şəkli əlimə alan kimi baxıb gördüm ki, Namiqin şəklidir. Hiss-həyəcandan, qorxudan əl qoydum özümə və başladım ağlamağa. Bir də gördüm ki, əsgərlərin biri əlini saldı boynuma-ağlama ay ana! Səs mənə doğma və əziz gəldi. Başımı qaldırıb baxanda gördüm ki, əsgər oğlum Namiqdir. Nə deyim, getdik evə, bacıları gəldidəlr, bir-birlərini qucaqlayıb öpdülər. Yanındakı əsgər yoldaşı qonşu Sirab kəndindən idi. Gecəni bizdə qaldı, səhərisi onu yola saldıq kəndlərinə. Vədələşdilər ki, iki gündən sonra qayıtsınlar Sədərəyə. Onları yola saldıq. Bala, demə bir də oğlumu görmək mənə qismət deyilmiş…

Sədərəkdə onlar Ucumiz təpəsində keşik çəkərkən ermənilərlə bir neçə dəfə vuruşublar. Ancaq təpə uğrunda əsas döyüşlər 1995-ci ilin mayında gedib. Bir neçə saat davam edən döyüş Namiqin də, onun sirablı dostu Rəşad Babayevin də həyatına son qoyur. Onlar torpaqlarımızı erməni qəsbkarlarından qoruyarkən şəhid olurlar. Hərbi maşınla Namiqin tabutunu gətirirlər kəndə. **O vaxt istəyirlər ki, Namiq Həziyevi aparıb Naxçıvan şəhərində Şəhidlər xiyabanında dəfn etsinlər. Anası bu fikirlə razılaşmır, qoy oğlum kənddə basdırılsın.** Indi Surə arvad

9-cu ildir ki, hər cümə axşamı qəbiristanlığa gedib oğlunu əzizləyib ona ağlayır. Bununla o, qəlbindəki həsrət nisgilini azaltmaq istəyir.

Surə arvaddan oğlu Namiqin şəklini istədim. Bacısı Namiqin şəklini tapıb gətirdi və onu mənə verəndə, tək şəkildir, xahiş edirəm mütləq qaytarın. Onunla təsəlli tapırıq. Qaytaracağıma söz verdim.

Zeynəddin kəndinin mərkəzində bir kərpic bina nəzəri cəlb edir. Kənd bələdiyyəsi həmin binada yerləşir. Binanın qarşısında iki büst ucalır. **Bu büstlərin biri Namiq Həziyevin, digəri isə Malik Əliyevindir.** Onların hər ikisi Sədərək döyüşlərində şəhid olublar. Onlar Vətən yolunda canlarından keçib, əbədiyyətə qovuşublar.

Həyatda yaxşı adamlar çoxdur. Belə yaxşı adamlar Namiqlə Malikin büstünü qoydurub. Zeynəddin kəndinin mərkəzindəki büstlərə hər gün baxan yaşlı, cavan adamlar, məktəblilər bu mərd, qorxmaz həmkəndliləri ilə fəxr edirlər. Indi kəndin mərkəzində yerələşən həmin bina zeynəddinlilərin güvənc yeridir. Onlarla fəxr edir, onlarla qürur duyurlar. Zeynəddin camaatı haqlıdır. Vətən uğrunda canlarından keçən adamlarla fəxr etməyinə dəyər.

***Qeyd:*** *Şəhidlərin fotoları dəyişdirilib.*

# CƏSUR POLİS İŞÇİSİ HEYDƏR HƏSƏNOV



Həsənov Heydər İslam oğlu Ermənistanla sərhəddə yerləşən Sədərək kəndi ətrafında erməni qəsbkarlarına qarşı döyüşlərdə mərdliklə vuruşub, ağır yaralanıb və əmək qabiliyyətini itirib. Valideyinləri İslam və Gülarə Sovet dönəmində Zeynəddin kəndindəki Sabir adına kolxozda və kolxozun bazasında yaradılmış "Naxçıvan" üzümçülük sovxozunda işləyib və halal qazancları ilə ailəni dolandırıblar.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Hərbi həkim komissiyasının 26 oktyabr 1992-ci ildə verdiyi 997 nömrəli xəstəlik haqqındakı rus dilində yazılmış arayışdan (şəhadətnamə) məlum olur ki, Həsənov Heydər İsmayıl oğlu (atasının adı səhv yazılıb – Ə.Hümmətov) **1968-ci il aprelin 20-də anadan olub**. Hərbi rütbəsi polis kiçik serjantdır. OMON-da (Xüsusi Təyinatlı Polis Dəstəsində) xidmət edir. 1990-cı ildə polis sıralarına qəbul edilib.

Kiçik serjant Heydər Həsənov 1992-ci il iyun ayının 9-da başının sağ tərəfindən ağır güllə yarası alıb və 10 iyun 1992-ci ildə Naxçıvan şəhər xəstəxanasına çatdırılıb. (Erməni təcavüzkarlarına qarşı sərhəd kəndi Sədərəkdə gedən ağır döyüşlərdə yaralanıb – Ə.Hümmətov). İyun ayının 30-dək Naxçıvan şəhər xəstəxanasında müalicə olunan Heydəri müalicəni daha effektiv davam etdirmək üçün Türkiyənin Ərzurum şəhərindəki hospitala aparıblar. O iyulun 16-dan sentyabrın 18-dək orada müalicə olunub. Yaralarında cərrahi əməliyyatlar aparılıb.

27 may 2018-ci ildə Heydərlə telefon əlaqəsi saxladım. Bir az çətinliklə danışırdı. Öyrəndim ki, hazırda Naxçıvan

şəhərində, 3-cü mikrorayonda yaşayır. Sol əli işləmir, sol ayağından da əziyyət çəkir. Təqaüd alır. Təqaüd təyin olunan ərəfədə ona baş serjant rütbəsi verilib.

İki oğlu var. Heydər Əliyev adına tam orta məktəbdə təhsil alırlar. Hüseyn 8-ci, Həsən isə 3-cü sinif şagirdidir.

***May 2018-ci il***

# MÜXTƏLİF SƏNƏT-PEŞƏ SAHİBLƏRİ

## MİR QAFAR AĞA SEYİDOV VƏ ÖVLADLARI HAQQINDA



*Mir Həbib, Mir Qafar Ağa və Mir Səttar*

Seyidov Mir Qafar Ağa Mir Abbas Ağa oğlu 1894-cü ildə Naxçıvan rayonunun Zeynəddin kəndində anadan olub. Bu doğum tarixi 2 fevral 1981-ci ildə ona verilmiş pasportda qeyd edilib. Tarix müəllimi Əsgər Əliyevin hazırladığı müharibədən qayıdıb vəfat edənlərin siyahısında isə onun doğum tarixi 1905-ci il göstərilib. Əsgər müəllim bu siyahını onun sağlığında hazırlamışdır. Yaddaşımda yanılmıramsa Mir Qafar Ağa vəfat edəndə onun 85-90 olardı.

Mir Qafar Ağa və qardaşı Mir Yusif kənddəki kolxozda işləyiblər. Mir Yusif 1941-1945-ci illərdə fasişt Almaniyasına qarşı Böyük Vətən Müharibəsində həlak olub. Mir Qafar Ağa isə ikinci qrup əlil kimi kəndə qayıdıb, kolxoz təsərrüfatında əmək fəaliyyətini davam etdirib. 7 avqust 1981-ci ildə ona əlillik haqqında verilmiş vəsiqədə ömürlük ikinci qrup əlilliyi qeyd vardır.

1955-ci ildə kənddəki Sabir adına kolxoza sədr seçilən Zeynalabdin Hənifəyev yer quruluşçusu vəzifəsini daşıyan Mir Qafar Ağanı inşaat briqadiri vəzifəsinə keçirib. Həmin ildən etibarən kolxoz təsərrüfatında və kənddə tikinti, abaqdlıq işləri xeyli genişləndirilib. Kolxoz idarə heyətinə bir neçə otaqdan ibarət bina, klub, kitabxana, müasir tipli tövlə, silos qülləsi tikilib və digər işlər görülüb. Mir Qafar Ağa bu sahədə bir neçə il ərzində uğurlu fəaliyyət göstərib.

Mir Qafar Ağa müharibədən əvvəl Qumru xanımla ailə qurub, 1940-cı ildə oğlu Mir Həbib dünyaya göz açıb. Yeniyetmə Mir Həbib də kənddəki inşaat işlərində çalışıb və dülgər-xarrat peşəsini öyrənib.Sonra bir müddət Bakı şəhərində tikintidə də bu sahədə işləyib.

Mir Qafar Ağa Seyidov ərəb və fars dillərini bilirdi. Yadımdadır ki, ötən əsrin 50-60-ci illərində məhərrəmlik mərasimlərini öz həyətində, məscid adına tikdirdiyi evində keçirərdi və kənd caamatı da ora yığışardı. Ahıl ömründə, 1987-ci ildə bizdən əbədi olaraq ayrılmış Mir Qafar Ağanın kənddə çox böyük hörməti var idi.

Mir Həbib 1966-cı ildə Naxçıvan Pedaqoji Məktəbinə daxil olub. 1968-ci ildə oranı bitirib və Naxçıvan Xalq Maarif Şöbəsinin müdiri Paşa Quliyevin əmri ilə rayonun Kültəpə kənd 8-illik məktəbinə ibtidai sinif müəllimi təyin edilib. 1 sentyabr 1969-cu ildə Zeynəddin kənd 8-illik məktəbinə göndərilib. Mir Həbib müəllim pensiyaya çıxdıqdan sonra da bir neçə il burada pedaqoji fəaliyyətini davam etdirib.

Mir Səttar 1945-ci ildə anadan olub, 2001-ci ildə vəfat edib. Kənd məktəbində 7-illik təhsil alıb. Naxçıvan şəhərində

peşə məktəbində oxuyub, həm də kənddəki axşam-qiyabi orta məktəbi bitirib. Ailə qurub, oğul , qız tərbiyə edib. Kolxozda və sovxozda, sonralar Zeynəddin kənd orta məktəbində işləyib. Haqq dünyasına qovuşub.



Biz qonşuluqda yaşayırdıq. Mir Qafar Ağanın kiçik oğlu **Mir Abbas Seyidov** da Naxçıvan Pedaqoji Məktəbini bitirmişdi. Əvvəlcə Qahab kəndində, sonra isə Zeynəddində müəllim işləyib. Uca boyu vardı, yaxşı voleybol oynayırdı. O zaman kənd məktəblərində işləyənləri bir müddət orduya çağırmırdılar. Mir Abbas da hərbi xidmətə çox gec yollanıb. Rusiyanın Xabarovsk krayında hərbi xidmətdə olarkən faciəli şəkildə dünyasını dəyişib. Qonşumuz Əli Novruzunun köməyi ilə tabutda geri dönən Mir Abbas kənddə dəfn edilib.

Mir Qafar Ağanın qızı Tovuz (səhv etmirəmsə) uşaq ikən yanğına düçar olduğuna görə dünyasını dəyişib. Allah haqq dünyasına qovuşanlara rəhmət etsin, Mir Həbib müəllimə də cansılığı versin.

Mir Qafar Ağa və övladlar haqqında məlumatım bu qədərdir.

***2013-cü il***

## PEŞƏSİNİN USTASI

Naxçıvan şəhərində və rayonda sürücülər onu yaxşı tanıyırdılar. O, avtomobil akkumlyatorlarının, yəni elektrik enerjisi toplayan cihazların təmiri ilə məşğul olurdu, öz peşəsinin əsl ustası idi. Övladları Novruzəli və Namiqə də bu peşəni mənmisədib. 17 iyul 1981-ci ildə, zərərli sahədə işlədiyinə görə 55 yaşında pensiyaya çıxmasına baxmayaraq işinə davam edib. Zeynalabdin Babayev Naxçıvan şəhərindəki tikinti idarələrində elektrik qaynaqçısı və başqa peşələr üzrə də çalışıb. Kənddə onu çoxlar Paşa adı ilə tanıyırdı. Xeyirxah insan idi. «Jquli»si vardı. Yolda, dayanacaq məni görən kimi maşını əyləyər və deyərdi ki, müəllim işə yubanarsan, əyləş. Atamı kəndin ən yaxşı ziyalıları sırasında xatırlayar və adını hörmətlə çəkərdi.



**Babayev Zeynalabdin Novruzəli oğlu 17 iyul 1926-cı ildə Zeynəddin kəndində anadan olub.** 3 sentyabr 1964-cü ildə Naxçıvan Hərbi Komissarlığının verdiyi hərbi biletdən aydın olur ki, o, 1941-ci ildə 7 illik məktəbi bitirib, peşəsi traktorçudur. 25 sentyabr 1947 - 24 iyul 1950-ci illər arası ordu sıralarında qulluq edib. Yaxşı xidmət etdiyinə görə «Sovet ordusu və Flotunun 30 illiyi» medalına layiq görülüb. (Sovetlər dönəmində 23 fevral - Sovet Ordusu və Hərbi Dəniz Donanması günü hər il təntənə ilə qeyd olunurdu. 1948-ci ildə 30 illik yubileyi keçirilib).

**Zeynalabdin Babayev 30 yanvar 1952-ci ildə 1935-ci il təvəllüdlü Əhmədova Gülüstan Əli qızı ilə ailə qurub.** Bu barədə 28 aprel 1976-cı ildə yazılmış pasportda evlənmə haqqındakı şəhadətnaməyə əsasən qeyd aparılıb. Lakin pasportda nədənsə atasının adı Novruzəli yox, Novruz yazılıb.

Orta təhsil haqqında attestat. Verilir 1926-cı ildə Naxçıvan rayonunun Zeynəddin kəndində anadan olmuş Babayev Zeynalabdin Novruzəli oğluna, ona görə ki, o, 1969-cu ildə Naxçıvan rayonunun Zeynəddin kəndli-gənclər məktəbinin tam kursunu bitirmişdir.

Sənədi məktəbin direktoru Əhmədov, müəllimlər – Abdullayev, Hacıyev, Məmmədov və Novruzov imzalayıblar. Attestat 3 iyun 1969-cu ildə verilib.

Atası haqqında olan bu sənədlərin kserokopiyalarını mənə verdiyinə görə oğlu Novruzəliyə dərin minnətdarlığını bildirirəm.

Zeynalabdin Babayev Bakı şəhərinin Hövsan qəsəbəsində (Suraxanı rayonu) yaşayan oğlu Namiqin bildirdiyinə görə 21 fevral 1998- ci ildə vəfat edib.

***2014-cü il***

# MÜHASİB BALABƏY HACIYEV



12 iyun 2013-cü ildə Zeynəddin kəndində Balabəy Hacıyevlə evlərində görüşdüm. 1928-ci il təvəllüdlü həmsöhbətim bildirdi ki, kənddəki yeddiillik məktəbdə oxuyanda Zeynalabdin Hənifəyev, Hacı Hacıyev (müharibədən qayıtmayıb), Sara Vəliyeva, Əli Teymurov kimi vətənpərvər müəllimlər ona dərs deyiblər. Məktəbin direktoru Müzəffər Əhmədovu da yaxşı xatırlayır.

**Ömür yolundan söhbət açan Balabəy dedi:** - Uşaqlıq və gənclik illərim çətin zamanlara, ağır bir dövrə düşüb. Bu tarixdən məlumdur. 1948-ci ildə 1 illik hesabdarlıq kursunu bitirdim, Sürəməlik kəndində fəaliyyətə başladım və 1950-ci ilədək burada hesabdar işlədim. 1950-ci il sentyabrın 1-dən Zeynəddin, Leninabad və Kültəpə kəndlərini birləşdirən İdanov adına kolxozun hesabdarı oldum. 1953-cü il martın 15-də Zeynəddin kəndi ayrıldı. Sabir adına kolxozun sədri Mirzə Vəliyev hesabdarı isə mən oldum. Onda, sonralar "Naxçıvan" sovxozunun direktoru işləmiş Qafar Hacıyev raykomun katibi idi. **1955-ci ildə Zeynalabdin Hənifəyev kolxoza sədr seçildi, 1957-ci ildə kolxozun aqronomu İbrahim Vəliyev (1927-27.VI.2001 – Ə.H.) onu əvəzlədi**. 1959-cu ildən 1964-cü ilədək kolxoza Əhməd Əhmədov sədrlik etdi. 1965-ci ildən kolxoz sovxoza çevrildi. Mən 1959-cu il fevralın 15-dən qonşu Yarımca kəndindəki Nərimanov adına kolxozun hesabdarlıq işlərini apardım. 1961-1987-ci illərdə Qaraxanbəyli kəndində çalışdım. 1970-ci ildə Naxçıvan Kənd Təsərrüfatı texnikumunu qiyabi yolla bitirdim. 1987-ci ildən 1990-cı ilədək Qahab və Sirab kəndlərində, 1990-cı ildən 1998-ci ilədək, özəlləşdirmə aparılanadək Leninabad kəndində

işlədim. Hazırda təqaüddəyəm, şəxsi təsərrüfat işlərimlə məşğulam. Tez-tez elə yaşdaşım olan Əsgər müəllimlə görüşür, ötən illəri xatırlayırıq.

Hacıyev Balabəy Məşədi Həsən oğlunun əmək fəaliyyəti həmişə layiqincə dəyərləndirilib. 1946-cı ildə "1941-1945 – Böyük Vətən Müharibəsi illərində rəşadətli əməyə görə" medalı ilə təltif edilib. Dəfələrlə yubiley medallarına, fədakar əməyinə görə döş nişanlarına, Fəxri fərmanlara layiq görülüb. 29 aprel 1984-cü ildə "Əmək veteranı" medalı ilə təltif olunub.

Balabəy Hacıyev 2007-ci ildə Həcc ziyarətində, Ciddədə olub, ona "Hacı" titulu verilib. 26 oktyabr 2015-ci ildə haqq dünyasına qovuşub. Üç övladı var. Zakir Azərbaycan Dövlət İqtisad Universitetini bitirib, uzun illər Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetində işləyib, təqaüdə çıxıb. Rəhman Naxçıvan Dövlət Universitetini bitirib, Bakı şəhər 34 nömrəli tam orta məktəbin direktoru, Tarix üzrə fəlsəfə doktorudur, Pəri isə Naxçvan Tibb Kollecini bitirib, Bakıda yaşayır.

***2015-ci il***

## ÇİYƏLƏYİ ZEYNƏDDİNƏ GƏTİRƏN HƏTƏM



Bir dəfə Zahid Salayev mənə dedi ki, Zeynəddin kəndində çiyələyi ilk dəfə Hətəm becərib, bazara çıxarıb. İndi kənddə özləri üçün çiyələk əkib becərənlər ondan və bir-birindən bəhrələniblər. Bəs, Hətəm çoxlarının xoşladığı bu qiymətli giləmeyvəni haradan və necə əldə edib?

2014-cü il iyun ayının 21-də darvazanın yanında oğlu Nihadla salamlaşdım və soruşdum ki, atan evdədir, dedi, bəli. Keçdik həyətə, Hətəm evin giriş qapısının iki addımlığında xalça-palazın, döşəkcənin üstündə ayaqlarını qatdalayıb oturmuşdu. Salamlaşdıq, əl tutduq, gördüm ki, ayağa durmaq iqtidarında deyil. Düzdür, əvvəllər bir ayağında şikəstliyi vardı, indi isə…

Təxminən 20 ilə yaxın idi ki, Hətəmi görməmişdim. Həyat yoldaşı Nahidə bacı çay gətirdi, çox pis olmuşdum, çay içmək halında deyildim. Söhbətimiz çiyələyi necə əldə etməsinə gəlib çatdı.



*Hətəm, bacısı oğlu Koroğlu və bacısı Narıngül (Naroş)*

**Bu və digər mövzularda onun dediklərindən bəzi məqamlar:** - Kənddəki Sabir adına kolxozda işləyirdim. Kolxozun sədri, rəhmətlik Zeynalabdin müəllim 1955-ci ildə məni təsərrüfatın hesabına göndərdi Quba Bağçılıq Texnikumunda oxumağa. 1 il orada aqronom ixtisası üzrə təhsil aldım. Çiyələyi də oradan gətirdim. O vaxt çiyələk şirin olurdu. Indikilər isə turşdur. Becərib artırdım. O vaxt Naxçıvanın kolxoz bazarında çiyələk satan bir mən idim, bir Qaraçuğ kəndində yaşayan ordubadlı Oruc, bir kişi də Şərurdan. Çiyələk yaxşı pula gedirdi. Qızıl Əkrəm deyirdi ki, ət də 6 manat, çiyələk də 6 manat. Bahadır, çox bahadır. Amma bilmirdi ki, çiyələyi əkib becərmək, məhsul götürmək də asan başa gəlmir. Şəhərin vəzifəli, imkanlı adamları çiyələyi məndən sifarişlə alırdılar, vedrə ilə. Onlar küçədə məni görəndə salam verirdilər. Bir ildir ki, becərmirik. Bildir, ötən il çox quraqlıq oldu, suzuzluq oldu, hamısı xarab oldu. Bu həyətdəki abadlıq əsasən çiyələyin hesabınadı.

Əşrəf müəllim, bilirsən ki, mən həmişə səliqəli geyinmişəm. Naxçıvan şəhərindəki mərkəzi univermaqda işləyəndə Leninabadlı (indiki Kərimbəyli kəndi) Cəfər şöbə müdiri idi, amma, hamı elə bilirdi ki, müdir mənəm. Tez-tez mənə müraciət edirdilər.

Pensiyaya çıxanda iş stajımı, xüsusilə kolxoz dövrünü bir yerə toplaya bilmədim. 50-60 manatla pensiyaya çıxdım. Indi birinci qrup əlil kimi 127 manat pensiya alıram.

**1931-ci ildə Zeynəddin kəndində anadan olmuş, 50-ci illərin ikinci yarısında çiyələyi Qubadan gətirib becərmiş Quliyev Hətəm Cavad oğlu ilə sağollaşıram.** Həmişə təmiz, səliqəli geyimdə, başında kepkası, əlində əsası olan Hətəmin indi çarəsiz oturaq həyat tərzi keçirməsi məni çox təsirləndirdi. Anası, rəhmətlik Gülüstan xala, bu gün müxtəlif ünvanlarda yaşayan doğmaları yadıma düşdü. Ürəyimdə bu gün ona qulluq göstərən ömür yoldaşı Nahidəyə və övladlarına «çox sağ olsunlar» dedim.

***2014-cü il***

## ZƏHMƏTKEŞ SALEH İSMAYILOV

İsmayılov Saleh Əli oğlu 1 iyul 1935-ci ildə təvəllüd edib. Onun uşaqlıq və yeniyetməlik illəri 1941-1945-ci illər Böyük Vətən müharibəsinə və sonrakı çətin bərpa və quruculuq illərinə düşdüyündən çox çətin keçib. Kənddəki 7 illik məktəbi bitirdikdən sonra Leninabad kənd orta məktəbində təhsilini davam etdirməyə başlayıb, lakin, maddi çətinliklər, təsərrüfat işlərinin ağırlığı onun təhsilini yarımçıq qoyub. Sonralar kənddə fəaliyyət göstərən axşam-qiyabi orta məktəbdə oxuyub və 1971-ci ildə ona attestat verilib. Atam, Hümmətov Əli Muradəli oğlu ona dərs deyib, attestada fənn müəllimi kimi atamın da imzası vardır. 25 may 1964-cü ildə ona verilən hərbi biletdə isə yanlış olaraq 1953-cü ildə orta məktəbi bitirməsi göstərilib. Göz xəstəliyinə görə Salehi ordu sıralarında xidmətə aparmayıblar.

1952-1953-cü illərədə kəndin kolxoz təsərrüfatının taxılçılıq, üzümçülük, pambıqçılıq, heyvandarlıq və digər sahələrində işləyən Saleh kolxozda pul qazanmaq çətin olduğundan Cəlal, Elxan, Həşim, Nəcəf, Məmmədqulu, Yəhya və başqalarına qoşularaq Naxçıvan Duz mədənində fəhləlik edib. Hacıyev Cəlal Kitay oğlunun təşəbbüsü ilə fəhləliyə başlayan Saleh əvvəlcə 1 il duz istehsalı sexində, daha 6 il mədəndə-şaxtada çalışıb. Bəstəboy, fiziki cəhətdən başqalarına nisbətən zəif olan Saleh İsmayılov təqaüdə çıxanadək Naxçıvan şəhərində tikintidə işləməklə ailəsini dolandırıb.

Saleh Ismayılov 1950-ci ilin sonlarında qonşusu Cəlil kişinin qızı Pəri ilə ailə qurub. 2014-cü ilin dekabr ayında dünyasını dəyişən Pəri olduqca zirək, qoçaq, son dərəcə işgüzar, zəhmətsevər bir qadın idi. Kolxozda, sonralar üzümçülük sovxozunda işləməklə bərabər həyətyanı sahənin becərilməsində fədakarlıqla çalışardı, bol məhsul yetirərdi, ailənin güzəranını yaxşılaşdırardı.

Bu ailədə 5 oğul, 2 qız dünyaya gəlib. Onların dünyaya gəlişini ardıcıllığını pozmadan sadalayıram: Bayram, Məzahir, Rasim, Rizvan, Samir, Tükaz və Sara. Saleh birinci qız övladına anası Tükazın (biz ona atamız kimi bibi deyirdik), ikincisinə isə

gənc ikən dünyasını dəyişmiş bacısı Saranın adını qoyub. Üçüncü övladı Rasim Sumqayıt şəhərində yaşayır, ailəlidir.



**Rasim 1964-cü il iyun ayının 11-də kənddə doğulub.** 1979-cu ildə səkkizinci sinfi bitirdikdən sonra Sumqayıt şəhərindəki 49 nömrəli orta texniki-peşə məktəbinə daxil olub, krançı-maşinist peşəsini öyrənib. 1981-ci ildə Sumqayıt şəhərində Azərbaycan Boru Yayma Zavodunda peşəsi üzrə əmək fəaliyyətinə başlayıb.

Rasim 1983-1985-ci illərdə hərbi xidmət keçib və yenidən zavoda qayıdıb. 1992-ci ildə könüllü olaraq Qarabağ uğrunda gedən müharibəyə yollanıb. Ağdam şəhəri, rayonu ərazisindəki döyüşlərdə iştirak edib. 1995-ci ildə ordudan tərxis olunub və əvvəlki işinə qayıdıb. Zavodda peşəkar usta kimi yaxşı tanınan Rasim İsmayılov Qarabağ müharibəsi veteranıdır. Oğlu Əbülfəz Azərbaycan ordusunda baş leytenant rütbəsində xidmət edir.

2014-cü il iyun ayının 3-cü ongünlüyündə kəndə getmişdim. Kəndin ağsaqqallarından olan, qohumum Saleh Ismayılovla da görüşüb xeyli söhbət edib, ötən illəri yada saldıq. Saleh kişi səhhəti ilə əlaqədar əsasən həyətdə dolanırdı. Amma əvvəllər kəndin xeyir-şər işlərində fəal iştirak edərdi, yas mərasimlərində fatihə verər, yasin oxuyardı. **1978-ci il fevralın 13-dən 14-ünə keçən gecə atam haqq dünyasına qovuşdu. Mən elə gecə vaxtı onu və Qoca dayını (əsl adı Hüseyndir) yuxudan oyadıb atamı dəfn etmək üçün qəbrin qazılmasını xahiş etdim. Onlar ayazlı-şaxtalı bir qış günündə bu işi vaxtında və layiqincə yerinə yetirdilər. Qoca dayı bir neçə il bundan əvvəl, Saleh kişi isə 12 iyun 2016-cı ildə 81 yaşında bu işıqlı dünya ilə vidalaşıb. Allah hər ikisinə rəhmət etsin.**

***2014-2016-cı il***

## MÜHƏNDİS



Zeynəddin kəndində ali təhsil almış ilk mühəndis Məcnun Nəbiyev çox böyük ehtiramla xatırlanır.

**Nəbiyev Məcnun Məhəmməd oğlu 1936-cı ildə Zeynəddin kəndində dünyaya gəlib.** 1945-ci ildə kənddəki 7 illik məktəbin 1-ci sinifinə daxil olub. Kənd məktəbini bitirdikdən sonra orta təhsilini qızıl medalla 1955-ci ildə qonşu Leninabad (indi ki, Kərimbəyli) kəndində tamamlayıb. 1955-1960-cı illərdə Azərbaycan Dövlət Universitetində ali təhsil alıb, Geologiya mühəndisliyi ixtisasına yiyələnib, fərqlənmə diplomuna layiq görülüb.

Gənc mütəxəssis 5-6 ay Ordubad rayonunda Parağaçay Filiz Mədənində çalışıb. Sonra Naxçıvan Muxtar Respublikasının meliorasiya və su təsərrüfatı idarələrində, ayrı-ayrı tikinti təşkilatlarında mühəndis, arada 1981-ci ildə bir müddət Naxçıvan şəhər asfalt zavodunun direktoru vəzifələrində işləyib. 1996-cı ildə pensiyaya çıxan Məcnun Nəbiyev yaxşı işinə görə dəfələrlə əlaqədar təşkilatlar tərəfindən mükafatlandırılıb.

Məcnun Nəbiyev Azərbaycan Dövlət Universitetinin məzmunu, biologiya müəllimi Hənifəyeva Tamara Zeynalabdin qızı ilə ailə qurub. Qızı Təranə kimya-biologiya müəllimidir. Oğlanları Natiq və Amil isə özəl sahədə çalışırlar.

Məcnun Nəbiyev 2014-cü il oktyabrın 3-də vəfat edib.

***2015-ci il***

# TALE ELƏ GƏTİRİB Kİ...



*Hüseyn və bacısı Nuriyyə müəllimə*

Hümmətov Hüseyn Əli oğlu gənclik illərindən taleyini Rusiya Federasiyasının Sankt-Peterburq (keçmiş Leninqrad) şəhərinə bağlaylıb. 55 ilə yaxındır ki, bu şəhərdə yaşayan Hüseyn orta ixtisas təhsilli radiotexnik Lyudmila Nikolayevna ilə ailə qurub, əvvəlcə birotaqlı mənzildə yaşayıblar. 4-cü uşaq – Əli anadan olanda çoxuşaqlı ailə kimi onlara prospekt Udarnikovda, yeni tikilmiş binaların birində bir neçə otaqdan ibarət geniş, hərtərəfli şəraiti olan mənzil veriblər. Övladları Leyla, Yuliya, Yana və Əli ali təhsilli mütəxəssislərdir və müxtəlif sahələrdə uğurla çalışırlar.

**Hüseyn Hümmətov 1945-ci il iyul ayının 14-də Zeynəddin kəndində müəllim ailəsində anadan olub.** Atası Əli müəllim orta məktəbdə Azərbaycan dili və ədəbiyyat fənnini tədris edib. Hüseyn də atasının zəngin kitabxanasındakı Azərbaycan və Dünya ədəbiyyatının ən yaxşı nümunələrini, jurnal (xüsusilə, "Azərbaycan" jurnalındakı əsərləri) və qəzetləri həvəslə mütaliə edib.



*Hüseynin atası Əli müəllim, qızı Leyla,*
*qaynanası Zinaida xanım və qaynatası Nikolay*

1960-cı ildə Leninabad kənd orta məktəbindən çıxıb Naxçıvan şəhər M.T.Sidqi adına 4 nömrəli orta məktəbə daxil olub, eyni zamanda, musiqi məktəbində tar çalmağı öyrənib və 1961-ci ildə orta məktəbi bitirib. Kamal attestatı almaqla SSRİ-nin (Sovetlər Birliyinin) ali məktəblərinə daxil olmaq hüququnu qazanıb. Hüseyn sənədlərini Bakıda Universitetə verib, lakin müsabiqədən keçə bilməyib, məncə ədalətsizliyin qurbanı olub (elə bu sətirlərin müəllifi də ədalətsizliyin ucbatından Azərbaycan Dövlət Pedaqoji İnstitutuna daxil ola bilməyib, yəni müəllimlər onun biliyini aşağı qiymətləndirdiyinə görə müsabiqədən keçə bilməyib. Hərbi xidmətdən sonra 1969-cu ildə Azərbaycan Dövlət Universitetinə daxil olub.). Hüseyn 1961-ci ildə Azərbaycanın 40 illiyi adına Naxçıvan Tikiş Fabrikində işə düzəlib, Nemət ustadan biçib-tikməyi öyrənib. Ali məktəbə təqdim etmək üçün fabrik ilk komsomol təşkilatı katibi Məmmədovanın və Naxçıvan rayon Komsomol Komitəsinin katibi Həmzə

Əhmədovun (Zeynəddin kəndindəndir) imzaladığı xasiyyətnamədə deyilir ki, o, 1960-cı ildən komsomolun üzvüdür. 1961-ci ildən fabrikdə işləyir. Az vaxt içərisində kamil bir usta olmuşdur. Bilmədiyini qabaqcıl ustalardan öyrənməklə, geridə qalan yoldaşlarına yaxından kömək etmişdir. Tikdiyi işin keyfiyyətinə ciddi fikir vermişdir.



*Əli müəllim, balaca Leyla, Lyudmila və Hüseyn*

Hüseyn Hümmətov 1963-64-cü illərdə Bakıda 4 nömrəli trestin 42 nömrəli tikinti idarəsində, Radiozavodda işləyib. Sürücülük məktəbini bitirib və bu peşədə çalışıb. Foto çəkmək sahəsində də özünü sınayıb. İşləri uğurlu alınıb. Bakıda qiyabi ali təhsil alan müəllimi Murtuz Məmmədov və dostu Xəlillə çəkdirdiyi şəkillər o illərin yadigarıdır ("Yetirmələri ilə fəxr edər, qürur duyardı" məqaləsini oxu). Hüseyn 1964-67-ci illərdə Sovet ordusu sıralarında xidmət edib, hərbi xidmətdən sonra Leninqradda qalmağa, işləməyə və təhsil almağa üstünlük verib. Müəllim yanında hazırlaşıb və rus dilini mükəmməl mənimsəyib. Təbii ki, buna həsəd aparanlar, işdə ona mane olanlar da az olmayıb. Ət-süd, meyvə-tərəvəz idarələrində sürücü işləyən Hüseyn 1973-cü ildə peşəsinə uyğun orta ixtisas təhsili, sonra isə ali siyasi təhsil alıb.



*Yaqut və Hüseyn*



*Nuriyyə, Güldanə və Hüseyn*

Marksizim-Leninizm Universitetində ali siyasi təhsil alması ona geniş qapılar açıb. Leninqrad şəhər sərnişindaşıma nəqliyyatında müxtəlif vəzifələrdə fəaliyyət göstərib. Nəzarət-təftiş şöbəsinin, Leninqrad Sərnişindaşınma Nəzarət-Təftiş idarəsinin rəisi vəzifələrində işləyib. 1980-ci illərdə xüsusilə, 1986-cı ildə "Veçerniy Leninqrad" və "Smena" qəzetlərində idarənin, Hüseyn Hümmətovun fəaliyyəti geniş işıqlandırılıb. Dəfələrlə onunla müsahibələr, onun iştirakı ilə keçirilən reydlər bu qəzetlərdə yer alıb.



*Hüseyn oğlu Əli ilə*

Hümmətov Hüseyn Əli oğlu bir neçə il bundan əvvəl pensiyaya çıxıb və hazırda özəl sahədə fəaliyyət göstərir. Qardaşıma, onun həyat yoldaşı Lyudmila Nikolayevnaya möhkəm can sağlığı, övladlarına, nəvələrinə daima xoş günlər, sevinc, şadlıq diləyirəm. Hüseynə, Lyudmila Nikolayevnaya onların əhatəsində firavan ömür sürmələrini arzulayıram.

***İyun 2018-ci il***

## NURMƏMMƏD PƏHLƏVANIN OĞLU ŞAMƏMMƏD



Pəhləvanın ailəsində 5 oğlan, 2 qız övladı – Şaməmməd, Məhəmməd, Əlfida, Həsən, Abbas, Qəndab və Nənəxanım dünyaya gəlib, hər biri də ata-anasına, ailələrinə layiq böyüyüb, tərbiyə, təhsil alıb və ailə qurub.

Şaməmməd, Məhəmməd və Əlfida Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutunu (Naxçıvan Dövlət Universitetini) bitiriblər.

Bahar fəslində, təravətli bir yaz günündə - 10 may 1950-ci ildə el-obada pəhləvan, zəhmətkeş, halallığı sevən bir insan kimi tanınan Nurməmməd kişinin ilk övladı dünyaya gəlməsilə ailəyə böyük sevinc, şadlıq gətirb. Körpənin adını şəcərəyə uyğun olaraq Şaməmməd qoyublar. İllər ötüb, o, kənddə müəllim, güləşçi, şəxsi təsərrüfatına bağlanan zəhmətkeş bir insan kimi **Şəmil adı ilə tanınıb**.

Şaməmməd Zeynəddin kəndində natamam, Leninabad kəndində (indiki Kərimbəyli) orta təhsil alıb. 1966-cı ildə orta məktəbi bitirib və Naxçıvan şəhərindəki 51 nömrəli tikinti idarəsində işə düzəlib. 2 il ərzində tapşırılan işləri layiqincə yerinə yetirib, ali məktəbə qəbul imtahanına hazırlaşıb.

O, 1968-ci ildə qəbul imtahanlarını müvəffəqiyyətlə verərək, Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialına qəbul olub. Tarix müəllimi ixtisası üzrə təhsil alıb və eyni zamanda, institutda idman sahəsində işləyib, güləş məşğələlərini aparıb, tələbələrə idmanın bu növünün sirlərini həvəslə öyrədib. 1972-ci ildə ali təhsilini tamamlayan Şaməmməd təyinatla Zeynəddin kənd tam orta məktəbində pedaqoji fəaliyyətə başlayıb.

Şaməmməd Nuriyev 1973-75-ci illərdə hərbi xidmətdə olub, leytenant rütbəsinə layiq görülüb. Hərbi xidmətdən sonra doğma kənd məktəbinə qayıdıb. Hərbi rəhbər, gənclərin çağırışaqədərki hazırlığı və fiziki tərbiyə müəllimi işləyib. Təqaüdə çıxıb və təsərrüfatda üzümçülük və taxılçılıqla məşğul olub. Özünün də böyük təsərrüfatı var, zəhmətə qatlaşır və hər il bol məhsul götürür.

Çox yaxşı xatirimdədir ki, məktəbdə oxuduğumuz illərdə bizi kolxoz təsərrüfatında pambıq yığımına cəlb edərdilər. Maddi maraq bizi həvəsləndirərdi, daha çox pambıq yığmağa çalışardıq ki, daha çox pul qazanaq. Şaməmmədin adı pambıq yığımında hər gün qabaqcıllar sırasında çəkilərdi.

Şaməmməd Nuriyev təcrübəli müəllimdir, tariximizi, ədəbiyyatımızı sevən və fiziki əməyə çox bağlı olan bir insandır. Əqidəsindən, məqsədindən heç zaman dönməz. O deyir ki, Karl Marksın belə bir kəlamı var: "Əmək sərvətin atası, torpaq isə anasıdır". Fransız yazıçısı Balzak da yazıb: "Torpaq insanlardan ədalətlidir, riyakarlıq nə olduğunu bilmir, qoyulan əməyə qarşı bol-bol mükafatlar verir". Belə bir türk atalar sözü də var: "Tarlada izi olmayanın, süfrədə üzü olmaz". Bu bir danılmaz həqiqətdir.

Nuriyev Şaməmməd Nurməmməd oğlu 1970-ci ildə kəndin ilk traktorçusu kimi tanınmış İbrahim Əliyevin qızı Çinibəyimlə ailə qurub, 3 oğlu, 2 qızı, 14 nəvəsi və 5 nəticəsi var.

***İyun 2018-ci il***

## RABİTƏÇİ İBRAHİM



**Hüseynov İbrahim Ərrəhman oğlu şaxtalı qarlı-boranlı bir gündə - 12 dekabr 1951-ci ildə Naxçıvan rayonunun Zeynəddin kəndində dünyaya gəlib.** Anası Zəhra xanımı fidan çağlarında itirib. Bütün yaşıdları kimi yaşı çatanda kənddəki yeddiillik məktəbə yollanıb. Yeddiillik təhsilini bitirdikdən sonra qonşu Leninabad (indili Kərimbəyli) kənd orta məktəbində təhsilini davam etdirib. 1969-cu ildə tam orta təhsilini başa vuran İbrahim 1970-1972-ci illərdə ordu sıralarında Vətənə xidmət edib.

***Haşiyə:*** Uşaqlıq illərində yaşanan günlər heç vaxt unudulmur, zaman-zaman yada düşür, xatırlanır. İbrahimin ata bir ana ayrı qardaşı Xəlillə (tanınmış aktyor, televiziya diktoru, Prezidentin fərdi təqaüdçüsü) mənim qardaşım Hüseyn möhkəm dost idilər ( indi də bu dostluq davam edir). Onlar elə kəndin özündə harasa gedən zaman biz onların arxasınca getmək istəyəndə nə Xəlil, nə də Hüseyn buna imkan verməzdilər. Baxmayaraq ki, İbrahim məndən dörd yaş kiçik idi, amma sözümüz tuturdu, o, məni eşidirdi. Elə indinin özündə də arada imkan olanda İbrahimlə görüşürəm. Xəlil hər il yayda Bakıya istirahətə – sanatoriyaya gələndə bizim görüşlərimiz ardıcıl olur. Evdə qonaq olanda nəvəsi Nərmin süfrənin hazırlanmasında nənəsinə, anasına kömək edir. Babası İbrahimin, atası Hikmətin çəkdikləri kabablar süfrəyə gətirilir... Xatirələr çözələnir...

İbrahim Hüseynov 1975-1976-cı tədris ilində Bakıdakı 90 nömrəli texniki-peşə məktəbində rabitəçi – montyor peşəsinə yiyələnir. Xətai telefon qovşağında ixtisası üzrə işə başlayır. Montyor işləyir, taksafonlara nəzarət edir. Vəzifəsinin öhdəsindən bacarıqla gəldiyinə, peşəkarlığına görə 1982-ci ildə elektromontyor ştatına keçirilir. 493/98 və 564 ATS-lərində çalışır.

İbrahim Hüseynov 1991-1994-cü illərdə Bakı Rabitə Texnikumunun qiyabi şöbəsində (indiki Azərbaycan Texniki Universiteti nəzdində Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci) təhsilini artırır. Bir müddət sonra o, texnik vəzifəsinə təyin olunur. 2016-cı ildə yaşa görə işdən azad edilir, təqaüdə göndərilir.

İbrahimi səriştəli rabitəçi kimi tanıyanlar, həmişə diqqət və qayğı ilə yanaşdığı həmkarları ona böyük hörmət bəsləyirlər. Nə vaxt onunla görüşürəmsə, həmişə yanında gənc rabitəçiləri görürəm. Bir dəfə həmkəndlimiz Mübariz Quliyev dedi ki, İbrahimlə bir məhəllədə söhbət edə-edə yol gedəndə müşahidə edib ki, yaşlı da, cavan da onunla salamlaşır. Maraqlanıb və məlum olub ki, İbrahim vaxtı ilə həmin ərazidə işləyib, əhaliyə nümunəvi xidmət göstərib və onu təmənnasız, xeyirxah rabitəçi kimi tanıyıblar. Hətta, idarəyə gedib, onun yenidən həmin əraziyə qaytarılmasını xahiş edənlər də olub. İşdə olduğu kimi, İbrahim abonementlər arasında da belə hörmət və nüfuz qazanıbmış.

Tahirə Babalar qızı ilə ailə quran İbrahim övladına anasının adını qoyub, Zəhra! İllər ötüb, Zəhra pedaqoji təhsil alıb, Hikmətlə ailə qurub. İndi bu gənc ailənin iki övladı var: Nərmin və Nigar. Nərmin məktəblidir, Nigar isə hələ balacadır...

*May 2018-ci il*

## Anam Zəhra, qızım Zəhra

Mən səni görəndə körpəliyimdə,
O vaxtlar uşaq idim, xatirimdə sən.
Yadıma düşməyir hüsnücamalın,
Xəyaldır, vüsaldır, kamaldır mənə.

Vaxtsız getdin səni görə bilmədim,
Ana hissin, məhəbbətin görmədim,
Axı sənsiz nəyə görə ölmədim,
Sənsiz dərdim ağır oldu ay ana.

Biz evləndik bir dərd bilən qızınan,
O oğul istədi, mən isə ana.
Dolandı həftələr, yetişdi zaman,
Gəldi bu dünyaya gözəl bir bala.
Sənin də adını qoydum balama.

O məni sənintək sevib əzizlər,
Hərdən dilə tutar, hərdən güldürər.
Sənin də adını qoydum qızıma,
Günəştək parlayan dan ulduzuma!

***İbrahim Hüseynov***

# GENERAL-MAYOR QAÇAY QULİYEV



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 iyun 2007-ci il tarixli "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi zabitlərinə ali xüsusi rütbələrin verilməsi haqqında"kı sərəncamı ilə Quliyev Qaçay İsmayıl oğluna polis general-mayoru rütbəsi verilib.

**Quliyev Qaçay İsmayıl oğlu 1954-cü ildə Naxçıvan rayonunun (indiki Babək) Zeynəddin kəndində kolxozçu ailəsində dünyaya gəlib.** Əvvəlcə kənddəki natamam, sonra Leninabad kənddindəki orta məktəbi bitirib. 1973-1975-ci illərdə ordu sıralarında xidmət edib. Hələ orta məktəb illərindən ali təhsil almaq istəyini 1976-cı ildə reallaşdırıb – Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universitetinin) Hüquq fakültəsinin axşam şöbəsinə daxil olub.

1977-ci ildə Sumqayıt şəhər Daxili İşlər İdarəsində sıravi milis (polis) nəfəri kimi fəaliyyətə başlayan Qaçay Quliyev 1985-ci ilədək Sumqayıt şəhərində çalışıb.

1982-ci ildə universitet təhsilini başa vuran Qaçay Quliyev 1985-ci ildən Babək Rayon Daxili İşlər Şöbəsində baş sahə inspektoru, 1987-ci ildən Şahbuz Rayon Daxili İşlər Şöbəsində cinayət-axtarış xətti üzrə əməliyyat müvəkkili, 1988-ci ildən şöbə rəisinin müavini, 1990-cı ildən şöbə rəisi vəzifələrində işləyib. 1994-cü ilin fevral ayında ona daha böyük etimad göstəriblər. Biliyinə, bacarığına, səriştəsinə və zəngin təcrübəsinə görə onu Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi Cinayət-axtarış şöbəsinin rəisi, avqust ayında isə nazir müavini vəzifəsinə təyin ediblər.

Qaçay Quliyevin fəaliyyəti hər zaman yüksək qiymətləndirilib. 1996-cı ildə Azərbaycan Bayrağı Ordeni ilə təltif olunub, 2009-cu ildə isə ona Naxçıvan Muxtar Respublikasının Əməkdar hüquqşünası fəxri adı verilib.

***2014-cü il***

***Qeyd:*** *Qaçay Quliyev 2016-cı ildən təqaüddədir.*

## RAFİQ NƏSİR OĞLU HACIYEV



Rafiq Hacıyev 24 aprel 1954-cü ildə Naxçıvan MR Babək rayonunun Zeynəddin kəndində doğulmuşdur. Həmin kənddə səkkizlik təhsil almış, Leninabad kənd orta məktəbini başa vurduqdan sonra Naxçıvandakı 32 saylı peşə məktəbinə daxil olmuşdur. Burada geniş profilli peşələrə yiyələnmiş, avtokran, avtomobil çilingəri və sürücülük sənətlərini mükəmməl öyrənmiş, hələ məktəb illərindən əlini əməyə alışdırmış, ailıənin dolanışığına kömək etmişdir.

Onun əmək bioqrafiyası çox genişdir, həyatının çoxunu əməyə bağlamış, müxtəlif sahələrdə çalışmışdır. Sumqayıt Kimya Texnologiya Texnikumunda təhsil almış, texnik-mexanik ixtisasına yiyələnmişdir. Ali məktəbdə təhsilini davam etdirmiş, iqtisadiyyatın idarəedilməsi ixtisasını başa vurmuşdur.

İlk əmək fəaliyyətinə Laçında başlamış, əsgəri xidmətini qurtarandan sonra 7 il Novosibirskdə işləmişdir.

Rafiq Hacıyev sonralar respublikamıza qayıtmş, Sumqayıtda və Ceyranbatanda əmək fəaliyyətini davam etdirmişdir. Ceyranbatandakı ETK-da çilingər işləmiş, üç il taksi sürücüsü olmuşdur.

90-cı illərin əvvəllərindən (1988-ci ildən Ə.H) isə sahibkarlıqla məşğul olmağa başlamış, tullantıların yenidən emalı ilə məşğul olan “Aran” kooperativini yaratmışdır. 1994-cü ildə şəhər əsaslı inşaat idarəsinə gəlmiş, bir il anbardar işləmişdir. 1995-ci ildən həmin idarənin nəzdindəki təmir-tikinti-quraşdırma və buraxılış-sazlama sahəsinin rəisidir.

Bacarıqlı idarə rəhbəri kimi şəhərimizdə aparılan quruculuq işlərində yaxından iştirak edir. Yaşayış binalarının, sosial-məişət obyektlərinin bərpasında və təmirində bu kollektiv az iş görməmişdir.

Rafiq müəllim gözəl ailə başçısıdır. Üç övladı var.

***(İxtisarla)***

***24 noyabr 2001-ci il.***
***Sübhan Qafaroğlu "Ömrə düşən izlər", 2-ci cild,***
***Bakı, "Nurlan" nəşriyyatı, 2003***

***Qeyd:*** *Rafiq Hacyev hazırda da Sumqayıt şəhərində yaşayır və işləyir.*

## YAXŞI STOMOTOLOQ KİMİ TANINIR



**Vəliyev Cəfər Vəli oğlu bahar fəslində, gözəl, təravətli bir yaz günündə – 1955-ci il aprel ayının 28-də Naxçıvan rayonunun (Babək) Zeynəddin kəndində anadan olub.** Onunla əsas ünsiyyətim onun tələbəlik illərindən mənim Naxçıvan Teleradiosunda yeni işə başladığım 1975-ci ildən başlayıb və bu gu gün də davam etməkdədir. Cəfər məndən 8 yaş kiçik olduğuna görə mən 1961-ci ildə kənddəki natamam orta məktəbi bitirdikdən sonra o, 1962-ci ildə 1-ci sinfə qədəm qoyub. Kənd məktəbində natamam orta təhsilini başa vurduqdan sonra tam orta təhsilini Leninabad kəndində (indiki Kərimbəyli) davam etdirib və 1972-ci ildə bitirib. 1973-1975-ci illərdə Sovet ordusu sıralarında Polşa Respublikasında xidmət edib. 1975-1980-ci illərdə Naxçıvan Dövlət Pedaqoji Institutun (universitetin) Təbiət-Coğrafiya fakültəsində ali təhsil alıb. 1980-ci ildə 188 nömrəli Zeynəddin kənd texniki peşə məktəbində pedaqoji fəaliyyətə başlayan Cəfər Vəliyev 4 il direktorun müavini vəzifəsində işləyib.

İxtisasını dəyişmək qərarına gələn gənc müəllim 1984-1985-ci illərdə Naxçıvan «Bilik» Cəmiyyətinin nəzdindəki ikiillik Diş texnikliyi kursunda tibb təhsili alaraq Diş texniki ixtisasına yiyələnib. Bu sahədə ali təhsil almaq istəyini də gerçəkləşdirib. 1985-ci ildə Poltava şəhərində (Ukrayna) Stomatoloji instituta daxil olub və 1990-cı ildə oranı müvəffəqiyyətlə bitirib.

Cəfər Vəliyev 1994-cü ildən Bakı şəhərinin Nərimanov rayonunda özəl stomatoloji kabinetdə həkim işləyir. Çalışdığı bu 23 il ərzində yaxşı stomatoloq kimi tanınıb, ona müraciət edənlərin dərin hörmətini qazanıb. Cəfər Vəli oğlu Vəliyev qayğıkeş ata, gözəl ailə başçısıdır. Fəxr ediləsi təhsilli, işgüzar, diqqətcil övladları, nəvələri var.

***2017-ci il***

## NURƏDDİN



2013-cü il iyun ayının 13-də kənddə Nurəddin Qasımovun qardaşı Taryellə görüşdüm. Taryel və Taryelin ömür-gün yoldaşı Nazənin Nurəddinin şəxsi sənədlərini, qeydlərini, fotolarını, onun haqqında olan yazıları və sairəni-qoruyub saxladıqlarını mənə təqdim etdilər, onların əsasında qeydlər apardım.

**Qasımov Nurəddin Qasım oğlu 22 iyul 1956-cı ildə anadan olub.** Bu tarix onun Vətəndaşlıq pasportunda və xarici pasportunda öz əksini tapıb. O, 20 avqust 1959-cu il təvəllüdlü Hənifəyeva Zəminə Məhərrəm qızı ilə ailə qurub. 1982-ci ildə Reyhan, 1984-cu ildə Samirə, 1989-cu ildə Qasım (babasının adını daşıyır) dünyaya gəlib. Reyhan tibb bacısıdır, Naxçıvan Diaqnostika Mərkəzində işləyir, Samirə Naxcıvan şəhər 4 nömrəli məktəbdə ibtidai sinif müəllimidir. Qasım isə daxili işlər orqanlarında fəaliyyət göstərir.

- Nurəddin Qasımov əvvəlcə Zeynəddin kənd 8 illik, 1973-cü ildə isə Leninabad kənd orta məktəbini bitirib və Qırmızı Əmək Bayrağı Ordenli Oktyabr İnqilabı adına Bakı Neft Texnikumuna qəbulu olub. Texnikumu “Neft və qaz quyularının qazılması” ixtisası üzrə bitirib, Dövlət imtahan komissiyasının 28 aprel 1976-cı il tarixli qərarı ilə ona Neftçi-texniki ixtisası verilib.
- 14 noyabr 1976-cı ildən 12 noyabr 1978-ci ilədək Sovet ordusu sıralarında xidmət edib və serjant rütbəsində tərxis olunub.
- 23 may 1975-ci ildə ona verilmiş Əmək kitabçasından qeydlər:

- 23.05.1975- 10.06.1975. Neft Daşlarında təcrübə keçib.

- 1978-ci ildən PMK- 9 “Azselxozvodoprovodstroy” da işləyib (Azərbaycan kənd təsərrüfatı su tikinti təşkilatında).

- 25.XII.1990. Başqa işə keçməsi ilə əlaqədar işdən azad edilib.

- 28.XII.1990-cı ildən Babək rayonunda "Təbriz" kooperativinə sədrlik edib.

- 27. IV.1992-ci ildə "Zeynəddin" kolxozuna sədr seçilib.

- Nurəddin Qasımov 1990-cı ildə Zeynəddin kəndində müstəqil "Təbriz" kooperativini yaradıb. Subartezian quyuların qazılması, təmiri və bərpası kooperativi yaratmaq istəyini reallaşdırıb. Bu barədə 11 iyun 1990-cı il tarixli protokol var. Kooperativin yaradılması ilə əlaqədar 19 iyun 1990-cı il tarixli müqavilədə deyilir: "Birinci tərəf- "Naxçıvan" sovxozunun direktoru Nəbiyev Məmmədvəli Ələkbər oğlu ; ikinci tərəf – Qasımov Nurəddin Qasım oğlu. Öhdəmə götürürəm ki, "Təbriz" kooperativinin yaratmaq üçün öhdəmə götürdüyüm 1 hektar torpaq sahəsi üçün ildə 100 manat pul köçürəcəyəm."

- 1993-cü il. Zeynəddin kəndində 700 təsərrüfat, 500 ha torpaq sahəsi var. 700 təsərrüfatdan heç olmasa 400-ü fermer olmaq arzusundadır. Bu məqsədlə "Zeynəddin" kolxozunun sədri Nurəddin Qasımov Azərbaycan Kənd Təsərrüfatı və Ərzaq Nazirliyinə müraciət edib.

- 5 aprel 1993-cü ildə "Zeynəddin" kolxozunda kolxozçuların ümumi yığıncağı oldu. 135 nəfər kolxoz üzvü iştirak etdi. Sədr: Nurəddin Qasımov, katib: Adəm Qasımov.

İclasda kolxozun dəmirçisi Ələsgər Şahsuvarov çıxışında qeyd etdi ki, 1964-cü ildə kolxozun bazasında sovxoz təşkil edildikdən sonra ( kənddəki Sabir adına kolxozda təsərrüfat ili başa çatdıqdan sonra bir neçə kəndi əhatə edən "Naxcıvan" üzümçülük sovxozu yaradılıb, 1965-ci ildən əsas fəaliyyətə başlayıb- Ə. Hümmətov) kolxoza məxsus 30 hektar yararlı torpaq sahəsi Aqrar Elm İstehsalat Birliyinə verilib. Çıxış edənlər yekdil fikirdə olurlar ki, 30 hektar torpaq sahəsinin qaytarılması barədə qərar yuxarı təşkilatlara göndərilsin.

**Yuxarı təşkilatdan alınan cavab:** "Azərbaycan Torpaq qanunvericiliyinə əsasən elmi tədqiqat və tədris müəssisələrinin

torpaqları toxunulmaz elan edilmişdir. Üzürlü səbəb olmadan Aqrar Elm İstehsalat Birliyinin təcrübə torpaq sahəsinin kolxoza qaytarılması qanuna uyğun hesab edilmir.

***M.Tağıyev, Torpaq şöbəsinin müdiri***

• 21 oktyabr 1998-ci ildə "Zeynəddin" kolxozunun Yerli Aqrar İslahat Komissiyasının ümumi iclası keçirilib. 9 nəfər komissiya üzvünün iştirakı ilə qərara alınıb ki, kolxozun maşın və traktorları, o cümlədən avtobusu və sairə öz sahiblərinə satılsın.

• Yeni Azərbaycan Partiyası
Üzvlük vəsiqəsi № 269071
Qasımov Nurəddin Qasım oğlu
YAP Babək rayon təşkilatı
Daxil olduğu tarix: Mart, 2003-cü il
Verildiyi tarix: 19.03.2003-cü il

• Arayış. 2 dekabr 2003-cü il

Verilir Qasımov Nurəddin Qasım oğluna, ondan ötəri ki, o, həqiqətən Ali Diplomatiya Kollecinin Naxçıvan Bölməsinin Beynəlxalq iqtisadi münasibətlər ixtisasını bitirmiş və yekun Dövlət Attestasiyasından müvəffəqiyyətlə keçmişdir.

Arayış diplom veriləndək etibarlıdır.
Rektor: F.e.d. M.A. Cəfərli

• Babək Rayon İcra Hakimiyyətinin Başçısı B.Ə.Əliyev 24.09.2003-cü ildə Kərimbəyli kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi Nurəddin Qasımova məktub göndərib.

***Nurəddin Qasımov bu vəzifədə də fəal çalışıb, etimadı doğruldaraq böyük hörmət və nüfuz qazanıb.***

• Qasımov Nurəddin Qasım oğlunun yüksək vətənpərvərlik, qurub-yaratmaq, el üçün yanan, mübarizlik, təəssübkeşlik eşqi ilə döyünən ürəyi 1 mart 2007-ci ildə əbədi dayanıb. Onun nurlu xatirəsi uzun illər xatirələrdə yaşayacaqdır.

***2013-cü il***

# CÜMŞÜD



**Cümşüd Abdullayev 1959-cu ildə 1941-1945-ci illərdə alman faşizminə qarşı döyüşlərdə iştirak etmiş, müharibə veteranı, sürücü Məmməd Məşəhəsən oğlu Abdullayevin ailəsində dünyaya göz açıb.** Zeynəddin kənd yeddiillik məktəbini bitirdikdən sonra Leninabad kəndində təhsilini davam etdirib və 1974-cü ildə tam orta məktəbi bitirib. O, 1975-1977-ci illərdə sovet ordusu sıralarında Ukrayna Respublikası, Dnepropetrovsk vilayəti, Verxovçevo şəhərində mülki müdafiə hərbi hissəsində xidmət edib.

Cümşüd 1979-cu ildə Bakı Neft Texnikumuna (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti nəzdində Bakı Neft-Energetika Kolleci) daxil olub. Elə həmin ildən də Balaxanı Neft-Qaz Çıxarma İdarəsində operator işinə qəbul edilib. 2001-ci ildən AzQerNeft-də (Almanya şirkəti ilə birgə müəssisə) mədən müdiri vəzifəsinə keçirilib. O, vətənpərvər, əməksevər və hər bir sahədə obyektiv bir neftçidir. Vətənimizin müstəqilliyi onun ən müqəddəs amalı olub. Xalqımızın azadlıq və müstəqillik hərəkatında fəal iştirak edib. Azadlığı sevməyən insan yoxdur və insanda vətənpərvərlik ən dərin hörmətə layiq bir keyfiyyətdir.

2013-cü ildə pensiyaya çıxmasına baxmayaraq əmək fəaliyyətini davam etdirir və hazırda mədəndə usta vəzifəsində çalışır, Bakı şəhərində Sabunçu rayonunun Bakıxanov qəsəbəsində yaşayır.

Qızı Şümşad Azərbaycan Memarlıq və İnşaat Universitetinin məzunudur. Bakalavr və magistr təhsilini Fərqlənmə Diplomu ilə başa vurub. Hazırda tikinti sahəsində baş memardır.

Oğlu Rüfət isə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyində işləməklə bərabər, həm də Fövqəladə Hallar Akademiyasının üçüncü kursunda təhsil alır.

***May 2018-ci il***

# QƏZETLƏRDƏN TOPLANMIŞ MATERİALLAR

## 1929-cu il

### Zeynəddin kəndi təbii fəlakət qarşısında

Zeynəddin kəndində bu il 80 desyatin üzüm bağını çor xəstəliyi vurmuşdur. Bu iş xüsusunda necə dəfə şəhərdən komisyon getmişsə də nəticəsiz qalmışdır. Hətta Torpaq Komissarlığından Abdinof, köy birliyindən Ağası Mamedof, Şirzat Əliyev yoldaşlar belə kəndi fəlakət qarşısında gördükləri halda qayıdıb bir iş görmədilər və əhəmiyyət vermədilər. Əlbəttə, böylənçi bir hal zəhmətkeş kütləni təsərrüfatdan uzaq salır. 80 desyatin üzüm yerləri xarab olan kəndlilərin iqtisadi hallarını fənaləşdirmişdir. Zeynəddin kəndliləri bu məsələni Naxçıvana gəlmiş Azərbaycan nümayəndələrinin nəzərinə yetirməklə bərabər yardım gözləyirlər.

***Abbasqulu,***
***«Şərq qapısı», qəzeti 28 sentyabr 1929-cu il***

### Dəvət edir

**Zeynəddin məktəb müdiri Kazım Məmmədof** 200 manatlıq üçüncü sənaye istiqrazına yazılaraq aşağıdakı müəllimləri də yazılmağa dəvət edir.

1) Kükü məktəb müdiri Sadik Əli-zadə
2) Sirab məktəb müdiri Süleyman Səfərli-zadə
3) Tumbul məktəb müdiri Maməd Nağdalıyof
4) Təzəkənd müəllimi Rauf Bektaşov

5) Şahbuz məktəb müdiri Məhəməd Əli
6) Tofik Bektaşof,
7) Əli Axundof,
8) Nağdaliyof,
9) Süleyman Mamedof,
10) Əli Hüsenof.

***«Şərq qapısı», 8 oktyabr 1929-cu il***

### Elan

Adları aşağıda qeyd olunan yoldaşlar 2-ci dərəcə firkəyə daxil olmaq və üzülüyə keçmək istəyirlər. Ona görə bunların haqqında hər kəsin materialı varsa 1 ayın müddətinə qədər hesabat-təşkilat şöbəsinə verə bilərlər. Materialı verən yoldaşın imzası gizlin saxlanılasıdır.

Namizədliyə daxil olanlar:

34) Takiyef Isa Muxtar oğlu (Zeynədin)

39) Hənifəyev Zeynalabdin Allah (Allahvedi oğlu – Ə.H.) (Zeynədin)

(Siyahıda Naxçıvan Muxtar Respublikasının ayrı-ayrı kəndəlrindən 39 nəfərin adı vardır. Üzvlüyə keçmək istəyənlər isə 4 nəfərdir – Ə.Hümmətov)

***«Şərq qapısı», 7 noyabr 1929-cu il***

## 1930-cu il

### Artel və kolxozlarda

Ölkədə get-gedə artel və kolxozların sayı artır.

Yarımca, Kültəpə və Zeynəddin kimi kəndlərdə üzümüçülük kolxozları təşkil olunmuşdur. Ancaq torpaq komissarlığı bunların nizamnaməsini süründürməyə salmışdır…

***«Şərq qapısı», 12 fevral 1930-cu il***

### Bu kolxozlar dağılır

Qahab və Zeynəddin kəndlərində təşkil olunmuş kolxozlar rəhbərsizlik nəticəsi olaraq dağılmaq üzrədirlər. Qahab kolxozunda 35 üzvü olduğu halda indi 9 təsərrüfat qalmışdır. Zeynəddin kolxozunun 75 üzvü olduğu halda bu il yalnız 25 hektar pambıq və 5 put əkmiş olduqları şənbəllə susuzluq nəticəsində məhv olmaqdadırlar.

Zeynəddin kəndində hər adama 25 dəqiqə su düşdüyü halda, bu sudan kolxozun əkini istifadə etməyib, hər kəs qabaqca öz fərdi təsərrüfatını suvarmışdır. Ona görə də kolxozun əkinləri susuzluqdan yanıb tələf olmuşdur.

Bu kolxozların vəziyyəti nəzərə alınmalı və ciddi tədbirlər görülməlidir.

***«Şərq qapısı», 25 iyun 1930-cu il***

## 1931-ci il

### Kolxozlardakı başsızlığa ən ağır zərbə!

Son illər içərisində kolxoz quruluşu işlərində irəliləyişlərimizə baxmayaraq kolxozlarımızın bir çoxunda olan başsızlıq ucundan yenə də nöqsan və ayrı-ayrı yaramazlıqlar görünür.

Aza, Yayçı və Zeynəddin kənd kolxozlarındakı nöqsanların aradan qaldırılması üçün heç bir tədbir görülmür. Qahab kənd kolxozunda 35 nəfər üzv olduğu halda, indi yalnız 9 nəfər qalmışdır. 75 nəfər üzvü əhatə edən Zeynəddin kənd kolxozu bu əkin ili (1930-cu il nəzərdə tutulur – Ə.H.) 25 hektar pambıq və 5 hektar şənbəllə əkmişsə, o da başsızlıq üzündən səmərə verməmişdir… Kolxozlarda qoyun dərisində gizlənən qolçomaqlar da az deyildir. Xüsusən Böyükdür, Zeynəddin və Sirab kənd kolxozlarında qolçomaq tərəfdarı və yaramaz tiplər var. (Məqalədə

Dəmirçi, Ərəb Yenicə, Diyadin, Xanlıqlar və Nehrə kənd kolxozlarından da bəhs olunub – Ə.H.)

***Ə.Dadaşlı,***
***«Şərq qapısı», 1 yanvar 1931-ci il***

**Təzə arx və kəhriz işə salınmalıdır**

23-cü ildə Zeynəddin kəndinin əhalisi öz çalışmaları ilə bir təzə arx çıxarmışlar ki, bu arx 7 kəndi əhatə edə bilərdi. Fəqət, nədənsə həmin arx təmir olunandan sonra xüsusi şəxslər tərəfindən bağladılmışdır. Bundan əlavə 2 il bundan qabaq Zeynəddin kəndində bir kəhriz çıxarılması üçün toplanmış 3000 manat para hələ də şirkətdə yatıb qalır. Susuzluq üzündən Zeynəddin kəndində keçən il kolxozun 15 və fərdi təsərrüfatçıların 10 hektar pambığı yanıb məhv olmuşdur. Bunu nəzərə alaraq bu yazda həmin arx və kəhrizin işə salınmasına çalışılmalıdır.

***Z.Hənifəyev,***
***«Şərq qapısı», 1 mart 1931-ci il***

**Kolxoz hərəkatı illərində**

Yaz əkini kampaniyası ilə əlaqədar olaraq rayonun Dizə, **Zeynəddin,** Sirab, Aşağı və Yuxarı Uzunoba, Leninabad, Hacıvar, Yarımca, Məzrə, Xalxal, Vayxır və ilaxır kəndlərində yeni kolxozlar təşkil edilmişdir.

***«Şərq qapısı», 15 may 1931-ci il***

**Naxçıvan maarifində sürət**

Bu rayonda maarif işləri son zamanlar sürətlə irəliləməkdədir. Keçən il rayonda 17 məktəb olmasına baxmayaraq bu il rayon daxilində 23 məktəb olması ilə rayonun xüsusi maarif şöbəsi dəxi təsdiq edilmişdir. (...Ə.Hümmətov)

***«Şərq qapısı» qəzeti, 30 may 1931-ci il***

## 1934-cü il

### Ölkəmizdə kolxozlaşma

Naxçıvan əyalətində 1930-cu ildə 73 kolxoz və 2069 kolxoz təsərrüfatı var idi. 1931-ci ildə 182 kolxoz, 8443 kəndli təsərrüfatını əhatə edirdi. Bütün kənd təsərrüfatının 1932-ci ildə 174 kolxozda 10.086 kolxoz təsərrüfatı (39,5 faiz) təşkil edirdi. 1933-cü ildə 215 kolxozda 12.285 kolxoz təsərrüfatı (47,5 faiz) var idi. Hal hazırda ölkəmizdə 216 kolxoz vardır. Bu kolxozlarda 12.617 təsərrüfat əhatə olunmuşdur, bu da 49,6 faiz təşkil edir.

***A.Ağayev,***
***Naxçıvan Xalq Torpaq Komisarlığının kolxoz işçisi***
***«Şərq qapısı» qəzeti, 7 noyabr 1934-ci il***

### Zeynəddin rəğbət bəsləyənlər qrupunun iş təcrübəsini öyrənin

Naxçıvan rayonunun Zeynəddin kənd firqə komitəsi yayında rəğbət bəsləyənlər qrupunun işinə ciddi fikir verirlər.

Burada qrupa qəbul edilən 5 nəfərin ikisi kolxoz islahatında və ictimai işlərdə özünü göstərmiş zərbəçilərdir. Rəğbət bəsləyənlər qrupuna qəbul işində heç bir təhrifə yol verilməmişdir. Hər il qəbul edilən, iki kommunistdən zəmanət almış, onun qəbul məsələsi firqə komitəsi iclasında ehtiyatlı bir sürətdə müzakirə edilməklə rayon firqə komitəsi tərəfindən təsdiq olunmuşdur.

Zeynəddin firqə komitəsi katibi Allahyar Babayev yoldaş rəğbət bəsləyənlərlə işə ciddi yanaşaraq, firqəçi Əli Axundovu onlara təhkim etmişdir. Əli Axundov bu işdə bolşevikcəsinə çalışaraq rəğbət bəsləyənlər arasında XVII-ci firqə qurultayı qərarlarını, rəhbərin məruzəsini və firqə nizamnaməsini təhlil

edir, ucadan qəzet oxuyur. Əlinin fəaliyyətilə rəğbət bəsləyənlər tamamilə firqə maarifinə və savad kursuna cəlb olunmuşlardır.

Burada rəğbət bəsləyənlərin hamısı ictimai işlərə cəlb edilmişdir. Onların gördükləri işlər 5 gündə bir dəfədən gec olmayaraq yoxlanılır. Rəğbət bəsləyənlərdən ikisi dövlət tədarük planlarını yerinə yetirməsi, birisi divar qəzetinə, biri payız əkin işinə təhkim olunmuş və biri də kolxozun birinci briqadasına yardımçı ayrılmışdır.

Bunların çalışması nəticəsində 6 gündə 21.000 manat para toplanmışdır. Payız əkini planı artıqlaması ilə ödənilmiş və bağlar öz vaxtında bastırılmışdır. Məktəbə 1.500 put odun tədarük edilmişdir.

Hər bir ilk firqə təşkilatçısı bu qrupun iş təcrübələrini öyrənməlidir.

***Qasım,***
***«Şərq qapısı» qəzeti, 26 noyabr 1934-cu il***

## 1935-ci il

### El ədəbiyyatından
### Aşıq Dədəkişi

Aşıq Dədəkişi 1895-ci ildə Naxçıvan rayonunun Zeynəddin kəndində yoxsul bir ailədə anadan olmuşdur. Ömrünün yarısını aclıq, əzab və səfalətlər içərisində keçirən bu Aşıq keçirdiyi acı günlərin təsiri altında şeirlər söyləməyə başlayır.

Aşıq Dədə kişi tamamilə savadsızdır. Onun söylədiyi şeirlər xalq arasına yayılaraq şöhrətini gündən-günə artırır...

(Qəzetdə aşığın «Şurayə», «Kolxoza» və «Su kəmərinə» şeirləri də dərc edlib. Qəzetin 17 iyul 1959-cu il tarixli nömrəsində onun təvəllüdü 1878-ci il göstərilib. – Ə.Hümmətov)

***«Şərq qapısı», 15 mart 1935-ci il***

***

Kənddə mətbuat yayılışı işinə ciddi fikir verən və bu uğurda aktiv çalışan bir çox posta müdirləri də yox deyildir…

Zeynəddin məktubdaşıyanı **Səfər Qurbanov** 20 nüsxə «Şərq qapısı» yaymışdır.

***«Şərq qapısı», 27 may 1935-ci il***

***

… Zeynəddin kənd kolxozunda pambığın üçüncü alağı iyunun 21-nə qurtarmışdır. Alaq və seyrəltmə işlərində Fizzə Behbudova, Hürü Əliyeva, Sərvinaz Ismayılova və Kubra Əliyeva daha ciddi və namusla çalışırlar…

***«Şərq qapısı», 21 iyun 1935-ci il***

## Zərbəçi kətmənçilər

Zeynəddin kolxozunda pambığın alaq otlarından təmizlənməsi işində Minəvvər Əliyeva, Tatan Həziyeva, Nazlı Vəliyeva kimilər namusla çalışırlar. Bunlar kətmənlə gündə 0,1 hektar əvəzinə 0,2 hektar tarlanın alaq otunu tər-təmiz vururlar…

Zeynəddin kolxoz heyəti qabaqcıl-zərbəçi kətmənçilərin iş təcrübəsini geniş yaymalıdır.

***«Şərq qapısı», 8 iyul 1935-ci il***

## İş sürətini artırın

Zeynəddin kolxozu taxıl məhsulunun toplanışı işində aktiv mübarizəyə qoşulmuşdur. Kolxozda iyulun 2-nə kimi 150 hektar sahənin biçini qurtarmışdır. Biçində kolxozun biçinci biriqadası irəlidə olub əkdiyi taxıl tarlalarının 75,5 faizində biçini qurtarmışdır.

Zeynəddin kolxozçuları biçin iş sürətini artırmaqla məhsulun itkisiz, vaxtında toplanmasını təmin eməlidir.

***Məcid və Hacılı,***
***«Şərq qapısı», 9 iyul 1935-ci il***

Naxçıvan rayonunun Zeynəddin kolxozunda Zöhrabanı Vəliyeva, Qızxanım Şirəliyeva kimi zərbəçi – işdə namusla çalışan alaqçılar olduğu kimi tənbəllik edib… alağa çıxmayanlar da vardır…

*«Şərq qapısı», 17 iyul 1935-ci il*

## Heydərov yaxşı briqadir sırasında

Naxçıvan rayonu Zeynəddin «Nümunə» kolxozunun birinci briqadası – **Heydər Əli Ismayılov** – biçində biçincilər sırasında gedərək iyulun 14-nə kimi 800 put arpa, buğda biçmişdir. Bununla birlikdə Heydərin briqadası döyümə ciddi hazırlıq görür…

Kolxozun ərik bağından 3 ton ərik dövlətə verilmişdir.

Biçində briqada üzvlərindən Əli Cabbarov, M.Hilal, Xudan, Məhəmməd Məmişov və başqaları işdə ciddiyyətlə çalışırlar.

Pambığın 4-cü alağı qurtarmışdır.

Bu briqadanın iş təcrübələrini kolxozun başqa briqadaları da mənimsəməlidir.

***X.M.Hacılı,***
***«Şərq qapısı», 22 iyul 1935-ci il***

***

## Toplanışa hazırlıqla

Zeynəddin kənd kolxozunun ikinci briqadasında 10 həlqə (qrup) vardır. Həmin qruplar bir-birlərilə becərmə ətrafında bağladıqları müqavilənamə yoxlanılmışdır.

Zöhrabanı, Sərfinaz, Zəhra Musayeva, Ç.Ismayılova və Əpon Vəliyeva namusla çalışan kolxozçu qadınlardan olmaqla becərmənin bütün işlərində irəlidə getmiş və öhdələrinə düşən normanı artıqlaması ilə ödəmişlər və onlar bütün qruplar içərisində birinciliyi qazanmışlar. Onlar indidən pambıq toplanışına ciddi hazırlaşırlar. Bardanların yamanması, fartuxların hazırlanması kimi işlər indidən diqqət mərkəzində saxlanılır.

Bütün işlərdə birincilik qazanan kolxozçu qadınlar öz təşəbbüslərini geridə qalan yoldaşlarına mənimsətməyə çalışmalıdırlar.

***A.Aboyev,***
***«Şərq qapısı», 6 avqust 1935-ci il***

## İkinci briqadaya çatın

Naxçıvan rayonu Zeynəddin kolxozunun 2-ci briqadası pambıq toplanışında ön sıranı tutmuşdur. Briqadanın 2-ci qrupundakı toplayıcılar hər gün normadan artıq pambıq toplayırılar. Bu qrupda Xədicə Qasımova, Gülənbər Əliyeva, Bulqeyis Nəsirova və Anaxanım xala hər gün hərəsi 40 kilo pambıq toplayırlar. Kolxozun illik planına görə hər hektardan 9 sentner pambıq məhsulu əldə edilməlidir. Namuslu kolxzoçuların becərmədəki müvəffəqiyyətləri kolxozun hər hektardan 10 sentner pambıq verməyə iqtidar etmişdir.

***A.Abbasov,***
***«Şərq qapısı», 20 senyabr 1935-ci il***

## Təbib göndərilməlidir

Naxçıvan rayonunun Sirab, Zeynəddin, Qahab, Qaraqala və Kərbəlayı Oruc dizə kəndlərində cocuqlar (1 yaşından 15 yaşa qədər) arasında **qızdırma, göz ağrısı xəstəliyi** inkişaf tapmışdır. Kəndlərdəki cocuqların 75 faizi xəstəliyə tutulmuşdur. Təbib olmadığından xəstəlik getdikcə artır və genişlənir. Səhiyyə Komissarlığı tezliklə xəstəliklərin aradan qaldırılması üçün göstərilən kəndələrə təbibi göndərilməsini təmin etməlidir.

***Ş.P.,***
***«Şərq qapısı», 11 oktybar 1935-ci il***

## Plan 101 faiz ödənilmişdir

Bu il əvvəlinci ildir ki, Zeynəddin kənd kolxozunda pambıq əkilir. (Əvvəlki illərdə də əkilib- Ə.Hümmətov). Zeynəddin kənd kolxozu becərmədə yaxşı ad qazandığı kimi, toplanışda da müvəffəqiyyətsiz qalmamışdır. Bu kolxozda bütün işçi qüvvəsi toplanışa cəlb edilmişdir. Bu il pambığın az əkildiyinə baxmayaraq yenə də başqa işlərdən əvvəl pambıq təhvili planı öydənilmişdir. Kolxoz bu il 9750 kilo pambıq təhvil verməli idi. Oktyabrın 28-nə qədər təhvil verilmiş 9845,5 kilo pambıq planı 101 faiz ödəmişdir. Kolxozda pambıq toplanışı davam edir.

***A.,***
***«Şərq qapısı», 30 oktyabr 1935-ci il***

## 1936-cı il

### Kəhrizin təmirini unutmayın!

Qahab şuralığı Zeynəddin kənd (Naxçıvan ) kolxozunun mala baxanı **Orucqulu Həziyev** bəslədiyi 14 baş iş malını yaz əkininə qüvvəli çıxarmağa çalışır. Həziyev malları vaxtında yemləyir, suvarır, qaşovlayır və başqa işləri layiqli ifa edir. Sahələrin suvarılması işində **Şirin Kərimov və Hilal Fərzəliyev** kimi zərbəçi kolxozçular aktiv çalışmışlar.

Lakin kolxozun bir nöqsanı varsa, o da neçə ildən bəri istifadə edilən kəhrizin yüngül təmirə olan ehtiyacını unutmasıdır. Bu kəhriz təmir edilərsə həm əkinlər suvarılar, həm də kolxozçular içməli su ilə təmin edilər. Kolxoz heyəti kəhrizin təmirini unutmamalıdır.

***"Şərq qapısı" qəzeti, 9 fevral 1936-cı il***

### Malları yaxşı bəsləyir

Naxçıvan rayonu, Zeynəddin kolxozunun mallarına baxan **Orucqulu** saxladığı 8 öküz, 5 dana və 3 camışı yaxşı bəsləyir.

O, hər gün səhər tezdən tavlaya gedib malları yemlədikdən sonra yerlərini qurulayır və sonra onları qaşovlayır.

Orucqulu kişi malları suvardıqdan sonra dəxi isladılmış ağ ilə onların üstünün tozunu alır.

Buna görədir ki, onun saxladığı mallar yaxşı kökəlmişlər. Bütün mala baxanlar malları yaxşı bəsləməlidirlər.

*"Şərq qapısı" qəzeti, 1936-cı il , 20-31 dekabr tarixləri aralığındadərc edilib (Ə.H)*

## 1938-ci il

### Adına layiq kolxoz

Naxçıvan rayonundakı Zeynəddin «Nümunə» adına kolxozun 200-dən çox kolxozçu qadın və kişiləri mart ayının 5-dən şənliklə pambıq tarlalarında çalışırdılar. «Nümunə» kolxozu yaza hazırlıq işlərini belə qurtarmışdır: Arxlar tamamilə təmizlənmiş, 560 sentner çiyid martın 28-dək təmizlənib qurtarmışdır. Bu işdə Səkinə Əhmədova gündə 18 kiloqram, Gülan Əliyeva 17 kiloqram çiyidi diqqətlə təmizləmişlər. Kolxozun 3 arabası, 2 furqunu, 4 kotanı, 4 cütü, 1 pambıq seyalkası, 2 kultuvatoru təmirdən qurtarmışdır. Pambıq cərgələri arasında səpiləsi 5,5 ton teqismos gübrəsi indidən gətirilmişdir.

Kolxozda 70 hektar pambıq sahəsinin 1-3-3 şumu qurtarmışdır. 8 fevralda kolxozun ümumi iclasında briqada və manqalar arasında sosyarış nəticələri bütün kolxozçulara çatdırılmışdır.

**Manqa başçısı Orucəli Əliyev** 6 hektar pambıq sahəsindən hektara 8,5 sentner pambıq məhsulu əvəzində 12 sentner verməyi öhdəsinə almışdır. Əliyev özü 1 hektar pambıq sahəsindən 25 sentner pambıq verməyi öhdəsinə götürəcək, birinci manqa başçısı Əli Rzaqulunu yarışa çağırmışdır.

Bu təşəbbüs tək-tək kolxozçular arasında daha genişlənmişdir. Kolxozçu **Əhmədova Səkinə** 8,5 sentner əvəzinə 20

sentner pambıq verməyi öhdəsinə almışdır. Staxanovçu **Vəli Allahverdioğlunun** 1938-ci ildə 30, **Gülənbər Əliyevanın** isə 20 əməkgünü var.

Komsomolçu briqada başçısı **Vəli Qurbanəliyev** 17,5 hektar pambıq sahəsinin çayırını digər biriqadalardan 5 gün qabaq qurtarmışdır.

Zeynəddin «Nümunə» kolxozunun yaza hazırlıq sahəsindəki işi öz adına layiqdir.

***Məmmədov,***
***«Şərq qapısı», 9 aprel 1938-ci il***

## Burcəli yaxşı işləyir

Zeynəddin «Nümunə» kolxozunun üzvü Burcəli Əliyev öhdəsində götürdüyü bir hektar pambığın becərilməsi işində yaxşı işləyir. O, pambıq sahəsinin 3-cü alağını qurtarıb, 4-cü alağına başlamışdır.

Burcəli pambıq tarlasını xəstəlikdən mühafizə etmək üçün tarlanı vaxtında dərmanlamışdır. Burcəli bu bir hektar pambıq sahəsindən 20 sentner pambıq məhsulu almağa çalışır.

***Hənifəyev,***
***«Şərq qapısı», 29 iyun 1938-ci il***

## Qabaqcıl briqadir

Naxçıvan rayonunda «Nümunə» (Zeynəddin) **kolxozunun 3-cü briqadası Həsən Quliyev** kolxozda ən qabaqcıl briqadirdir. Briqadanın əhatə etdiyi 20 hektar pambıq sahəsində 4-cü alaq qurtararaq 5-ci alağa başlanılmışdır. Buna səbəb briqadir Quliyevin kolxozçu qüvvəsindən səmərəli surətdə istfadə etməsidir. Briqadada olan aktiv qadınlardan Zəhra Ismayılova, Qarabiçək Cabarova və Mina Əskərova kimiləri pambıq alağında nümunəvi çalışırlar. Bundan başqa, həmin briqadada olan Burcəli Əliyev öhdəsinə götürdüyü 2 hektar pambığı gözəl becə-

rərək hər hektardan 2 qat artıq məhsul verməyi vəd etmişdir. Kolxozun bütün briqadirləri Quliyev kimi qabaqcıl olmalıdır.

***Abdullayev,***
***«Şərq qapısı», 8 iyul 1938-ci il***

**Kömək edirlər**

Naxçıvan rayonu Zeynəddin kənd «Nümunə» kolxozunun ilk komsomol təşkilatçısı Naxçıvan ASSR Baş Sovetinin Birinci Sessiyası münasibətilə iyul ayının son beş gününü «Kolxozçulara kömək günü» adlandıraraq əhatə etdiyi komsomolçuları kolxozun taxıl biçini köməyinə göndərmişdir. Onlar hər gün 25-30 put yerin taxılını biçirlər. Bu hal taxılın tez biçilib qurtarmasına səbəb olur.

Biçində zərbəli çalışan komsomolçulardan: Əsədulla Tağıyev, Ələskər Quliyev və Mislim Nəbiyev yoldaşlar gündəlik normalarını 2 qat yerinə yetirirlər.

Bu komsomolçular döyüm, pambığın becərilməsi və yığılmasında da belə iş təşkil edəcəklərini nəzərdə tutmuşlar.

***Mahmud Abdullayev,***
***«Şərq qapısı», 30 iyul 1938-ci il***

## 1939-cu il

**Kolxozçuların kənd intelligentləri ilə birlikdə yığıncağı**

Zeynəddin kənd (Naxçıvan) «Nümunə» kolxozu kolxozçularının intelligentlərlə birlikdə geniş yığıncaqları olmuşdur. Yığıncaqda iştirak edən kolxozçu, kolxozçu qadınlar və kənd intelligensiyası, üçüncü Stalin Beşilliyi adına sosializm yarışında böyk müvəffəqiyyətlər əldə etmək üçün bir sıra təəhhüdlər qəbul etmişlər. Çıxış edən Pirəli Pirəliyev yoldaş hər hektardan

20 sentner, Şükür Şükürov 20 sentner yüksək keyfiyyətli pambıq və 15 sentner taxıl, Mirzə Vəliyev isə hər hektardan 26 sentner pambıq məhsulu verməyi öhdələrinə almışlar… Bağban Qurbanov yoldaş öhdəsindəki 5 hektar üzüm bağından 100 sentner məhsul vermək üçün bağı nümunəvi becərəcəyini bildirmişdir. Bundan başqa, kolxozun ən aktiv staxanovçularından Ələkbər, Nurəli, Hüseynəli, Xudam və s. yoldaşlar yarışa qoşularaq kənd təsərrüfatı sahəsində staxanovcasına çalışacaqlarını qeyd etmişlər.

***Z.Hənifəyev,***
***«Şərq qapısı», 23 aprel 1939-cu il***

## Sosializm yarışı genişlənir

Naxçıvan rayonunun Zeynəddin kənd kolxozçularından Bədəlxan Qasımov 1 hektar pambıq sahəsindən 20 sentner məhsul verməyi öhdəsinə götürmüşdür. Xudam Həsənov 5 hektar bağ sahəsinin hər hektarından 650 pud üzüm məhsulu verməyi öhdəsinə alaraq Məmməd Nəbiyevi yarışa çağırmışdır. Nurməmməd Nuriyev və Kalba Hüseyn də yarışa qoşulmuşlar.

***H.Həsənov,***
***«Şərq qapısı», 24 aprel 1939-cu il***

## Qabaqcıl briqada

Zeynəddin kənd «Nümunə» kolxozunun komsomol təşkilatçısı, kolxozun briqadiri **Şükür Şükürov** yoldaş kənd təsərrüfatında komsomolun avanqardlığını istənilən qədər ifa edə bilmişdir…

Şükürov üçüncü Stalin Beşilliyi adına sosializm yarışına qoşularaq öhdəsində olan 7,5 hektar arpa, 2,5 hektar şənbəllə, 1 hektar noxud və 1 hektar da yonca əkin sahələrini çoxdan əkib qurtarmışdır. Komsomolçu briqadir Şükürov yaz əkini sahəsindəki işlərini və o cümlədən pambıq səpini işlərini vaxtından

əvvəl və keyfiyyətli surətdə başa çatdırdığı kimi, 13 hektar üzüm bağının kəsilməsini də aprelin 12-də qurtarmışdır.

***Məcid Sirablı,***
***«Şərq qapısı», 26 aprel 1939-cu il***

## Ciddi hazırlaşırlar

Zeynəddin kənd məktəbində yoxlama və buraxılış imtahanlarına ciddi hazırlıq aparılır. Məktəbdə iki il bir sinifdə qalmağı aradan qaldırmaq üçün ayrı-ayrı müəllim və şagirdlər biri-birilə yarışmışlar.

Məktəbdə aprelin 18-dən etibarən sistematik surətdə konsultasiyalar aparılır. Dərsdə zəif olan şagirdlərin hamısı konsultasiyalara cəlb edilmişlər. Yoxlama imtahanları haqqındakı instruksiya pedsovetdə, şagirdlərin ümumi yığıncağında müzakirə edilmişdir.

***M.Hacıyev,***
***«Şərq qapısı», 9 may 1939-cu il***

## Sosialist yarışı genişlənir

Zeynəddin kənd «Nümunə» kolxozu taxıl yığımına başlamışdır. Taxılın biçilməsi münasibətilə çağırılmış kolxozçuların ümumi iclasında kolxozçu Qoçan Əliyev bu il 150 pud taxıl yerini biçməyi öhdəsinə götürəcək Ismayıl Ismayılovu, Zülfi Ismayılovu sosialist yarışına çağırmışdır. Taxıl məhsulunun yığımında sosyarış kolxozda genişlənir.

***H.Əliyev,***
***«Şərq qapısı», 26 iyun 1939-cu il***

## Tarixi qərardan sonra

Zeynəddin kənd «Nümunə» kolxozunda UIK(b)MK-nın və SSRI XKS-nin 1939-cu il 27 may tarixli qərarından sonra pambığın becərilməsi sürətləndirilmişdir. Belə ki, kolxozda işə

çıxmayan 20 nəfər kolxozçu indi müntəzəm işə cəlb edilmişdir. Lakin Naxçıvan MTS-i (Maşın-Traktor Stansiyası – Ə.H.) pambığın kultivasiya işini yubandırır. MTS bu kolxozda 66 hektar 4-cü kultivasiya etməlidir. Lakin MTS bu sahədə hələ işə başlamamışdır.

Bu kolxozun 1-ci briqadasının kolxozçuları becərdikləri 20 hektar pambıq sahəsinin hər hektarından 8 əvəzinə 15 sentner məhsul götürməyi öhdələrinə almışlar. Kolxozçu qadınlardan Səkinə Əhmədova, Qızxanım Nadirova, Fatma Hüseynəliyeva gündəlik becərmə normasını 200-250 prosent yerinə yetirirlər.

Bu kolxozda taxılın biçilməsinə iyunun 22-dən başlanmışdır. Biçin işinə 70 nəfər işçi ayrılmışdır. Bu işçilər hər beş gündə 20 hektar taxıl biçirlər. Xırman yerləri və biçilən taxılın daşınması yaxşı təşkil edilmişdir. Biçin işində Məmməd Imaməliyev, Məşəhməd Hənifəyev, Qəhrəman Vəli oğlu və başqaları hər gün 2-3 əməkgünü qazanırlar.

***N.Əmirəslanov,***
***«Şərq qapısı», 29 iyun 1939-cu il***

**Yüksək iş norması**

Zeynəddin kənd «Nümunə» kolxozunun biçinçiləri yüksək iş norması uğrunda biri-biri ilə yarışırlar. Bir beşgünlükdə birincilərdən Qoçəli Əliyev hər gün 5 pud, M.Əhməd Hənifəyev 4 pud, Mehdiqulu Əliyev 4 pud yerin taxılını biçmişlər. Yüksək iş norması əldə edən kolxozçular kolxoz heyəti tərəfindən mükafat almışlar.

***H.Əliyev,***
***«Şərq qapısı», 5 iyul 1939-cu il***

**Zeynəddin kəndində təntənəli yığıncaq**

Proletariatın böyük dahisi Iosif Vissarionoviç Stalin yoldaşın anadan olmasının 60 illiyi münasibətilə Naxçıvan rayonunun

Zeynəddin kəndində təntənəli yığıncaq keçirilmişdir. Kəndin partiyalı, komsomolçu, intelligenisiyası və bütün kolxozçu və kolxozçu qadınları yığıncaqda iştirak etmişdir. **Yığıncaqda Zeynalabdin Hənifəyev yoldaş böyük Stalinimizin həyat və fəaliyyəti ətrafında dınışmışdır.**

Çıxış edən staxanovçu kolxozçu, Ümumittifaq kənd təsərrüfatı sərgisinin iştirakçısı Qoçəli Əliyev yoldaş 1940-cı ildə dəxi sərgidə iştirak etmək hüququnu əldə edəcəyinə, kolxozda özü kimi 10-larla staxanovçular yetişdirəcəyini və onların da sərgidə iştirak etmək hüququna nail olmalarını əldə etməyə söz vermişdir.

**Məmməd Məmmədov yoldaş çıxış edərək qeyd etmişdir** ki, mən partiya və hökumətimizin qərarlarını, günün yeniliklərini, beynəlxalq vəziyyətdəki dəyişiklikləri sistematik surətdə kolxozçulara çatdıracağam. Çıxış edən **məktəb direktoru Məmməd Hacıyev** yoldaş kənddə savadsızlığın və iki il bir sinifdə qalmanı tamamilə aradan qaldırmağa söz vermişdir.

***Ə.M.***

***«Şərq qapısı», 24 dekabr 1939-cu il***

# 1940-cı il

## Yüksək barama məhsulu

Zeynəddin və Kültəpə məntəqəsinin ipəkçilik üzrə inspektoru **K.Ələkbər Ismayılov** yoldaşın yaxın rəhbərliyi və kontrolluğu nəticəsində bu il bu məntəqələrdə barama təhvili planı artıqlaması ilə yerinə yetirilmişdir.

Kültəpə kənd kolxozçularından **Bəhrəm Ağayev yoldaş** 33 kiloqram əvəzinə 60, Arus Akopova 16 kiloqram əvəzinə 32, **Zeynəddin kənd «Nümunə» kolxozunun kolxozçularından Abbas Əskərov 16 kiloqram əvəzinə 35,** Qahab kənd «Dönüş» kolxozunun kolxozçularından Əli Allahverdiyev yoldaş isə 40

kiloqram əvəzinə 70 kiloqram əla sortlu barama verərək xeyli pul mükafatı almışlar.

Bundan başqa, Sirab kənd (Naxçıvan) Atarbəyov adına kolxoz dəxi 80 kiloqram əla sortlu barama vermişdir.

***M.S.***

***«Şərq qapısı» qəzeti, 4 iyul 1940-cı il***

## Yığımın geridə qalması qeyd edilmişdir

Zeynəddin kənd kolxoz ilk partiya təşkilatı taxıl məhsulunun yığılması haqqında məsələ müzakirə etmişdir. Partiya iclasında taxıl yığımının geridə qaldığı qeyd edilmişdir.

Taxıl yığımının sürətləndirilməsi üçün partiya təşkilatı bir sıra tədbirlər görmüşdür. Həmin gün iyulun 21-də 10 nəfər kommunsit gecə subbotnik edərək biçinçi qadınların gündüz biçdikləri 6 hektar taxılı yığıb dərz bağlamışlar.

***Ş.Şükürov***

***«Şərq qapısı» qəzeti, 24 iyul 1940-cı il***

## Yeni dərs ili qarşısında Yaxşı hazırlaşan məktəbdə

Naxçıvan rayonunun Zeynəddin kənd məktəbi yeni dərs ilinə müvəffəqiyyətlə hazırlaşmaqdadır. 1940-41-ci dərs ilində məktəbdə birinci siniflərdə oxuyacaq 35 nəfər məktəb yaşlı şagirdin siyahısı vaxtında aparılmış və məktəb ilə tanış edilmişdir. Birinci sinifdə dərs deyəcək müəllim **Əli Teymurov** uşaqlarla söhbətlər dəxi aparmışdır.

Məktəbin təmiri may ayının 30-da keyfiyyətli surətdə qurtarmışdır. Məktəb inventarlarından 65 skamya, 4 lövhə, 10 stul və sairə iyun ayında təmir edilərək sinif otaqlarına düzülmüşdür.

Məktəbə lazım olacaq 500 pud odun hələ bir ay bundan əvvəl alınmışdır.

Şagirdləri dərs ləvazimatı ilə təchiz etmək üçün birinci sinifdən dördüncü sinifə qədər dərs kitabları (yeni əlifba ilə) alınıb məktəbə qoyulmuşdur.

Müəllimlərin ixtisasını təkmilləşdirmək üçün məktəb müəllimlərindən 4 nəfəri Naxçıvanda açılmış kursda təhsil alırlar.

Məktəbin görkəmli müvəffəqiyyətlərindən bir də yeni dərs ilində yaşlılar məktəblərində təhsil alacaq, yaşlı əhalinin düzgün uçotunun aparılması və siniflərinin dəxi müəyyən edilməsidir.

Rayonun Yarımca, Şəkərabad, Bayxır, Köhnəhacıvar və başqa bir sıra kənd məktəbləri hazırlıq işində geridə qalırlar.

***Y.***

***«Şərq qapısı» qəzeti, 2 avqust 1940-cı il***

## 1941-ci il

### Partiyaya qəbul işində də dönüş yaratmalı

Naxçıvan rayonunun Zeynəddin kəndində olan «Nümunə» kolxozu ilk partiya təşkilatının kitibi M.Vəliyev təsərrüfat üzərində rəhbərliyin partiya ustavının tələbi əsasında qura bilmişdir.

Kolxoz partiya təşkilatı partiya və hökumət qərarlarının sistematik olaraq kolxozçular arasında öyrənilməsini təşkil etdiyindən 1940-cı ilin tədarük planları 114 faiz yerinə yetirilmişdir. 1941-ci ilin birinci kvartal maliyyə planı 65 faiz ödənilmişdir.

Kolxoz ilk partiya təşkilatının katibi Vəliyev yoldaş partiya üzvü və kandidatlarının öz üzərlərində çalışmalarını sistematik kontrol yerdir. Partiya tarixini təkbaşına öyrənənlər ilə söhbətlər aparılır. Ilk partiya təşkilatı kommunistləri, kolxozçuları və kolxozçu qadınları beynəlxalq vəziyyətlə yaxından tanış etmək məqsədilə kənddə 10 dəfə leksiya və 4 dəfə söhbət təşkil etmişdir.

Partiya təşkilatının kolxoz komsomol təşkilatı üzərində rəhbərliyi yaxşı təşkil etməsinin nəticəsində komsomolçular kolxozda xüsusi avanqardlıq göstərirlər. Onlar Qızıl Ordunun XXIII ildönümü şərəfinə təşkil edilmiş piyada yürüşdə bütünlüklə iştirak edərək fevralın 6-da 15 kilometrlik məsafəni müvəffəqiyyətlə getmişlər.

Kommunistlərin öz fənni savadlarını artırmaları işi də yaxşı təşkil edilmişdir. Partiya təşkilatının ümumi yığıncağında kommunistlərin fənni təhsili məsələsi müzakirə edilmiş, indi partiya üzvü və kandidatlarının hamısı axşam məktəblərinə cəlb edilmişlər.

Zeynəddin kənd kolxoz ilk partiya təşkilatında partiyaya qəbul işi yaxşı deyildir. Bir il içərisində ancaq bircə nəfər partiya sırasına qəbul edilmişdir. Təşkilat bu sahədə də ciddi dönüş yaratmağa müvəffəq olmalıdır.

***Ə.Hümmətov***

***«Şərq qapısı» qəzeti, 14 fevral 1941-ci il***

## Qabaqcıl traktor briqadası

Naxçıvan rayonunun Zeynəddin kəndindəki «Nümunə» kolxozunda martın 1-dən işə başlayan traktor biriqadasının üzvləri şum işində aktivlik göstərirlər.

Briqada martın 1-də 2 traktorla 5 hektar əvəzinə 13 hektar pambıq yerini şum etmiş və gündəlik tapşırığı 250 faizdən artıq yerinə yetirmişdir.

3 tarktorçunun namusla işləməsi nəticəsində briqada martın 3-nədək 25 hektar yeri şum etmişdir.

Briqadir Qasım Məmmədov martın 15-nədək 90 hektar sahəni vaxtından 5 gün əvvəl sürüb qurtarmağa söz vermişdir.

***A.A.***

***«Şərq qapısı» qəzeti, 5 mart 1941-ci il***

## Böyük Stalinin çağırışı ilə

İyulun 4-də axşam Naxçıvan rayonunun Zeynəddin kəndindəki «Nümunə» kolxozunun üzvləri kəndin intelliqensiyası, məktəbli və komsomolçuları ilə birlikdə mitinq keçirmişlər.

Mitinqdə Naxçıvan rayon partiya komitetinin nümayəndəsi Yavakimov yoldaş Sovet hökumətinin başçısı, Dövlət Müdafiə Komitetinin sədri I.V.Stalin yoldaşın iyulun 3-də radio ilə olan çıxışını oxumuşdur.

Böyük Stalinin bu tarixi çıxışı bütün kolxozçulara, kolxozçu qadınlara, kənd intelliqentlərinə, məktəbli və komsomolçulara dərin təsir etmişdir.

Mitinqdə Hüseyn Novruzov, Ibadulla Hüseynov, Əhməd Əhmədov və sairə yoldaşlar çıxış etmişdir.

Mitinqin qətnaməsində deyilir:

«Biz kəndin bütün adamları Stalin yoldaşın çağırışına cavab olaraq işdə daha namusla çalışacaq, kolxozda əkilmiş 350 hektar taxıl sahəsini iyulun 15-nədək tamamilə biçib və tezlikdə döyüb ambara yığacayıq.

Böyük Stalinin bir çağırışı ilə vətəni son damla qanımız qalanadək müdafiə edəcəyik.»

***H.Ə.***

***«Şərq qapısı» qəzeti, 6 iyul 1941-ci il***

## Zeynəddin kənd məktəbində

Naxçıvan rayonunun Zeynəddin kəndindəki məktəbdə əvvəllər 173 nəfər şagirdin demək olar ki, hamısı proqul edirdi. Birinci rübdə burada 22.534 saat proqul olmuşdur ki, bunun da yalnız 2.351 saatı üzürlü idi.

Habelə dərs keyfiyyəti çox aşağı idi. Şagirdlərin 79 nəfəri 4 predmetdən yuxarı pis qiymət almışdı. Bu üzdən də ümumi məktəb üzrə mənimsəmə 53,5 faiz olmuşdu. Ata-analarla sıxı əlaqə yox halda idi. Burada heç bir yığıncaq keçirilmirdi.

Müdrik Stalinimizin tarixi məruzə və nitqindən sonra məktəb öz işini dövrün tələb etdiyi səviyyəyə çatdırdı.

Burada artıq proqula yol verilmir. Şagirdlərin hamısı bir nəfər kimi dərsdə iştirak edir və geridə qalanlar qabaqcıllara çatmağa çalışırlar. Məktəblilər proqul etməmək, şüurlu intizamı qorumaq, bütün predmetlərdən əla qiymət almaq və geridə qalanları qabaqcıllara çatdırmaq məqsədilə bir-birlərilə yarışırlar.

Məktəb ata-analarla sıx əlaqə saxlayır. **Aktiv müəllim Müzəffər Əhmədov yoldaş** 2-ci və 5-ci siniflərdə atalar sovetinin 2 dəfə yığıncağını keçirmişdir.

Məktəb üzrə çağırılmış atalar yığıncağında böyük rəhbərin məruzə və nitqi geniş surətdə onlara çatdırılmışdır.

Stalin yoldaşın çağırışı ilə ruhlanmış müəllimlər, partiya və hökumətin qərarlarını, Sovet Informasiya Bürosunun gündəlik məlumatlarını şagirdlərə hər gün çatdırırlar.

Məktəblilər rəhbərin çağırışına qoşularaq müdafiə fonduna və Qızıl Ordu döyüşçülərinə yardımı qüvvətləndirmişlər. Onlar, nemes–faşist işğalçılara qarşı mərdliklə və igidliklə vuruşan Qızıl Ordu döyüşçülərinə isti paltar və yeyinti produktları ilə dolu 11 kiloqram ağırlığında böyük bir posılka göndərmiş və bundan sonra daha çox yardım edəcəklərini bildirmişlər.

***H.Əli***

***«Şərq qapısı» qəzeti, 10 dekabr 1941-ci il***

***Qeyd:*** *Müharibə illərində məktəbin müəllimi Hidayət İsmayılov məktəb rəhbərliyinə həm müəllim, həm də sinif rəhbəri kimi yaxından kömək göstərib.*

## 1942-ci il

### Yaz əkininə hazırlığı nümunəvi keçirməli

Azərbaycan K(b)P MK-nın VI plenumu qərarları bizdən – bütün partiya, sovet, komsomol və həmkarlar təşkilatlarından

qabaqcıl kolxozların, kolxozçuların, ikiyüzçü və üçyüzçülərin iş təcrübəsini geniş yayaraq ölkəyə və cəbhəyə daha çox kənd təsərrüfat məhsulları, sənaye üçün xammal verməyin tələb edir. (... Ə.Hümmətov)

Zeynəddin kəndindəki «Nümunə» kolxozunda yaza hazırlıq işləri tamamilə unudulmuşdur. Iş mallarına olduqca pis baxılır. İş mallarına kifayət qədər yem bazası yaradılmamışdır. Heyvanların yeyəcəyi saman hələ də kolxozun xırmanında qar altında qalmışdır. Kənd təsərrüfat alətləri təmir edilməmişdir. Yazda əkiləcək sahələrə lazım olan toxumlar əldə edilməmişdir. Kənddə olduqca çox yerli gübrə vardır. Lakin bundan bir araba da olsun tarlaya daşınmamışdır. Naxçıvan rayon təşkilatları bu kolxoza bir neçə dəfə (15-XII 41, 28-XII-41 və sairə tarixlərdə) yaz əkininə hazırlıq haqqında təliqə və göstərişlər yazmış və görüləcək işlərə dair təlimat vermişsə də yenə də heç bir nəticə çıxmamışdır...

*Z.Hənifəyev,*
*Naxçıvan MTS siyasi şöbəsi naçalnikinin müavini*
*«Şərq qapısı» qəzeti, 15 yanvar 1942-ci il*

## <u>1943-cü il</u>

### Dönüş yaradılır

Naxçıvan rayonunun Zeynədin kəndindəki «Nümunə» kolxozu raykomun son plenumunun qərarından sonra öz işlərini yaxşılaşdırmışdır.

Kolxozun birinci briqadası əkini başqa briqadalardan qabaq və yüksək keyfiyyətlə başa çatdırmışdır. Briqadanın 80 yaşlı üzvü hər gün 7-8 hektar sahəni suvarır. **80 yaşlı Əloş Bayraməliyev** yoldaş da gündəlik tapşırığı artıqlaması ilə ödəyir. O, 50 hektar əkin sahəsini suvarmağı öhdəsinə almışdır. Qızıl Ordu sırasından yenicə qayıtmış **Əli Quliyev və Katan**

**Novruzov** yoldaşların hər biri gündə 7-8 hektar taxıl sahəsini suvarırlar…

*M.Abdullayev,*
*«Şərq qapısı» qəzeti, 14 may 1943-cü il*

## Maarif işçilərinin müşavirəsi

İyunun 22-də Naxçıvan şəhərində və rayonunda olan məktəb direktorları, müdirləri və dərs hissə müdirlərinin müşavirəsi keçirilmişdir. Müşavirədə Naxçıvan rayon və şəhər xalq maarif şöbəsinin müdiri H. Məmmədov yoldaş 1942-1943-cü dərs ilinin yekunu və 1943-1944-cü dərs ilinə hazırlığın vəziyyəti haqqında və rayonda divar qəzetlərinin buraxılmasının vəziyyəti haqqında Azərbaycan K (b) P Naxçıvan rayon komiteti propaqanda və aqitaçiya şöbəsinin müdiri Abbasqulu Məmmədov yoldaşlar məruzə etmişlər...

...Lakin bir sıra məktəb direktorları və dərs hissə müdirləri istər imtahanların müvəffəqiyyətlə keçirilməsinə, istərsə də yeni dərs ilinə hazırlığına qətiyyən fikir verməmiş və vermirlər... **Zeynəddin məktəbinin direktoru Musayev,** Qahab kənd məktəbinin direktoru Süleyman Əliyev, Cəhri kənd məktəbinin direktoru Həsən Həsənov və başqaları da məktəb işləri ilə yaxından məşğul olmurlar. Qeyd etmək lazımdır ki, bu və ya başqa bir sıra məktəblərin müəllimləri əhatə etdikləri kəndin ictimai işlərində aktiv iştirak etmirlər. Onlar becərmə dövründə kolxozçular arasında canlı aqitaçiya və propaqanda (təbliğat və təşviqat- Ə.H) işləri aparmır, divar qəzetləri və mübariz vərəqlər buraxılmasına kömək etmir və sair.

Müşavirə hər iki məsələ ətrafında lazımi qərar qəbul etmişdir.

*“Şərq qapısı” qəzeti, 15 iyun 1943-cü il*

## <u>1944-cü il</u>

### Sinif rəhbərləri ciddi işləmirlər

Sinif rəhbərləri məktəbdə müdiriyyətin köməkçisi olmaqla, öhdəsində olan sinfin bütün şagirdlərinə cavabdehdirlər. Buna baxmayaraq bəzi sinif rəhbərləri öz vəzifəsinin öhdəsindən gələ bilmir və hətta sinfində “bir” və “iki” qiymət alan şagirdləri belə tanımırlar. Naxçıvan rayonunun Qoşadizə kəndindəki məktəbin müəllimi Hüseyn Hüseynov, Leninabad kəndindəki məktəbin müəllimi Hayq Yeçoyan və başqaları bu sıralardadırlar.

**Lakin öz vəzifəsində müvəffəqiyyətlə çalışan müəllimlər də deyildir. Zeynəddin məktəb müəllimi Hidayət İsmayılov öz işini yaxşı qurduğundan rəhbərlik etdiyi 6-cı sinifdə bir nəfər də şagird dərsdən geri qalmır.** Bu sinifdə bütün şagirdlər “5” almaq və yüksək intizamlılıq uğrunda birbirilə yarışmışlar...

***“Şərq qapısı” qəzeti 11 mart, 1944-cü il***

### Qızıl Ordumuzun düşmən üzərində dünyanı valeh edən parlaq qələbələrinin əsas sirri, onun öz xalqından ayrılmamasındadır

***Hörmətli Əhməd Səfərli yoldaş***

Qızıl bayraqlı “En” hissəsinin döyüşçü və zabitlərinin adından Sizə; alovlu vətənpərvər və igid oğul tərbiyə edən ataya cəbhəçi salamı göndərirəm.

Bu məktubla Sizə, oğlu üçün ürək çarpıntıları keçirən ataya şad xəbər vermək istəyirəm. **Sizin oğlunuz Islam Səfərli vətən uğrunda döyüşlərdə ulu babalarımıza xas olan bir fədakarlıqla vuruşur.** O, doğma Qafqaz dağlarından tutmuş Qara dəniz sahillərinə qədər, Kuban çöllərindən tutmuş Ukrayna torpağına və Krım ellərinə qədər davam edən böyük döyüş yolu keçmişdir. Bu vuruşmalarda o, özünü bacarıqlı və mahir bir döyüşçü kimi göstərmişdir.

Siz xoşbəxt atasınız, çünki Sizin oğlunuz Islam cəbhələrdə şir kimi – böyük Stalinin öyrətdiyi kimi vuruşur.

Siz başı dik və alnı açıq kəzə bilərsiniz, çünki Sizin oğlunuz İslam cəbhələrdə öz xalqının üzünü qara etmədi, atasının papağını yerə vurmadı, əksinə, ölümün gözünə dik baxaraq özünə və atasına böyük şöhrət qazandı.

Siz fəxr edə bilərsiniz, çünki Sizin oğlunuz Islam öz xalqının namus və şərəfini, atasının namus və şərəfini mərdliklə qoruyur. O, cəbhədə ən təhlükəli və nəcib sənət olan kəşfiyyatçılığı seçmişdir. Islam kəşfiyyata gedəndə biz arxayın oluruq. Bilirik ki, o, əliboş qayıtmaz. O, qorxu nə olduğunu bilmir. Düşmənlə qarşılaşdıqda həmişə qalib gəlir. Cəbhə də olduğu müddətdə on üç dəfə əsir tutub gətirmişdir. Bu əsirlərin vasitəsilə hər dəfə biz, düşmənin texnikasını, atəş nöqtələrini və onun niyyətlərini öyrənmişik. Bütün bunlar qoşunlarımızın müvəffəqiyyətli əməliyyatına böyük yardım göstərmişdir.

**Cəbhələrdə göstərdiyi mübariz xidmətlərinə görə komandanlıq oğlunuzu III dərəcəli Şöhrət ordeni, «Igidliyə görə» medalı və «Əlaçı kəşfiyyatçı» nişanı ilə təltif etmişdir.**

Qızıl Ordu üçün Islam kimi igid döyüşçü tərbiyə etdiyinizə görə Sizə təşəkkür edirəm.

***Qızıl bayraqlı "En" hissəsinin siyasi şöbə naçalniki,***
***podpolkovnik Kazım Ismayılov,***
***4-cü Ukrayna cəbhəsi. Aprel 1944-cü il***

## «Nümunə» kolxozunda yığıncaq

Naxçıvan rayonunun Zeynədin kəndindəki «Nümunə» kolxozu üzvlərinin təntənəli yığıncağı keçirilmişdir. Yığıncaqda vətən müharibəsi cəbhələrində igidliklə vuruşub təltif olunan **Islam Səfərli yoldaşın atası Əhməd Səfərli** yoldaşa 4-cü Ukrayna cəbhəsi En hissəsinin siyasi şöbə naçalniki **podpolkovnik Kazım Ismayılov** yoldaşın göndərdiyi məktub oxunmuşdur.

Məktubu hərbi komissarlığın işçisi Hüseynov yoldaş oxuyandan sonra kolxozçular Əhməd Səfərli yoldaşa təşəkkür

etmiş və məktuba cavab olaraq arxada daha fədakarlıqla çalışacaqlarını, Qızıl Ordumuzu bol kənd təsərrüfat məhsulları ilə təmin edəcəklərini bildirmişlər. Çıxış edən kolxoz sədri Qibləliev (Nəcəf – Ə.H.) və kolxozçu Məmmədəli Hüseynov yoldaşlar kolxozun və kolxozçuların daha da varlanması üçün apardıqları iş nümunələrindən danışmışlar.

Sonra Azərbaycan LKGI Naxçıvan vilayət komitəti katibi H.Ibrahimov yoldaş çıxış edərək Əhməd Səfərli yoldaşı təbrik etmiş və komsomol sıralarında yetişmiş, qorxmaz kəşfiyyatçı Islam Səfərlinin gənc şair talantından və cəbhə qoçaqlıqlarından danışmışdır.

Kolxozçular podpolkovnik Kazım Ismayılov yoldaşın hissəsinin əsgərləri və zabitləri adına məktub göndərərək onlara fədakarlıqla vuruşduqlarına görə təşəkkür etmiş və arxada daha namusla çalışacaqlarını bildirmişlər.

## Zeynədin kəndindəki «Nümunə» kolxozu üzvlərinin Məktubu

Hörmətli döyüşçü yoldaşlar! Siz, **Ali Baş Komandan, Sovet Ittifaqı Marşalı Stalin yoldaşın** dahiyanə strateji planı əsasında hərəkət edərək müqəddəs vətənimizi alman-faşist işğalçılarından təmizləyirsiniz. Sizin keçdiyiniz şanlı yol tarixi qələbələrlə doludur. Vətənimizin azadlığı və istiqlalı uğrunda apardığınız qəhrəmancasına mübarizə xalqımızı hədsiz dərəcədə ruhlandırmışdır. Biz yaxşı bilirik ki, siz gözəl Ukraynanın, əziz Krımın azadlığı uğrunda apardığınız tarixi qəhrəmanlıq mübarizəsi ilə bizim və SSRI-nin bütün torpaqlarının azadlığını, SSRI xalqlarının namusunu qoruyursunuz.

Hörmətli döyüşçü yoldaşlar! Böyük atamız, dahi sərkərdə Stalin yoldaş vətənimizin azadlığı uğrunda Qızıl Ordunun, siz döyüşçülərin böyük qəhrəmanlıqla vuruşduğuna qiymət vermiş və arxada çalışan zəhmətkeşlərin də Qızıl Ordu qarşısında xəcalətli qalmadığını göstərmişdir. Biz şanlı Qızıl Ordumuzu və

ölkəni bol kənd təsərrüfat məhsulları ilə təmin etmək üçün gecə-gündüz yorulmadan çalışırıq. Biz burada həm öz əvəzimizdən həm də sizin əvəzinizdən çalışırıq. Vətən müharibəsi illərində məhsuldarlığı və əkin sahələrini xeyli artırmışıq. Biz bu il hər hektar taxıldan nəzərdə tutulandan 5 sentner və hər hektar üzüm bağından nəzərdə tutulandan 20 sentner artıq məhsul əldə etmək uğrunda mubarizə edirik. Dövlət tədarükü planlarını vaxtından xeyli əvvəl və artıqlaması ilə ödəyəcəyik. Siz öz ailənizdən arxayın ola bilərsiniz. Biz onları yüksək qayğı ilə bəsləyirik. Onların heç nədən korluğu yoxdur.

Bizim yeganə arzumuz düşmən üzərində tezliklə qələbəni təmin etməkdən ibarətdir. Bunun üçün sizin cəbhədə, bizim isə arxada daha böyük hünərlə vuruşmağımız və çalışmağımız lazımdır.

Sizə qəti qələbə uğrunda müvəffəqiyyətlər arzu edirik. Bizim arzumuz vətənin və çoxmillətli Sovet Ittifaqı xalqlarının tələbidir.

***«Şərq qapısı» qəzeti, 30 may 1944-cü il***

## 1946-cı il

### Yazılış davam edir

Zeynədin kəndindəki «Nümunə» kolxozunda SSRI Xalq Təsərrüfatı Bərpası və Inkişafının Dövlət Istiqrazına yazılış böyük həvəslə davam edir. Kolxozçular keçirdikləri təntənəli mitinqdə yeni istiqraza 100 min manatlıq yazılaraq 87640 manatını oradaca vermişlər. Kolxoz sədri Nəcəf Qibləliev 10 min manat, kolxozçulardan Ələsgər Mustafa oğlu 3 min manat, Əli Imaməliev, Məmməd Hacıyev və Ibrahim Məmmədov hərəsi 2 min manat miqdarında istiqraza yazılaraq pulunu nəğd vermişlər.

***«Şərq qapısı» qəzeti, 4 may 1946-cı il***

## «Nümunə» kolxozunda

Zeynədin kəndindəki «Nümunə» kolxozunda qanunun öyrənilməsinə 6 dərnək xidmət edir. 200 nəfər kolxozçu və kolxozçu qadın məşğələyə həvəslə gəlir. Kolxoz özü üçün tərtib etdiyi beşillik planın icrasına qızğın başlamışdır. Nəzərdə tutulmuş bir motorlu dəyirman tikilib istifadəyə verilmiş, klub və idarə binalarının tikilişinə başlanılmışdır. Kolxozçular yeni və böyük kəhrizin çıxarılması, üzüm bağlarının genişləndirilməsində fədakar əmək sərf edirlər.

***«Şərq qapısı» qəzeti, 14 may 1946-cı il***

## Kənd abadanlaşdırılır

Zeynədin kəndindəki «Nümunə» kolxozunun vətənpərvər kolxozçuları və kolxozçu qadınları kəndin abadlaşdırılmasında fədakarlıqla çalışırlar.

**Tikilişinə başlanılan yeni elektrik stansiyası 1947-ci ilin əvvəllərində istifadəyə veriləcək, bu il kəndin görkəmli yerində Stalin yoldaşın heykəli qoyulacaqdır.** Yeni təmir edilən kəhrizin bol suyu 100 hektar əkin sahəsini suvaracaq, kolxozçuların içməli suya olan ehtiyacını ödəyəcəkdir. Yeni su ambarı yaxın günlərdə istifadəyə veriləcəkdir.

Kənddə 30 yaşayış evi, kolxoz idarəsi, tövlə, klub və s. tikilmək nəzərdə tutulmuş, bu iş yeni beşilliyin birinci yarısında başa çatdırılacaqdır. Beşillik müddətində yeni məktəb binası tikilib qurtaracaqdır.

Əkin sahələri xeyli genişləndirilir. 20 hektar sahədə üzüm bağı salınmasına başlanılmışdır.

***H.M.***

***«Şərq qapısı» qəzeti, 16 may 1946-cı il***

## Yeni dərs ilinə hazırdır

Kənd təşkilatlarının yaxın köməyilə Naxçıvan rayonunun Zeynədin kəndindəki məktəb qışa nümunəvi hazırlıq aparmışdır. Məktəbin binası əsaslı təmir olunmuş, avadanlıq saz hala gətirilmiş və çatışmayanları alınmışdır. Məktəbə yeni gələcək uşaqların hamısı siyahıya alınmışdır.

Dərs kitablarının 50 faizdən çoxu əldə edilmişdir.

Qış üçün 500 put odun tədarük olunmuş, peçlər təmizlənib hazır vəziyyətə gətirilmişdir. **Məktəbin müdiri Müzəffər Quliyev** yeni dərs ilinə hazırlıq sahəsində fəal çalışmışdır.

***Ə.Həsənov,***
***«Şərq qapısı» qəzeti, 14 avqust 1946-cı il***

## Gələn ilin hesabına tərəvəz verirlər

Zeynədin kəndindəki «Nümunə» kolxozunun (Naxçıvan raoynu) üzvləri dövlətə tərəvəz təhvilində qabaqcıllığı təşkil edirlər.

Oktyabr bayramı şərəfinə zeynədinlilər tərəvəz tədarükü planını vaxtından 2 ay əvvəl 100 faiz ödəmiş və 1947-ci il hesabına dövlətə 1.700 kiloqram kələm vermişlər.

***«Şərq qapısı» qəzeti, 12 noyabr 1946-cı il***

# <u>1947-ci il</u>

## Bol üzüm götürəcəklər

Naxçıvan rayonunun Zeynədin kəndindəki «Nümunə» kolxozunun üzvləri qonşu Qahab kəndinin kolxozçularını May qabağı sosializm yarışına çağırarkən bu il üzüm bağlarının hər hektarından 55 sentner məhsul götürməyi vəd etmişdilər. Onlar bu vədi şərəflə yerinə yetirmək və dövlətə üzüm təhvili planını

vaxtından əvvəl ödəmək üçün70 hektar üzüm bağını qayğı ilə becərirlər.

Kolxozda üzüm bağlarının üstü vaxtında açılmış, dibləri qazılmış və çayır otlarından təmizlənmişdir. Bu sahədə var qüvvəsini sərf edərək fərəhli müvəffəqiyyət qazanan **H.Quliyev** yoldaşın briqadası **kolxozun idarə heyəti** tərəfindən 1.000 manat pulla mükafatlandırılmışdır. Briqada üzvlərindən Y.Zeynalov, Qoca (Hüseyn – Ə.H.) Həsənov,Abbas Abdullayev, M.Həsənov və H.Qurbanəliyev yoldaşlar gündəlik tapşırığı 130 faiz yerinə yetirərək işdə başqalarına nümunə olurdular.

Indi üzüm kolları bol məhsul gətirmişdir. Vəzifə, bu məhsulu qorumaqdan və ona vaxtında qulluq etməkdən ibarətdir.

***Ə.Hümmətov,***
***«Şərq qapısı» qəzeti, 27 aprel 1947-ci il***

## <u>1948-ci il</u>

### Qoca bağbanın təcrübəsi



Qoca bağban **Cilovxan Kərimov** yoldaş Naxçıvan rayonu Zeynədin kəndindəki «Nümunə» kolxozunun fəxridir. Onu ətraf kəndlərdə də yaxşı tanıyırlar. Qoca bağbana bu şöhrəti qazandıran onun gözəl təcrübəsi, məhsuldar əməyi olmuşdur.

Böyük üzüm bağlarına malik olan «Nümunə» kolxozunda qoca bağbanın iki hektarlıq üzüm sahəsi xüsusilə fərqlənir. O, bu bağlardan dövlətə bol üzüm verməyi vəd etmiş və əzmlə işə girişmişdir. Qoca bağban öz işi haqqında belə deyir:

- Sibrə və siyalə xəstəliyi üzümə zərərvericilərdən ən qorxulusudur. Buna görə mən həmin xəstəliklərə qarşı mübarizə tədbirləri görmüşəm. Uzun illər iş təcrübəmdən görmüşəm ki, bu xəstəliklər üzüm yarpaq açan vaxtlarda müşahidə edilir. Mən bunun qarşısını almaq üçün üzüm kollarının dibinə saman və güləş döşəyirəm. Saman və küləş qırıntılarına qalxan bu parazit həşəratlar dərhal quruyub məhv olur. Kolxozumuzun bağbanları mənim bu təcrübəmdən səmərəli istifadə edərək işdə müvəffəqiyyət qazanırlar.

***İbrahim Vəliyev,***
***«Şərq qapısı» qəzeti, 16 iyun 1948-ci il***

***Qeyd:*** *Fotonu kitab çapa hazırlanan zaman nəvəsi Eldar Qasımov təqdim etmişdir.*

**Yarışın təşkilatçılıq gücü ilə**

… Biz, kolxoz kəndi adamları... dövlətə hələlik 30 ton əla növ pambıq məhsulu təhvil verərək illik planı 118 faiz ödəmişik. Rayon tədarük məntəqəsinə pambıqla dolu ilk qırmızı karvanları kolxozumuzdan birinci olaraq yola salan da bizim briqada olmuşdur.

… Briqadamızın 4 manqasının dördü də bu il özlərini yüksək məhsulçu adlandırmış və adlarına layiq işləyərək bol pambıq məhsulu yetişdirmişlər. Bunların arasında **pambıq ustası Tərlan Həsənova** yoldaşın manqası xüsusilə şərəfli yer tutur. Manqa illik planı hələ sentyabrın ilk günlərində ödəmiş və qısa müddətdə dövlətə plandan artıq 54 sentner keyfiyyətli pambıq məhsulu təhvil vermişdir. Manqanın tarlalarında hələ bol pambıq vardır. Həsənova yoldaş əlavə olaraq 12 ton pambıq təhvil verməyi möhkəm qət etmişdir.

**… Pambıqçı Zəhra Əlieva** indiyədək 4.000 kiloqramdan artıq pambıq yığmışdır. «Altıminçi»-lərdən **Cavahir Abbasova** yoldaş isə hələlik 3.750 kiloqram pambıq tədarük etmiş və əlavə

bir o qədər də məhsul verməyi qət etmişdir. **Fəri Hüseynova** və **Durna Nadirova** yoldaşlar da briqadamızın ən yaxşı pambıqçılardırlar. Onların hərəsi gündə 80-90 kiloqram pambıq yığırlar.

… Bu günlərdə biz manqa və ayrı-ayrı pambıqçılar arasında bağlanmış yarış müqavilələri şərtlərinin yerinə yetirilməsini yoxlamışıq. Yoxlama nəticələri göstərdi ki, briqadanın hər bir üzvü gündəlik tapşırığı artıqlaması ilə yerinə yetirir…

***Naxçıvan rayonu Zeynədin kəndindəki***
***Jdanov kolxozunun briqadiri Məmməd Nadirov,***
***«Şərq qapısı» qəzeti, 27 oktyabr 1948-ci il***

## Məşğələlər müntəzəm aparılır

Naxçıvan maşın-traktor stansiyası ilk partiya təşkilatı yanındakı siyasi məktəbdə məşğələlər müntəzəm aparılır. **Məktəbin rəhbəri Zeynalabdın Hənifəyev** yoldaşın ardıcıl nəzarəti nəticəsində məktəbin 28 nəfər dinləyicisindən heç biri üzürsüz olaraq dərs buraxmır.

Partiya maarifi məktəblərində dərslər başlanandan sonra bu məktəbdə 5 dəfə məşğələ aparılmışdır. Dinləyicilərdən Əli Qasımov, Müzəffər Sadıqov və başqa yoldaşlar məşğələlərdə fəal iştirak edir, keçilən mövzular ətrafında hazırlaşarkən lazım olan ədəbiyyatdan istifadə edirlər.

***H.Hüseynov,***
***«Şərq qapısı» qəzeti, 13 noyabr 1948-ci il***

# 1949-cu il

## Kolxozçulara belə xidmət göstərməzlər

Naxçıvan rayonu Zeynədin kənd həkim məntəqəsi 3 aydır ki, təşkil edilmişdir. Lakin bu məntəqə indiyədək kolxozçulara heç bir tibb xidməti göstərməmişdir. Məntəqədə hətta lazımi

davacat belə tapılmır. Buna görə də məntəqənin müdiri Həsən Məhərrəmov məntəqənin qapısını həftədə ancaq bir-iki dəfə açır.

Görəsən Zeynədin kəndindəki həkim məntəqəsinin bu acınacaqlı vəziyyətindən rayon səhiyyə şöbəsinin xəbəri varmı?

***A.Ə.Mərdanov,***
***«Şərq qapısı» qəzeti, 12 yanvar 1949-cu il***

**İkinci dəfə seçilmişdir**

1947-ci ildə Naxçıvan rayonu Zeynədin kəndindəki Jdanov kolxozunda vəziyyət çox dözülməz idi. Kolxozçular bacarıqlı təşkilatçı olan **Məmməd Hacıyev yoldaşı keçən il kolxoza sədr seçdilər.** Sədr kolxozçuların etimadını şərəflə doğrultdu: 1947-ci ildə hər hektardan 7 sentner məhsul götürüldüyü halda 1948-ci ildə 16 sentner pambıq götürüldü. Kolxozçular taxıl və üzüm bağı sahələrindən də bol məhsul əldə etdilər.

Kolxozda keçirilən hesabat seçki yığıncağı M.Hacıyev yoldaşı yenidən kolxoza sədr seçmiş və işdə olan bir sıra nöqsanların aradan qaldırılması üçün müvafiq qərar qəbul etmişdir.

***T.Ibrahimov,***
***«Şərq qapısı» qəzeti, 11 fevral 1949-cu il***

## 1950-ci il

**Dərslər başlandı**

Naxçıvan rayon məktəbləri şagirdləri üç aydan bəri ayrıldıqları məktəblərə qayıdıb yeni dərs ilinə başlamışlar.

Rayonun Qahab kəndindəki yeddiillik məktəbdə birinci növbədə oxuyan 125 nəfər şagirdin hamısı mütəşəkkil surətdə dərsə gəlir. Məktəbin binası və avadanlıqları vaxtında keyfiyyətli surətdə təmir olunmuşdur. Bu il birinci sinfə 24 uşaq qəbul

edilmişdir. **Zeynəddin kəndindəki yeddiillik məktəbdə** də dərslər birinci gündən mütəşəkkil keçirilir. Şagirdlərin hamısı məktəbə davam edir.

Didivar kəndindəki ibtidai məktəbdə şagirdlər yaxşı hazırlıqla qarşılanmışdır. Hələ iki ay bundan əvvəl məktəbin binası təmir olunmuş, avadanlıqlar qaydaya salınmış və birinci sinfdə oxuyan uşaqların hamısı siyahıya alınmışdır. Birinci gün 86 nəfər şagirdin hamısı dərsə davam etmişdir.

Leninabad kəndindəki orta məktəbdə yeni dərs ili tam hazırlıqla qarşılanmışdır.

***M. Əhməd, Fərman Tağıyev,***
***"Şərq qapısı" qəzeti, 3 sentyabr 1950-ci il***

## 90 ton üzüm verəcəklər

Zeynədin kəndindəki (Naxçıvan rayonu) Jdanov kolxozunun üzvləri 70 hektar üzüm bağında bol məhsul yetişdirmişlər. Kolxozda üzüm tədarükünə ciddi hazırlıq görülür. Üzümçülər kifayət qədər səbət, yeşik, nəqliyyat vəsaiti və sairə hazırlamışlar.

Kolxozun bağ briqadiri Səməd Hənifəyev yoldaş 35 hektar sahədə nümunəvi becərmə keçirmişdir. Briqadanın üzvləri bol məhsul almaqdan ötrü aqrotexniki qaydalara düzgün riayət edirlər. Bağlarda ziyanvericilərə qarşı vaxtında ciddi mübarizə aparılmşıdr.

Bağbanlardan Cəlil Hacıyev, Möhsün Əliev, Adoş Novruzov yoldaşlar 90 ton yüksək keyfiyyətli üzüm əldə etmək üçün itki ilə ciddi mübarizə aparırlar. Onlar bir neçə gündən sonra tədarük məntəqəsinə üzüm təhvil verməyə başlayacaqlar.

***Qoçəli Yaqubov,***
***«Şərq qapısı» qəzeti, 6 sentyabr 1950-ci il***

## **İriləşmiş kolxozun yaxın gələciyi**

Naxçıvan rayonunun Zeynədin, Kültəpə, Aşağı Leninabad və Yuxarı Leninabad kəndliləri yaxın qonşudurlar. Bu yaxın qonşular həmişə mehriban yaşamış, lazım gəldikdə bir-birinə kömək əllərini uzatmış, mühüm əhəmiyyətə malik olan təsərrüfat və mədəniyyət tədbirlərini hətta keçirərkən məsləhətləşmiş və bir-birlərinin işlərilə qarşılıqlı surətdə tanış olmuşlar. Lakin bu kəndlərdəki kolxozlar xırda təsərrüfata malik olub ayrı-ayrılıqda təsərrüfat, abadlıq və mədəniyyət sahəsində görkəmli nailiyyətlər qazana bilmirdilər.

Yuxarı Leninabad kəndindəki Mikoyan kolxozu ancaq 26 təsərrüfatı birləşdirirdi. Kolxozun yalnız 43 nəfər əmək iqtidarlı üzvü var idi. Əlbəttə, belə bir qüvvə ilə kolxoz təsərrüfatı qarşısında duran vacib tədbirləri həyata keçirmək mümkün deyil. Keçən il kolxozun 136 min manatlıq gəliri müqabilində 14 min manat borcu olmuş, bölünməz fondu isə 990 manat olmuşdur. **Zeynədin kəndindəki Jdanov,** Kültəpə kəndindəki «Qırmızı Oktyabr» və Aşağı Leninabad kəndindəki Lenin kolxozlarında da yeni vəziyyət mövcud idi.

Mehriban qonşular Moskva vilayətində xırda kolxozların iriləşdirilməyə başlanması haqqındakı xəbəri böyük ruh yüksəkliyilə qarşıladılar. Onlar da vahid bir ailədə birləşməyi, öz təsərrüfatlarını möhkəmləndirməyi qərara aldılar. Bu kolxozların 620 nəfər üzvü Leninabad kəndindəki təntənəli yığıncağa toplaşmış, biri-birinin ardınca çıxış edərək iriləşmiş kolxoz sayəsində nə kimi böyük müvəffəqiyyətlərə nail ola biləcəkələrindən və daxili imkanlardan danışmışlar.

Çıxışlardan sonra **yığıncaq** iriləşmiş Leninabad kəndindəki **kolxoza Jdanov yoldaşın adını verməyi qərara aldı** və yeni idarə heyətini seçdi. İdarə heyətinin tərkibinə birləşmiş 4 kolxozun ən yaxşı adamları – qabaqcıl manqabaşçılar, briqadirlər və kolxozçular daxil oldular. **İdarə heyətinin sədrliyinə** kolxozçular arasında hörmət və etibar qazanmış təcrübəli təsər-

rüfatçı **Məmmədəli Hüseynov** (Kültəpə kəndindəndir- Ə.H) **yoldaş seçildi.**

Iriləşmiş Jdanov kolxozu indi çox böyük imknalara malikdir. Kolxoz 380 təsərrüfatı birləşdirir. Onun 1525 hektarlıq əkin sahəsi, o cümlədən 154 hektar pambıq və 700 hektar dənli bitkilər yeri vardır. 1955-ci ildə kolxozun əkin sahələri daha da genişləndiriləcək və məhsuldarlığı iki dəfə artırılacaqdır.

Jdanov kolxozunun 130 hektarlıq böyük bir üzüm bağı vardır. Burada «Kişmişi», «Şəfeyi», «Gülabi» kimi yüksək keyfiyyətli üzüm növləri yetişdirilir. Bu növ üzüm məhsulları keyfiyyət etibarilə bütün respublikada məşhurdur. Birləşmiş kolxozun idarə heyəti yaxın 3 il ərzində üzümlükləri daha da genişləndirməyi və hər hektarda orta məhsuldarlığı 80-100 sentnerə çatdırmağı qət etmişdir.

Indi Jdanov kolxozu sosialist heyvandarlığının yeni və yüksək inkişafını təmin etmək üçün bütün imkanlara malikdir. Kolxozun fermaları 600 baş qaramal və 2500 davara malikdir. 3 ildən sonra mal-qaranın sayı bir yarım dəfə artırılacaqdır.

Iriləşmiş kolxozun idarə heyəti mədəni-maarif, abadlıq və quruculuq işləri sahəsində bir sıra yeni tədbirlər hazırlamışdır. Kənd genişləndiriləcək, burada çoxlu yeni yaşayış binaları, güclü su elektrik stansiyası, hamam, mehmanxana və sairə tikiləcəkdir. Yaxın gələcəkdə kənd şəhər tipli qəsəbəyə çevriləcəkdir.

***Harutyun Mkrtçyan,***
***«Şərq qapısı» qəzeti, 13 sentyabr 1950-ci il***

## Jdanov kolxozunda

Naxçıvan rayonundakı Jdanov kolxozunun üzvləri bu il 154 hektar sahədə bol məhsul yetişdirərək hər hektardan orta hesabla 40 sentner məhsul götürməyi vəd etmişdilər. Onlar oktyabrın 15-dək alıcı məntəqəsinə hər hektardan 17,9 sentner məhsul verərək illik planı 100 faiz yerinə yetirmişlər.

Yüksək məhsul **manqabaşçısı Tərlan Həsənova** yoldaş öhdəsində olan 7 hektar sahədən 420 sentner məhsul verməyi vəd etmişdir.

Jdanov kolxozunun üzvləri öhdələrinə götürdükləri təəhhüdləri ödəmək üçün pambıq yığımını daha da sürətləndirir və alıcı məntəqəsinə hər gün azı 5-6 ton məhsul göndərirlər.

***«Şərq qapısı» qəzeti, 18 oktyabr 1950-ci il***

## 12 nömrəli Leninabad seçki dairəsində

1915-ci ildə anadan olmuş, bitərəf, Jdanov kolxozunun yüksək məhsul manqabaşçısı **Tərlan Məmməd qızı Həsənova** yoldaş rayon Soveti deputatlığına qeyd olunsun və onun namizədliyi seçki bülleteninə daxil edilsin.

***Dairə seçki komisyonunun sədri Q.O.Kərimov***
***Dairə seçki komisyonunun katibi H.M.Harutyunyan***
***«Şərq qapısı» qəzeti, 22 noyabr 1950-ci il***

## 15 nömrəli Zeynədin seçki dairəsində

1925-ci ildə anadan olmuş, komsomolçu, Jdanov kolxozunun yüksək məhsul manqabaşçısı **Cənnət Əli qızı Qasımova** yoldaş rayon Soveti deputatlığına qeyd olunsun və onun namizədliyi seçki bülleteninə daxil edilsin.

***Dairə seçki komisyonunun sədri H.H.Əhmədov***
***Dairə seçki komisyonunun katibi S.S.Vəliyeva***
***«Şərq qapısı» qəzeti, 22 noyabr 1950-ci il***

## 1951-ci il

### Azərbaycan və Naxçıvan MSSR Ali Sovetlərinə seçkilər üçün Məntəqə Seçki Komisyonları tərkibinin təsdiq edilməsi haqqında Naxçıvan rayon ZDS İcraiyyə Komitəsinin qərarı
### 13 nömrəli Zeynədin seçki məntəqəsi

Məntəqə seçki komisyonunun sədri Yusif Hüseyn oğlu Ismayılov – Rayon istehlak cəmiyyətinin ilk partiya təşkilatı tərəfindən.

Məntəqə seçki komisyonu sədrinin müavini – Mirzə Yusif oğlu Vəliev – Jdanov kolxozunun ilk partiya təşkilatı tərəfindən.

Məntəqə seçki komisyonunun katibi – Müzəffər Ələskər oğlu Əhmədov – Ibtidai və orta məktəb işçilərinin həmkarlar ittifaqı tərəfindən.

Məntəqə seçki komisyonunun üzvləri:

Hüseyn Əliabbas oğlu Məmmədov – Jdanov kolxozunun üzvləri tərəfindən.

Zəhra Haşım qızı Quluyeva – «Qırmızı Aypara» cəmiyyətinin Zeynədin kənd təşkilatı tərəfindən,

Rübabə Dadaş qızı Zeynalova – Jdanov kolxozunun üzvləri tərəfindən.

Zöhrabanı Bağır qızı Vəliyeva – Jdanov kolxozunun üzvləri tərəfindən.

Elan Əbdüləli qızı Həsənova – Hava donanmasına könüllü yardım cəmiyyətinin Zeynədin kənd təşkilatı tərəfindən.

Əskər Həsən oğlu Əliev- Orduya könüllü yardım cəmiyyətinin Zeynədin kənd təşkilatı tərəfindən.

***«Şərq qapısı» qəzeti, 7 yanvar 1951-ci il***

## Heyvandarların işi

Naxçıvan rayonundakı Jdanov kolxozunun heyvandarları malqaranı qışdan kök və sağlam çıxarılması üçün təqdirə layiq işləyirlər. Fermada 500 qara mal və 37 at zoobaytar qaydada bəslənilir. 180 inək isti və işıqlı binalarda saxlanılır.

Mala baxanlardan Nəsir Hacıyev, Vəli Qurbanov və Ismayıl Nəsirov yoldaşlar öhdələrində olan qaramala zootexniki qaydada qulluq edirlər. Onlar malqaranı vaxtında yemləyir, isti və təmiz binalarda saxlayırlar. Ismayıl Axundov və Abbas Hacıyev yoldaşlar 37 atın hər birindən bir sağlam bala almağı vəd etmişlər. Onlar öz vədlərini yerinə yetirmək məqsədilə atları vaxtında şirəli yemlə təmin edir və onların xəstələnməməsi üçün zootexniklərin göstrəişlərindən düzgün istifadə edirlər.

***Ibrahim Vəliev,***
***«Şərq qapısı» qəzeti, 21 yanvar 1951-ci il***

## Deputatlığa namizədlərlə seçicilərin görüşləri
## Səmimi görüş

Naxçıvan rayonundakı Jdanov kolxozunun klubuna 300 nəfərdən artıq seçici toplaşmışdı. Onlar öz seçkiqabağı yığıncaqlarında Naxçıvan MSSR Ali Soveti deputatlığına namizəd göstərdikləri **Tərlan Məmməd qızı Həsənova** ilə görüşmək üçün buraya gəlmişdilər.

Yığıncağı dairə seçki komisyonu sədrinin müavini Ağamalı Bəxtiyarov yoldaş açaraq ilk sözü **kolxozun sədr müavini Mirzə Vəliev** yoldaşa verdi. M.Vəliev yoldaş xitabət kürsüsünə qalxaraq dedi:

- Biz hamımız öz həmyerlimiz Tərlanı yaxşı tanıyırıq. O, hələ 16 yaşından kolxoz təsərrüfatında işləməyə başlamışdır. Tərlan 20 ildən artıqdır ki, kolxozumuzda çalışır. O, böyük Vətən müharibəsi illərində kolxoz sədri müavini vəzifəsində işlərkən bütün qüvvəsini kolxozumuzun təşkilat – təsərrüfatca

möhkəmlənməsinə, kolxozçularımızın rifahının yaxşılaşmasına sərf etmişdir. Mən bütün seçiciləri seçkilər günü fevralın 18-də seçki məntəqəsinə gələrək öz səslərini Tərlan Həsənova yoldaşa verməyə çağırıram.

Kolxozun yüksək məhsul **manqa başçısı Münəvvər Əliyeva** yoldaş söz alaraq dedi:

- Biz sovet qadınların, xüsusən azərbaycanlı qadınlara ancaq Stalin Konstitusiyası ən yüksək hüquqlar, həmçinin seçib seçilmək hüququ vermişdir. Biz qadınlar çox xoşbəxtik.

Bizim fəxrimiz olan kolxozçu qadın Tərlan bu il öhdəsində olan 6 hektar pambıq sahəsinin hər hektarından 40 sentner məhsul götürərək öz qabaqcıl iş təcrübəsini yorulmadan başqa manqa başçılarına da vermişdir. Mən kolxozumuzun bütün qadınlarına müraciətlə xahiş edirəm ki, seçki günü hamımız öz səsimizi Tərlan Həsənovaya verək.

Sonra çıxış edən Məmməd Nadirov, Aşot Xaçaturyan Tərlan Həsənovanı işgüzar, bacarıqlı, təşkilatçı bir qadın kimi tanıdıqlarını qeyd edib öz səslərini ona verəcəklərini bildirdilər.

Naxçıvan MSSR Ali Soveti deputatlığına namizəd göstərilmiş Tərlan Həsənova yoldaş yığıncağın axırında çıxış edərək göstərdikləri etimad üçün seçicilərə təşəkkür etdi və bildirdi ki, o, Naxçıvan MSSR Ali Sovetində seçicilərin ləyaqətli elçisi olmaqla onların bütün arzu və tələblərini yerinə yetirməyə hər vəchlə səy edəcəkdir.

***«Şərq qapısı» qəzeti, 31 yanvar 1951-ci il***

***Əlavə:*** *Qəzetin 24 fevral 1951-ci il tarixli nömrəsində Naxçıvan MSSR Ali Sovetinə seçilmiş deputatların siyahısı verilib. Orada T.M.Həsənovanın Leninabad dairəsindən deputat seçilməsi qeyd edilib.*

## 1952-ci il

### Jdanov adına kolxozun fermalarında

Naxçıvan rayonundakı Jdanov adına kolxozda mal-qaranın döllənməsi mütəşəkkil keçirilir. Qoyunçuluq fermasında yeni doğulmuş quzular ən yaxşı heyvandarlar tərəfindən 15 küzdə bəslənilir. **Bu sahədə Zeynəb Əliyeva və Səkinə Nəbiyeva yoldaşlar xüsusilə fəallıq göstərirlər.** Fermada hər gün gecə növbətçiləri olur.

Qara mal fermasında 70 inəyin hamısından sağlam bala alınmışdır. Buzovların bəslənməsin də təcrübəli heyvandarlara tapşırılmışdır.

*Əhməd Muradov,*
*"Şərq qapısı" qəzeti, 11 aprel 1952-ci il*

### Barama təhvili

Naxçıvan rayonundakı Jdanov adına kolxozun baramaçısı Ə. Əhmədov yoldaş dövlətə 46 kiloqram barama təhvil vermişdir. O, bu məhsulu 0.5 qutudan götürmüşdür.

*"Şərq qapısı" qəzeti, 4 iyul 1952-ci il*

## 1953-cü il

### Gənc pambıqçıların yarışı

Naxçıvan rayonundakı Sabir adına kolxozun pambıq tarlalarında qızğın iş gedir.

Kultivator çərkələr arası ilə hərəkət edir, yorulmaq bilmədən işləyən gənc kolxozçular bu maşına baxıb daha şirin-şirin işləyirlər.

Pambıq tarlasının bir tərəfində bir-birinə axın iki gənc işləyirdi. Bunlardan biri 2 nömrəli briqadanın yüksək məhsul

manqabaşçısı, komsomolçu Əlövsət Hacıyev və digəri 1 nömrəli briqadanın manqabaşçısı, komsomolçu Qasım Muradov yoldaşlar idi…

Bu komsomolçuların ürəklərindəki arzuları birdir: onlar öhdələrində olan pambıq sahəsinin hər hektarından 75-80 sentner məhsul götürmək kimi yüksək vədin yerinə yetirilməsi uğrunda mübarizə edirlər.

Hazırda kolxozun idarə heyəti və ilk partiya təşkilatı tərəfindən təsis edilmiş keçici qırmızı bayraq Qasım Muradov yoldaşın başçılıq etdiyi yüksək məhsul manqanın pambıq tarlalarında dalğalanır. Manqanın üzvlərindən Güldəstə Əliyeva, Sürəyya Seyidova, Maral Salayeva və başqaları keçici bayrağı əldə möhkəm saxlamaq üçün pambıq əkini sahələrini yüksək aqrotexniki səviyyədə becərir, zəif inkişaf etmiş hər bir pambıq bitkisinə ayrıca qulluq edirlər. Manqanın tarlalarında pambığın beşinci becərilməsi vaxtından əvvəl başa çatdırılmışdır.

Qasım Muradov yoldaşın başçılıq etdiyi manqanın becərmədəki müvəffəqiyyətləri Əlövsət Hacıyevin başçılıq etdiyi manqanın üzvlərini daha məhsuldar işləməyə ruhlandırmışdır. Bu manqanın üzvlərindən Sona Əhmədova, Xədicə Abdullayeva, Naroş Abudullayeva və başqa yoldaşlar pambığın beşinci becərilməsini sürətlə aparırlar.

Indi hər iki manqa arasında bağlanmış sosializm yarışı müqaviləsinə ciddi əməl olunur. Bu isə gələcəkdə əkin sahələrindən bol və yüksək keyfiyyətli məhsul götürmək üçün zəmin yaradır.

***Murtuz Məmmədov,***
***«Şərq qapısı» qəzeti, 26 iyul 1953-cü il***

## Bol məhsul uğrunda

Kolxozumuzun üzvləri bu il 105 hektar sahənin hər hektarından 40 sentner pambıq götürməyi qərara almışlar. Öhdəçiliyimizi ləyaqətlə yerinə yetirmək üçün biz bütün tədbirləri görürük.

Hazırda pambıq tarlalarımız altıncı dəfə, qabaqcıl briqada və manqallarda isə yeddinci dəfədir ki, becərilir. Tarlaların suvarılmasını da yaxşı təşkil etmişik. Təcrübəli kolxozçulardan 20 suçu ayrılmışdır. Tarlalar gecə-gündüz suvarılır, su yalnız şırımlarla buraxılır və dağıntıya yol verilmir. Biz pambıq xəstəliklərinə və ziyanvericilərə qarşı da ciddi mübarizə tədbirləri həyata keçiririk.

Pambıq məhsulunu vaxtında və itkisiz yığmaq üçün plan tərtib etmişik. Pambığı vaxtında qurutmaq üçün hər briqadaya meydança hazırlanmışdır. Bütün manqalarda tərəçələr düzəldilmişdir. Pambıq yığan kolxozçular üçün çoxlu döşlük alınmış və bardan əldə edilmişdir.

Pambıqçıların tarlalarda səmərəli işləməsi üçün tarla düşərgələri nümunəvi qaydaya salınmış və lazımi avadanlıqla təchiz edilmişdir.

Təşviqatçılarımız tarlalarda geniş kütləvi-izahat işi aparır, kolxozçuları bol məhsul uğrunda mübarizəyə ruhlandırır.

***Səməd Məhərrəmov,***
***Naxçıvan rayonu, Sabir adına kolxozun***
***ilk partiya təşkilatı katibi***
***«Şərq qapısı» qəzeti, 28 avqust 1953-cü il***

## Kolxozçuların yekdilliyi

Naxçıvan rayonundakı Sabir adına kolxozun üzvləri «SSRI kənd təsərrüfatını daha da inkişaf etdirmək tədbirləri haqqında» Sov.IKP MK Plenumunun qərarını dərindən öyrənirlər. Kolxozda bu münasibətlə keçirilmiş yığıncaqda **tarlaçılıq briqadiri Məmməd Nadirov** demişdir:

- Partiyamızın Mərkəzi Komitəsi biz kolxozçular qarşısında çox şərəfli və mübariz vəzifələr qoymuşdur. Ölkəmizdə əhalinin ərzaq məhsullarına getdikcə artan tələbatını kifayət qədər ödəmək, yüngül və yeyinti sənayesini xammala təmin etmək üçün biz kolxozçular daha yaxşı işləməli, heyvandarlığın,

pambığın, taxılın və başqa kənd təsərrüfat bitkilərinin məhsuldarlığını ildən-ilə xeyli artırmalıyıq.

Mən briqadamın üzvləri adından vəd edirəm ki, hər gün dövlətə illik planın 3-4 faizi qədər pambıq təhvil verəcək, payızlıq taxıl əkinini vaxtında və yüksək aqrotexniki səviyyədə başa çatdıracağıq.

*«Şərq qapısı» qəzeti, 23 sentyabr 1953-cü il*

## 1954-cü il

### Üzümlüklər qayğı ilə becərilir

Naxçıvan rayonundakı Sabir adına kolxozun üzvləri bu il 80 hektar üzüm bağını yüksək aqrotexniki səviyyədə becərdiklərindən tənəklərdə bol məhsul vardır. Səməd Məmmədovun briqadasında ziyanvericilərə qarşı iki dəfə dərmanla aparılmışdır. S. Məmmədova, T. Qurbanova, B. Şükürova və V.Qurbanov yoldaşlar becərmədə xüsusilə fərqlənirlər.Onlar alaq otlarının hamısını ketmənləyib kökünü kəsmişlər.

***F. Bağırov,***
***"Şərq qapısı" qəzeti, 18 avqust 1954-cu il***

### Deputatların və kənd fəallarının qüvvəsindən bacarıqla istifadə olunur

Sirab kənd sovetliyi Naxçıvan rayonunun 3 kolxozunu əhatə edir. (Sabir adını kolxoz- Zeynəddin kəndi bu sovetliyinə daxildir. Ə.Hümmətov) Sovetliyə **Naxçıvan MSSR Ali Sovetinin deputatı Tərlan Həsənova** (Zeynəddin kəndindəndir. Ə.Hümmətov) başçılıq edir.

Deputatların və kənd fəallarının qüvvəsindən yaxşı istifadə olunduğundan təsərrüfat, abadlıq və səhiyyə işləri sahəsində bir çox nailiyyətlər əldə edilir. Göyçalıların nəcib çağırışına qoşul-

duqdan sonra sovetliyin əhatə etdiyi kəndlərdə zəhmətkeşlərin mədəni-məişət şəraiti xeyli yaxşılaşmış və bir sıra öhdəliklər qəbul olunmuşdur.

Maarif və səhiyyə üzrə daimi komisiyanın sədri Qasım Qasımov yoldaşın ciddi fəaliyyət göstərməsi nəticəsində abadlıq işləri getdikcə genişləndirilir. Sovetliyin əhatə etdiyi 4 məktəbdə təmir işləri başa çatdırılmışdır. 1.600 put odun toplanmışdır. Kənd zəhmətkeşləri 2 kitabxana və qəraətxanadan səmərəli istifadə edir. Səhiyyə məntəqəsi də nümunəvi işləyir.

Göyçaylıların vətənpərvərlik çağırışından sonra kənd Sovetinin fəallarla birlikdə müşavirəsi olmuşdur. Müşavirədə kolxoz kəndlərində səhiyyə mədəniyyətini yüksəltmək, kənd zəhmətkeşlərinin can sağlığı keşiyində durmaq və sairə tədbirlər qəbul edilmişdir.

Həmin tədbirlər sırasında Sirab kəndindəki kəhrizi təmir etmək, Qahab kəndindən el kəhrizini və gölü təmir etmək, sovetlikdən Leninabada və Qahaba gedən yolları abad hala salmaq, yolların kənarına payızda 5000 ağac əkmək nəzərdə tutulur. Sirab kəndində yeni kitabxana açmaq, uşaqlı qadınların əməyindən səmərəli istifadə etmək üçün sovetlikdə olan körpələr evi və uşaq bağçalarının işini kökündən yaxşılaşdırmaq, kolxozçuların özləri üçün yeni yaşayış binalarının tikdirməsinə kömək etmək, bu ilin payızında 150 mindən çox meyvə tingi əmək və yazda 15 hektar üzüm bağı üçün yer hazırlamaq öhdəyə götürülmüşdür.

Bütün bu tədbirlərin vaxtında görülüb yerinə yetirməsi üçün kənd Soveti deputatların və fəallarından 15 nəfəri ayrı-ayrı kəndlərə təhkim olunmuşdur. Deputatlardan Əyyub Quliyev, Bədəl Əbilov, Səməd Məhərrəmov, Zəhra Babayeva, Məmmədbağır Nəcəfov öz vəzifələrini vaxtında və vicdanla yerinə yetirərək kəndlərdə mədəni-maarif işlərinin görülməsində və göyçaylıların nəcib çağırışının həyata keçirilməsində fəal iştirak edirlər.

Sirab kənd Soveti kənd fəalları və deputatların yaxın köməyi nəticəsində qarşıya qoyulan bütün vəzifələri vaxtında yerinə yetirəcəkdir.

*Müseyib Mehdiyev,*
*"Şərq qapısı" qəzeti, 27 avqust 1954-cu il*

## Pambıq ustası Ceyran Qasımovanın müvəffəqiyəti

Pambıq ustası Ceyran Qasımova Naxçıvan rayonundakı Sabir adına kolxozda birinci briqadanın beşinci manqasında çalışır. O, indi çox pambıq yığan kimi tanınır.

C. Qasımova iki əl ilə gündə 180 kiloqrama qədər pambıq yığmağa nail olur. O, gündə üç normanı yerinə yetirərək 3-3,5 əməkgun qazanır. Ceyran Qasımova 35 gündə 5 ton pambıq toplamışdır.

Keçən il C. Qasımova 10 ton pambıq yığmış və qazandığı 410 əməkgunə üç tondan çox taxıl və 4500 manat pul almışdır. O, bu il 12 ton pambıq yığmaq uğrunda oktaybrqabağı sosyalizm yarışının ön sıralarında gedir. Ceyran Qasımova pambığı iki əl ilə yığmaq üsulunu öz rəfiqələri Səriyyə Əliyevaya, Lalə Quliyevaya və Surə Hüseynovaya da öyrətmişdir. İndi onların hərəsi gündə 140 -160 kiloqram pambıq toplayır.

Qeyd etmək lazımdır ki, Ceyran Qasımovanın üzv olduğu L. Quliyevanın manqası illik pambıq tədarükü planını ödəmiş və hər hektarda məhsuldarlığı 60 sentnerə çatdırmaq uğrunda mübarizəyə qoşulmuşdur.

*"Şərq qapısı" qəzeti, 8 oktyabr 1954-cu il*

## Kəndlər radiolaşdırılır və telefonlaşdırılır

Naxçıvan MSSR-nin rabitə işçiləri bu il şəhər və kəndlərin radiolaşdırılması və telefonlaşdırılması sahəsində bir sıra işlər görümüşlər. Bu ilin 11 ayı ərzində 1486 yeni radio nöqtəsi çəkilmiş və bu sahədə verilən tapşırıq artıqlaması ilə yerinə yetiril-

mişdir. Kənd yerlərində 800 əvəzinə 989 yeni radio nöqtəsi çəkilmişdir.

1954-cü ildə Naxçıvan rayonundakı Molotov adına,Cəlil Məmmədquluzadə adına, Noraşen rayonundakı Kalinin adına, Lenin adına, Mikoyna adına, Şahbuz rayonundakı Xuruşşov adına kolxozların əhatə etdiyi kəndlərin radiolaşdırılması başa çatdırılmışdır.

Telefonlaşdırma sahəsində də bir sıra müvəffəqiyyətlər əldə edilmişdir. Bu il Naxçıvan rayonundakı Leninabad kənd sovetliyinə, Məzrə, Zeynəddin, Əznəburt kəndlərinə, Noraşen rayonunun Arpaçay kəndinə və başa kəndlərə telefon xətti çəkilmişdir.

Kolxoz kəndlərinin radiolaşdırılması və telefonlaşdırılmasında rabitə işçilərindən A. Məmmədov, İ. Hüseynov, M. Cəfərov, Q.Ohanesyan yoldaşlar və bir çox başqaları xüsusilə fərqlənmişlər.

***"Şərq qapısı" qəzeti, 12 dekabr 1954-cu il***

## 1956-cı il

### Yüksək məhsul uğrunda

Naxçıvan rayonundakı Sabir adına kolxozun üzvləri təsərrüfatı hərtərəfli inkişaf etdirmək məqsədilə 1956-cı ilin ilk günlərindən qüvvələri səfərbərliyə almış, yeni öhdəliklər götürüb rayondakı Jdanov adına kolxozun üzvlərini sosyalizm yarışına çağırmışlar. Bu il 100 hektar pambıq sahəsinin hər hektarından 35 sentner məhsul əldə etmək üçün tədbirlər görülür. Kolxozçular sahələrdə 7 dəfə becərmə keçirməyi, hər hektar sahədə 110-120 min sağlam pambıq kolu yetişdirməyi öhdələrinə almışlar.

H. Məmmədov və A. Sadıqov yoldaşların briqadalarında, A. Piriyev, İ. Həsənov, L. Quliyeva yoldaşların manqalarında çiyid səpininə indidən nümunəvi hazırlıq görülür.

Kolxozda 390 hektar taxıl sahəsinin hər hektarından azı 14 sentner məhsul götürmək üçün də tədbirlər görülür. 60 hektar toxumluq taxıl sahəsi yüksək aqrotexniki səviyyədə becərilir.

Kolxozda 80 hektar üzüm və 5 hektar meyvə bağı sahəsi vardır. Öhdəliklərdə üzüm bağının hər hektarından 60 sentner, meyvə bağının hər hektarından 40 sentner məhsul götürmək, 2 hektar sahədə yeni üzüm bağı, 0,5 hektar sahədə yeni meyvə bağı salmaq nəzərdə tutulmuşdur.

Voronejlilərin çağırışına qoşulan kolxozun heyvandarları bu il davarların sayını xeyli artırmağı, qaramalın sayını 300 başa çatdırmağı, hər inəkdən 730 kiloqram süd sağmağı, hər qoyundan 2,5 kiloqram yun qırxmağı, quşların sayını 500-ə çatdırmağı, hər toyuqdan 90 ədəd yumurta götürülməsinə nail olmağı öhdələrinə almışlar. Bu il kolxozda 25 hektarda birillik ot əkiləcək və 85 hektar çoxillik ot əkini sahəsində məhsuldarlığı yüksəltmək üçün tədbirlər görüləcəkdir.

***Murtuz Məmmədov,***
***"Şərq qapısı" qəzeti, 12 fevral 1956-cı il***

**Briqadalar yarışır**

Naxçıvan rayonundakı Sabir adına kolxozda pambıq əkininə mütəşəkkil hazırlıqla başlamaq üçün müəyyən olunmuş tədbirlərin yerinə yetirilməsində **H. Məmmədovun** başçılıq etdiyi briqada irəlidə gedir. Briqadanın üzvləri pambıq əkini üçün ayrılmış sahələri şumlanmış, kol-kosdan təmizləmiş, bol kübrə ilə qüvvətləndirmiş və hamarlamışlar. Onlar bu il pambıq əkini sahələrinin hər hektarından 40 sentner məhsul götürməyi vəd edərək kolxozun bütün briqadalarını yarışa çağırmışlar.

Pambıq əkininə hazırlıq sahəsində **Əli Nəbiyevin** başçılıq etdiyi manqa daha yaxşı işləmişdir. Bu manqanın 6 hektar sahəsində səpin kvadrat-yuva üsulu ilə keçiriləcəkdir.

***Əli Hummətov,***
***"Şərq qapısı" qəzeti, 21 mart 1956-cı il***

## Məktəblilərin təşəbbüsü

Zeynəddin kəndindəki yeddilik məktəbin kollektivi yaşıllaşdırmaya xüsusi fikir verir. Onlar məktəbin həyətyanı sahəsində 86 ədəd alma, armud, nar, heyva, gilənar, ərik və başqa meyvə ağacları əkmişlər.

Məktəbin kollektivi Leninabad (Naxçıvan rayonu) kəndi ilə Zeynəddin kəndi arasındakı yolun kənarlarına 216 ədəd tink əkmişdir. Onlar bu işi davam etdirməyi və bundan sonra əlavə olaraq 500 ədəd ağac salmağı qərara almışlar. Məktəblilərdən Pəri Bağırova, Zərifə Piriyeva, Telman Salayev, Abbas Abbasov, Ləzifə Bağırova və başqaları yaşıllaşdırmada fəal çalışırlar.

***"Şərq qapısı" qəzeti, 4 aprel 1956-cı il***

## Kənd zəhmətkeşlərinin haqlı tələbi

Bizim kəndə 1952-ci ildə radio xətti çəkildi. Kolxoz idarə heyətinin və Naxçıvan radio qovşağının tərtib etdikləri plana görə az vaxt içərisində bütün kənd radiolaşdrılmalı və kolxozçuların evinə radio xəxtləri çəkilməli idi. İki il keçdi, lakin bu tədbir yerinə yetirilmədi. Çox get-gəldən sonra Naxçıvan radio qavşağının köməyilə ancaq 30 evə radio xətti çəkildi.

Son iki ildə kəndimizdəki Jdanov adına (Sabir adına kolxozun – Əşrəf Hümmətov) kolxozun üzvləri evlərinə radio xətti çəkmək haqqında Naxçıvan radio qovşağına dəfələrlə müraciət etmişlərsə də onların şikayəti yersiz qalmışdır.

Zeynəddin kəndində yaşayan kolxozçular, ziyalılar radio verilişlərini dinləmək, günün yeniliklərindən xəbər tutmaq istəyirlər. Lakin təəssüflə qeyd edilməlidir ki, Naxçıvan rabitə idarəsinin və Naxçıvan radio qovşağının başçıları onların bu arzusunu başa düşmək istəmirlər. Zeynəddin kənd zəhmətkeşlərinin haqlı tələbini yerinə yetirməyin vaxtı çatmışdır.

***Əli Hümmətov,***
***Zeynəddin kəndindəki məktəbin müəllimi.***
***"Şərq qapısı" qəzeti, 4 aprel 1956-cı il***

## Məhsuldarlığı artırmaq uğrunda

Naxçıvan rayonundakı Sabir adına kolxozun üzvləri üzüm bağlarından bol məhsul götürmək məqsədilə bütün aqrotexniki tədbirləri vaxtında həyata keçirirlər. S. Hənifəyev və M. Vəliyev yoldaşların başçılıq etdikləri briqadaların üzvləri 20 hektar sahədə üzüm kollarının dibini açmış və gübrələmişlər. Kolxozçulardan Səriyyə Əliyeva, Tavus Kərimova, Züleyxa Məmmədova, Küşvər Salayeva və başqaları bağların becərilməsində gündəlik tapşırığı 140-150 faiz yerinə yetirirlər.

Kolxozun üzümçüləri bu il bağların məhsuldarlığını hər hektarda orta hesabla iki dəfə artırmaq məqsədilə sosyalizm yarışında fəal iştirak edirlər.

***Əli Hümmətov,***
***"Şərq qapısı" qəzeti, 8 aprel 1956-cı il***

## Qarğıdalı əkinini qurtarmışlar

Mayqabağı sosyalizm yarışında fəal iştirak edən Naxçıvan rayonundakı Sabir adına kolxozun üzvləri yaz tarla işlərini gündən-günə sürətləndirirlər.

Naxçıvan MTS-dən Firudin Qocayev yoldaşın baçılıq etdiyi traktor briqadasının mexanizatorları ilə əlbir işləyən **Hüseyn Məmmədov** yoldaşın başçılıq etdiyi tarlaçılıq briqadasının üzvləri 20 hektar sahədə qarğıdalı əkinini aqrotexniki səviyyədə başa çatdırmışlar. **Abbas Sadıqov** yoldaşın briqadasında da qarğıdalı əkini mütəşəkkil keçirilmişdir.

Ümumiyyətlə, kolxozda 40 hektar sahədə qarğıdalı əkini müvəffəqiyyətlə qurtarmışdır. Kolxozun üzvləri qarğıdalı əkini sahələrinin becərilməsinə başlamışlar.

***M. Əliyev,***
***"Şərq qapısı" qəzeti, 27 aprel 1956-cı il***

## Nöqsanları tezliklə aradan qaldırmalı

Jdanov adına kolxozun üzvləri (Naxçıvan rayonu) hələ ilin əvvəlindən kənd təsərrüfatı bitkilərindən və heyvandarlığından yüksək məhsul götürməyi vəd etmiş, bizim kolxozun üzvləri ilə yarış müqaviləsi bağlamış, üzərlərinə yüksək öhdəliklər götürmüşlər. Bu günlərdə həmin öhdəliklərin necə yerinə yetirilməsini yoxlamaq üçün yarışdığımız kolxoza getdik... Nümayəndə heyətimiz aşkara çıxardığı nöqsanları yarış dostlarımıza çatdırdı və tezliklə aradan qaldırmağa çağırdı.

Sabir adına kolxozun yoxlama briqadası:

Lala Quliyeva, Qasım Muradov- manqa başçıları,

Abbas Sadıqov – briqada başçısı, Baloş Hacıyev- hesabdar,

İbrahim Vəliyev- aqranom, Hüseynalı Hüseynov- partiya təşkilatının katibi, Müzəffər Əhmədov- rayon partiya komitəsinin MTC zonası üzrə təlimatçısı.

***"Şərq qapısı" qəzeti, 1 iyun 1956-cı il***

## Yarışan iki qonşu kolxozda

Hələ təsərrüfat ilinin əvvəlində Sabir adına kolxozun üzvləri Jdanov adına kolxozun (keçmiş Leninabad indiki Kərimbəyli kəndi- Ə.Hümmətov) üzvləri ilə yarışa qoşulmuşlar. Hər iki kolxozun sahələri bir-birinə yaxın, daxili imkanları və şəraitləri eynidir.

Sabir adına kolxozda daxili imkanlardan səmərəli istifadə edilərək öhdəyə götürülən vəzifələr yaxşı yerinə yetirilir. İyunun 17-də aydın oldu ki, Naxçıvan MTS-indən F. Quliyev yoldaşın başçılıq etdiyi traktor briqadasının mexanizatorları ilə əlbir işləyən Sabir adına kolxozun üzvləri 80 hektar sahədə pambıq əkinini yüksək aqrotexniki səviyyədə keçirmiş, o cümlədən 50 hektar sahəyə çiyid kvadrat-yuva üsulu ilə səpilmişdir. Mayın 1-də bitkilərin seyrəldilməsinə başlanılmış, bu iş 10 gün müddətində başa çatdırılmışdır.

Tarlaların becərilməsi ilk günlərdən yaxşı təşkil olunmuşdur. İkinci becərmə iyunun 16-da başa çatdırılmışdır. Traktorçu H.Allahyarov yoldaş sahələrə iki dəfə kultivasiya çəkmişdir. H.Məmmədov və A. Sadıqov yoldaşların briqadalarında becərmə daha yaxşı təşkil olunmuşdur.

A. Piriyev, T. İsmayılova və F. Piriyeva yoldaşların başçılıq etdikləri manqalarda sahələr gözəl becərilir. Həmin manqaların üzvlərindən L. Novruzova, T. Quliyeva, Z. Həziyeva, S. İsmayılova və başqaları gündəlik becərmə tapşırığını bir yarım dəfə artıqlaması ilə yerinə yetirirlər.

Kolxozda bitkilərə birinci əlavə qida gübrəsinin verilməsi işi də yaxşı təşkil olunmuş, məktəblilərdən ibarət ziyanvericilərə qarşı mübarizə dəstələri yaradılmışdır. 18 çiləyici və tozlayıcı aparat vasitəsilə pambıq xəstəliklərinə və ziyanvericilərə qarşı ciddi mübarizə aparırlar.

Yeni şərait və imkanlara malik olan Jdanov adına kolxozda isə vəziyyət başqadır. Burada pambıq tarlalarının becərilməsi yaxşı təşkil olunmamışdır...

***" Şərq qapısı"nın briqadası:***
***Kamran İbrahimov, Məşdi Əliyev,***
***" Şərq qapısı"qəzeti, 22 iyun 1956-cı il***

## Kənd kitabxanasında

Naxçıvan rayonunun Zeynəddin kəndindəki kitabxana hər gün oxucularla dolu olur.Kitabxanada 5 mindən çox müxtəlif ədəbi, bədii, elmi və siyasi kitablar vardır. Bu kitablardan kənd zəhmətkeşləri səmərəli istifadə edirlər.

Kitabxananın müdiri **Şamil Hacıyev** oxucularla onların istifadə etdikləri kitablar üzərində tez-tez sual-cavablar təşkil edir. Kitabxanada hər ay oxucuların konfransı və əbədi-bədii gecələr keçirilir. Bu günlərdə şair **Səməd Vurğunun** "Vaqif" dramasının müzakirəsi olmuşdur.

Kitabxananın 100 nəfər daimi oxucu vardır. Oxuculardan Zakir Qasımov, Abbas Hüseynov, Həmzə Əhmədov hərəsi son 6 ay ərzində 8-10 müxtəlif kitab oxumuşdur.

***“ Şərq qapısı”qəzeti, 3 avqust 1956-cı il***

## Yeni tikintilər

Naxçıvan rayonundakı Zeynəddin kəndində keçən il 4 otaqdan ibarət kolxoz idarə heyəti üçün bina, klub, 100 baş inək tutan yeni tipli tövlə, 380 tonluq silos qülləsi tikilib istifadəyə verilmişdir, 18 nəfər kolxozçu yeni tikdikləri yaşayış binalarına köçmüşdür.

Kəndə telefon xətti çəkilmiş, bütün kolxozçu evləri başdan-başa radiolaşdırılmışdır. Hazırda 22 nəfər kolxozçu özünə yeni yaşayış binası tikdirir.

***H.Məmmədov,***
***“ Şərq qapısı”qəzeti, 12 avqust 1956-cı il***

## Sabir adına kolxozda

Naxçıvan rayonundakı Sabir adına kolxozun üzvləri bu il bol üzüm məhsulu yetişdirmişlər. Mütəşəkkil hazırlığın nəticəsidir ki, kolxozçular dövlətə illik üzüm tədarükü planını 137,4 faiz yerinə yetirmişlər. Hələlik tədarük məntəqəsinə 140 tona qədər məhsul təhvil verilmişdir. Üzümçülər bundan sonra öhdəlik hesabına 60 ton məhsul təhvil verməyi qərara almışlar.

Bol üzüm məhsulu götürülməsində **Mirzə Vəliyev və Səməd Məhərrəmov** yoldaşların başçılıq etdikləri briqadaların üzvləri xüsusilə fərqlənmişlər. Oktyabrqabağı sosyalizm yarışının ön sıralarında gedən bu briqadaların üzvləri illik planı iki yarım dəfə yerinə yetirmək əzmindədirlər.

***M. Seyidov,***
***“ Şərq qapısı”qəzeti, 21 oktyabr 1956-cı il***

## Qabaqcıl briqada və manqalar

**Anaqız Piriyeva** – Sabir adına kolxozun manqa başçısı. İllik pambıq təhvili planının ödənilməsini 151 faizə çatdırmışdır.

**Lalə Quliyeva** – Sabir adına kolxozun manqabaşçısı. 10 hektar sahənin hər hektarından 28,9 sentner məhsul götürmüşdür.

**Çox panbıq yığanlar**

**Şəfiqə Qasımova** – Sabir adına kolxozun üzvü- 6.550 kiloqram.

**Səriyyə Əliyeva** – Sabir adına kolxozun üzvü -6.550 kiloqram.

**Hava Nəbiyev** – Sabir adına kolxozun üzvü -6.535 kiloqram.

***" Şərq qapısı"qəzeti, 4 noyabr 1956-cı il***

## Sabir adına kolxoz illik pambıq təhvili planını ödəmişdir

Naxçıvan rayonundakı Sabir adına kolxozun üzvləri qonşu Jdanov adına kənd təsərrüfatı arteli üzvləri ilə bağladıqları sosyalizm yarışın şərtlərinə əməl edərək dövlətə illik pambıq tədarükü planını artıqlaması ilə yerinə yetirdilər. Kolxozda hər hektardan 23,8 sentner məhsul toplanmışdır ki, bu da keçən ilkindən 6 sentner artıqdır.

Planın ödənilməsində **Hüseyn Məmmədov** yoldaşın başçılıq etdiyi briqadanın üzvləri xüsusilə fəallıq göstərmişlər. Bu briqada 40 hektar sahənin hər hektarından 23,5 sentner əvəzinə 29 sentner məhsul tədarük edilmişdir. Anaqız Piriyeva yoldaşın başçılıq etdiyi manqanın üzvləri təhkim edilmiş əkin sahəsindən 16,5 ton əvəzinə 25 ton pambıq yığmışlar.

**Lalə Quliyeva və Məmməd Həsənov** yoldaşların manqaları da məhsuldar işləmişlər. Bu manqaların hər biri nəzərdə tutulduğundan 40 sentner artıq pambıq istehsal etmişdir.

Kolxozun gəliri keçən ilə nisbətən 400 min manat artmışdır. Bunun nəticəsində kolxozçuların əmək-gününə bölünən pul və kənd təsərrüfatı məhsulları xeyli artmışdır. Hər əməkgünə avans olaraq 7 manat pul, 400 qram üzüm, 2 kiloqram taxıl və sairə məhsullar bölünmüşdür.

*" Şərq qapısı"qəzeti, 7 dekabr 1956-cı il*

## Naxçıvan MSSR kənd təsərrüfatı sərgisində

Gündüz saat 12-də gözəl bəzədilmiş böyük bir binanın qarşısı tamaşaçılarla dolmuşdu. Burada muxtar respublikanın kənd təsərrüfatı qabaqcılları, mütəxəssisləri, mexanizatorları və elmi işçiləri, habelə partiya, sovet təşkilatlarının nümayəndələri var idi. Hamı səbirsizliklə Naxçıvan MSSR kənd təsərrüfatı sərgisinin açılışını gözləyirdi.Qapı başında qırmızı parça ilə bəzənmiş geniş bir lövhə üzərində parlayan elektrik lampaları nəzəri cəlb edirdi. Burada yazılmışdır:

- Naxçıvan MSSR kənd təsərüffatı sərgisi!

## Üzümçülük sahəsində

Üzümçülükdə Şahbuz rayonunun Kalinin adına, Şaumyan adına, Culfa rayonunun Lenin adına, Naxçıvan rayonunun Kaqanovic adına və **Sabir adına kolxozlarının** yüksək məhsul istehsal etdikləri sərgidə xüsusi yer tutur. Həmin kolxozlar dövlətə nəzərdə tutulduğundan xeyli artıq, üzüm məhsulu vermişlər.

*" Şərq qapısı"qəzeti, 21 dekabr 1956-cı il*

# <u>1957-ci il</u>

## Yaz tarla işlərinə hazırlaşırlar

Naxçıvan rayonundakı Sabir adına kənd təsərrüfatı artelinin üzvləri Sov.İKP MK-nın dekabr Plenumu qərarına əməli işlə cavab verərək yaz tarla işlərinə ciddi hazırlıq görürlər. Burada bütün kənd təsərrüfatı alətlərinin təmiri başa çatdırılmış və yazda əkiləcək 80 hektar dənli bitkilər üçün kifayət qədər toxum tədarük edilmişdir. Kolxozda tarlalara 200 ton yerli kübrə daşınmış və 60 ton mədən kübrəsi əldə olunmuşdur.

**H.Məmmədov (Hüseyn-Ə.H)** yoldaşın başçılıq etdiyi briqadanın üzvləri yaza hazırlıqda ciddi fəallıq göstərirlər. Onlar bu il hər hektardan 35 sentner pambıq, 20 sentner taxıl toplamaq üçün sosyalizm yarışının ön sıralarında gedirlər. **Abbas Sadıqov** yoldaşın briqadası da yaza hazırlıqda qabaqcıllar sırasındadır. Bu günlərdə burada keçirilən yığıncaqda çıxış edən A.Sadıqov yoldaş bildirmişdir:

– Briqadanın üzvləri keçən il olduğu kimi bu ildə məhsuldar işləməyi vəd etmişlər. Onlar hər hektardan 40 sentner pambıq və 20 sentner taxıl götürməyi öhdələrinə almışlar. Buna nail olmaq üçün briqadanın üzvləri yaz tarla işlərinə tam hazırlıqla başlayacaqlar.

***M.Rzayev,***
***"Şərq qapısı" qəzeti, 20 yanvar 1957-ci il***

## Kolxozlarda hesabat və hesabat-seçki yığıncaqları

Muxtar respublikamızda bir neçə gündür ki, hesabat və hesabat-seçki yığıncaqları başlanmışdır...

Lakin keçən illərdə bəzi rayonlarda kolxoz sədrləri yaxşı seçilmədiyindən iş nəinki düzəlməmiş, hətta daha da pisləşmişdir. Bu onun nəticəsidir ki, zəif, təşəbbüssüz və təsərrüfata yaxşı bələd olmayan bəzi adamlar kolxoz idarə heyətinin sədri vəzifəsinə məsləhət görülmüşdür.

Naxçıvan rayonundakı Sabir adına, "26 komissar", M.F.Axundov adına, Əzizbəyov adına kolxozların sədrləri **Z.Hənifəyev**, F.Bayramov, M.B.Nəcəfov, İ.Hacıyev; Ordubad rayonundakı... və başqaları beləlləri sıralarındadırlar...

***"Şərq qapısı" qəzeti, 23 yanvar 1957-ci il***

***Qeyd:*** *Qəzetin baş məqaləsində qərəzçiliyə yol verilib. Ötən müddətdə dəfələrlə Sabir adına kolxozun uğurlarından bəhs edən məqalələr dərc edilib. 26 iyun 1957-ci il nömrəsində bildirilir ki, sərgiyə dəvət olunub. "Unudulmaz Zeynalabidin müəllim" məqaləsini oxu.*

## Heyvandarlarımızın öhdəçiliyi

Sosyalizm yarışına qoşulan ferma işçilərimiz bir sıra öhdəçiliklər qəbul etmişlər. Bu öhdəçiliklər mal-qaranın sayını və məhsuldarlığını əhəmiyyətli dərəcədə artırmaqdan ibarətdir. Buna görə də biz qoyunçuluq femasında döl kampaniyasının mütəşəkkil keçirilməsinə ciddi fikir veririk. Fermamızda olan 460 baş ana qoyundan 500 quzu alınması təmin ediləcəkdir.

Heyvandarlarımız inəklərdən də 100% bala almağı və süd məhsulunu xeyli artırmağı, hər inəkdən azı 900 kiloqram süd sağmağı vəd etmişlər. Sağıcılardan Əfruz Həsənova, Zəhra Həsənova, Rubabə Hacıyeva, Naroş Hüseynəliyeva və Nərgiz Seyidova yoldaşların bəslədiyi inəklərdən 100% bala alınmışdır. Onlar indi inəkləri və buzovları qayğı ilə saxlayırlar. Hər inəkdən orta hesabla gündə 5-8 kiloqram süd sağılır.

İnəklərin yemlənməsi və döl kampaniyası zootexnik Hüseyn Quliyev yoldaşın nəzarəti altında keçirilir. Hər inəyə verilən yemin miqdarı müəyyən edilərkən inəyin çəkisi, verdiyin südün miqdarı və yağlılıq dərəcəsi nəzərə alınır.

***İ.Vəliyev,***
***Naxçıvan rayonundakı Sabir adına kolxozun sədri.***
***"Şərq qapısı" qəzeti, 22 mart 1957-ci il***

## Çiyid səpini qurtarmışdır
## Naxçıvan rayonunda

Sabir adına kolxozda (sədri İ.Vəliyev, ilk partiya təşkilatının katibi Ə.Əhmədov yoldaşlardır) çiyid səpini qısa müddətdə başa çatdırılmışdır. Naxçıvan MTS-indən Firudin Qocayev yoldaşın başçılıq etdiyi traktor briqadasının mexanizatorları bütün əkin sahələrində səpini mütərəqqi üsulla, o cümlədən **Fatma Piriyeva yoldaşın başçılıq etdiyi manqanın** 10 hektarlıq sahəsində kvadrat-yuva üsulu ilə keçirmişlər. Kolxozda sahələrin hamısına «24-21» növlü tez yetişən çiyid səpilmişdir.

Səpində universalçılardan **Vəli Vəliyev** yoldaş xüsusi ilə fərqlənmişdir. Pambıq əkinində **Hüseyn Məmmədov** və **Abbas Sadıqov** yoldaşların başçılıq etdikləri tarlaçılıq briqadaları daha fəal iştirak etmişlər. Bu briqadaların pambıqçıları hər hektardan 30 sentner məhsul götürmək uğrunda mübarizə edirlər. Bu sahədə kolxozun aqranomu **Y.Hacıyev** (Yaqub-Ə.H) yoldaş pambıqçılara yaxından kömək göstərir.

***"Şərq qapısı" qəzeti, 24 aprel 1957-ci il***

## Yeni tibb məntəqəsi

Naxçıvan rayon səhiyyə şöbəsi Zeynədin kəndində yeni feldşer-mama məntəqəsi təşkil etmişdir. Məntəqə münasib binada yerləşdirilmiş və lazımi avadanlıqla təchiz olunmuşdur. Feldşer məntəqəsinin **müdiri Fərrux Nəbiyev** yoldaş ilk günlərdən başlayaraq zəhmətkeşlərə nümunəvi tibb xidməti göstərir. O, tez-tez səhiyyə maarifinə aid mühazirə və söhbətlər təşkil edir.

***M.Əliyev,***
***"Şərq qapısı", 7 may 1957-ci il***

## Kənd abadlaşır

Naxçıvan rayonunun Zeynədin kəndində abadlıq və mədəni quruculuq işləri getdikcə genişlənir. Keçən il 4 otaqdan ibarət kolxoz idarə heyəti üçün bina tikilib istifadəyə verilmiş, 100 baş inək tutan yeni tipli tövlə, 400 tonluq silos qülləsi tikilmiş, 46 nəfər kolxozçu ailəsi yeni yaşayış evinə köçmüşdür. Kənd başdan-başa radiolaşdırılmış və kolxoz idarəsinə telefon xətti çəkilmişdir.

May bayramı ərəfəsində Zeynədin kəndində yeni elektrik matoru istifadəyə verilmişdir.

Kolxozda yeni klub binası tikilir. Həmin binanın tikilişi bu il başa çatdırılacaqdır. 30 nəfərdən artıq kolxozçu da özünə yaşayış evi tikdirməkdədir.

***M.Əliyev,***
***"Şərq qapısı" qəzeti, 15 may 1957-ci il***

## Fatma Quliyevanın manqasında

Naxçıvan rayonundakı Sabir adına kolxozda Fatma Quliyeva yoldaşın başçılıq etdiyi manqanın üzvləri pambıq sahələrinin becərilməsində irəlidə gedirlər. Bu manqanın üzvləri hər hektarda məhsuldarlığı 50 sentnerə çatdırmaq uğrunda mübarizə aparırlar. Onlar buna nail olmaq üçün sahələrin üçüncü kompleks becərilməsini və bitkilərə birinci yemləmə kübrəsi verilməsini yüksək səviyyədə başa çatdırmışlar.

Qabaqcıl pambıqçılardan **Leyla Novruzova** və **Sevil Vəliyeva** yoldaşlar becərmədə fəallıq göstərir və gündəlik tapşırığa artıqlaması ilə əməl edirlər.

***M.Abdullayev,***
***"Şərq qapısı" qəzeti, 28 iyun 1957-ci il***

## Fərdi evlər tikintisi genişlənir

Naxçıvan rayonundakı Sabir adına kolxozun gəliri ildən-ilə artır. Əməkgünlərə daha çox pul və kənd təsərrüfatı məhsulları bölünür. Bütün bunlar fərdi tikintini genişləndirməyə imkan verir.

«SSRİ-də mənzil tikintisini genişləndirmək haqqında» Sov.İKP Mərkəzi Komitəsi və SSRİ Nazirlər Sovetinin qərarı kənd zəhmətkeşlərinin böyük ruh yüksəkliyinə səbəb olmuşdur. **Kolxozçu Mirzə Vəliyev** partiya və hökumətin qərarı ilə tanış olduqdan sonra demişdir:

–Mənzil tikintisini genişləndirmək haqqında partiya və hökumətin qərarı zəhmətkeşlərin həyat şəraitini yaxşılaşdırmaq və xalqın rifahı üçün göstərilən qayğının parlaq təzahürüdür. Kəndimizin siması gündən-günə dəyişir, hər il yeni-yeni yaşayış binaları tikilir. Son iki ildə 40 nəfərədək adam (ailə-Ə.H) yeni mənzilə köçmüdür.

Kolxozun üzvü **İslam Həsənov** söhbətə qoşularaq demişdir ki, altıncı beşillikdə kəndlərdə fərdi yaşayış evləri tikintisinin həcmi təxminən iki dəfə genişləndiriləcəkdir. Bizim Zeynədin kəndində də fərdi evlər tikintisi getdikcə artacaqdır. Hazırda kəndimizdə 40 nəfərdən artıq adam yeni ev tikdirmişdir.

***"Şərq qapısı" qəzeti, 9 avqust 1957-ci il***

## Çoxlu yem tədarük edirlər

Naxçıvan rayonunun bir sıra kolxozları ot çalınını yüksək səviyyədə başa çatdırmışlar.

Şahverdiyev yoldaşın sədr olduğu C.Məmmədquluzadə adına kalxozda 25 hektar birillik ot sahələrinin və üç hektar təbii biçənəyin məhsulu vaxtında toplanmışdır. Kolxozda çoxillik ot əkini sahələrində ikinci çalın başa çatdırılmaq üzrədir. Bunun nəticəsində kolxozçular plandan əlavə 8 ton yem toplamışlar. Kolxozda 480 ton əvəzinə 650 ton silos basdırılmışdır.

Yem tədarükündə rayondakı **Sabir adına və Voroşilov adına** kolxozlar da irəlidə gedirlər. Kirov adına kolxozda 240 tona qarşı 300 ton silos basdırılmış, 20 hektar birillik ot əkini sahələrinin və 2 hektar biçənəyin məhsulu vaxtında toplanıb tayaya vurlmuşdur.

**Sabir adına kolxozda** gözəl imkan və şəraitdən yaxşı istifadə olduğundan qısa müddətdə 288 tona qarşı 371 ton ot tədarük edilmişdir. Burada plandan əlavə 20 ton silos basdırılmışdır.

***T.Qurbanov,***
***"Şərq qapısı" qəzeti, 8 sentyabr 1957-ci il***

## On gündə 44 faiz

Kolxozumuzda sentyabrın üçüncü ongünlüyündə illik planın 44 faizi qədər məhsul tədarük edilmişdir. Bu sahədə **Abbas Sadıqov yoldaşın** başçılıq etdiyi briqadanın pambıqçıları daha fəal işləmişlər. Briqadada **Fatma Piriyeva yoldaşın manqası** indiyədək dövlətə pambıq tədarükü planını 80 faiz yerinə yetirmişdir. Manqanın üzvləri hər hektardan 45 sentner pambıq toplamaq uğrunda ciddi səy göstərirlər.

**Hüseyn Məmmədov yoldaşın başçılıq etdiyi briqadada** pambıq yığımı mütəşəkkil keçirilir. Bu briqadanın pambıqçıları gündə yığım tapşırığını 150-160 faiz yerinə yetirirlər. **Anaqız Piriyeva və Bayraməli Quliyev** yoldaşların başçılıq etdikləri manqalar yarışda daha görkəmli müvəffəqiyyətlər qazanırlar.

Kolxozumuzun pambıqçıları dövlətə illik pambıq tədarükü planını oktyabrın ikinci ongünlüyündə yerinə yetirəcəklər.

***İbrahim Vəliyev,***
***Sabir adına kolxozun sədri, ağranom***
***"Şərq qapısı" qəzeti, 4 oktyabr 1957-ci il***

## 1958-ci il

### Sabir adına kolxozda

Naxçıvan rayonundakı Sabir adına kolxozun iqtisadiyyatında üzümçülük mühüm yer tutur. Burada 80 hektardan artıq üzüm bağı vardır. Kolxozçular hər il bu bağlardan çoxlu gəlir əldə edirlər.

Bu il kolxozun üzvləri üzüm sahələrinin hər hektarından azı 80 sentner məhsul götürməyi öhdələrinə almışlar. Onlar bu öhdəçiliyi yerinə yetirmək üçün yazın ilk günlərindən başlayaraq bağların becərilməsinə qayğı göstərirlər.

Bu sahədə **Hüseyn Məmmədov** yoldaşın başçılıq etdiyi bağçılıq briqadasının üzvləri xüsusilə irəlidə gedir. Briqadadakı 40 hektar üzümlük vaxtında, nümunəvi bellənib qurtarmışdır. Briqadanın üzvləri hər hektara orta hesabla 300 kq mədən kübrəsi və 10 ton peyin vermişlər.

Qabaqcıl üzümçülərdən Xədicə Əliyeva, Fatma Quliyeva, Məsmə Heydərova, Surə Hüseynova və başqaları bağların becərilməsindən, gündəlik tapşırığı 120 -130 faiz yerinə yetirirlər.

***Məmədvəli Həbiyev,***
***"Şərq qapısı" qəzeti, 25 may 1958-ci il***

### Bir neçə sətirdə

Naxçıvan rayonunun Zeynəddin kəndindəki dükan yeni binaya köçürülmüşdür.

***Abbas Hüseynov,***
***"Şərq qapısı" qəzeti, 4 iyun 1958-ci il***

### Pambığın becərilməsi sürətləndirilməlidir

Kolxozumuzun üzvləri bir neçə ildir ki, qonşu Jdanov adına kənd təsərrüfatı artelinin üzvləri ilə yarışırlar. Bu yarış hər

iki kolxozun təşkilat-təsərrüfatca möhkəmlənməsinə və kolxozçuların güzəranının daha da yaxşılaşmasına kömək edir. Bu günlərdə kolxozumuzun nümayəndə heyəti yarışdığımız kolxoza gedərək sosialist öhdəliklərinin yerinə yetirilməsi ilə tanış oldu. (… Ə. Hümmətov)

Biz əminik ki, Jdanov adına kolxozun üzvləri göstərilən nöqsanları aradan qaldıracaq və təsərrüfat ilini yüksək göstəricilərlə başa vuracaqlar.

Sabir adına kolxozun yoxlama briqadası: Qasım Muradov-manqa başçısı, Həsən Əliyev –briqada başçısı, Əkrəm Həsənov-ağranom, Balabəy Hacıyev- hesabdar, Hüseyn Məmmədov-kolxoz partiya təşkilatının katibi, Müzəffər Əhmədov- Naxçıvan rayon partiya komitəsinin təlimatçısı.

***"Şərq qapısı" qəzeti, 11 iyun 1958-ci il***

**45 kiloqram əvəzinə 83 kiloqram barama**

Naxçıvan rayonundakı Sabir adına kolxozun kümçüləri keçən il olduğu kimi bu ildə baramaçılqdan bol məhsul götürmüşlər. Kolxoz ayın 19-dək dövlətə 500 kq barama təhvil vermişdir. Təcrübəli kümçülərdən **Hənifəyev** yoldaş bəslədiyi barama qurdu toxumunun hər qutusundan 45 kq əvəzinə 83 kq birinci növ məhsul götürmüşdür.

***Əli Hümmətov,***
***"Şərq qapısı" qəzeti, 22 iyun 1958-ci il***

# 1959-cu il

### 1959-cu ildə

- Muxtar Respublikamızın 40 kəndi elektrikləşdiriləcəkdir.
- Naxçıvan şəhərində yeni avtomat-telefon stansiyası quraşdırılıb istifadəyə veriləcəkdir.
- Naxçıvanda 10 milyon su tutumu olan Uzunoba gölü istifadəyə veriləcəkdir. Naxçıvan şəhərində ikinci su kəmərinin çəkilişi başa çatdırılacaqdır.
- Muxtar Respublikamızın şəhər, qəsəbə, rayon mərkəzləri və kəndlərində tikinti işlərinə dövlət hesabına 60 milyon manatdan artıq pul xərclənəcəkdir.
- Ordubad şəhərində yeni yaşayış evi, Culfa şəhərində mədəniyyət evi, Naxçıvan şəhərində 4, Horaşen qəsəbəsində 2 yaşayış evi istifadəyə veriləcəkdir.
- Naxçıvan şəhərində tikiş fabrikasının inşaatı başa çatdırılacaqdır.
- Muxtar Respublikamızın kolxozlarında yem bitkilərinin əkin sahəsi 671 hektar, qarığıdalının əkin sahəsi 100 hektar genişləndiriləcəkdir. Kolxozlarda 397 hektar sahədə yeni üzümlük, 55 hektar sahədə meyvə bağları, 140 hektar sahədə yeni tutluq salınacaq və 215 min ədəd ucaboylu tut ağacı əkiləcəkdir.
- Muxtar Respublikamızda mədəni-məişət tədbirlərinin həyata keçirilməsinə 53 milyon manatdan artıq pul xərclənməsi nəzərdə tutulmuşdur.
- Naxçıvanda ildə 5 milyon ədəd kərpic buraxan zavod, Şahtaxtıda ildə 5 min ton əhəng istehsal edən zavod, Horaşendə ildə 2 milyon kərpic, Ordubadda ildə bir milyon kərpic buraxan zavodların tikintisinə başlanacaqdır.
- Sədərək düzünü suvarmaq üçün elektrikləşdirilmiş sudartan quraşdırılacaqdır. Culfa və Ordubadda yeni universal

mağazalar və respublikamızın kəndlərində 9 yeni mağaza tikiləcəkdir.

- Naxçılvan şəhərində 4, Noraşen, Ordubad və Şahbuz rayon mərkəzlərinin hərəsində bir yaşayış evi, Naxçıvan şəhərində uşaq bağçası və mehmanxana üçün binaların tikilişinə başlanılacaqdır.

***“Şərq qapısı” qəzeti, 1 yanvar 1959-cu il***

## Naxçıvan rayonundakı Türyan arxı

Naxçıvan rayonundakı Türyan arxının üzərində bu il yeni hidrotexniki qurğu tikilib istifadəyə verilmişdir. Həmin qurğu vasitəsilə Vayxır selovundan suyun müntəzəm keçməsi üçün geniş imkan yaradılmışdır. Eyni zamanda bu qurğu vasitəsilə rayondakı Orconikidze adına, H. Aslanov adına, Jdanov adına, Mikoyan adına, **Sabir adına kolxozların** əkin sahələrinin vaxtında suvarılması təmin edilmişdir. Qeyd etmək lazımdır ki, göstərilən kolxozlar əvvəllər yaz fəslində selin qarşısını almaq üçün külli miqdarda torpaq işi görməyə məcbur olurdular.

Qurğunun tikilməsi ilə əlaqədar olaraq kolxozlarda xeyli işçi qüvvəsinə qənaət edilmişdir.

Qurğu Naxçıvan MCCR su təsərrüfatı idarəsi mütəxəssislərinin rəhbərliyi altında tikilib başa çatdırılmışdır. Bu işdə mühəndislərdən Vasili Artyomov, Kazım Qasımov, texnik M. Əli Novruzov, şofer Əli Məmmədov, ekskavatorçu İvan Dolmatov və başqaları fərqlənmişlər.

***R.Rəşidovun,***
***“Şərq qapısı” qəzeti, 1 yanvar 1959-cu il***

***Qeyd:*** *Mətnin əvvəlində qurğunun ön tərəfdən görünüşünün fotosu verilib. Foto keyfiyyətsizdir.*

## Kitabxana yaxşı işləyir

Naxçıvan rayonunun Zeynədin kəndindəki kitabxana öz işini günün tələbləri əsasında qurmuşdur. Burada müntəzəm olaraq Sov. İKP MK Plenumlarının tarixi sənədləri müzakirə edilir. Hazırda Sov. İKP XXI qurultayının materialları haqqında kolxozçularla söhbətlər keçirilir. Kitabxanada əyani və şifahi təşviqata geniş yer verilir.

Kitabxananın müdiri **Adil Hacıyev** yaxşı işi ilə kənd zəhmətkeşlərinin hörmətini qazanmışdır.

Kitabxanada ədəbiyyat fondunun zənginləşdirilməsilə əlaqədar olaraq oxucuların sayı artırmışdır. İndi burada 170 nəfər daimi oxucu vardır. Kolxozçular, kənd ziyalıları kitabxanada keçirilən oxucular konfransı və kitab müzakirələrində fəal iştirak edirlər.

Kitabxanada Sov. İKP XXI qurultayı materiallarından ibarət sərgi təşkil edilmişdir.

Kitabxanada Azərbaycan SSR, Naxçıvan MSSR Ali Sovetlərinə seçkilərlə əlaqədar olaraq söhbətlər də keçirilir.

***Oruc Qəhrəmanov,***
***"Şərq qapısı" qəzeti, 11 fevral 1959-cu il***

## Anaqız Piriyevanın manqasında

Naxçıvan rayonundakı Sabir adına kalxozda Anaqız Piriyevanın başçılıq etdiyi manqa pambığın becərilməsində irəlidə gedir. Manqanın 12 hektar kvadrat-yuva üsulu ilə əkilmiş pambıq tarlasında indiyədək üç dəfə kompleks becərmə keçirilmişdir.

Manqanın üzvləri pambıq kollarının arasındakı alaq otlarını vaxtında təmizləyir və pambığa zərərvericilərə qarşı mübarizə tədbirlərini əvvəlcədən yerinə yetirirlər. Manqanın aqrotexnika qaydaları əsasında becərilmiş əkin sahəsində pambıq kolları inkişaf edərək qol-budaq atmağa başlamışdır.

***Məşdi Əliyev,***
***"Şərq qapısı" qəzeti, 16 iyun 1959-cu il***

## Aqronomlar kolxozçuların yaxın köməkçiləri olmalıdır

Naxçıvan rayonundakı Sabir adına kolxozda **Əli Əsgərov yoldaşın** başçılıq etdiyi briqadanın üzvləri 25 hektar sahənin hər hektarından 21,5 sentner əvəzinə 40 sentner məhsul götürmək uğrunda mübarizəyə qoşulmuşdur.

Briqadanın üzvləri torpağın əkinə hazırlanmasından başlayaraq bütün işləri yüksək səviyyədə görmüşlər. Burada pambığın dördüncü kompleksli becərilməsi qurtarmaq üzrədir. Mexanizatorlardan **İbrahim Musayev** tarlalara kultivasiya çəkilməsində fəal iştirak edərək tapşırığı hər gün artıqlaması ilə yerinə yetirir.

Pambığın yüksək səviyyədə becərilməsi **Anaqız Piriyevanın manqasında** daha yaxşı təşkil edilmişdir. Sov. İKP MK iyun Plenumunun Müraciətindən ruhlanan manqa üzvləri becərmə tapşırıqlarını hər gün 130-135 faiz yerinə yetirirlər.

Lakin təssüflə qeyd etmək lazımdır ki, kolxozun aqronomu İbrahim Əsədov yoldaş yüksək panbıq məhsulu uğrunda mübarizədə kolxoz kəndi adamlarına yaxından kömək etmir. Burada bitkilərə əlavə yemləmə gübrəsinin verilməsi unudulmuşdur. Gətirilmiş azot gübrəsinin çoxu yolda dağılmış, qalan hissəsi isə istifadəsiz halda pambıq tarlaların yanında tığ vurulmuşdur. Sahələrin çox yerində alaq otlarına rast gəlmək olar.

Rayonun bir sıra başqa kolxozlarında da aqronomlar pambığa əlavə yemləmə gübrəsi verilməsi ilə yaxından məşğul olmurlar...

***Hüseyn Abbasov,***
***Naxçıvan rayon kənd təsərrüfatı müfəttişliyinin aqronomu.***
***"Şərq qapısı" qəzeti, 7 iyul 1959-cu il***

## Becərmə mütəşəkkil keçirilir

Naxçıvan rayonundakı Sabir adına kalxozun üzvləri pambığın becərilməsini mütəşəkkil keçirirlər. Qabaqcıl biriqada və manqalarda bu iş daha yaxşı təşkil edilmişdir. **Qasım Muradov yoldaşın başçılıq etdiyi biriqadanın** üzvləri dördüncü becər-

məni aqrotexniki səviyyədə başa çatdırmışlar. Sahələrdə ikinci suvarma mütəşəkkil keçirilmişdir.

Hər hektardan 45 sentner məhsul götürmək uğrunda mübarizə edən Anaqız Piriyevanın manqası bir neçə gündür ki, beşinci becərəməyə başlamışdır.

Biri-birilə yarışan **Muxtar Quliyev və Şakir Qasımov** yoldaşlarının başçılıq etdikləri komsomolçu-gənclər manqaları pambığın məhsuldarlığını hər hektarda 45-50 sentnerə çatdırmaq uğrunda mübarizə edirlər. Həmin manqalarda dördüncü becərmə başa çatdırılmışdır. Kolxozun mexanizatoru **İbrahim Musayev** sahələrə keyfiyyətli kultivasiya çəkir, gündəlik tapşırığı artıqlamasilə ilə yerinə yetirir.

***Məşdi Əliyev,***
***"Şərq qapısı" qəzeti, 22 iyul 1959-cu il***

## AŞIQ DƏDƏKİŞİ



Aşıq – xalq sənətkarıdır. O, xalqla nəfəs alır, onun istək və arzularını tərənnüm edir, onun qəmli günündə kədərlənir, şad günündə isə fərəhlənir. Aşıq yaradıcılığı xalqla və dövrlə birlikdə inkişaf etmiş və səslənmişdir. Ələsgər, Şəmşir, Xəstə Qasım, Qurbani, Tufarqanlı Abbas və başqa aşıqlar inqilabdan əvvəlki dövrün haqsızlıq və çirkinliklərini görüb duymuş, öz həcvlərini əsasən bəylərə, ruhanilərə və digər müftəxorlara qarşı çevirmişlər.

Haqqında danışacağımız Dədəkişi Əliyev də qocaman aşıqlar nəslinə mənsubdur. O, uzun müddət məclislərin, toyların, şənliklərin yaraşığı olmuşdur.

**Aşıq Dədəkişi 1878-ci ildə Naxçıvan rayonunun Zeynədin kəndində anadan olmuşdur.** O, hələ kiçik yaşlarından özü kimi yoxsul həmkəndlilərinin keçirdiyi acınacaqları güzəranı görüb duyurdu. Aşıq Dədəkişi inqilabdan əvvəlki çirkin həyatı sonralar belə təsvir etmişdi:

*O zaman ac qalıb ölməyək deyə*
*Gecəli-gündüzlü işlədik bəyə.*
*Həsrət qaldıq bir doyumluq çörəyə,*
*Görün necəydi keçmiş zamanlar.*

Sallılı aşıq Cəlilin Dədəkişiyə böyük təsiri olmuşdur. O, bu haqda deyir:

- Sallılı Cəlil yaxşı aşıq idi. Onun qoşmaları dildən-dilə gəzirdi. Mən bütün gün yeyib-içmədən ona qulaq asmağa hazır idim. Məclislər yaraşığı ustad aşıq Ələsgəri lap kiçik yaşlarımdan mənə sevdirən də aşıq Cəlil olmuşdur. O, çox bilirdi, mahir ifaçılıq qabiliyyətinə malik idi. Cəlil – əsl aşıq idi, o, heç zaman «bilmirəm, yadımdan çıxıb» deməzdi.

Aşıq Dədəkişi qüvvətli nəqletmə bacarığına, özünə məxsus şirin və səlis dilə malikdir. Aşıq Dədəkişi bir çox xalq dastanlarını, Ələsgərin, Şəmşirin, Sallılı Cəlilin və başqa ustad aşıqların onlarca qoşmasını əzbər bilir.

Azərbaycanda Sovet hakimiyyəti qurulan zaman Dədəkişinin yaşı 42-ni ötmüşdü. O, sanki yenidən cavanlaşdı. Aşıq Dədəkişinin sazında kədər deyil, sevinc səsələnməyə başladı. (...Ə. Hümmətov)

Dədəkişi müşahidəçi aşıqdır. Muxtar respublikamızda Badamlı və Sirab mədən suları istifadəyə verilməyə başlarkən qocaman aşıq buna çox sevinmiş və demişdir:

*Alimlərin sayəsində tapılıb*
*Naxçıvanda gözəl mədən suları.*
*Yoxladıqda çox faydalı çıxıbdır,*
*Artacaq yurdumun sərvəti, varı.*
*Sirab suyu Narzan suyudur desəm,*
*Ondan içsən çoxlu xeyir görərsən.*
*Danışanda Badamlıdan deyəsən,*
*Butılkası Moskvada satılır.*

Aşıq Dədəkişi eyni bir ruh yüksəkliyi, eyni bir məhəbbətlə muxtar respublikamızın ən faydalı mədən sularından biri olan Şorsuyu (Vayxır suyunu) bu cür nəzmə çəkmişdir:

*O zaman ki, qədəm qoyanda yaza*
*Tərifin yayılır hər yana, Şorsu.*
*Yamacında lalə, nərgiz açılır,*
*Bənzərsən hər zaman Muğana, Şorsu.*
*Qaynayıb qalxırsan qayanın üstə,*
*Qız-gəlin yanında bağlayır dəstə.*
*Şəfa tapır sənə hər gələn xəstə,*
*Bənzərsən elə bil loğmana, Şorsu.*

Aşıq Dədəkişi qocalmışdır. Indi onun 82 yaşı vardır. Yaşının çox olmasına baxmayaraq aşıq Dədəkişi bu gün də yaradıcılığından əl çəkməmişdir. Məlahətli səsini itirsə də, mahir barmaqları cavanlıqdakı kimi saz tuta bilməsə də aşıq Dədəkişi ruhən cavandır. (...Ə. Hümmətov)

***Əsgər Səfərov,***
***«Şərq qapısı» qəzeti, 17 iyul 1959-cu il***

***Qeyd:*** *«Şərq qapısı» qəzeti 15 mart 1935-ci il tarixli nömrəsində Aşıq Dədəkişinin üç şeirini vermiş və onun haqqıda yazmışdır: «Aşıq Dədəkişi 1895-ci ildə Naxçıvan rayonunun Zeynəddin kəndində anadan olmuşdur… Aşıq Dədəkişi tamamilə savadsızdır. Onun söylədiyi şeirlər xalq arasında yayılaraq şöhrətini gündən-günə artırır. 40 yaşında olan Aşıq Dədəkişinin talantı hər kəsi heyrətə salacaq dərəcədə güclüdür…»*

*Aşıq Dədəkişinin doğum tarixinin 1878-ci il yazılması məncə, həqiqətə daha yaxındır. Çünki onu mən də xatırlayıram. 1954-1961-ci illərdə kəndimizdəki 7 illik məktəbdə oxuyurdum. Yadıma gəlir ki, onun qəşəng bir atı var idi və o, həmin illərdə məhəlləmizdəki arxa nəzarət edərdi ki, qonşu Leninabad (indiki Kərimbəyli) kəndinin əkin sahələrinə aparılan suyu fərdi təsərrüfat sahibləri dağıtmasın.*

***Əşrəf Hümmətov***

## 1960-cı il

### Kitabxana oxuculara yaxşı xidmət edir

Zeynədin kəndindəki (Naxçıvan rayonu) kitabxananın müdiri Adil Hacıyev öz vəzifəsinə məsuliyyətlə yanaşır. Adil Hacıyev kitab təbliğinə ciddi fikir verir və kitab seçməkdə oxuculara yaxından kömək edir.

Kitabxanaya çoxlu qəzet və jurnal gətirilir. Oxucular istifadə etdikdən sonra həmin qəzet və jurnallar səliqə ilə saxlanılır.

Fəal oxuculardan **Vahid Əsgərov, Qurban Nəbiyev və Arif Hənifəyev** yoldaşlar kitabxananın işinə yaxından kömək edir, mədəni tədbirlərin keçirilməsində fəallıq göstərirlər.

***Şamil Əhmədov,***
***«Şərq qapısı» qəzeti, 17 yanvar 1960-cı il***

## 1961-ci il

### Şərəf lövhəsi

Gündə 100 kiloqramdan artıq pambıq yığanlar
Səriyyə Şahsuvarova – Sabir adına kolxozun üzvü
Əfruz Əhmədova – Sabir adına kolxozun üzvü
Bahar Bayramova – Sabir adına kolxozun üzvü

***«Şərq qapısı» qəzeti, 14 sentyabr 1961-ci il***

### Şərəf lövhəsi

2500 kiloqramdan artıq pambıq yığanlar
Gülara Muradova – Sabir adına kolxozdan
Misri Zeynalova – Sabir adına kolxozdan
Hafizə Nəbiyeva – Sabir adına kolxozdan

***«Şərq qapısı» qəzeti, 30 sentyabr 1961-ci il***

<u>**1962-ci il**</u>

### Pambığı nümunəvi becərirlər

Naxçıvan rayonundakı Sabir adına kolxozda bu il yüz hektar sahədə ciyid əkilmişdir. Indi pambıq sahələrində dördüncü becərmə keçirilir. **Mexanizator Nemət Əsgərov** sahələrə üç dəfə keyfiyyətli kultivasiya çəkmiş, gübrə vermiş və ziyanvericilərə qarşı iki dəfə dərmanlama işi aparmışdır. Briqadanın qabaqcıl **suçularından Kərəm Məmmədov və Məmməd Muxtarov** suyun şırımlara bərabər axmasına ciddi diqqət yetirirlər.

**Fəxrəddin Nəbiyevin manqası** becərmədə irəlidə gedir. Manqanın üzvləri bu il 11 hektar sahənin hər hektarından 27 sentner məhsul götürmək uğrunda müarizə edirlər. Kolxozçulardan Hafizə Nəbiyeva, Surə Hüseynova və başqaları gündəlik becərmə tapşırığını artıqlaması ilə yerinə yetirirlər.

**Bayraməli Quliyevin başçılıq etdiyi manqanın** üzvləri sahələri vaxtında suvarmış, gübrələmiş və ziyanvericilərə qarşı tədbir görmüşlər. Pambıqçılar hər hektardan 30 sentner məhsul götürmək üçün səylə çalışırlar.

***Sadıq Səfərov,***
***«Şərq qapısı» qəzeti, 1 iyul 1962-ci il***

### Şərəf lövhəsi

«Şərq qapısı» qəzeti redaksiyası gündəlik pambıq yığımı tapşırığını xeyli artıqlaması ilə yerinə yetirən kolxozçuları və sovxoz işçilərini Naxçıvan MSSR Kənd Təsərrüfatı Məhsulları Istehsalı və Tədarükü Nazirliyinin təqdimi ilə «Şərəf lövhəsi»nə daxil edir.

### Naxçıvan rayonu üzrə

**Hürzad Piriyeva** – Sabir adına kolxozun üzvü. O, bu mövsümdə azı 8 ton pambıq yığmağı vəd etmişdir. Hürzad

vədinə əməl etmək üçün gündə 120-130 kiloqram və daha çox pambıq toplayır.

***«Şərq qapısı» qəzeti, 11 avqust 1962-ci il***

## Yeni kino qurğusu

Naxçıvan rayonunun Zeynədin kəndindəki klubda yeni kino qurğusu qoyulmuşdur. Qurğunun mexaniki **Şamil Əhmədov** ilk gündən başlayaraq tamaşaçıların dərin hörmətini qazanmışdır. O, qurğunun saz saxlanılmasına, tamaşa zamanı lentlərin qırılmamasına və kadrların düzgün göstərilməsinə ciddi fikir verir.

***Telman Salayev,***
***«Şərq qapısı» qəzeti, 11 avqust 1962-ci il***

## Bacarıqlı Feldşer

**Fərrux Nəbiyev** xeyli vaxtdır ki, Naxçıvan rayonunun Zeynədin kəndindəki feldşer məntəqəsində müdir işləyir. O, öz işini təkcə məntəqədə oturub xəstələri qəbul etməklə bitmiş hesab etmir. F.Nəbiyev tez-tez məntəqənin əhatə etdiyi kəndlərə gedərək burada həyətlərin, küçələrin və ictimai yerlərin təmiz saxlanmasına nəzarət edir. Bu bacarıqlı feldşer vaxtlı-vaxtında tarla düşərgələrinə gedir, fasilə zamanı zəhmətkeşlərlə səhiyyə-sağlamlığa dair söhbət edir.

***Sadıq Səfərov,***
***«Şərq qapısı» qəzeti, 24 avqust 1962-ci il***

## Məktəblilərin köməyi

Naxçıvan rayonunun Zeynəddin kəndindəki səkkizillik məktəbin şagirdləri istirahət günlərində Sabir adına kolxozun pambıqçılarına yaxından kömək edirlər. Onlar indiyədək 10 ton məhsul toplayıb kolxoza təhvil vermişlər.

Pambıq yığımında Adil Qasımov, Qonça Hüseynova, Leylan Məmmədova, Mahirə Salayeva, Şamil Nuriyev (Şəmil – Ə.H.), Solmaz Qasımova, Fərman Nadirov, Malik Məmmədov və başqaları xüsusilə fərqlənirlər.

Yığımda şagirdlərə rəhbərlik edən **müəllim Əli Hümmətov** söhbət zamanı dedi:

- Məktəblilərimiz 20 ton məhsul toplamağı öhdəyə almışlar. Biz bu vədimizə şərəflə əməl edəcəyik.

***Qurban Fərzəliyev,***
***«Şərq qapısı» qəzeti, 4 oktyabr 1962-ci il***

**Şərəf lövhəsi**

**Surə Həsənova** – Sabir adına kolxozun üzvü. O, gündəlik yığım normasını 140-150 faiz yerinə yetirir. Surə bugünədək 3 tona yaxın «ağ qızıl» yığmışdır.

***«Şərq qapısı» qəzeti, 4 oktyabr 1962-ci il***

**Naxçıvan rayonundakı Sabir adına kolxoz dövlətə illik pambıq satışı planını müvəffəqiyyətlə ödədi**

**Pambıqçılarımızın qələbəsi**

Yeddiilliyin dördüncü ilində kolxozumuzun üzvləri 100 hektar sahədə pambıq əkini keçirmişlər. Kolxozumuzda pambıqçılıq üzrə zəngin təcrübəyə malik olan adamlar çoxdur. Onların səyi nəticəsində becərmə ilk günlərdən nümunəvi aparılmışdır. Kolxozumuzun **aqronomu Sabir Qasımovun** rəhbərliyi altında çiyid səpini, gübrələmə və bitkilərin vegetasiya dövründə boy maddəsindən düzgün istifadə edilmişdir. Əkin sahələrində 6 dəfə becərmə keçirilmiş, suvarma yüksək səviyyədə aparılmışdır. Pambığın vaxtlı-vaxtında və aqrotexniki qaydalar əsasında suvarılmasında və becərmənin yüksək səviyyədə keçirilməsində kommunist **suçu Pənah Pənahov, Kərəm Məmmədov, mexanizator Nemət Əsgərov** yoldaşların böyük əməyi olmuşdur.

Çəkdiyimiz zəhmət və göstərdiyimiz səy hədər getməmişdir. Həyata keçirdiyimiz tədbirlər sayəsində pambıq əkini sahələrində bol məhsul yetişdirməyə müvəffəq olmuşuq. Kolxozumuzun üzvləri yaxşı bilirlər ki, bol məhsul yetişdirmək işin hamısı demək deyildir. Başlıca vəzifə yetişdirilmiş məhsulu vaxtında və itkisiz toplamaqdan ibarətdir. Bunu nəzərə alaraq biz yığıma mütəşəkkil hazırlıq gördük. Kifayət qədər döşlük və bardan əldə etdik, yığılacaq məhsulu daşımaq üçün maşınlar ayırdıq.

Sosializm yarışı hər bir müvəffəqiyyətin rəhnidir. Buna görə də biz manqa, briqada və ayrı-ayrı kolxozçular arasında sosializm yarışı müqaviləsi bağlanmasını təşkil etdik. Işə mütəşəkkil hazırlıqla başlamaq yığımın sürətini gündən-günə artırmaqda bizə çox kömək göstərdi. Pambıqçılarımız hər gün illik planın 3-4 faizi qədər məhsul toplamaq üçün əllərindən gələni əsirgəməmişlər. Dünən kolxozçularımız dövlətə illik pambıq satışı planını artıqlaması ilə yerinə yetirmələri haqqında raport vermişlər. Biz pambıq əkini sahələrinin hər hektarından hələlik 17,3 sentner birinci növ məhsul götürməyə müvəffəq olmuşuq.

**Qasım Muradov** yoldaşın başçılıq etdiyi briqada pambıq məhsulunun sürətlə və itkisiz toplanması üçün bütün imkanlardan istifadə etmişdir. Briqadanın üzvləri illik planı 150 faiz yerinə yetirmək uğrunda mübarizəyə qoşulmuşlar.

**Heydər Nəsirov** yoldaşın başçılıq etdiyi manqa pambıq yığımında xüsusi fəallıq göstərmişdir. Manqanın üzvləri yığımın ilk günlərindən işə əzmlə girişərək oktyabrın 1-də illik planı ödəmişlər. Manqanın üzvləri hər hektarda pambığın məhsuldarlığını 30 sentnerə çatdırmaq məqsədi ilə sahələrdə qalan «ağ qızılı» axıradək toplamaq üçün bütün qüvvələri səfərbərliyə almışlar.

**Heydər Nəsirovun** manqası ilə yarışan **Fəxrəddin Nəbiyev** yoldaşın manqası pambığın yığılması və dövlətə satılmasında yaxşı nəticə əldə etmişdir. Manqanın üzvləri öhdələrindəki 11 hektar sahədən topladıqları məhsul hesabına illik plana 112 faiz əməl etimşlər.

**Bayraməli Quliyev** yoldaşın başçılıq etdiyi manqanın üzvləri də məhsul toplanışında irəlidə gedirlər.

Yığılmış məhsulun qəbul məntəqəsinə daşınmasında kolxozçulardan Sərvər Ibrahimov, Saleh Ismayılov, Abbas Abdullayev, Fərhad Məhərrəmov, Tofiq Əsgərov və başqalarının əməyi az deyildir. Əldə etdiyimiz müvəffəqiyyətin bir sirri də ondadır ki, kolxoz idarə heyəti, ilk partiya təşkilatı, Naxçıvan vilayət və rayon partiya komitələrinin nümayəndələri M.Həsənov, A.Hacızadə yoldaşlar əmək qabiliyyətli işçi qüvvəsinin hamısını pambıq yığımına cəlb etmişlər. Tarlada çalışan pambıqçılar üçün yaxşı mədəni-məişət şəraiti yaradılmışdır.

Ilk partiya təşkilatı pambıqçılar arasında kütləvi izahat işini genişləndirməyə ciddi fikir verir. Partiya təşkilatı kolxozçular arasında iş aparmaq üçün təcrübəli təşviqatçılar ayırmışlar. Təşviqatçılar müntəzəm olaraq tarlalara gedir, günün yenilikləri haqqında pambıqçılara ətraflı məlumat verirlər. Bu sahədə təşviqatçılardan **Adil Hacıyev, Zeynalabdin Hənifəyev** fəallıq göstərirlər.

Adlı-sanlı manqabaşçısı, Sosialist Əməyi Qəhrəmanı N.Q.Zaqlada yoldaşın məktubu kolxozumuzda oxunub müzakirə edilərkən aptel üzvlərinin bir çoxu öz üzərlərinə yeni öhdəçiklər götürmüş və əmək səylərini daha da artırmışlar. Pəri Hüseynova, Göyərçin Məmmədova, Fatma Novruzova, Lətifə Həsənova, Fatma Quliyeva, Küşvər Salayeva, Bahar Bayramova və başqalarının adlarını beləıəri sırasında çəkmək olar. Onların hər biri gündə 120-125 kiloqram pambıq toplayır. Bu qabaqcıl pambıqçılar mövsüm ərzində 8 ton «ağ qızıl» toplamaq uğrunda yarışa qoşulmuşlar.



Ölkəmizin hər yerində olduğu kimi, bizim kolxozda da Böyük Oktyabr sosialist inqilabının 45-ci

ildönümü şərəfinə sosializm yarışı getdikcə genişlənir. Hər bir manqa, hər bir kolxozçu böyük el bayramını daha çox pambıq yığmaqla qarşılamağa çalışır. Kolxozumuzun üzvləri dövlətə plandan əlavə 77 ton «ağ qızıl» satmağı öhdəyə almışlar. Indi qarşımızda duran başlıca vəzifə bütün imkanlardan bacarıqla istifadə etməklə bu vədi şərəflə yerinə yetirməkdən ibarətdir. Pambıq əkini sahələrində hələ məhsul çoxdur. Biz bundan sonra da yığımın sürətini artıracaq, öhdəçiliyimizi layiqincə yerinə yetirəcəyik.

***Əhməd Əhmədov,***
***Naxçıvan rayonundakı Sabir adına kolxozun sədri,***
***Səməd Məhərrəmov,***
***ilk partiya təşkilatının katibi***
***«Şərq qapısı» qəzeti, 7 oktyabr 1962-ci il***

***Qeyd:*** *Əhməd Əhmədov oğlu Qəşəmin qızı Məleykə ilə. Şəkil təxminən 30 il əvvəl, 1988-ci ildə çəkilib.*

*Ə.Əhmədov 1929-cu ildə anadan olub, 21 oktyabr 2004-cü ildə dünyasını dəyişib.*

## Şərəf lövhəsi

Naxçıvan rayonundakı Sabir adına kolxozun gündə 100 kiloqramdan artıq «ağ qızıl» toplayan pambıqçılarından bir qrupunu şərəf lövhəmizə daxil edirik.

Sura Hüseynova, Matı Quliyeva, Havva Nəbiyeva, Zəhra Əliyeva, Abbas Qasımov, Lala Hüseynova, Əfruz Əhmədova, Hürzad Piriyeva, Leylan Novruzova, Ceyran Qasımova, Hafizə Əliyeva.

Yuxarıda adları çəkilən bu qabaqcıl pambıqçıların hər biri mövsüm ərzində 8 ton «ağ qızıl» toplamaq uğrunda mübarizə edir.

***«Şərq qapısı» qəzeti, 7 oktyabr 1962-ci il***

***Qeyd:*** *Bütöv bir səhifə kolxozun nailiyyətlərinə həsr edilib. Səhifədə hazır məhsulun qəbul məntəqəsinə göndərilmək üçün*

*avtomaşınlara yığılması və* ***pambıqçı Fatma Əliyevanın*** *iş zamanı fotoları da verilib. F.Əliyevanın fotosunun altında yazılıb: «Sabir adına kolxozda (Naxçıvan) Böyük Oktyabr sosialist inqilabının 45-ci ildönümü şərəfinə sosializm yarışında fəal iştirak edərək görkəmli əmək qələbələrinə nail olan kolxozçular çoxdur. Belə kolxozçulardan biri də Fatma Əliyevadır.*

*Kolxozun qabaqcıl üzvü olan Fatma Əliyeva bol pambıq məhsulu yetişdirməkdə var qüvvəsini sərf edir. O, pambığın becərilməsi dövründən başlayaraq indiyədək elə bir gün olmamışdır ki, tapşırığı bir yarım – iki qat artıqlaması ilə yerinə yetirməsin. Fatma Əliyeva indi pambıq yığmaqla məşğuldur. O, hər gün azı 120-130 kiloqram pambıq toplayır».*

## Şərəf lövhəsi

**Xədicə Əliyeva** - Sabir adına kolxozun üzvü. O, bu günə qədər 2.400 kiloqram pambıq toplamağa nail olmuşdur.

***«Şərq qapısı» qəzeti, 9 oktyabr 1962-ci il***

## Öhdəçilik yerinə yetirilmişdir

Naxçıvan rayonundakı Sabir adına kolxozda **Fəxrəddin Nəbiyev** yoldaşın başçılıq etdiyi manqa qabaqcıllar sırasında gedir. Manqanın üzvləri öhdələrindəki 11 hektar sahədə yetişdirdikləri bol pambıq məhsulunu sürətlə və itkisiz toplayırlar. Onlar hər hektardan 17,3 sentner əvəzinə 25 sentner məhsul götürərək illik planı və sosialist öhdəçiliklərini yerinə yetirmişlər. Pambıq yığımında manqanın üzvlərindən Sura Hüseynova, Gülüstan Babayeva, Havva Nəbiyeva, Leylan Şahsuvarova xüsusilə fərqlənirlər. Onların hər biri indiyədək 5 tona yaxın «ağ qızıl» toplamışdır.

Manqanın üzvləri əldə etdikləri nailiyyətlərlə arxayınlaşmırlar. Onlar tarlalardakı pambığı son qozasınadək yığmaq üçün səylə çalışırlar.

**Heydər Nəsirov** yoldaşın başçılıq etdiyi komsomolçu gənclər manqası da yığımda irəlidə gedir. Manqa üzvlərinin işə can-başla girişməsi sayəsində hər hektardan 25 sentner məhsul götürülmüş, illik plana 145 faiz əməl edilmişdir. Hələ sahələrdə pambıq çoxdur. Manqanın üzvləri bir qozanın belə tarlada qalıb puça çıxmaması üçün yığımın sürətini gündən-günə artırırlar. Manqanın üzvlərindən Pəri Hüseynova, Lətifə Həsənova, Fatma Novruzova və başqalarının hər biri indiyədək 6 tona yaxın «ağ qızıl» toplamışdır.

***Ə.Məmmədov,***
***«Şərq qapısı» qəzeti, 18 noyabr 1962-ci il***

## 1963-cü il

### Yeni sinif otaqları

Naxçıvan rayonunun Zeynədin kəndindəki məktəb üçün 3 sinif otağı tikilib istifadəyə verilmişdir. Tikinti işinə kolxozun idarə heyəti yaxından kömək etmişdir. Indi aşağı siniflərin şagirdləri yeni otaqlarda oxuyurlar.

***Telman Salayev,***
***«Şərq qapısı» qəzeti, 22 fevral 1963-cü il***

### Məktublardan sətirlər

Naxçıvan rayonunun Zeynədin kəndində 75 metr dərinlikdən içməli su çıxarılmışdır. Lakin nasos texniki qaydalar əsasında qoyulmadığından az vaxt ərzində sıradan çıxmışdır. Indi qurğunun yenidən təmir edilməsi heç kəsin yadına düşmür.

***Telman Salayev,***
***«Şərq qapısı» qəzeti, 12 mart 1963-cü il***

## Düzü düz, əyrini əyri
## İdarə heyətinə tapşırılsın…

Beş-altı il bundan əvvəl kəndimizdə yaxşı bir kəhriz var idi. Heç kəs sudan korluq çəkmirdi. Ancaq kəhrizin suyu ildən-ilə azalırdı. Kolxozçular bütün yığıncaqlarda idarə heyəti qarşısında belə bir məsələ qoyurdular:

- Kəhrizi təmir edib suyu artırmaq lazımdır.

Sonra protokola «Kəhrizin təmir edilməsi idarə heyətinə tapşırılsın» sözləri yazılırdı.

Bu sözlər azı on protokola yazılsa da kəhriz təmir olunmadı. Nəhayət su tamamilə yoxa çıxdı. Uzun danışıqdan sonra kolxozun idarə heyəti kənddə artezian quyusu qazdırıb istifadəyə verdi. Lakin 3 aydan sonra quyunun nasosu sıradan çıxdı.

Indi 6 aydır ki, nasosun təmir edilməsi haqqında söhbət gedir. Bütün iclasların protokollarına bu sözlər yazılır:

- Nasosun təmir edilməsi və ya təzə nasos alınması idarə heyətinə tapşırılsın!...

***Adəm Qasımov,***
***Naxçıvan rayonunun Zeynədin kəndi***
***«Şərq qapısı» qəzeti, 17 aprel 1963-cü il***

## Plan yerinə yetirilmişdir

Naxçıvan istehsalat idarəsinin Sabir adına kolxozunda 27 qutu barama qurdu toxumu yüksək aqro-zootexnika qaydasında bəslənilmişdir. Sov.IKP MK Plenumu şərəfinə sosializm yarışını genişləndirən kənd təsərrüfatı artelinin üzvləri dövlətə 1.100 kiloqram yüksək keyfiyyətli barama məhsulu sataraq planı yerinə yetirmişlər.

Qabaqcıl baramaçılardan **Hüseyn Mənsumov** (Ə.Hümmətov: - Mənsum Hüseynov) bir qutu barama qurdu toxumundan 150 kiloqram, **Qulu Quliyev** 141 kiloqram, **Əhməd Hənifəyev**

130 kiloqram, **Abdulla Tağıyev** 121 kiloqram, **Səkinə Abdullayeva** 75 kiloqram barama götürməyə nail olmuşlar.

***«Şərq qapısı» qəzeti, 23 iyun 1963-cü il***

## Yenə də birinci olmaq üçün

Sabir adına kolxoz keçən il Naxçıvan istehsalat idarəsində birinci olaraq dövlətə pambıq satışı planını yerinə yetirmişdi. Kolxozun əməksevər üzvləri bu il də yaxşı işləyirlər. Burada pambıq əkini sahələri bir briqada və 8 manqa arasında bölünmüşdür. Kolxozçular dövlətə 240 ton əvəzinə 325 ton «ağ qızıl» satmağı öhdəyə almışlar. Bu vədin yerinə yetirilməsi uğrunda ciddi mübarizə aparılır.

**Biz briqadir Qasım Muradov** yoldaşla sahələri gəzdik. Pambıqçılar 6-cı becərməni qurtarmaq üzrədirlər. Pambıq əkini sahələrinin hamısına işgüzar **mexanizator Nemət Əsgərov** kultivasiya çəkir. O, gündəlik tapşırığa bir qayda olaraq artıqlaması ilə əməl edir.

Biz **Pənah Pənahovun** başçılıq etdiyi manqanın əkin sahəsində olanda **N.Əsgərov** cərgəarasına kultivasiya çəkirdi. Manqa üzvləri isə kultivatorun arxasınca gedərək bir dənə də alaq otunun qalmasına imkan vermirdilər. P.Pənahov yoldaş söhbət zamanı dedi:

- Keçən il manqamızın üzvləri illik tapşırığa 122 faiz əməl etmişlər. Bu il biz 18 hektar sahəyə xidmət edirik. Manqamızın üzvləri hər hektarda məhsuldarlığı 28 sentnerə çatdırmaqla illik planı 130 faiz yerinə yetirməyi öhdələrinə almışlar.

**Fəxrəddin Nəbiyev, Kərəm Məmmədov** yoldaşların başçılıq etdikləri manqalarda da becərmə tədbirləri nümunəvi yerinə yetirilir. Hər iki manqanın üzvləri bol məhsul üçün möhkəm zəmin yaratmışlar.

Kolxozda pambıq əkini sahələrinin düzgün suvarılmasına ciddi qayğı göstərilir. Abbas Məmmədov və Kərəm Məmmədov

yoldaşlar pambıq əkinlərini aqrotexnika qaydasında suvarmaq üçün əllərindən gələni əsirgəmirlər.

Bu il kolxozda 50 hektar sahənin məhsulu maşınla yığılacaqdır. Bir ədəd «XBC-1,2» markalı pambıqyığan maşın keyfiyyətli təmir olunmuşdur. Məhsulu maşınla yığılacaq sahələr əvvəlcədən hazırlanmışdır. Pambıqçılar üçün 150 döşlük və 180 bardan əldə edilmişdir.

Açıq deyək ki, pambıqçılara göstərilən mədəni-məişət xidməti bizi qane etmədi. Kolxozda cəmi bir tarla düşərgəsi vardır, o da tələbi ödəmir. Kənddəki mədəni-maarif müəssisələri öz işlərini tarlaya köçürməmişlər. Uşaq bağçası, körpələr evi olmadığından uşaqlı qadınlar təsərrüfatda fəallıq göstərə bilmirlər.

Sabin adına kolxozun başçıları müvəffəqiyyətləri daha da artırmaq üçün işdəki nöqsanları tezliklə aradan qaldırmalıdırlar.

***Qasım Əliyev,***
***Elşad Hüseynov,***
***«Şərq qapısı» qəzeti, 10 sentyabr 1963-cü il***

## Öhdəçiliyimizi yerinə yetirdik

Kolxozumuzun üzvləri fədakarlıqla işləyərək sahələrdə bol taxıl məhsulu yetişdirmiş, onu vaxtında və itkisiz toplamışlar. Kombaynçılardan **Şakir Qasımov və Lətif Əliyev** 278 hektar sahənin taxılını yalnız aqreqatlarla yığmışlar.

**Səməd Məhərrəmov və Qulu Quliyev** yoldaşların briqadalarında taxıl istehsalı əvvəlki illərə nisbətən xeyli artmış, hər hektardan nəzərdə tutulduğundan 3-4 sentner çox məhsul götürülmüşdür.

Kolxozumuz plan üzrə dövlətə 50 ton taxıl satmalı idi. Biz müəyyən olunmuş bu tapşırığı istehsalat idarəsində hamıdan qabaq yerinə yetirdik. Daxili imkanlarımızı bir daha nəzərdən keçirərək plandan əlavə 400 sentner taxıl satmaq haqqında yeni öhdəçilik qəbul etdik. Indi iftixarla deyə bilərik ki, yeni öhdə-

çilik şərəflə yerinə yetirilmişdir. Dövlətə 400 sentnerdən çox əlavə taxıl satılımışdır.

***Əhməd Əhmədov,***
***Naxçıvan istehsalat idarəsindəki***
***Sabir adına kolxozun sədri***
***«Şərq qapısı» qəzeti, 12 sentyabr 1963-cü il***

## Gündə 100 kiloqramdan çox pambıq yığanlar Sabir adına kolxozda

Küşvər Vəliyeva, Fatma Məmmədova, Əfruz Zeynalova.

***«Şərq qapısı» qəzeti, 11 oktyabr 1963-cü il***

Naxçıvan istehsalat idarəsinin Sabir adına kolxozunda qabaqcıllardan söz düşəndə pambıqçı Gilə Ismayılovanın da adı birincilər sırasında çəkilir. O, hər gün 110-120 kiloqram pambıq yığır.

(Qəzetdə Gilə Ismayılovanın fotosu var. Ə.Hümmətov)

***«Şərq qapısı» qəzeti, 23 oktyabr 1963-cü il***

## Sabir adına kolxozda

Naxçıvan istehsalat idarəsinin Sabir adına kolxozunda mal-qaranın qışlamasına əvvəlcədən yaxşı hazırlıq görülmüşdür. Heyvandarlar qarğıdalıdan və yabanı otlardan kifayət qədər silos basdırmış, bol qaba və qüvvəli yem tədarük etmişlər.

Kolxozdakı heyvandarlıq binaları təmir edilib qaydaya salınmışdır. Bu il tövlələr qismən mexanikləşdirilmişdir. Qaramal saxlanan tövlədə heyvanların suvarılması mexaniki surətdə aparılacaqdır.

***Telman Salayev,***
***«Şərq qapısı» qəzeti, 10 dekabr 1963-cü il***

## 1964-cü il

**Krasnodarlıların çağırışına qoşulaq!**
**Taxıl əsas sərvətimizdir**

... Mən öz söhbətimdə kolxozumuzun şəraitində taxıl istehsalının artırılması haqqında danışacağam. Onu deyim ki, biz əsasən suvarılan torpaqlarda taxıl əkirik. Taxıl bizim iqtisadiyyatımızın əsasını təşkil edir. Kolxozumuzda əkin dövründən başlayaraq məhsul yığımınadək görülən işlərin hamısı demək olar ki, mexanizmlər vasitəsilə aparılır.

Yeri gəlmişkən keçən ilki göstəricilərimiz haqqında danışmaq istəyirəm. Həmin il 279 hektar sahədə taxıl əkmişdik. Sahələrə yaxşı qulluq edilmiş, becərmə dövründə mədən gübrələrindən geniş istifadə olunmuş, bir sözlə, aqrotexnika qaydalarına uyğun olaraq becərmə aparılmışdı. Bütün bunlar hər yerdə dolu sünbüllər yetişdirməyə imkan vermişdi.

Biz yığımı mütəşəkkil keçirdik. Taxıl əsasən kombaynlar vasitəsi ilə yığılır. **Bu sahədə gənc mexanizator Şakir Qasımovun** işini xüsusilə qeyd etmək istəyirəm. Kolxozumuzda taxıl biçini öz vaxtında başa çatdırıldı, hər hektarda nəzərdə tutulduğundan 1,8 sentner artıq taxıl götürüldü. Başçılıq etdiyim briqadada isə taxılın məhsuldarlığı 13 sentnerə çatdırıldı. Kolxozumuz dövlətə 106 ton taxıl satmışdır ki, bu da nəzərdə tutulduğundan 560 sentner çoxdur.

Əlbəttə, bizim əldə etdiyimiz nəticələr qabaqcıl təsərrüfatlara nisbətən xeyli aşağıdır. Buna görə də biz krasnodarlıların təşəbbüsünə qoşularaq əkin sahələrinə yaxşı qulluq etməklə, kənd təsərrüfatını kimyalaşdırmaqla elə bu il taxılın məhsuldarlığını hər hektarda 18 sentnerə çatdırmağı nəzərdə tutmuşuq. 286 hektar sahədə payızlıq taxıl əkmişik. Keçən ilin axırlarında 78 ton mədən gübrəsi gətirərək taxıl əkini sahələrinə vermişik. Becərmə dövründə mədən gübrələrindən daha geniş istifadə edəcəyik.

Taxıl istehsalını artırmaq üçün kompleksli mexanikləşdirmə mühüm rol oynayır. Taxılın kombaynlarla yığılması

nəticəsində taxıl istehsalına olduqca az əməkgün sərf edilir. Bu il taxılçılıqda görülən işləri tamamilə mexanikləşdirəcəyik.

Bu ilin yazında biz 40 hektar sahədə qarğıdalı, 16 hektar sahədə noxud, 120 hektar sahədə pambıq əkəciyik. Bunun üçün tələb olunan qədər şumumuz vardır. **Mexanizatorlardan Nemət Əsgərov, Israfil Babayev 2 traktoru keyfiyyətli surətdə təmirdən çıxarmış,** başqa kənd təsərrüfatı maşınlarını saz hala salmışlar. Bu il kolxozumuz yeni bir traktor almışdır.

Başçılıq etdiyim briqadanın üzvləri bu il hər hektardan 20 sentner taxıl götürmək uğrunda mübarizəyə qouşlmuşlar. Bu, olduqca real öhdəçilikdir. Buna mütləq nail olacağıq.

***Qulu Quliyev,***
***Naxçıvan istehsalat idarəsi***
***Sabir adına kolxozunun tarlaçılıq briqadiri***
***«Şərq qapısı» qəzeti, 15 fevral 1964-cü il***

## Əkin mütəşəkkil keçirilir

Bu il kolxozumuzun üzvləri tarla işlərinin mütəşəkkil keçirilməsinə ciddi fikir verirlər. Mexanizmlərin gücündən düzgün istifadə edildiyindən yazlıq bitkilər əkini üçün vaxtında kifayət qədər şum keçirmişik. Artelimizin üzvləri istehsalı planlaşdırarkən 120 hektar sahədə çiyid səpini, 15 hektar sahədə noxud, 16 hektar sahədə birillik ot əkini keçirməyi nəzərdə tutmuşlar. Əkinin vaxtında aparılması üçün əvvəlcədən kifayət qədər toxum tədarük olunmuş və laboratoriya müayinəsindən keçirilmişdir. Əkin sahələrinə 200 ton üzvi gübrə, 32 ton mədən gübrəsi verilmişdir.

Qısa müddət ərzində noxud və birillik ot əkini qurtarmışdır. Hazırda çiyid səpini keçirilir. Biz səpini qısa müddətdə başa çatdırmaq üçün lazım olan tədbirləri görürük.

***Telman Salayev,***
***Naxçıvan istehsalat idarəsi Sabir adına kolxozunun manqabaşçısı***
***«Şərq qapısı» qəzeti, 24 aprel 1964-cü il***

## 1965-ci il

### Kollektivin birgə səyi

Sovxozumuz təzə təşkil olunmuşdur. Onun əsas təmayülü üzümçülükdür. Sovxozda təsərrüfat üzrə 5 şöbə yaradılmışdır. Bir nömrəli şöbənin ixtiyarında 34 hektar üzüm bağı, 600 bar verən meyvə ağacı, 585 tut ağacı, 52 hektar yonca əkini sahəsi vardır…

Bu il yazda şöbənin kollektivi 125 hektar sahədə yeni üzüm bağı salmalıdır. Bu məqsədlə 45 hektar sahədə 60 santimetr dərinlikdə plantaj şum keçirilmişdir. Qalan sahələrin şumlanması davam etdirilir…

Şöbənin kollektiv 1965-ci ilin yazında geniş sahədə qarğıdalı, noxud, tərəvəz və ot bitkiləri əkini keçirəcəkdir. Bu məqsədlə lazımi qədər toxum əldə edilmiş və təmizlənib laboratoriya müayinəsindən çıxarılmışdır.

Yeri gəlmişkən sovxozumuzda fəhlələrə mədəni-məişət xidməti haqqında bir neçə söz demək istəyirəm. Naxçıvan Kooperativlər Ittifaqının Leninabad kəndində tikdirdiyi pavilyon yarımçıq qalmışdır. Buna görə də nahar fasiləsi zamanı fəhlələr xeyli vaxt itirərək Zeynədin kəndindəki çayxanaya getməli olurlar. Beş aydır ki, sovxozumuzun əhatə etdiyi kəndlərin bir çoxunda kino və konsert tamaşası göstərilmir.

***Ibrahim Hacıyev,***
***Naxçıvan rayonundakı 13 nömrəli***
***üzümçülük sovxozunun bir nömrəli şöbəsinin aqronomu***
***«Şərq qapısı» qəzeti, 28 yanvar 1965-ci il***

### Üzümçülüyə dair müşavirə

Bu günlərdə Azərbaycan KP Naxçıvan Vilayət Komitəsi tərəfindən üzümçülüyün inkişaf etdirilməsinə həsr olunmuş müşavirə keçirilmişdir. Müşavirə üzümçülük sovxozlarının direk-

torları, partiya bürolarının katibləri, fəhlə komitələri sədrləri, mütəxəssislər, şəhər, rayon partiya komitələrinin birinci katibləri, müvafiq nazirlik və idarələrin rəhbərləri iştirak etmişlər.

Culfa rayonundakı H.Cavid adına sovxoz partiya bürosunun katibi N.Həsənov, M.S.Ordubadi adına sovxozun direktoru I.Allahverdiyev, **«Naxçıvan» adına sovxozun direktoru Qafar Hacıyev,** Iliç rayonundakı «Naxçıvan MSSR-in 40 illiyi» sovxozunun direktoru Q.Salmanov, Sədərək sovxozunun direktoru Z.Nağıyev və Arpaçay sovxozunun direktoru N.Seyidov yoldaşlar müşavirədə çıxış edərək kənd təsərrüfatı işləri, xüsusilə yeni üzümlüklər salınması haqqında məlumat vermişlər…

***«Şərq qapısı» qəzeti, 24 fevral 1965-ci il***

## 1978-ci il

### Təbrik edirik!

SSRİ Ali Sovetinin Rəyasət Heyəti 1977-ci ildə Ümumittifaq sosializm yarışında qazandıqları müvəffəqiyyətlərə, taxıl, pambıq, üzüm, tərəvəz və digər əkinçilik məhsulları istehsalının və dövlətə satışının artırılmasına dair planların və sosialist öhdəliklərinin yerinə yetirilməsində göstərdikləri əmək rəşadətinə görə Azərbaycan SSR-in kənd təsərrüfatı qabaqcıllarından biri qrupunu SSRİ- nin orden və medalları ilə təltif edib. **"Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif olunanlar arasında** Naxçıvan muxtar respublikasından Naxçıvan rayonundakı "Naxçıvan" sovxozunun fəhləsi (üzünçüsü- Ə.H) **Bağırova Gülpəri Qasım qızının** da adı vardır.

"Şərəf nişanı" ordeni ilə sovxozun briqadiri **Quliyev Qulu Zeynalabdin oğlu** və üzümçü **Məmmədova Güllü Əsgər qızı,** üçüncü dərəcəli "Əmək şöhrəti" ordeni ilə sovxozun direktoru **Qasımov Dilsuz Qasım oğlu** və üzümçü **Pənahova**

**Hürü Kazım qızı,** "Əməkdə fərqlənməyə görə" medalı ilə üzümçü **Hüseynova Nargilə Elbəyi qızı** təltif ediliblər.

***"Şərq qapısı" qəzeti, 10 mart 1978 –cu il***

## 1979-cu il

### Yeni dərs ili qarşısında

… Yeni dərs ilinə hazırlığın yaxşı təşkil edilməsi və onun mütəşəkkil başa çatdırılması təlim-tərbiyə işlərinin yüksək səviyyədə qurulmasına, şagirdlərin elmlərin əsaslarına dərindən yiyələnməsinə mühüm şərait yaradır. Eyni zamanda, partiya və hökumətimizin xalq maarifi işçiləri qarşısında qoyduğu mühüm vəzifələrin həyata keçirilməsini təmin edir.

Bu baxımdan rayondakı Mjansnikovabad, Şıxmahmud, Nehrəm, Çeşməbasar və sair kənd məktəblərində yeni dərs ilinə hazırlıq işləri əsasən başa çatdırılmışdır. **Cari dərs ilində rayonun Zeynəddin və Buzqov kəndlərində tikilmiş yeni tipli məktəb binaları fəaliyyətə başlayacaqdır…**

***«Əmək bayrağı» qəzeti, 15 avqust 1979-cu il***

### Mütəşəkkil hazırlıqla

...Rayonun Zeynəddin kəndində 624 yerlik və Aşağı Buzqov kəndində 320 yerlik məktəb binası sentyabrın 1-də istifadəyə veriləcəkdir...

***Nəcəfqulu Nəcəfquliyev,***
***Babək rayon Xalq Maarif Şöbəsinin müdiri***
***«Şərq qapısı» qəzeti, 25 avqust 1979-cu il***

**Müəllimlərin avqust konfranslarında**
**Təlim-tərbiyəsinin yeni yüksəlişi uğrunda**
**Babək rayonu**

... "Konfransda göstərilmişdir ki, rayondakı məktəblər və digər uşaq tərbiyə müəssisələri yeni dərs ilinə daha yaxşı hazırlaşmışlar. Carı dərs ilində rayonun Zeynəddin və Buzqov kəndlərində geniş və yaraşıqlı sinif otaqları, fənn kabinələri, zəngin laboratoriyaları olan yeni məktəblər öz qapılarını uşaqların üzünə açacaqdır...

***"Şərq qapısı" qəzeti, 31 avqust 1979-cu il***

**Uğurlu addımlar**

Sov.IKP MK və SSRI Nazirlər Sovetinin «Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında» qərarını yerinə yetirmək sahəsində «Naxçıvan» sovxozu əməkçilərinin ilk addımı uğurlu olmuşdur. Onlar dövlətə 4.175 ton əvəzinə 5.500 ton üzüm sataraq plana 131.7 faiz əməl etmişlər. Bu müvəffəqiyyətin qazanılmasında **Qulu Quliyevin başçılıq etdiyi briqadanın** da əmək payı vardır.

Cari ildə 52 hektar üzüm plantasiyasına qulluq edən kollektiv həmin bağlardan 361 ton əvəzinə 541 ton məhsul yığaraq planı 149,8 faiz yerinə yetirmişdir. Məhsul toplanışında briqadanın qabaqcıllarından **Qırmızı Əmək Bayrağı ordenli Gülpəri Bağırova, Asya və Nazəni Quliyevalar, Pakizə Muradova, Məleykə Əhmədova və başqaları** böyük fəallıq göstərmişlər.

Briqadanın üzvləri Sovet Azərbaycanın 60 illik yubileyi şərəfinə hər günü zərbəçi əməklə yola salırlar. Indi bağlarda payız-qış becrilməsi yüksək səviyyədə davam etdirilir. Əməkçilər 50 hektar sahədə tənəkləri simlərdən yendirmiş, sıradan çıxan şpalerləri təmir etmiş, kolların üstünü basdırmışlar.

Kollektiv gələn il hər hektardan azı 120 sentner məhsul, görüməyə söz vermişdir. Bunun üçün onlar öhdələrinə düşən

vəzifələri layiqincə həyata keçirir, bol məhsul üçün möhkəm zəmin yaratmaqdan ötrü bütün imkanlardan səmərəli istifadə edirlər.

***Zahid Salayev,***
***«Əmək bayrağı» qəzeti, 14 noyabr 1979-cu il***

## Şagird istehsalat briqadalarında

Zeynəddin kənd orta məktəbinin şagird istehsalat briqadası bir il bundan əvvəl fəaliyyətə başlamışdır. Kollektivin 24 nəfər üzvü vardır. Briqadaya məktəbin müəllimi Əli Novruzov başçılıq edir.

Şagird istehsalat briqadası cari ildə 3 hektar yem çuğunduru sahəsinə qayğı ilə qulluq göstərərək planda nəzərdə tutulduğundan ikiqat artıq məhsul götürmüşlər. Bu nailiyyətin qazanılmasında briqadanın üzvlərindən Zemfira Əsgərova, Səidə Qasımova, Xurşud Bayramova, Ələkbər Novruzov, Zöhrə Salayeva, Vəfa Hacıyeva və başqaları böyük fəallıq göstərmişlər.

***Zahid Salayev,***
***«Əmək bayrağı» qəzeti, 7 dekabr 1979-cu il***

## Qəzet gözləyirik

Kəndimizdə qəzet və jurnalların vaxtında oxuculara çatdırılmaması giley-güzara səbəb olur. Abunəçilərə çatdırılacaq gündəlik mətbuat Qahab kənd rabitə şöbəsindən gətirilir. Bundan ötrü hər gün kənd poçtalyonu **Y.Zeynalov** (Yəhya-Ə.H) Qahab kəndinə yollanır. Ancaq o, çox vaxt əliboş qayıdır. Səbəbini soruşduqda poçtalyon deyir: - Qahab kənd rabitə şöbəsinə gündəlik mətbuatın gətirilməsi bir qayda olaraq yubadılır.

Görəsən biz oxucular nə vaxta qədər gecikmiş qəzet və jurnalların oxucusu olacağıq?!

***Zahid Salayev,***
***Zeynəddin kəndi***
***«Əmək bayrağı» qəzeti, 12 dekabr 1979-cu il***

## 1980-ci il

### Peşə məktəbində

Zeynəddin kəndindəki 145 nömrəli Nehrəm kənd texniki-peşə məktəbinin filialında 145 nəfər oğlan və qız təhsil alır. Onlar laborant, elektrik qaynaqçısı və çilingər peşələrinə yiyələnirlər.

Məktəb dörd aydır ki, fəaliyyət göstərir. Şagirdlərin peşələrə mükəmməl yiyələnmələri üçün məktəbdə lazımi şərait yaradılmışdır. Burada avadanlıqla təchiz edilmiş emalatxana, təcrübə keçmək üçün guşə ayrılmış və otaqlarda tematik plakatlar asılmışdır. Qruplarda şagirdlər tarixi bayramlarla əlaqədar divar qəzetləri, stendlər və bülletenlər tərtib etmişlər.

Şagirdlərdən Səkinə Şükürova, Əlövsət Rzayev, Telli Quliyeva, Zakir Orucov, Hüseyn Novruzov və onlarla başqaları ilk gündən məktəbin ictimai işlərində fəallıq göstərir, dərslərdə başqalarına nümunə olurlar. Çox keçməyəcək, onlar bilik və bacarıqlarını istehsalatda tətbiq edəcəklər.

Məktəbin qabaqcıl müəllim və ustalarından Arif Həsənov, Səmayə Xəlilova, Məmməd Tağıyev, Afaq Əhmədova, Fəxrəddin Sadıqov, Şəmsəddin Əhmədov partiya və hökumətimizin peşə məktəbləri qarşısında qoyduğu vəzifələri layiqincə yerinə yetirmək üçün məsuliyyət və səylə çalışırlar. Onlar gənclərin hərtərəfli bilik və bacarıqlara yiyələnmələri üçün qabaqcıl üsullardan səylə istifadə edirlər.

Məktəbin pedaqoji kollektivi və ustaları qarşıdan gələn böyük el bayramlarını – V.I.Leninin anadan olmasının 110 illiyini, Azərbaycan SSR-in və Azərbaycan Kommunist Partiyası yaradılmasının 60 illiyini ləyaqətlə qarşılamaq, gələcək mütəxəssislərin hazırlanmasında yüksək nəticələr əldə etmək üçün qüvvə və bacarıqlarını əsirgəmirlər.

***Telman Əlizadə,***
***«Əmək bayrağı» qəzeti, 6 fevral 1980-ci il***

## Fəallıq artır

**Sov.IKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi H.Ə.Əliyev yoldaş** rayonumuzda olarkən «Naxçıvan» üzümçülük sovxozuna da getmiş, təsərrüfatın əmək adamları ilə görüşmüşdür. Sovxozun bütün zəhmətkeşləri bu görüşün təsiri altında yüksək fəallıq göstərir, əmək coşqunluğu ilə qurub yaradırlar.

Bu günlər sovxozun digər briqadalarında olduğu kimi, **Mehdi Mehdiyevin** başçılıq etdiyi kollektiv də üzüm plantasiyalarına böyük ruh yüksəkliyi ilə çıxmışlar. Briqadanın öhdəsində 47,5 hektar üzüm bağı vardır. Əməkçilər **aprel** şaxtalarından bağlara dəymiş zərəri qısa vaxt ərzində aradan qaldırmış, yüksək aqrotexniki tələblər səviyyəsində həyata keçirdikləri becərmə işləri nəticəsində bol məhsulun əsasını qoymuşlar. Bu işlərdə briqadanın qabaqcıllarından Sevil Həziyeva, Həzarət Salayeva, Xurma Piriyeva, Həqiqət Hacıyeva başqalarına nümunə göstərmişlər.

***Zahid Salayev,***
***«Əmək bayrağı» qəzeti, 4 iyun 1980-ci il***

## Layiqincə qarşılayacağıq

Sov. IKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi H.Ə.Əliyev yoldaşın bu ilin may ayında sovxozumuzda olması, əməkçilərimizlə səmimi söhbəti və verdiyi dəyərli məsləhətlər üzümçülərimizi yüksək nailiyyətlər qazanmağa ruhlandırmışdır.

Sovxozumuzun üzümçüləri plantasiyalardan bol məhsul götürmək əzmi ilə çalışaraq var quvvələrini səfərbərliyə almış, aprel şaxtaları zamanı bağlara dəymiş zərəri aradan qaldırmaq üçün əsil fədakarlıq göstərmişlər. Təsərrüfatımızın üzüm bağlarında bol məhsul becərilmişdir.

Briqadamızın öhdəsində olan üzüm bağlarında da yüksək məhsul vardır. Kollektivimizə Mehdi Mehdiyev başçılıq edir. Qulluq etdiyimiz 47 hektar üzüm plantasiyasını aqrotexniki qaydada becərmiş, torpağa kifayət qədər gübrə vermişik. Cərgəaralarının şumlanması, yaşıl budama işi başa çatdırılmışdır. Hazırda xəstəlik və zərərvericilərə qarşı mübarizə tədbirləri aparırıq.

Briqadamızın əməkçiləri var qüvvələrini cari ilin dövlət planını və sosialist öhdəliyini müvəffəqiyyətlə yerinə yetirməyə yönəltmişlər. Kollektivimiz eyni məqsəd üçün – partiyamızın XXVI qurultayını alnıaçıq qarşılamaq üçün qabaqcıl təcrübədən və imkanlardan bacarıqla istifadə edir.

***Həqiqət Hacıyeva,***
***«Naxçıvan» sovxozunun fəhləsi***
***«Əmək bayrağı» qəzeti, 18 iyun 1980-ci il***

## «Naxçıvan» sovxozundan xəbərlər

… Həsən Vəliyevin başçılıq etdiyi briqada 66 hektar məhsuldar üzüm bağına xidmət edir. Briqadanın üzvləri nəzərdə tutulmuş planı yerinə yetirmək üçün üzümlüklərdə becərmə və digər aqrotexniki tədbirlərin yüksək səviyyədə aparılması üçün əllərindən gələni əsirgəmirlər. Briqadanın üzvlərindən Alya Novruzova, Xoşqədəm Kərimova, Zeynəb Tağıyeva və Narxanım Salayeva becərmə işlərində fərqlənirlər.

***Zahid Salayev,***
***«Əmək bayrağı» qəzeti, 20 iyun 1980-ci il***

## Suçu Məmmədhəsən

Məmmədhəsən Hacıyev 15 ildən çoxdur ki, «Naxçıvan» sovxozundakı Qulu Quluyevin başçılıq etdiyi briqadada suçu işləyir. O, işgüzarlığı və əməksevərliyi ilə təkcə bu kollektivin deyil, sovxozun bütün zəhmət adamlarının hörmətini qazan-

mışdır. Əldə etdiyi nailiyyətlərə görə M.Hacıyev «Şərəf nişanı» ordeni, «Sosializm yarışının qalibi» döş nişanı ilə təltif olunmuşdur. Əməkçilər Məmmədhəsənə yüksək etimad göstərərək onu Qahab kənd Sovetinə deputat seçmişlər. O, bu etimadı layiqincə doğrultmağa çalışır, kəndin ictimai-mədəni həyatında keçirilən tədbirlərdə həmişə yaxından iştirak edir.

M.Hacıyevin üzvü olduğu briqada cari ildə hər hektardan 35 sentner taxıl götürməyi vəd etmişdir. Briqadanın digər üzvləri kimi, Məmmədhəsən də bu vədin layiqincə yerinə yetirilməsi üçün əsl fədakarlıq nümunəsi göstərmiş, suvarmanı keyfiyyətlə aparmış, itkiyə yol verməməyə çalışmışdır. Cari ildə M.Hacıyevin peşə yoldaşı Abbas Babayevlə birlikdə suvardığı sahə 200 hektardan artıqdır.

***Zahid Salayev,***
***«Əmək bayrağı» qəzeti, 29 iyun 1980-ci il***

## DƏMİRÇİ ƏLƏSGƏR

Tarixi dəmirin meydana çıxması ilə bağlıdır – dəmirçi sənətinin. Bu sənəti insan dəmiri tapandan sonra öyrənib, bu sənətlə özü də formalaşıb, zəhmətkeş əlləri də…

Hələ uşaqlıq çağlarından dəmirçi sənətinin vurğunu olub, qəlbən bağlanıb bu qədim el sənətinə. Onun çətin, lakin şərəfli bir peşə olduğunu dərk edib. Həyatda özü üçün bu yolu – dəmirçi olmaq yolunu seçib.


*Usta Abbas Hacıyev*

**Ustası Abbas Hacıyevdən** eşitdiyi ağıllı məsləhətlər onu bütün həyatı boyu düşündürmüşdür.

Usta üzünü şagirdi Ələsgərə tutub deyərdi: «Bala, bir onu bil ki, həyatda insanı yaşadan, onun işi, əməl-

ləridir. Harada olursansa ol, hansı işlə məşğul olursansa ol, çalış öz sənətini sevə biləsən. Sənətə ki, qəlbən bağlanmadın, heç nə».

1949-cu ildə Bakıya getməsi, bir neçə il müddətində S.M.Kirov adına zavoda dəmirçi şagirdi işləməsi gənc Ələsgərin dünyagörüşünün formalaşmasında mühüm rol oynamışdır. Altıncı dərəcəli dəmirçi kimi doğma yurda qayıdan Ələsgərin bir usta kimi fəaliyyətə başlaması isə əsasən kənd mühiti ilə bağlıdır.

Hər dəfə onun emalatxanasına yaxınlaşarkən, sanki əsrarəngiz, sirli bir aləmlə qarşılaşırsan, xəyallar Nizami dünyasında qərar tutur. Zindanın üstünə qoyulan dəmir parçasına ağır çəkiclə endirilən zərbələr, sanki, igidlərimizin yağı düşmənə endirdikləri qılınc zərbəsini xatırladır.

**Dəmirçi Ələsgər Şahsuvarov** «Naxçıvan» üzümçülük sovxozunda mexanizatorların da, sürücülərin də yaxın dostudur. Kənd təsərrüfatı maşınlarının, texniki avadanlıqların təmir edilməsində, düzəldilməsində həmişə olduğu kimi, indi də ilhamlı gənclik həvəsi ilə çalışır. Sovxozun direktoru Ramazan İsmayılov yoldaş söhbət zamanı dəmirçinin işindən fərəhlə danışaraq dedi:

- Ölkəmizdə xoşbəxtliyini əməkdə tapan adamlar çoxdur. Ələsgər də belələrindəndir. Bir faktı xatırlatmaq lap yerinə düşər. Sovxozda taxıl yığımının qızğın çağında usta gecəli-gündüzlü iş başında, elin varını toplayan səhra gəmilərinin yanında olur. Məhsulun tez və itkisiz yığılması üçün var qüvvəsini sərf edir, texniki nasazlığı olan kombaynlara «şərəfli» əlləri ilə yenidən nəfəs verirdi.

Ustanın kənd əməkçilərinin sifarişi ilə hazırladığı alətləri nəzərdən keçiririk: inəkləri tumarlamaq üçün qaşov, pəncərə və qapı üçün barmaqlıqlar, daş yonmaq üçün balta, vedrə, bel, kərki, külünk, müxtəlif kəsici və yonucu alətlər…

Yaxşı işinin nəticəsidir ki, dəmirçi Ələsgər dəfələrlə «Sosializm yarışının qalibi» döş nişanına layiq görülmüş, «Əmək veteranı» medalı ilə təltif olunmuşdur.

Dəmirçi Ələsgər həmişə xalqdan, partiyada tapşırıq gözləyir, təqaüdçü olmasına baxmayaraq,yenə də gənclik həvəsi ilə

zəhmət meydanında çalışır. O, hər şeydən əvvəl cəmiyyətimiz qarşısında, xalq qarşısında öz vəzifəsini dərindən dərk edir.

Dəmirçi Ələsgər üçün həyatın mənası öz gücünü insanların xeyrinə sərf etməkdən, bir kommunist kimi üzərinə düşən tapşırıqları şərəflə yerinə yetirməkdən ibarətdir. Onu el yanında başıuca edən də bax elə bu – öz halal zəhməti, bir də çalışqanlığı olmuşdur.

Dəmirçi Ələsgərin zəhmət yolunu bir irmağa – çay qoluna bənzətmək olar. Bu irmaqlar yalçın qayaların üstündən, atlaz çəmənliklərdən, laciverd düzlərdən şırıl-şırıl axaraq çaylara qovuşur, qədim el sənətimizin nəciblik, kamillik salnaməsinə yeni səhifələr bəxş edir.

***Pərviz Cəfərov,***
***«Əmək bayrağı» qəzeti, 30 iyul 1980-ci il***

## Fəallıqla

«Naxçıvan» üzümçülük sovxozunda **Səyyad Piriyevin briqadasına** təhkim olnumuş 2 hektar bostan sahəsində yüksək məhsul yetişdirilmişdir. Briqadanın üzvləri həmin sahədən 440 sentner əvəzinə 500 sentner məhsul götürməyi qərara almışlar.

Bu günlərdə briqadada məhsul yığımına başlanmışdır. Kollektivin qabaqcıllarından Ofelya Salayeva, Zəhra Nağıyeva, Səkinə Əliyeva, Gözəl Məmmədova və başqaları gündəlik yığım tapşırığını xeyli artıqlamasilə yerinə yetirirlər.

***Zahid Salayev,***
***«Əmək bayrağı» qəzeti, 29 avqust 1980-ci il***

## Qabaqcıl mexanizator

“Naxçıvan” üzümçülük sovxozunda qabaqcıl mexanizatorlardan söz düşəndə Möhsün Həziyevin də adı birincilər sırasına gəlir. (O, gənclik illərindən bu peşəyə yiyələnib və ömrünün sonunadək bu sahədə işləyib -Ə.H)



Möhsün Həziyev hazırda Sov. İKP XXVI və Azərbaycan KP XXX qurultayları şərəfinə genişlənən sosializm yarışına qoşularaq hər iş gününü yeni əmək qələbələri ilə başa vurur. Qabaqcıl mexanizator bu günlər payızqış becərmə işlərində fəal iştirak edir. O, üzərinə düşən gündəlik tapşırıqları müvəffəqiyyətlə yerinə yetirərək sovxozun mexaniztorları arasında genişlənən sosializm yarışının önündə gedir.

***Foto Məmmədağa Tahirovundur***
***"Əmək bayrağı" qəzeti, 15 oktyabr 1980-ci il***

**Oğullar əsgər gedir**

...Zeynəddin kənd sakini Zahid Salayev də bu gün hərbi xidmətə başlayır. Atası İbrahim müəllim oğlunu bağrına basaraq deyir:

-Oğul, əla xidmət et, necə ki, qardaşın Elşad xidmət edir. Bax, gərək səndən də həmişə qardaşından gələn kimi xoş müjdələr gəlsin.

-Darıxma, ata, sağlıq olsun, heç vaxt sizi narahat etməyəcəyəm. Söz verirəm ki, tezliklə daxil olacağım hissədə ən nümunəvi əsgər olam.

Ata ürəklənir, oğlunun uz-gözündən öpür, ona müvəffəqiyyətlər arzulayır. Dostları, qohumları, ana və bacısı Zahidə uğurlar diləyirlər.

***H. Əkbərov,***
***"Əmək bayrağı" qəzeti, 21 noyabr 1980-ci il***

# <u>1981-ci il</u>

## 2.000 ton üzüm uğrunda

Öhdəmizdə olan 60 hektar sahənin 50 hektarı məhsuldar bağlardır. Onuncu beşillik briqadamız üçün uğurlu olmuşdur. Belə ki, üzümçülərimiz qəbul məntəqəsinə 1536 ton əvəzinə 1946 ton üzüm təhvil verərək beşillik planı artıqlaması ilə yerinə yetirmişlər. Sov. İKP MK-nın "1981-1985-ci illərdə və 1990-cı ilədək olan dövrdə SSRİ-nin iqtisadi və sosial inkişafının əsas istiqamətləri" lahiyəsi üzümçülərimizin böyük ruh yüksəkliyinə səbəb olmuşdur.

Kollektivimiz bağlara fosfor, kalium gübrələri vermiş, suvarmanı mütəşəkkil keçirmək üçün əməlli tədbirlər görmüşlər. Briqadamızda üzümçülük sahəsində həyata keçirilən mühüm tədbirlərdən biri də bağlarda beton dirəklərin basdırılmasıdır. İndiyədək 3 hektar sahədə beton dirəklərin basdırılması tapşırığına əməl etmişik. Biz bu göstəricinin 5,5 hektara çatdırmaq əzmi ilə çalışırıq. Briqadanın üzvlərindən Amalya Məmmədova, Pakizə Muradova, Asya Quliyeva, Kəklik Əliyeva, **suçulardan "Şöhrət nişanı" ordenli Məmmədhəsən Hacıyev**, Abbas Babayev və başqaları səylə çalışırlar. "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında" Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin qərarını böyük ruh yüksəkliyi ilə qarşılayan üzümçülərimiz on birinci beşillikdə daha yaxşı işləyərək 2000 ton üzüm istehsal etmək uğrunda mübarizəyə qoşulmuşlar.

Briqada üzvlərinin adından söz verirəm ki, vədimizə şərəflə əməl edəcəyik.

***Qulu Quluyev,***
***"Naxçıvan" sovxozunun briqadırı.***
***"Əmək bayrağı" qəzeti, 16 yanvar 1981-ci il***

## İxtisaslı fəhlələr

...Rayonumuzda da texniki peşə məktəblərinin şəbəkəsi ildən-ilə genişləndirilir. 1979-cu ilin sentyabr ayından Zeynəddin kəndində 145 nömrəli Nehram kənd orta texniki-peşə məktəbinin finalı açılmış, burada üzümün ilkin emalı və şirə istehsalı , traktor və kənd təsərrüfatı maşınlarının təmiri üzrə çilingərlər, elektrik qaynaqçıları peşələri üzrə qruplar təşkil edilmişdir. Məktəbimizdə ixtisaslı müəllim və qrup ustaları, şagirdlərin müxtəlif peşələrə dərindən yiyələnmələri üçün səylə çalışırlar. Ötən dərs ilində məktəbi 85 nəfər gənc bitirib istehsalata getmişdir. Məzunlarımızdan Xanım Quliyeva, Sara Salayeva, Ağgül Məmmədova, Mina Quliyeva, Səkinə Dünyamalıyeva, Zahid Abbasov, Rafiq Sadıqov və başqaları hazırda təsərrüfatın müxtəlif sahələrində həvəslə çalışırlar.

Bu il məktəbimizin traktorçuluq qrupunu 30 nəfər, üzümün ilkin emalı və şirə istehsalı qrupunu 25 nəfər, traktor və kənd təsərrüfatı maşınlarının təmiri üzrə çilingər qrupunu 20 nəfər gənc bitirərək həyata-istehsalata vəsiqə alacaqdır. Qarşıdakı dərs ilində məktəbimizdə daha çox peşə üzrə qruplar fəaliyyət göstərəcəkdir. Kollektivimizin üzvləri təsərrüfatın müxtəlif sahələri üçün işgüzar və bacarıqlı gənc peşə ustaları hazırlamaq işində bundan sonra da öz səylərini əsirgəməyəcəklər.

***Murtuz Məmmədov,***
***145 nömrəli Nehrəm kənd orta***
***texniki- peşə məktəbi Zeynəddin filialının müdüri,***
***“Əmək bayrağı” qəzeti, 8 mart 1981-ci il***

## Bağlar becərilir

“Naxçıvan” sovxozunun iqtisadiyyatında əsas yeri üzümçülük tutur. Hazırda təsərrüfatda 868 hektar üzüm bağı vardır ki, bunun da 772,25 hektarı bar verəndir. Əməkçilər cari ildə bağlardan yüksək üzüm məhsulu əldə etmək üçün işə səylə girişərək,

becərməni yüksək aqrotexniki qaydada yerinə yetirməyə çalışırlar. Bu günlərdə təsərrüfatda olarkən əvvəlcə Qulu Quliyevin başçılıq etdiyi briqadanın sahəsində olduq. Briqada bu il 50 hektar üzüm sahəsinə qulluq edir. Bağlarda quru budama, dib açma, tənəklərin şpalerə qaldırılması, cərgəarası kultivasia yüksək aqrotexniki tələblər səviyyəsində həyata keçirilmişdir. Bütün işlərin görülməsində kollektivin qabaqcıllarından Kəklik Əliyeva, Pakizə Muradova, Abbas Babayev və başqaları xüsusilə fərqlənmişlər. Hazırda üzümlüklər mütəşəkkilliklə suvarılır.

Bigər briqadalarda da becərmə işləri günün tələbləri səviyyəsində qurulmuşdur. İşin sürəti və keyfiyyəti göstərir ki, sovxoz əməkçiləri ötən illərdə olduğu kimi, bu il də öz vədlərinə şərəflə əməl edəcəklər.

***Həsən Şahverdiyev,***
***"Əmək bayrağı" qəzeti, 17 may 1981-ci il***

**"Naxçıvan" sovxozundan yazırlar**

Öhdəmizdə olan 60 hektar üzüm bağının 50 hektarı məhsuldar, 10 hektarı isə yeni məhsula düşəndir. Onuncu beşillik kollektivimiz üçün uğurlu olmuşdur. Belə ki, əməkçilərimiz qəbul məntəqəsinə 1536 ton əvəzinə 1946 ton üzüm təhvil verərək beşillik planı artıqlaması ilə yerinə yetirmişlər. Briqadamızın üzvlərindən Amalya Məmmədova, Pakizə Muradova, Asya Quliyeva, Kəklik Əliyeva, **suçulardan "Şərəf nişanı" ordenli, Naxçıvan MSSR-nin əməkdar suçusu Məmmədhəsən Hacıyev**, mexanizatorlardan Abdulla Nəcəfov, Şirzad Məmmədov və başqaları bu işlərin görülməsində əsl fədakarlıq nümunəsi göstərirlər. Əməkçilərimiz on birinci beşilliyinin ilk ilində daha yaxşı işləyərək 375 ton əvəzinə 600 ton yüksək keyfiyyətli üzüm istehsal etmək əzimi ilə çalışırlar. Bu da hər hektarda məhsuldarlığı 120 sentnerə çatdırmaq deməkdir. Biz vədimizə şərəflə əməl edəcəyik.

***Qulu Quliyev,***
***sovxozun briqadiri, Naxçıvan MSSR-in əməkdar üzümçüsü.***
***"Əmək bayrağı" qəzeti, 22 iyul 1981-ci il***

### Üzümçülərin səyi

Sovxozda Sərdar Quliyevin başçılıq etdiyi kollektivin adı həmişə birincilər sırasında çəkilir. Kollektiv əsasən üzümçülklə məşğul olur. Briqadanın üzümçüləri becərmə tədbirlərini yüksək səviyyədə həyata keçirirlər.

Kollektivin öhdəsində olan 57 hektar üzümlük indi əsl hünər meydanına çevrilmişdir. Daxili imkan və ehtiyat mənbələrindən səmərli istifadə edən bağbanlar xəstəlik və zərərvericilərə qarşı mübarizə tədbirlərini səylə yerinə yetirir, onbirinci beşilliyin ilk ilində bol məhsul üçün zəmin yaradırlar. Bu tədbirlərin həyata keçirilməsində briqadanın əməkçilərindən Maral Salyeva, Səriyyə Əliyeva, Ofeliya Salyeva, mexanizatorlardan Vəli Dünyamaliyev və onlarca başqaları fəallıq göstərirlər.

Cari ildə kollektiv qulluq etdiyi sahənin hər hektarından 100 sentner məhsul götürərək, qəbul məntəqəsinə 570 ton üzüm yola salmağı nəzərdə tutmuşdur.

***Həsən Şahverdiyev,***
***"Əmək bayrağı" qəzeti, 26 iyul 1981-ci il***

## 1983-cü il

### Unudulmaz günlər

Bu ilin əvvəlində Ümumittifaq "Aptek" pioner düşərgəsinə yola düşdük. Səfalı Krım torpağında bizi çox mehriban qarşıladılar. Müxtəlif millətlərdən olan yaşıdlarımızla tezliklə dostlaşdıq. Rus, ukraynalı, belarus, özbək, qazax, moldavan. Elə bil hamımız bacı-qardaş bir ailənin üzvləri idik. Hamımız rus dilində danışırdıq. Bu dili bizə həvəslə öyrədən, bu dilə bizdə sonsuz məhəbbət oyadan müəllimimiz Gülnarə Mehdiyevanı da tez-tez minnətdarlıqla yada salırdıq.

Sevastopol şəhərinə ekskursiya qəlbimizdə böyük iftixar hissi doğurdu. Bu ayın 14-də Sevastopolun 200 yaşı tamam

olacaq. 1941-1942-ci illərdə Sevastopol 250 gün fasiştlərdən müdafiə olunub. Şəhərin müdafiəsində iştirak etmiş 54 nəfər döyüşcü Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. 1944-cu ilin mayında qəhrəman sovet döyüşçüləri şəhəri faşistlərdən azad ediblər. Sevastopol Qəhrəman şəhər adını isə 1965-ci ildən daşıyır. Biz bunları ekskursiya rəhbərinin söhbətlərindən öyrəndik.

Günlər bir-birini əvəz etdikcə keçirilən bütün tədbirlər-ekskursiyalar, gəzintilər, söhbətlər, disputlar, müzakirələr, idman yarışları və sairə bizim üçün daha da maraqlı olurdu. Bədii özfəaliyyət kollektivlərinin çıxışları alqışlarla qarşılanırdı. Rus, belarus, özbək, türkmən və digər xalqların mahnıları yaşıdlarımızın ifasında məharətlə səslənirdi.

Ümumittifaq "Aptek" pioner düşərgəsindən xoş təəssüratla qayıtdıq. Bir sözlə, keçirdiyimiz günlər qəlbimizdə artıq xoş xatirələrə çevrilib.

***Yetər Həziyeva, Hüseyn Tağıyev,***
***Zeynəddin kənd günüuzadılmış***
***orta məktəbinin şagirdləri.***
***"Əmək bayrağı" qəzeti, 1 iyun 1983-cu il***

## Qoy həmişə...

On bir övlad anasıyam. Ömür-gün yoldaşım Müslüm dəmiryolçudur. Böyük oğlum Əbülfəz atasıyla çiyin-çiyinə işləyir. Allahverdi ordu sıralarında xidmət edir. Xudu Xarkov şəhərində təhsilinin davam etdirir. Radiotexniki olacaq. Böyük qızım Gülan ailə qurub. Doğma təsərrüfatda çalışır. Fatma bu il orta məktəbi bitirəcək. Arzusu dərzi olmaqdır. Nazəni 8-ci , Nailə 6-cı, Ziyafət 4-cü, Nəzakət 2-ci siniflərdə oxuyurlar. Nazilə bu il məktəbə gedəcək. Sonbeşiyim Çiçəyin isə hələ 5 yaşı vardır. Özüm isə "Naxçıvan" üzümçülük sovxozunda fəhlə işləyirəm. 3 hektar üzüm bağını yüksək səviyyədə, aqrotexniki qaydada becərirəm. Əməyim hədər getmir. Hər il plan və öhdəliyi

artıqlaması ilə yerinə yetirirəm. Aldığım hər bir mükafat məni yeni qələbələrə səsləyir. Uşaqlar istər evdə, istər həyətyanı sahəmizin becərilməsində, istərsə də təsərrüfat işlərində mənə yaxından kömək edirlər.

Partiya və hökümətimizin böyük atalıq qayğısı sayəsində ölkəmizin bütün uşaqları, həmçinin mənim də övladlarım şən və firavan böyüyürlər. Bütün analar kimi, mənim də arzum budur ki, qoy həmişə günəş olsun, aydın səma olsun. Gülüzlü balalarımız müharibə görməsinlər, daha xoşbəxt, daha firavan yaşasınlar.

***Xoşqədəm Kərimova,***
***"Naxçıvan" üzümçülük sovxozunun fəhləsi,***
***Qəhrəman ana.***
***"Əmək bayrağı" qəzeti, 1 iyun 1983-cü il***

***Qeyd:*** *Qəzet "Uşaqların Beynəlxalq Müdafiə günü"nə 1 səhifə həsr edib. Materialları Əsrəf Hümmətov hazırlayıb.*

## Minnətdarlıq

Bu il məktəbimizin onuncu sinfini mənimlə birlikdə 20 nəfər bitirir. Hərəmizin bir arzusu vardır. Bəzimiz ali və orta ixtisas məktəblərində oxumaq, bəzimiz isə xalq təsərrüfatının müxtəlif sahələrində ata, analarımız, böyük bacı və qardaşlarımızla çiyin-çiyinə işləmək istəyirik. İsmayıllı rayonundakı Hacıhətəmli kənd orta məktəbinin məzunlarına səs verən yaşıdlarım gələcəkdə qiyabi yolla təhsillərinin davam etdirmək niyyətindədirlər. Əlbəttə, parta arxasından birbaşa istehsalata yollamaq, böyüklərlə birgə çalışmaq, kommunizm quruculuğunda fəal iştirak etmək biz yeniyetmələr, gənclər üçün böyük xoşbəxtlikdir.

Zeynəb Hüseynova, İffət Məmmədova, Qəhrəman Hüseynov, Orduxan Nağıyev, Mehman Abdullayev, Fərəc Axundov və mən tələbə adına layiq görülmək üçün ayrı-ayrı ali və orta ixtisas məktəblərində biliklərin yarışına qoşulacağıq. Bu günə

kimi əldə etdiyimiz nailiyyətlər üçün isə bütün müəllimlərimizə ürəkdən minnətdarıq.

*Zenfira Məmmədova,*
*Zeynəddin kənd günüuzadılmış orta məktəbin məzunu.*
*"Əmək bayrağı" qəzeti, 26 iyun 1983-cü il*

## Əməksevərlər, təşəbbüsçülər

Rayonumuzdakı 145 nömrəli Nehrəm kənd orta texniki peşə məktəbi Zeynəddin filialının şagirdləri, bu cığırlarla inamla irəliləyir, sevib-seçdikləri ixtisaslara həvəslə yiyələnilər.

1979-cu ildən etibarən fəaliyyətə başlayan bu təhsil ocağı əsasən rayonun kolxoz və sovxozlarında aqrar sənaye komplekslərində və sair müəssisələrdə işləmək üçün ixtisaslı fəhlə kadrları hazırlayır.

Hazırda məktəbdə 165 nəfər oğlan və qız oxuyur. Onlar traktorçu-maşınst, xalçaçılıq, laborant, çilingər, heyvandarlıq fermalarının mexanizatoru və üzüm üstası peşələrinə yiyələnirlər. Müəllim və ustalar şagirdlərin təlim- tərbiyəsi ilə ciddi məşqul olur, onların ixtisaslı fəhlə kimi yetişmələri üçün bilik və təcrübələrini əsirgəmirlər.

**Filialın müdiri Məmməd Eylazovun dediklərindən:**

...Məktəbimiz ilbəil genişləndirilir, yeni ixtisaslar üzrə fəaliyyət göstərən qrupların sayı artırılır. Ötən dərs ilində burada ilk dəfə olaraq heyvandarlıq fermalarının mexanizatoru ixtisası üzrə yeni qrup təşkil edilmişdir. Bu il isə üzüm ustası ixtisası üzrə fəaliyyətə başlayan qrupa 10 illik təhsil bazası əsasında şagirdlər qəbul etmişik. Təhsil müddətində şagirdlərə gündə 1 dəfə yemək, hər ay təqüd və geyim paltarı verilir. Onların daha yaxşı oxumaları, seçdikləri peşələrə mükəmməl yiyələnmələri üçün laboratoriya və kabinələrdə lazımı şərait yaradılmışdır. Riyaziyyat müəllimi Bəxtiyar Məmmədovun, Kimya müəllimi Nəzakət Abdullayevanın, ədəbiyyat müəllimi Alisə Axundovanın ustalarından Şəmsəddin Əhmədovun, Qabil Əliyevin,

Afaq Əhmədovanın , Lalə Vəliyevanın qabaqcıl iş metodları hamımızın ürəyindən xəbər verir...

***H.Məmmədov,***
***"Əmək bayrağı" qəzeti, 28 oktyabr 1983-cü il***

## Ehtimadı doğruldacağam

Orta məktəbdə oxuyarkən şagird istehsalat briqadasında çalışırdım. Müəllimlərimiz bizi əməyə məhəbbət ruhda tərbiyə edirdilər. Ona görə də hələ məktəbli ikən öz həyat yolumu müəyyənləşdirmişdim. Qərara almışdım ki, məktəbi bitirəndən sonra birbaşa istehsalata gedim. Zərbəçi əmək növbəsində dayanım. Bəli, öz sözümün sahibi oldum. Parta arxasından birbaşa əmək cəbhəsinə yollandım. Rayonumuzdakı " Naxçıvan" üzümçülük sovxozunda üzümçü kimi fəliyyətə başladım. Orta məktəb illərində şagird istehsalat briqadasında əldə etdiyim təcrübə köməyimə çatdı. Tez bir zamanda kollektivə qaynayıb-qarışdım. O vaxtdan 5 ildən artıq vaxt keçir.

Mən indi Mehdi Mehdiyevin başçılıq etdiyi komsomolçu-gənclər briqadasında çalışıram. Öhdəmdə bir hektar barverən üzüm sahəsi vardır. Partiya və hökümətimizin son illərdəki, qərar və göstərişlərindən ruhlanaraq ötən hər günü zərbəçi əməklə başa vurmaq üçün öz daxili imkanlarımdan var qüvvə ilə istifadə edir, yeni-yeni əmək qələbələri əldə etmək əzmində olduğumu bir daha öz əməli işimlə göstərirəm. Bağlardan bol məhsul götürülməsi üçün biz ayrı-ayrı təkhektarçılarla sosializm yarışına qoşulur, yeni qələbələr qazanırıq. Elə götürək bu ili. Öhdəmdə olan bir hektar barverən üzüm sahəsindən qəbul məntəqəsinə planda nəzərdə tutulduğundan xeyli çox üzüm təhvil vermişəm. Qazandığım bu qələbələrlə heç də arxayınlaşmıram.

Artıq sovxozumuzun əməkçiləri payız-qış becərməsini müvəffəqiyyətlə həyata keçirirlər. Mən özüm isə öhdəmdə olan bağların payız-qış becərilməsini başa çatdırmışam.

Bu gün özümü xoşbəxt sanıram. Çünki komminstlərimiz mənə yüksək etimad göstərərək rayon partiya təşkilatının III konfransına nümayəndə seçmişlər. Çalışacağam ki, mənə göstərilən bu yüksək etimadı şərəflə doğruldum.

***Həqiqət Hacıyeva,***
***"Naxçıvan" üzümçülük sovxozunun fəhləsi.***
***"Əmək bayrağı" qəzeti, 18 noyabr 1983-cü il***

## 1984-cü il

### Yeni üfüqlər

Məktəb islahatına dair Sov.İKP MK-nın lahiyəsi üç aya yaxındır ki, xalqımızın müzakirəsinə verilmişdir. Məktəb islahatı partiyamızın Mərkəzi Komitəsinin iyun (1983-cu il) plenumunun qərarlarına uyğun olaraq məktəb işini inkişaf etmiş sosializm cəmiyyəti şəraitinə və tələbatına müvafiq yeni keyfiyyət səviyyəsinə qaldırmaq məqsədi daşıyır. Çox sevindirici haldır ki, lahiyənin müzakirəsində peşəsindən, vəzifəsindən aslı olmayaraq bütün sovet adamları fəal iştirak edir, öz fikirlərini, təkliflərini irəli sürürlər. Lahiyənin maddələrini diqqətlə nəzərdən keçirdikdə qarşıda nə qədər mühüm vəzifələr olduğu aydın görülür.

Sov.İKP Mk-nın məktəb islahatına dair lahiyəsi ilə yaxından tanış olduqdan sonra mən də bəzi fikirlərimi demək istəyirəm. Lahiyənin 6-cı maddəsində qeyd edilir "İndiki müxtəlif tipli texniki-peşə məktəbləri yenidən təşkil olunub vahid tipli tədris müəssisəsinə-qəbul edilənlərin təhsil səviyyəsindən asılı olaraq peşələr, təlim müddətləri üzrə müvafiq şöbələri olan "orta texniki peşə məktəbinə" çevriləcəkdir. Doqquzuncu sinif məzunları orta texniki peşə məktəblərində bir qayda olaraq 3 il təhsil alacaq, peşəyə yiyələnəcək və ümumi orta təhsili başa çatdırılacaqlar. Onbirillik məktəbin məzunları həmin məktəblərdə birillik təlim müddətində peşə əldə edəcəklər".

Göründüyü kimi, gələcək texniki-peşə məktəbləri vahid tipli "Orta texniki peşə məktəbinə" çevriləcəkdir. Məlum olduğu kimi hələ bu günə kimi müxtəlif tipli peşə məktəbləri, kurslar mövcuddur.

***M. Eylazov,***
***188 nömrəli Zeynəddin kənd texniki***
***peşə məktəbinin direktoru.***
***"Əmək bayrağı" qəzeti, 23 mart 1984-cü il***

## İşgüzarlıq şəraitində

Bu günlərdə Zeynəddin kənd orta məktəbində şagird komsomol təşkilatının hesabat-seçki yığıncağı tənqid və özünütənqid şəraitində keçmişdir. Şagird **komsomol təşkilatının katibi Kəmalə Novruzovanın** hesabatı dinlənilmişdir.

Müzakirələrdə **məktəbin direktoru Səadət Rəsulova,** komsomolçu şagirdlərdən Füzuli Bayramov, Məhəmməd Əsgərov, Xədicə Mehdiyeva, Namiq Babayev və başqaları çıxış etmişlər.

***"Əmək bayrağı" qəzeti, 20 aprel 1984-cü il***

## İki plan uğrunda

...Sovxozumuzun 578 hektar üzüm bağı vardır. Biz plan üzrə bu bağlardan 2550 ton üzüm toplamalı idik. Yığıma mütəşəkkil hazırlıqla başlayan əməkçilərimiz qısa müddətdə qəbul məntəqəsinə plan tapşırığında nəzərdə tutulduğundan min ton çox, yəni 3559 ton üzüm təhvil vermişlər. Bu, hələ işin yarısı deməkdir. Sovxozumuzda 200 hektar məhsuldar üzüm bağına hələ əl vurulmamışdır. Bu bağlardan azı 2400 ton üzüm toplaya biləcəyik.

Yığımda 11 briqadada birləşən əmək adamları fəallıq göstərirlər. Bizdə briqadalar arası sosializm yarışı geniş vüsət almışdır. Bu yarışda **Səyyad Piriyevin** briqadasının əməkçiləri

xüsusilə fərqlənirlər. Briqada 66 hektar bağdan plan üzrə 280 ton üzüm təhvil verməli idi. O, şərab emalı məntəqəsinə 303 ton məhsul təhvil vermişdir. Ümumiyyətlə, bu briqadanın əməkçiləri bağlardan 528 ton üzüm toplamaq uğrunda mübarizə aparırlar. Briqadanın əməkçilərindən Rüxsarə Məhərrəmova, Qəmzə Əliyeva, Həqiqət Məhərrəmova, Gültac Novruzova və başqaları gündə adama 600-700 kiloqram məhsul yığırlar.

**Sərdar Quliyev** də briqada başçısıdır. Onun başçılıq etdiyi briqada 46,7 hektar üzüm bağına qulluq edir. Bu bağlardan 199 ton əvəzinə 286 ton məhsul yığılıb dövlətə təhvil verilmişdir. Bundan sonra daha 170 ton məhsul göndərmək uğrunda mübarizə gedir. Üzümçülərdən Tacirə Abdullayeva, Küşvər Salayeva, Səkinə Hüseynova, Gülnaz Məmmədova və başqaları gündə adama nəzərdə tutulduğundan 200-300 kiloqram çox üzüm toplayırlar…

Bu gün qazanılan əmək müvəffəqiyyətində mexanizatorlarımızın və suçularımızın böyük əməyi olmuşdur. Mexanizatorlarımızdan Ələkbər Məmmədov, **Möhsün Həziyev,** Həmid Süleymanov, Ibrahim Ibrahimov, Abdulla Nəcəfov, suçulardan Qafar Cəfərov, Həsənalı Tarverdiyev, Məsum Zamanov bol məhsul üçün əllərindən gələni əsirgəməmişlər.

Təxmini hesablamalara görə biz cari ildə üzümçülükdən 1 miliyon 700 min manat gəlir götürə biləcəyik. Bu vəsaitin 800 min manatını əlavə əmək haqqı və mükafata verəcəyik. O, əməkçilərimizin maddi rifah halının daha da yaxşılaşdırılmasına, onların firavan yaşamalarına kömək edəcəkdir…

***Fərzalı Rzayev,***
***Babək rayonundakı «Naxçıvan» sovxozunun direktoru,***
***kənd təsərrüfatı elmləri namizədi***
***2 oktyabr 1984-cü il, «Sovet Naxçıvanı» qəzeti***

## Briqadanın səyi

İndi rayonumuzun bütün təsərrüfatlarında payız-qış becərilməsi müvəffəqiyyətlə həyata keçirilir. Kənd əməkçiləri məhsulu yığılmış sahələrdə işgüzarlıq nümunəsi göstərir, üzərlərinə düşən vəzifələrin öhdəsindən bacarıqla gəlməyə çalışırlar. Bu mübarizənin ön cərgəsində addımlayan kollektivlərindən biri də "Naxçıvan" üzümçülük sovxozunda **Fazil Əliyevin** başçılıq etdiyi komsomolçu-gənclər briqadasıdır.

İlin əvvəlindən yaxşı start götürmüş kollektivin üzvləri aqrotexniki tədbirləri vaxtında da layiqincə yerinə yertirdikləri üçün planda nəzərdə tutulmuş 230 ton əvəzinə 362 ton məhsul toplayıb dövlətə təhvil vermişlər ki, bu da nəzərdə tutulduğundan xeyli çoxdur. Qazandıqları əmək qələbəsi ilə heç də arxayınlaşmayan briqadanın üzvləri hazırda gələcəyin bol məhsuluna möhkəm zəmin yaratmaq üçün sahələrdə fədakarlıqla çalışırılar. Qısa vaxt ərzində əməkçilər kolları məftillərdən açmışlar. Cərgəaraları şumlanmış, şnalerlərt əmir olunmağa başlanmışdır. Əməkçilərdən Mənsurə Əsgərova, Nüşabə Əhmədova, Səkinə Quliyeva, Məleykə Əhmədova və başqaları becərmə tədbirlərini müvəffəqiyyətlə həyata keçirirlər.

Briqadanın əməkçiləri qarşıdan gələn Naxçıcan MSSR-ni 60 illiyini (1924-cü il fevralın 9-da təşkil edilmişdir. – Ə.H) ləyaqətlə qarşılamaq üçün ikiqat qüvvə ilə çalışır, ərzaq proqramına layiqli töhvələrini verirlər.

***Zahid Salayev,***
***"Əmək bayrağı" qəzeti, 11 noyabr 1984-cü il***

**<u>1986-cı il</u>**

## Yeni vəzifələr səviyyəsində

… Sovxozumuz çoxsahəli təsərrüfata malikdir. Lakin onun iqtisadiyyatının başlıca sahəsini üzümçülük təşkil edir. 567 hektar məhsuldar üzüm bağımız vardır. Bildir bu bağlardan plan

üzrə 3 min ton üzüm istehsal edib dövlətə təhvil verməli idik. Ehtiyat mənbələrindən, işçi qüvvəsindən, su ehtiyatından, texnikanın gücündən səmərəli istifadə etdiyimizdən, məhsuldarlığı artırmaq üçün mineral və üzvi gübrələri müvəffəqiyyətlə tətbiq etdiyimizdən biz plan tapşırığını xeyli atıqlaması ilə yerinə yetirməyə nail olmuşuq. Qəbul məntəqəsinə 4.392 ton üzüm təhvil verib öz sosialist öhdəliyimizi ləyaqətlə yerinə yetirdik. Məcid Vəliyevin briqadası 65 hektar sahədən 415 ton əvəzinə 611.7 ton, Səyyad Piriyevin briqadası 66 hektar sahədən 330 ton əvəzinə 561 ton, Firəddin Qasımovun briqadası 56 hektar bağdan 358 ton əvəzinə 411 ton məhsul təhvil vermişlər. Fərman Mirzəməmmədovun və Fazil Əliyevin briqadaları da yaxşı nəticələr qazanmışlar…

***Ə.Nağıyev,***
***Babək rayonundakı «Naxçıvan» üzümçülük sovxozunun baş aqronomu***
***«Sovet Naxçıvanı» qəzeti,***
***4 fevral 1986-cı il***
***(Qəzetin əvvəlki adı «Şərq qapısı » - Ə.H.)***

## Sürəti artırırıq

SSRI-nin Ərzaq proqramının artırılmasında fəal iştirak edən təsərrüfatımızın əməkçiləri bu günlər daha səylə çalışırlar. Sovxozumuzun biçənək və yoncalıqlarında biçin sürətlə və keyfiyyətlə aparılır.

Sovxozumuzun əməkçiləri on ikinci beşilliyin start ilində 60 hektar sahədə qarğıdalı, 110 hektar təzə yonca, 20 hektar köhnə yonca, 11 hektar yem çuğunduruna qayğı ilə qulluq edirlər. Yemçilik briqadamızın üzvləri əsasən mexanizator və təcrübəli əkinçilərdən ibarətdir.

Qeyd etməliyəm ki, hər il torpağın şumlanmasından tutmuş, toxumun səpilməsindən, məhsulun yığılıb tayalara daşınmasına qədər bütün işləri briqadamızın üzvləri görürlər.

Bu il 600 ton quru ot toplanmasını planlaşdırmışıq. Yoncalıqlarımızda birinci çalın başa çatmışdır. Yemçilərimiz mövsümün ilk günündən işə ürəklə girişmişlər. Işgüzarlqla çalışan zəhmət adamları qışa kifayət qədər yem ehtiyatı toplamaq üçün öz səy və bacarıqlarını gündən-günə artırırlar. Təsərrüfatımızda yem toplanması davam etdirilir. Nəticələr pis deyil. Senaj tədarükü planına da artıqlaması ilə əməl olunmuşdur.

***Mehdi Mehdiyev,***
***«Naxçıvan» sovxozunun briqadiri***
***«Əmək bayrağı» qəzeti, 27 iyun 1986-cı il***

## Birincilər sırasında

«Naxçıvan» sovxozunun əməkçiləri təsərrüfatın müxtəlif sahələri ilə yanaşı heyvandarlığın da coşqun inkişafına nail olmaq əzmilə mübarizə aparırlar. Ferma əməkçiləri məhsul istehsalı və satışını getdikcə artırır, öz işlərini yenidən qururlar. Sovxozun əməkçiləri yaxşı bilirlər ki, heyvandarlığı inkişaf etdirmək üçün birinci növbədə bol yem ehtiyatı yaratmaq lazımdır. Odur ki, indi təsərrüfatda başlıca diqqət yem tədarükünə yönəldilir… **Sovxozun direktoru F.Rzayev Fərzalı (Ə.Hümmətov)** deyir:

- Biz indi işimizi yenidən qururuq. Demək olar ki, yemçiliyə münasibəti kökündən dəyişmişik. Yem toplanışına elə bir maraq yaratmağa çalışırıq ki, bu işdən heç kəs kənarda qalmasın. Axı, qışın ehtiyatını indidən yaratmalıyıq. Odur ki, bu sahəyə əlavə quvvələr də cəmləşdirilmişdir. Çalışırıq ki, planda nəzərdə tutulduğundan çox yem toplayaq…

Təsərrüfat başçısının dediyi kimi, yem tədarükçüləri səylə işləyirlər. Hazırda sovxozda 20 hektar köhnə, 80 hektar cavan yoncalıq, 60 hektar silosluq qarğıdalı, 60 hektar kövşənlik qarğıdalı sahələri vardır.

**Sərdar Quliyevin başçılıq etdiyi** briqadanın əməkçiləri 60 hektar köhnə və təzə yoncalığa nümunəvi qaydada qulluq

göstərirlər. Briqadanın əməkçiləri həmin sahələrdən indiyədək 650 ton quru ot tədarük etmişlər.

Mezxanizator Əvəz Hüseynov, fəhlələrdən Şahbaz Ibrahimov, Qibləli Hənifəyev, sürücülərdən Ibrahim Ismayılov, Rəşid Quliyev, Sultan Mehdiyev və başqaları yem tədarükündə var qüvvələrini əsirgəmirlər. Yem tədarükçüləri indiyədək sahələrdən 750 tondan çox küləş toplamışlar. Qeyd edək ki, biçilən sahələr dərhal gübrələnir və sıvarılır. Qarğıdalı və yem çuğunduru əkini sahələrində işlər yaxşı təşkil edilib. 11 hektar yem çuğunduru sahəsində bol məhsul yetişdirilir. Qarğıdalı əkini sahələrinə iki dəfə gübrə verilmiş, üç dəfə suvarma aparılmışdır. Yem tədarükündə Səyyad Piriyevin və Fərman Mirzəməmmədovun başçılıq etdikləri briqadaların əməkçiləri də fəallıqla çalışırlar…

***«Əmək bayrağı» qəzeti, 8 avqust 1986-cı il***

**1989-cu il**

## Mexanizator

“Naxçıvan” sovxozunda **İsrafil Babayev** qabaqcıl mexanizator kimi hamının hörmətini qazanıb. Təsərrüfat iqtisadiyyatının elə bir sahəsi yoxdur ki, orada onun işlətdiyi troktorun izi olmasın. Təsadüfi deyildir ki, İsrafili sovxozun mayaklarından adlandırırlar. Ömrünün 20 ildən çoxunu bu peşəyə həsr edib. Halal zəhmətlə yaşayıb. “Dəmir atı” ilə təsərrüfatın əkin sahələrinin məhsuldarlığının artırılmasında yaxından iştirak edir.

O öz peşəsini gənclərə həvəslə öyrədir. Yaxşı işinə görə “Əmək veteranı” medalına, “Sosializm yarışının qalibi” doş nişanına layiq görülüb. Aldığı mükafatlar isə onu yeni qələbələr qazanmağa ruhlandırır.

***“Əmək bayrağı” qəzeti, 22 fevral 1989-cu il***

## 1990-cı il

### Sabahın ustaları

Son vaxtlar rayonumuzda texniki-peşə məktəblərinin fəaliyyətinə diqqət xeyri artmış, sabahın ustalarının hazırlanmasına qayğı yüksəlmişdir. Bunu 188 nömrəli Zeynəddin kənd texniki-peşə məktəbinin timsalında da aydın görmək olar. Texniki-peşə məktəbində 9 ixtisas üzrə 16 qrup fəaliyyət göstərir. Burada 419 nəfər şagird traktorçu-maşınst, kənd təsərrüfatı maşınlarının çilingəri, maşınla sağım operatoru, melioriyasiya işləri üzrə texniki mühasibat uçot işləri və digər peşələrə yiyələnir.

Kənd təsərrüfatı müəssisələrində mühasibat-uçot işçilərinə ehtiyacı nəzərə alaraq bu dərs ilində həmin qrup fəaliyyətə başlamışdır. İndi bu qrupda 23 nəfər şagird təhsil alır. **Qrupun istehsalat təlimi ustası Tükaz İsmayılova H. Rəfiyev adına sovxoz-texnikumun məzunudur.** Qrupun şagirdlərindən Nailə Hacıyeva, Habil Nadirov, Nüşabə Əhmədova və başqaları yaxşı oxumaqla yanaşı ictimai işlərdə də yaxından iştirak edirlər.

Kənd təsərrüfatı maşınlarının çilingəri qrupuna **istehsalat təlim ustası İntiqam Quliyev** başçılıq edir. Onu deyək ki, bu peşəyə rayonda böyük ehtiyac var. Hər il qrupa təmir işinə maraq göstərən şagirdlər qəbul olunur. Ümumiyyətlə, **məktəbin direktoru Mehdi Bəxtiyarovun** dediyi kimi, bu təhsil ocağına şagird qəbul olunarkən maraq ön olana çəkilir…

Ötən dərs ilində məktəbi 546 nəfər şagird qurtarıb. Onlardan 6 nəfər müxtəlif ali və orta ixtisas məktəblərinə daxil olub. Qalanları isə təyinat yerlərinə göndəriliblər.

Şagirdlərin əmək tərbiyəsinə də ciddi fikir verilir. 1987-ci ildə məktəbə 10 hektar yardımçı təsərrüfat sahəsi ayrılıb. Həmin sahədə yonca və qarğıdalı əkilir. Ötən il bu sahədən 3 min manatadək gəlir götürülüb...

Yeni dərs ilindən məktəbdə dərzilik və xalçaçılıq qrupları da açılacaq. Məktəb bu barədə sifariş almışdır.

Söhbət problemlərdən düşəndə məktəbin direktoru Mehdi Bəxtiyarov bu barədə geniş danışdı. Aydın oldu ki, burada problemlər az deyil. Hər şeydən əvvəl məktəb uyğunlaşdırılmış binada yerləşir. Binanın təmirə ciddi ehtiyacı var. Burada ali təhsilli mühəndis kadrları çatışmır. Məktəbin maddi-texniki bazası zəifdir. Buraxılmış şagirdlərin işlə təminatı pis vəziyyətdədir. Hami təşkilat olan "Naxçıvan" sovxozunun işi məktəbin kollektivini razı salmır.

***Ə.Dünyamalıyev,***
***"Əmək bayrağı" qəzeti, 15 mart 1990-cı il***

**Təşəbbüsdən sonra**

Lap çoxdanki arzumuz idi, istəyirdik ki, özümüzün yardımçı təsrrüfatımız olsun. Buna görə çox qapılar döyməli olduq. Axır ki, əlaqədar təşkilatlar qaldırdığımız təşəbbüsü bəyəndilər. Elə keçən ildən bizə öz təsərrüfatımızı yaratmaq imkanı verildi. "Naxçıvan" sovxozuna təhkim olunduq. Sovxozun təsərrüfatından 11 hektar üzüm bağı, 5 hektar yonca sahəsi və 9 baş malqara ayrılıb ixtiyarımıza verildi. Elə ilk günlərdən məktəblilər, müəllimlər könüllü olaraq təsərrüfatda işləməyə girişdilər. Qərara aldıq ki, şagirdlərdən ibarət briqada təşkil edək. Briqadaya rəhbərlik isə müəllim Mehdi Mehdiyevə həvalə olundu.

İndi 11 hektarlıq üzüm bağında becərmə işləri aparılır. Tənəklərin üstü açılıb, budama işləri görülür. Becərmənin keyfiyyətlə aparılmasında şagirdlərdən Cəsarət Bayramovanın, Həsən Quliyevin, Natəvan Əhmədovanın, Rəmziyyə Babayevanın əməyi böyükdür. Üzüm bağımız hələ körpədir, 4 illik bağdır. Bu il bağdan məhsulun 20 faizini götürməyi planlaşdırmışıq. Hələlik üzümdən gəlirimiz olmayıb. Amma gələcəkdə xeyli gəlir əldə edə biləcəyik.

Şagird istehsalat briqadasının üzvləri maldarlıq məhsullarının artırılmasında da yaxından iştirak edirlər. Briqadanın öhdəsində olan yonca sahəsində əldə edilən yem maldarlığın

inkişafında müsbət rol oynayır. Şagirdlər inəklərə qayğı ilə qulluq göstərir, zoobaytar qaydalara vaxtında əməl edirlər. Gün ərzində 30-32 litr süd istehsal olunur. İndiyədək 4600 manatadək gəlir əldə edilib. Həmin gəlir əsasında şagirdlərə əmək haqqı veririk. Deməli, briqada üzvlərinin hər birinin işi əməyinə görə də qiymətləndirilir. Beləliklə, şagirdlər əmək haqqı barəsində həyati təsəvvürlər alır, zəhmətlə qazanılan manatın qədrini bilməyi öyrənirlər. Ümumiyyətlə, şagird-istehsalat briqadası şagirdlərin qənaət rejimi, əmək məhsuldarlığı, məhsulun maya dəyəri, keyfiyyəti haqqında məlumat alması üçün ən yaxşı tərbiyə məktəbidir.

Briqadanın işinin təşkilində çətinliklərimiz çoxdur. Becərmə işlərinin vaxtında görülməsi əmək məhsuldarlığının yüksək olmasına kömək edir. Bunun üçün üzvi və mineral gübrələr torpağa vaxtında və tələb olunan miqdarda verilməlidir. Təəssüf ki, hami təsərrüfat olan "Naxçıvan" sovxozunun bizə heç bir köməkiliyi dəymir, texnikamız yoxdur. Adicə, tənəklərin məftilə qaldırılması üçün şpaler tapa bilmirik. Bu barədə rayon icraiyyə komitəsinə, rayon aqrar-sənaye birliyinə müraciət etsək də heç bir nəticəsi olmayıb.

Məktəbimizdə ictimai-faydalı və məhsuldar əmək dərslərinə maraq xeyli artmışdır. Təsərrüfatımızın əksəriyyət işləri bu dərslərin hesabına görülür. Qərara almışıq ki, dərzi sexi açaq, iş üçün əlcək və xalat tikək. Müəyyən təşkilatlarla müqavilə bağlamışıq ki, hazır məhsulları onlara sataq. Ancaq sexin açılması biz fikirləşdiyimiz qədər də asan deyilmiş. Səkkiz ədəd tikiş maşını almışıq, hamısı da nasaz maşınlardır. Maşınların təmiri işimizə maeçilik törədir, ehtiyat hissələrini tapa bilmirik. İstərdik ki, aid təşkilatlar bu işdə də bizə yaxından kömək etsinlər.

***Z. Nadirov,***
***Zeynəddin kənd orta məktəbinin direktoru.***
***"Əmək bayrağı" qəzeti, 12 aprel 1990-cı il***

# <u>1991-ci il</u>

## Körpü tikilir

Zeyndəddin kəndini 2 hissəyə bölən quru çay selovu bəzən əlaqənin kəsilməsinə səbəb olur. Bunu nəzərə alan Babək rayonundakı 50 nömrəli yol sahəsinin kollektivi 10 metr aşırımında dəmir-beton körpü inşa edir. Tikintinin smeta dəyəri 50 min manatdır. Rasim Rzayevin başçılıq etdiyi briqadanın əməkçiləri körpünün kənar dayaqlarını quraşdırmışlar. Yaxın vaxtlarda dəmir-beton hissələri quraşdırılacaq. Yeni körpü istifadəyə verildikdən sonra kənddə əlaqə hər zaman yaxşı olacaq, avtomaşınların rahat gediş gəlişinə şərait yaranacaqdır.

***K. Məmmədov,***
***"Şərq qapısı" qəzeti, 15 avqust 1991-ci il***

## İlk günlərin sevinci

Muxtar respublikamızın təsərrüfatlarında bir neçə gündür ki, kütləvi üzüm yığımına başlanmışdır. Babək rayonundakı **"Zeynəddin" sovxozunun direktoru Ədalət Nağıyevlə** üzümçülərin yanında görüşdük. Dedi ki, təsərrüfatımızda 130 hektar məhsuldar bağ var. Bunu 6 hektarı süfrə üzümüdür.

Bu il bağlardan 700 tondan çox kəhraba salxım toplayacağıq ki, bunun da 32,4 tonu süfrə üzümü olacaqdır.

Sovxozda üzümçülüklə 3 briqada məşğul olur. Bunlardan birinə səriştəli **təsərrüfatçı Sərdar Quliyev** başçılıq edir. Kənardan bizi görüb yanımıza gələn dolu bədənli bu gənc elə ilk dəqiqələrdən xoş təsir bağışladı. Dedi ki, briqadanın üzvləri bu il 45 hektar bağa aqrotexniki qaydada qulluq göstəriblər. Tənəklərdə məhsul boldur. Bağlarımızın 4 hektarı süfrə üzümüdür.

Məlum oldu ki, ilk dəfə bu briqadada süfrə üzümünün yığılmasına başlanıb. Hazırda kütləvi yığım gedir. Hər hektardan 54 sentner üzüm yığmaq planlaşdırılırb.

Üzümçülərdən Xoşqədəm Kərimova, Narxanım Salayeva, Leylan Məmmədova və başqaları yığımın ilk günlərindən fəallıq göstərirlər. Belə qoçaq əməkçilərin zəhmətləri hesabına bir neçə gündə bağlardan 30 tondan çox üzüm toplanaraq emal müəssisəsinə yola salınıb. Bundan başqa Naxçıvan şəhərinin əhalisinə satılmaq üçün 2 ton süfrə üzümü göndərilib.

**Briqadir S. Quliyev dedi:** - 8 ildir briqadir işləyirəm. Təcrübəmdən bilirəm ki, bağlardakı tənəklərin nazını çəkəndə, onlara qayğı ilə qulluq edəndə bol məhsul hasilə gətirmək olur. İndi bağlarımızda qələbəlikdir. Hamı deyə-gülə yığımda iştirak edir. Çalışırıq ki, məhsulu vaxtında yığıb yığışdıraq.

**Pərviz Məmmədovun başçılıq etdiyi briqadanın** bağlarında da yığım davam edir. Cari ildə 49 hektar bağdan 264 ton məhsul yığılmalıdır. Munəvvər və Xanım Məmmədovların, Minayə Quliyevanın və başqalarının işgüzarlıqları hesabına az vaxtda zavoda 20 tondan çox məhsul yola salınıb. Üzümçülər bilirlər ki, bu il məhsulun satınalma qiyməti qalxıb. Buna görə də daha çox üzüm toplamağa çalışırlar.

**Səyyad Priyevin briqada üzvləri də** gündəlik yığım tapşırığını artıqlaması ilə yerinə yetirirlər. Qabaqcılardan Gülnaz Məmmədova, Fatma Vəliyeva, Məleykə Məmmədova hər gün nəzərdə tutulandan çox üzüm toplayırlar.

Direktor dedi ki, ta qədimdən Zeynəddin üzümü dillər əzbəri olub. Yığımı yaxşı təşkil etmişik. Amma çətinliklərimiz də var. Belə ki, yanacaq çatışmır. Kənardan bizə köməyə gəlmiş avtomaşınların sürücüləri vaxtında gəlib çıxmırlar. Hər gün 100 nəfər yığımla məşqul olur. Gündə 20-25 ton məhsul toplayıb zavoda yola salır. Əgər bağlardan planda nəzərdə tutulan qədər üzüm toplaya biləcək, bir milyon manata qədər gəlirimiz olacaqdır.

Günəş yavaş-yavaş dağların arxasına çəkilir. Bağbanlar üzüm dolu son maşını da emal müəssisəsinə yola salıb, ilk günlərin sevinci ilə evlərinə tələsirlər.

***Əli Cəfərov,***
***"Şərq qapısı" qəzeti, 14 sentyabr 1991-ci il***

## Təsərrüfat təmayüllü məktəb-müəssisə kompleksi

Gənclərin peşələrə olan marağının artırılması və onların gələcəyin quruculari kimi yetişməsi üçün peşə məktəbləri, peşə liseyləri ilə yanaşı ayrı-ayrı ümumtəhsil məktəbləri pedaqoji kollektivlərinin təşəbbüsü yolu ilə məktəbliləri müxtəlif ixtisaslara yiyələndirməsi, müəllim və şagirdlərin istirahət və tətil vaxtlarında əməyini məqsədli şəkildə bir məcraya yönəltməsi, habelə kollektiv zəhmətin gətirdiyi gəliri məktəbin və kollektiv üzvlərinin ehtiyacına sərf etməsi alqışlanmalıdır. Hələ sovetlər birliyinin zamanın da Azərbaycanın Xaldan, Bozaqanlı kimi məktəblərində yardımçı təsərrüfatlar fəaliyyət göstərirdi. Bu təsərrüfatlardan əldə olunan məhsullar müəllim və şagirdlərin ehtiyaclarına, məktəbin təmiri, avadanlıqların alınması, günüuzadılmış qruplarda isti yeməklərin verilməsi və s. kimi əhəmiyyətli sahələrə xərclənirdi.

Bu gün Naxçıvan MR Babək rayonunun Zeynəddin kənd orta məktəbində belə əmək ənənələri davam etdirildi. Kənd təsərrüfatı təmayüllü Zeynəddin kənd orta məktəbi Sovet İttifaqı Qəhrəman Mehdi Hüseynzadənin silahdaşı olmuş Sadıq Nadirlinin adını daşıyır. Qeyd edək ki, bu məktəb müstəqillik dövründə Naxçıvan Muxtar Respublikasında fəaliyyət başlayan yeni tipli təhsil ocaqlarındadır. 1978-ci ildə istifadəyə verilmiş 624 yerlik ikimərtəbəli binada 600-dən artıq şagirdin təlim-tərbiyəsi ilə 68 müəllim məşğul olur. (O zaman müəyyən səbəblərə görə məktəbin tikintisinin başa çatması haqqında sənədləşmə aparılıb. Lakin məktəb müəllim və şagirdlərin ixtiyarına 1979-cu ildə yeni tədris il başlayanda verilib -Ə.Hümmətov).

Məktəbin direktotu, Naxçıvan MR-in əməkdar müəllimi Zeynalabdin Nadirov ixtisasca coğrafiyaçı-bioloqdur.

Zeynəddin kənd məktəbində ikinci dəfə idi ki, olurduq. Bu dəfəki gəlişimiz yay tətili günlərinə təsadüf etmişdi. Məktəbdə cari təmir işləri aparılırdı. Yeri gəlmişkən qeyd edək ki, 1978-ci ildən istifadəyə verilmiş məktəb binasında bu vaxta qədər əsaslı

təmir işləri aparılmamışdır. Cari təmir işləri isə həmişə daxili imkanlar hesabına həyata keçirilmişdir.

Zeynəddin kənd məktəbinin 40 hektarlıq torpaq sahəsi vardır. Onun 15 hektarında taxıl, 20 hektarından yonca əkilmişdir. İstilikxanada ilin bütün vaxtlarında tərəvəz yetişdirilir.

Məktəbdə taxıl üyütmək və çörək bişirmək üçün də şərait vardır.

Direktor bildirdi ki, heyvandarlığın inkişafına diqqət verilir, mal-qara saxlamaq planlaşdırılır.

Keçən il təsərrüfatdan gələn gəlirlə məktəb üçün yataqxana və uşaq bağçası tikilib. İkimərtəbəli, 14 otaqlı bu binada 2001-2002-ci dərs ilində 36 şagird yaşamışdır. Bağçada isə 3 qrupda 60 uşaq tərbiyə alır. Həmin otaqlardan tədrs məqsədilə istifadə edildiyindən məktəb birnövbəli dərs sisteminə keçib. Məktəbin istilik sistemi də daxili imkanlar hesabına qış vaxtı fəaliyyət göstərir.

İnanırıq ki, qazanılmış uğurları qarşıdakı dərs ilində də əldə saxlamaq və artırmaq, təhsil islahatının həyata keçirilməsinə əllərindən gələn töhfəni vermək üçün Zeynəddin kənd məktəbinin kollektivi bundan sonra da var qüvvə ilə çalışacaqdır.

*Gülçöhrə Hüseynova, Abbas Hacıyev,*
*Naxçıvan MR Təhsil Nazirliyinin əməkdaşları.*
*"Azərbaycan müəllimi" qəzeti, 19-25 iyul 2002-ci il*

## Babək rayonunun Zeynəddin kəndində orta ümumtəhsil və musiqi məktəbi binaları istifadəyə verilib

Bu münasibətlə keçirilmiş tədbirdə çıxış edən Babək Rayon İcra Hakimiyyətinin başçısı Elçin Hüseynəliyev demişdir ki, artıq kompleks quruculuq tədbirləri kəndlərdə də uğurla həyata keçirilir. 2880 nəfər əhalisi olan Zeynəddin kəndində ötən il və cari ildə yeni sosial obyektlərin inşa olunması bunun əyani ifadəsidir.

Məktəbin müəllimi Ilahə Cəfərova tədbirdə çıxış edərək demişdir ki, kəndimizdəki məktəb binasının yenidən qurulması

bizə təhsildə daha böyük nəticələr qazanmağa şərait yaradacaqdır. O, göstərilən diqqət və qayğıya görə məktəbin pedaqoji kollektivi adından minnətdarlığını bildirmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov tədbirdə çıxış edərək demişdir:**

- Bu gün ölkəmizdəki inkişaf və sabitlik, həyata keçirilən quruculuq işləri ümummilli liderimiz Heydər Əliyevin ötən əsrin 70-ci illərindən Azərbaycanda başladığı siyasətin təntənəsi, ulu öndərimizin yolunun Prezident Ilham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir. Azərbaycanda həyata keçirilən quruculuq işlərindən Naxçıvan Muxtar Respublikası da bəhrələnmişdir. Muxtar respublikamızda bütün sahələrdə quruculuq işləri davam etdirilir.

Azərbaycanda yaradılan sabitlik, ölkəmizin hər yerində olduğu kimi, muxtar respublikamızda da belə tədbirlərin həyata keçirilməsinə imkan verir. Görülən işlər ölkəmizin firavan gələcəyinin təmin edilməsinə, insanların rifah halının yaxşılaşdırılmasına, gələcəyimiz olan uşaqların mükəmməl təhsil almalarına xidmət edir.

Muxtar respublikamızda həyata keçirilən tədbirlərdən Babək rayonunun Zeynəddin kəndinə də pay düşmüşdür. Kənd tamamilə qazlaşdırılmış, telefonlaşdırılmış, yolu abadlaşdırılmışdır. Ötən il kənd mərkəzi, həkim ambulatoriyası tikilmişdir. Zeynəddin kəndində başlanan quruculuq işləri cari ildə də davam etdirilir. Bu gün Zeynəddin kəndində əsaslı yenidənqurmadan sonra 612 şagird yerlik məktəb binası, 8 ixtisaslı uşaq musiqi məktəbi, Zeynəddin-Qahab kəndlərini birləşdirən kənd yolu istifadəyə verilir. Beləliklə, bu kənd də muxtar respublikamızın abad yaşayış məntəqələri sırasına daxil olur.

Ali Məclisin sədri yeni məktəb binasının istifadəyə verilməsi münasibətilə kənd sakinlərini, məktəbin pedaqoji kollektivini, şagirdləri təbrik etmiş, onlara uğurlar arzulamışdır. Yeni yaradılmış musiqi məktəbi isə uşaqlara əlavə bir ixtisasın öyrədilməsinə şərait yaradacaqdır.

Ali Məclisin sədri Vasif Talıbov musiqi məktəbində təhsil alacaq 40 şagirdin gələcəkdə sayının artacağına inandığını bildirmişdir. Qeyd olunmuşdur ki, burada ixtisasların da sayının artırılmasından sonra kənddə tam ixtisaslı böyük bir musiqi məktəbi fəaliyyət göstərəcəkdir. Ilkin olaraq 8 ixtisasla fəaliyyətə başlayan uşaq musiqi məktəbi Zeynəddin kəndinin ictimai və mədəni həyatında xüsusi rola malik olacaqdır. Musiqi məktəbinin kollektivi bayram günlərində kənd ictimaiyyəti qarşısında konsert proqramları ilə çıxış edəcəkdir. Bundan əlavə, uşaqlar dərslərini öyrənəndən sonra asudə vaxtlarında burada musiqi təhsili alacaqlar. Bu da uşaqların hərtərəfli yetişməsi üçün vacib şərtlərdən biridir. Ona görə də hər il muxtar respublikamızda uşaq musiqi məktəbləri üçün yeni binalar tikilir, mövcud məktəb binaları yenidən qurulur, yaxud yeni musiqi məktəbləri yaradılaraq istifadəyə verilir.

Yeni təhsil ocaqları kəndin inkişafında da mühüm rol oynayacaqdır. Bu məktəblərdə yetişənlər təkcə Zeynəddin kəndinin ictimai-siyasi, mədəni həyatında deyil, muxtar respublikamızın, bəlkə də Azərbaycanın ictimai-siyasi və mədəni həyatında fəal iştirakçılardan olacaqlar. Təhsildə tətbiq olunan müasir texnologiyaların hamısı bu məktəb üçün də nəzərdə tutulmuşdur. Bu ona görə edilmişdir ki, burada yetişən uşaqlar gələcəkdə Azərbaycanın fəal, vətənpərvər vətəndaşları olsunlar.

Açılışı bildirən rəmzi lent kəsildikdən sonra yeni məktəb binasına baxış keçirilmişdir.

Yeni təhsil ocağında 34 sinif və müxtəlif iş otaqları, hərbi və kimya-biologiya kabinetləri, iki kompyuter sinfi, kitabxana, bir dəst kompyuterlə təchiz olunmuş elektron lövhəli kabinet, müəllimlər otağı və idman zalı fəaliyyət göstərəcəkdir.

Məlumat verilmişdir ki, məktəbdə şagirdlərin təhsili ilə 57 müəllim məşğul olur. Məktəb binası gələcək perspektivlər nəzərə alınaraq yenidən qurulmuşdur. Hazırda 387 şagirdin təhsil aldığı məktəb binası 612 şagird yerlikdir.

Məktəbin kitabxana fondunda 8125 latın qrafikalı dərslik və 3525 bədii ədəbiyyat olmaqla, 11650 kitab vardır. Kitabxanada kataloq işi kompyuterləşdirilmişdir.

Məktəbdə 17 dəst kompyuter quraşdırılmış, onların 9-u internetə qoşulmuşdur.

Muxtar respublikanın digər yeni məktəbləri kimi, Zeynəddin kənd orta məktəbində də tətbiq olunan elektron lövhə kabinetində lövhənin işləmə qaydaları barədə məlumat verilmişdir.

**Sonra uşaq musiqi məktəbinə baxış keçirilmişdir.**

Ikimərtəbəli uşaq musiqi məktəbinin binası müasir tələblərə uyğun maddi-texniki baza ilə təmin olunmuşdur. Burada 14 sinif otağı, müəllimlər otağı və kitabxana vardır. Kitabxana fondunda 100 nüsxə tədris vəsaiti və musiqi ədəbiyyatı mövcuddur.

Məktəbdə 40 şagirdin təhsili ilə 13 müəllim məşğul olacaqdır.

Musiqi məktəbində tar, kamança, qarmon, nağara, fortepiano, skripka, kanon, xanəndəlik sinifləri fəaliyyət göstərir. Məktəb müasir inventar və avadanlıqla təchiz edilmiş, 2 ədəd fortepiano verilmişdir.

Hər iki məktəbin ərazisində geniş abadlıq işləri aparılmış, 6200 kvadratmetr sahəyə kilid daş döşənmiş, 3200 metr bardür qoyulmuş, müasir işıqlandırma sistemi və idman qurğuları quraşdırılmışdır. Burada həyata keçirilən yaşıllaşdırma tədbirləri də diqqəti cəlb edir. Ərazidə 850 ədəd gül kolu, 180 ədəd həmişəyaşıl ağac əkilmiş, su xətti çəkilmişdir.

Ali Məclisin sədri Vasif Talıbov ərazidə yeni meyvə bağının salınması barədə tapşırıq vermişdir.

***AzərTac***
***«Azərbaycan müəllimi» qəzeti,***
***25 sentyabr 2009-cu il***

## UĞURLAR TƏSADÜFİ OLMUR

### Jurnalist Əşrəf Hümmətovun 70 illik yubileyinə



**Bu il "Elm və təhsil" nəşriyyat-poliqrafiya müəssisəsində çap olunan "Uğurlar təsadüfi deyil" kitabının müəllifi, jurnalist Əşrəf Hümmətovu illər öncə radiodan tanımışam.**

Bir müddət milli "Xəbərlər" redaksiyasında bərabər çalışmışıq. Onun həmkarlarından fərqi konkret bir sahəyə güclü maraq göstərməsi, Azərbaycan təhsilinin keçdiyi inkişaf prosesinə dolğun nəzər salması və məktəblərdə təşkil olunan tədbirlərə xüsusi sayğı ilə yanaşması, gənc nəsillə daim təmasda olması, bir sözlə, milli təhsilə böyük önəm verməsidir. Redaksiyadakı həmkarları ilə yanaşı, kollektivin digər üzvləri də ondan bu sahəyə aid məsləhətlər alır, təhsilə aid bütün suallarını ona ünvanlayırdı. Hətta radiodan gedəndən sonra da istənilən an keçmiş iş yoldaşlarının köməyinə çatıb, sanki bir təhsil eksperti kimi öz yardımını əsirgəməyib.

Qərb jurnalistikasında belədir ki, jurnalistlər ayrı-ayrı sahələr üzrə ixtisaslaşır və konkret bir istiqamətdə fəaliyyət göstərirlər. Ona görə də tematika baxımından zəngin bilik əldə etmiş olurlar. Bu mənada Əşrəf Hümmətovun mətbuatdakı fəaliyyəti bir məcraya yönəldiyindən onun jurnalistikadakı uğurları başadüşüləndir.

**Ulu öndərimiz Heydər Əliyev deyərdi:** "Biz hamımız həyatımızda əldə etdiyimiz nailiyyətlərə, bütün varlığımıza görə müəllimə borcluyuq. Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir. Cəmiyyət təhsilsiz

inkişaf edə bilməz..." Bu amilə ciddi yanaşan həmkarımız radiodan daima daha çox bu məqsədlər üçün istifadə edər, təhsilimizin bu günü və sabahı ilə bağlı mütəmadi verilişlər hazırlayardı. Tale elə gətirdi ki, təqaüd yaşına çıxandan sonra da öz missiyasını davam etdirməyə başladı. 2009-cu ilin dekabr ayından "Təhsil problemləri" qəzetində fəaliyyətini davam etdirir.

**Əvvəlcə onu daha yaxından tanıyaq.** Hümmətov Əşrəf Əli oğlu 25 oktyabr 1947-ci ildə Naxçıvan rayonunun (indiki Babək) Zeynəddin kəndində müəllim ailəsində anadan olub. 1961-ci ildə kənddəki 7 illik məktəbi, 1965-ci ildə qonşu Leninabad (indi Kərimbəyli) kənd orta məktəbini bitirib.

1965-1966-cı tədris ilində Bakı Kooperativ Texniki Peşə Məktəbində təhsil aldıqdan sonra Bakı Kooperativ Texnikumunda təhsilini qiyabi davam etdirməklə bərabər, əmək fəaliyyətinə başlayıb. 1967-ci ilin yanvarında hərbi xidmətə çağırılıb. 1969-cu ilin iyun ayında ordu sıralarından tərxis olunan Əşrəf Hümmətov Azərbaycan Dövlət Universitetinin Jurnalistika fakültəsinə (Bakı Dövlət Universiteti) qəbul olunub və 1974-cü ildə ali təhsilini başa vurub. 1973-cü ildən ehtiyatda olan zabitdir. Dəfələrlə hərbi təlimlərdə olub, rota komandiri vəzifəsinədək yüksəlib.

O, 1974-75-ci illərdə Bakıda "Gənclik" nəşriyyatında, 1975-ci ilin avqust ayından 1995-ci ilin avqust ayınadək Naxçıvan MR Dövlət Televiziya və Radio Verilişləri Komitəsində, 1995-ci ilin avqust ayından 2009-cu ilin noyabr ayınadək "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətində redaktor, böyük redaktor, şöbə müdiri və digər vəzifələrdə təhsil, gənclik və xəbərlər redaksiyalarında işləyib və əsasən təhsildən yazıb.

1974-1975-ci tədris ilində Azərbaycan Pedaqoji Xarici Dillər Institutunda yeni təşkil olunmuş ictimai peşə fakültəsində (Jurnalistika ixtisası üzrə) müəllimlik edib. 1976-1978-ci illərdə Azərbaycan KP MK Marksizim-Leninizm Universitetinin Naxçıvan filialında 215 Jumalistika şöbəsinin İdeoloji kadrlar

fakültəsində Ali Siyasi Təhsil alıb. 1979-cu ildən keçmiş SSRİ Jurnalistlər İttifaqının üzvü olub. Ölkəmiz müstəqilliyə nail olduqdan sonra Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür.

2009-cu ilin dekabr ayından Təhsil Problemləri Institutu, həftəlik "Təhsil problemləri" qəzetində şöbə müdiri vəzifəsində çalışır. 2012-ci ildə "Ötən günlər, ötən illər", 2014-cü ildə "Təhsilimizin tərəqqisi yolunda", 2015-ci ildə "Müəllimlər, məktəblər, tədbirlər...", 2016-cı ildə "Öyrədənlər, öyrənənlər, uğurlar" kitabları nəşr edilib. 2017-ci ildə çap olunan "Uğurlar təsadüfi deyil" onun beşinci kitabıdır...




Bu kitablarda jurnalist milli təhsil siyasətindən geniş söhbət açmaqla savadlı kadrların yetişdirilməsinə xüsusi diqqət çəkir. Xüsusilə müəllim peşəsinə böyük dəyər verdiyini, əməli

ilə örnək olan pedaqoqların xidmətlərini xatırladır. Ən yaxşı müəllimlərdən söhbət açmağı özünə şərəf hesab edir. Ümumiyyətlə, həmkarım bütün sənətlər içərisində müəllimə çox böyük ülvi hisslərlə yanaşır, onu ali mərtəbəyə yüksəldərək cəmiyyətə bəxş etdiyi nümunəvi şagirdləri ilə birgə oxuculara tanıdır. Əşrəf Hümmətovun tanıtdırdığı müəllimlər Azərbaycanımıza elə adlı-sanlı mütəxəssislər bəxş ediblər ki, onların qazandığı nailiyyət tək bir pedaqoqun yox, bütünlükdə el-obanın başını uca edib. Jurnalist kitablarında məhz onlardan danışır və belə savadlı kadrların varlığını millətinin xoşbəxtçiliyi hesab edir...

Yuxarıda da qeyd etdim ki, o, radiodan gedəndən sonra da həmkarları ilə tez-tez ünsiyyətdə olur. Xüsusən dəstək olduğu gənclərin uğuruna doğmalarıtək sevinir.

Həmkarımın məktəblərlə sıx təmasda olduğunu, bu sahədəki təcrübəsini bildiyim üçün günlərin birində xahiş etdim ki, cavan bir qıza məktəblərin birində iş yeri tapmaqda köməklik eləsin. "Əlində hansısa sənəti, diplomu varmı" deyə mənə sual verdi. Dedim ki, "xeyr, heç bir yerə daxil olmayıb, ancaq orta məktəbi bitirib". Həmin qızı onunla tanış etdim. "Qızım niyə sənin təhsilin adidir və indi sən necə iş istəyirsən. Təhsilsiz insan bilirsənmi hansı sahədə çalışa bilər? Sənin ağlın, əqli imkanın varsa niyə oxumamısan?.."

Əşrəf müəllim bu mövzuda qıza xeyli suallar ünvanladı və ona öyüd-nəsihət verdi. "Mən sənə iş tapmaqda köməklik edərəm, ancaq bil ki, oxumuş insanla oxumamış arasında fərq olur. Sən ötən illərini bada verməsəydin, bu gün əlində sənətin olardı və konkret nə istədiyini, hansı işi axtardığını da bilərdin"..

Onunla söhbət qıza çox pis təsir etmişdi. "Doğru deyir axı, niyə mən ali məktəbə girməmişəm, buna həqiqətən də gücüm çata bilərdi", deyə pərişan halda sanki öz-özünü məzəmmət edirdi. Növbəti qəbul prosesinin başlanmasına isə cəmi iki aya yaxın bir vaxt qalırdı. Həmin axşamı eşitdim ki, qız qəbula hazırlaşmaq barədə qəti qərara gəlib. Adi bir ayaqüstü söhbət, qısa tanışlıq bütünlüklə gənc qızın həyatını dəyişdi.

Cəmi iki ay müddətində gecə-gündüz hazırlaşmaqla 7 ildən sonra nəhayət ali məktəbə (kollecə - Ə.H.) daxil olmaq üçün müfaviq balı toplamağa nail oldu. Bu dəfə isə Əşrəf müəllimdən ona ixtisas seçimində kömək etməsini xahiş etdi. Mən heyrətə gəlmişdim. İllərlə repititor yanına getsə də, indiyə kimi məqsədinə çata bilməyən bir qızın bu iki ay ərzində qazandığı uğurlara heyran qalmışdım. Ancaq sən demə, Əşrəf müəllim üçün bu, gözlənilən səhnə idi. Onun ibrətamiz sözləri, şüura təqlin etdiyi psixoloji ustalıq əsas rol oynamışdı. Bir də ki, belə gənclərin kifayət qədər çox olduğunu və məhz onunla görüşdən sonra tələbə adını qazanan bir neçəsinin adını həmin bu ktablardan tanıdım. O kitabların içərisində mənim tanışım olan qızın şəkli, haqqında yazı və 7 ildən sonra daxil olduğu təhsil müəssisəsinin adı da var.

Hər il Əşrəf müəllimin xeyir-duası ilə uğura imza atan neçə-neçə gənclərimiz var. Onların hamısını bir kitabda toplamaq və il ərzində gördüyü işlərin hesabatı olaraq çap olunan əsərləri təhsildən yazan jurnalistin ömrünün hədər getmədiyinə bir işarədir. "Uğurlar təsadüfi deyil" adlı kitabında da qeyd edir ki, zəhmət hesabına qazanılan uğur insanın bütün həyatına nur, yoluna işıq salır. Yeri gəlmişkən, bu kitabda Ümumilli Lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişindən, xalqımızı xaosdan, daxildəki çəkişmələrdən, gözlənilən faciələrdən xilas etməsindən və dünya liderlərinin onun haqqında səsləndirdiyi fikirlərdən bəhs olunur. Müəllif böyük siyasətçinin ömür yoluna nəzər salaraq dahi şəxsiyyətin örnək dolu həyatından ibrət götürməyi gənclərə təlqin edir.....

Əşrəf Hümmətov çalışdığı hər bir kollektivdə özünə dərin hörmət qazanıb. Hətta çiyin-çiyinə çalışdığı keçmiş həmkarlarının da hər bir uğuruna, kədərinə şərik olmağı bacaran yoldaşdır. Xəbər tutan an özünü yetirib, dərdi, ələmi, nəşəni bölüşməyi özünün insanlıq qayəsi hesab edir. Yaxud ara-sıra telefonla hal-əhval tutaraq halımızı xəbər almaqdan məmnun olduğunu bildirir.

Bir də onun ən çox oxuduğu bir qəzet var. "525-ci qəzet"-də hansı yazıya imza atıramsa, bilirəm ki, Əşrəf müəllim mənə zəng edib həmin yazı ilə bağlı təəssüratlarını söyləyəcək. Hələ indiyə kimi elə bir yazım olmayıb ki, bu qəzetdə çap olunsun və o da Əşrəf müəllimin diqqətindən yayınsın. Mən isə növbəti yazımı ona sürpriz etmək qərarına gəldim. Onun haqqında yazmaq, hörmətli jurnalist Əşrəf Hümmətovun 70 illik yubileyinin yaxınlaşdığını (oktyabrın 25-də) dostlarının yadına salmaq fikrinə düşdüm.

Gözəl, səmimi, qayğıkeş insan, görkəmli ziyalı, yaxşı həmkar, dəyərli jurnalist, mehriban ata, sevimli baba Əşrəf Hümmətovu 70 yaşı münasibəti ilə özünün sevimli kollektivi olan "Ana radio"nun "Xəbərlər" redaksiyasının əməkdaşları adından təbrik edirəm. Yubileyiniz mübarək olsun, hörmətli həmkarımız!

**Şəlalə MƏHYƏDDİNQIZI**
***Azərbaycan Radiosunun redaktoru***
***"525-ci qəzet", 29 avqust 2017-ci il***

# MÜƏLLİF HAQQINDA



Hümmətov Əşrəf Əli oğlu 25 oktyabr 1947-ci ildə Naxçıvan rayonunun (indiki Babək) Zeynəddin kəndində müəllim ailəsində anadan olub.

1969-cu ildə Azərbaycan Dövlət Universitetinin Jurnalistika fakültəsinə qəbul olunub və 1974-cü ildə ali təhsilini başa vurub. 1973-cü ildən ehtiyatda olan zabitdir. Əşrəf Hümmətov 1974-75-ci illərdə Bakıda "Gənclik" nəşriyyatında, 1975-ci ilin avqust ayından 1995-ci ilin avqust ayınadək Naxçıvan MR Dövlət Televiziya və Radio Verilişləri Komitəsində, 1995-ci ilin avqust ayından 2009-cu ilin noyabr ayınadək "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətində redaktor, böyük redaktor, şöbə müdiri və digər vəzifələrdə işləyib və əsasən təhsildən yazıb.

1974-1975-ci tədris ilində Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunda müəllimlik edib. 1976-1978-ci illərdə Azərbaycan KP MK Marksizim-Leninizm Universitetinin Naxçıvan filialında Jumalistika şöbəsinin İdeoloji kadrlar fakültəsində Ali Siyasi Təhsil alıb. 1979-cu ildən keçmiş SSRİ Jurnalistlər İttifaqının üzvü olub. Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür.

2009-cu ilin dekabr ayından Həftəlik "Təhsil problemləri" qəzetində şöbə müdiri vəzifəsində çalışır. 2012-ci ildə "Ötən günlər, ötən illər", 2014-cü ildə "Təhsilimizin tərəqqisi yolunda", 2015-ci ildə "Müəllimlər, məktəblər, tədbirlər...", 2016-cı ildə "Öyrədənlər, öyrənənlər, uğurlar", 2017-ci ildə "Uğurlar təsadüfi deyil", 2018-ci ildə “Müstəqilliyimiz və

uğurlarımız" kitabları nəşr edilib. Kitabda Əşrəf Hümmətovun 70 illik yubileyi münasibətilə həyatı və yaradıcılıq fəaliyyəti haqqında ətraflı məlumat verilib.

Əşrəf Hümmətov ailəlidir, həyat yoldaşı Minaxanım Möhübova həkimdir, Respublika Gigiyena Epidemiologiya Mərkəzində işləyir. Oğlu Ramiz tam orta məktəbi və 7 nömrəli Bakı Peşə liseyini bitirib, yumşaq mebel ustasıdır, özəl fəaliyyət göstərir. Qızı Sədaqət Bakı Dövlət Universitenini 2010-cu ildə bitirib, 2011-ci ilin fevral ayından 2018-ci ilin fevral ayınadək Milli Hidrometeorologiya Departamentinin Hidrometeorologiya Elmi-Tədqiqat İnstitutunda aparıcı mühəndis vəzifəsində çalışıb. Ailəlidir, qızı Aytac gələn il məktəbə gedəcək.

## MÜNDƏRİCAT

ZEYNƏDDİN KƏNDİ HAQQINDA
QISA MƏLUMAT........................................................... 3

MÜƏLLİMLƏR

UNUDULMAZ ZEYNALABDİN MÜƏLLİM......................... 6
MAARİF FƏDAİSİ ............................................................. 13
UNUDULMAZ KƏND MÜƏLLİMİ.................................... 16
UNUDULMAZ SİNİF MÜƏLLİMİ ..................................... 25
XOŞ XATİRƏLƏRLƏ YADA DÜŞÜR.................................. 28
KƏNDİMİZİN İLK QADIN MÜƏLLİMİ ............................... 31
SEVİMLİ MÜƏLLİMİM VƏ ONUN QARDAŞLARI
HAQQINDA ..................................................................... 34
MƏQSƏDİNDƏN DÖNMƏYƏN MÜƏLLİM ........................ 37
XATİRƏLƏRƏDƏ YAŞAYAN İNSAN.................................. 46
YETİRMƏLƏRİNİN QƏLBİNDƏ YAŞAYIR ....................... 50
YADDAŞLARDA YAŞAYIR .............................................. 58
KÖNÜLLƏRDƏ YAŞAYIRLAR.......................................... 61
YETİRMƏLƏRİ İLƏ FƏXR EDƏR,
QÜRUR DUYARDI .............................................................. 64
FƏDAKAR TƏHSİL İŞÇİSİ.................................................. 68
YADDAŞLARDA YAŞAYAN MÜƏLLİM ........................... 72
XATİRƏLƏRDƏ YAŞAYAN MÜƏLLİM.............................. 75
ÜRƏKLƏRDƏ YAŞAYIR...................................................... 78
ÖMRÜN MƏNALI ANLARI.................................................. 82
TEXNİKA ELMLƏRİ ÜZRƏ .................................................. 84
UĞURLU ADDIM ................................................................. 87
XEYİRXAH ƏMƏLLƏRİ İLƏ................................................. 89

GÖRKƏMLİ ALİMLƏRDƏN DƏRS ALIB ........................... 93
ŞAM KİMİ… ....................................................................... 96
PEŞƏSİNƏ SADİQ İNSAN ..................................................... 98
DİLİMİZİ, ƏDƏBİYYATIMIZI ÖYRƏDƏN MÜƏLLİM ........................................................................ 102
ƏMƏKDAR MÜƏLLİM........................................................ 105
ELDAR QASIMOVUN UĞURLARI .................................... 108
İŞGÜZAR, TƏMKİNLİ VƏ TƏLƏBKAR DİREKTOR.............................................. 110
ÖMRÜNÜN 20 İLİNİ İDMAN ALƏMİNDƏ KEÇİRİB ...... 114
TARİXİMİZİ ÖYRƏDƏN MÜƏLLİM .................................. 116
CƏFAKEŞ ANA, TƏCRÜBƏLİ MÜƏLLİM........................ 119
MƏQSƏDƏ ÇATMAQ ÜÇÜN İNAMLA ÇALIŞMALISAN.................................................. 122
BABASININ LAYİQLİ DAVAMÇISI .................................. 125
BABASININ DAVAMÇISI .................................................... 129
NÖVBƏTİ YARIŞLARA HAZIRLAŞIR.............................. 132
UĞUR OLSUN, TƏLƏBƏ DOSTLAR! ............................... 134

**AKTYORLAR**

İSTEDADIN, ZƏHMƏTİN BƏHRƏSİ ................................. 135
«Ölən adam» tamaşası ilə bağlı bir əhvalat ............................ 138
Təbriz əhvalatı ........................................................................ 142
Tamaşa vaxtı baş verən qeyri-adi, maraqlı hadisə ................. 143
XALQ ARTİSTİ KAMRAN QULİYEV................................. 146
AKTYOR, REJİSSOR............................................................ 148

**DEPUTATLAR**

TƏRLAN MƏMMƏD QIZI HƏSƏNOVA............................ 150
Y.İ.VƏLİYEVİN NAXÇIVAN MUXTAR........................... 151

RESPUBLİKASI KƏND TƏSƏRRÜFATI VƏ ƏRZAQ NAZİRİ TƏYİN EDİLMƏSİ HAQQINDA ........................ 151
Yusif İbrahim oğlu Vəliyev ................................................ 151
Y.İ.VƏLİYEVİN NAXÇIVAN MUXTAR RESPUBLİKASI KƏND TƏSƏRRÜFATI VƏ ƏRZAQ NAZİRİ TƏYİN EDİLMƏSİ HAQQINDA ........... 152
NAXÇIVAN MUXTAR RESPUBLİKASI DÖVLƏT MƏTBUAT KOMİTƏSİ YARADILMASI HAQQINDA..... 153
İ.M.İBRAHİMOVUN NAXÇIVAN MUXTAR RESPUBLİKASI DÖVLƏT MƏTBUAT KOMİTƏSİNİN SƏDRİ TƏYİN EDİLMƏSİ HAQQINDA ............................ 153
İbrahim Məşəhilal oğlu İbrahimov ...................................... 154

**ZEYNƏDDİNLİLƏR «QIRMIZI TABOR»DA**

Hüseynov Kərbəlayı Qasım ................................................ 155
Əliyev Ağalar Məmmədqulu oğlu ........................................ 157
Əhmədov Əli.................................................................... 157
Mənalı ömrün səhifələri..................................................... 158

**BÖYÜK VƏTƏN MÜHARİBƏSİNDƏ**

Müharibədən qayıtmayanlar ................................................ 160
Müharibədən qayıtdıqdan sonra vəfat edənlər....................... 163
SADIX NADİRLİ HAQQINDA QISA ARAYIŞ ................. 166
«MİXAYLO»NUN SİLAHDAŞLARI................................. 167
JURNALİST ƏZİZƏ ŞAMİLOVANIN QEYDLƏRİ........... 175
İGİD ÖLƏR, ADI QALAR .................................................. 179
PARTİZANLARLA GÖRÜŞ................................................. 183
MİXAYLONUN SİLAH DOSTLARI .................................. 185
SADIQ NADİRLİ KİMDİR? ................................................ 189
TORPAĞIN VƏTƏNPƏRVƏR ÖVLADI............................ 193
NƏSİR ƏMİ.......................................................................... 195

## ERMƏNİ TƏCAVÜZÜNƏ QARŞI DÖYÜŞLƏRDƏ

İKİ ŞƏHİD HAQQINDA ........ 197
Şair bacının şəhid qardaşı ........ 197
Oğul həsrətli ana ........ 202
CƏSUR POLİS İŞÇİSİ HEYDƏR HƏSƏNOV ........ 206

## MÜXTƏLİF SƏNƏT-PEŞƏ SAHİBLƏRİ

MİR QAFAR AĞA SEYİDOV VƏ ÖVLADLARI HAQQINDA ........ 208
PEŞƏSİNİN USTASI ........ 211
MÜHASİB BALABƏY HACIYEV ........ 213
ÇİYƏLƏYİ ZEYNƏDDİNƏ GƏTİRƏN HƏTƏM ........ 215
ZƏHMƏTKEŞ SALEH İSMAYILOV ........ 217
MÜHƏNDİS ........ 219
TALE ELƏ GƏTİRİB Kİ... ........ 220
NURMƏMMƏD PƏHLƏVANIN OĞLU ŞAMƏMMƏD ........ 225
RABİTƏÇİ İBRAHİM ........ 227
Anam Zəhra, qızım Zəhra ........ 228
GENERAL-MAYOR QAÇAY QULİYEV ........ 230
RAFİQ NƏSİR OĞLU HACIYEV ........ 232
YAXŞI STOMOTOLOQ KİMİ TANINIR ........ 234
NURƏDDİN ........ 235
CÜMŞÜD ........ 238

## QƏZETLƏRDƏN TOPLANMIŞ MATERİALLAR

### 1929-cu il

Zeynəddin kəndi təbii fəlakət qarşısında ........ 239
Dəvət edir ........ 239
Elan ........ 240

**1930-cu il**

Artel və kolxozlarda ........ 240
Bu kolxozlar dağılır ........ 241

**1931-ci il**

Kolxozlardakı başsızlığa ən ağır zərbə! ........ 241
Təzə arx və kəhriz işə salınmalıdır ........ 242
Kolxoz hərəkatı illərində ........ 242
Naxçıvan maarifində sürət ........ 242

**1934-cü il**

Ölkəmizdə kolxozlaşma ........ 243
Zeynəddin rəğbət bəsləyənlər qrupunun iş təcrübəsini öyrənin ........ 243

**1935-ci il**

El ədəbiyyatından. Aşıq Dədəkişi ........ 244
Zərbəçi kətmənçilər ........ 245
İş sürətini artırın ........ 245
Heydərov yaxşı briqadir sırasında ........ 246
Toplanışa hazırlıqla ........ 246
İkinci briqadaya çatın ........ 247
Təbib göndərilməlidir ........ 247
Plan 101 faiz ödənilmişdir ........ 247

**1936-cı il**

Kəhrizin təmirini unutmayın! ........ 248
Malları yaxşı bəsləyir ........ 248

**1938-ci il**

Adına layiq kolxoz ........................................................ 249
Burcəli yaxşı işləyir ........................................................ 250
Qabaqcıl briqadir ........................................................ 250
Kömək edirlər ........................................................ 251

**1939-cu il**

Kolxozçuların kənd intelligentləri ilə birlikdə yığıncağı ........ 251
Sosializm yarışı genişlənir ........................................................ 252
Qabaqcıl briqada ........................................................ 252
Ciddi hazırlaşırlar ........................................................ 253
Sosialist yarışı genişlənir ........................................................ 253
Tarixi qərardan sonra ........................................................ 253
Yüksək iş norması ........................................................ 254
Zeynəddin kəndində təntənəli yığıncaq ........................................ 254

**1940-cı il**

Yüksək barama məhsulu ........................................................ 255
Yığımın geridə qalması qeyd edilmişdir ........................................ 256
Yeni dərs ili qarşısında. Yaxşı hazırlaşan məktəbdə .............. 256

**1941-ci il**

Partiyaya qəbul işində də dönüş yaratmalı ............................. 257
Qabaqcıl traktor briqadası ........................................................ 258
Böyük Stalinin çağırışı ilə ........................................................ 259
Zeynəddin kənd məktəbində ........................................................ 259

**1942-ci il**

Yaz əkininə hazırlığı nümunəvi keçirməli ............................. 260

**1943-cü il**

Dönüş yaradılır........................................................................ 261
Maarif işçilərinin müşavirəsi ................................................ 262

**1944-cü il**

Sinif rəhbərləri ciddi işləmirlər.............................................. 263
Qızıl Ordumuzun düşmən üzərində dünyanı valeh edən parlaq qələbələrinin əsas sirri, onun öz xalqından ayrılmamasındadır ........................................................................................................ 263
«Nümunə» kolxozunda yığıncaq ........................................... 264
Zeynədin kəndindəki «Nümunə» kolxozu üzvlərinin məktubu ............................................................... 265

**1946-cı il**

Yazılış davam edir ................................................................ 266
«Nümunə» kolxozunda ........................................................... 267
Kənd abadanlaşdırılır ............................................................ 267
Yeni dərs ilinə hazırdır........................................................... 268
Gələn ilin hesabına tərəvəz verirlər ....................................... 268

**1947-ci il**

Bol üzüm götürəcəklər........................................................... 268

**1948-ci il**

Qoca bağbanın təcrübəsi....................................................... 269
Yarışın təşkilatçılıq gücü ilə ................................................. 270
Məşğələlər müntəzəm aparılır............................................... 271

**1949-cu il**

Kolxozçulara belə xidmət göstərməzlər................................. 271

İkinci dəfə seçilmişdir ............................................................. 272

**1950-ci il**

Dərslər başlandı ............................................................. 272
90 ton üzüm verəcəklər ............................................................. 273
İriləşmiş kolxozun yaxın gələciyi ............................................................. 274
Jdanov kolxozunda ............................................................. 275
12 nömrəli Leninabad seçki dairəsində ............................................................. 276
15 nömrəli Zeynədin seçki dairəsində ............................................................. 276

**1951-ci il**

Azərbaycan və Naxçıvan MSSR Ali Sovetlərinə seçkilər üçün Məntəqə Seçki Komisyonları tərkibinin təsdiq edilməsi haqqında Naxçıvan rayon ZDS İcraiyyə Komitəsinin qərarı. 13 nömrəli Zeynədin seçki məntəqəsi ............................................................. 277
Heyvandarların işi ............................................................. 278
Deputatlığa namizədlərlə seçicilərin görüşləri. Səmimi görüş ............................................................. 278

**1952-ci il**

Jdanov adına kolxozun fermalarında ............................................................. 280
Barama təhvili ............................................................. 280

**1953-cü il**

Gənc pambıqçıların yarışı ............................................................. 280
Bol məhsul uğrunda ............................................................. 281
Kolxozçuların yekdilliyi ............................................................. 282

**1954-cü il**

Üzümlüklər qayğı ilə becərilir ............................................................. 283

Deputatların və kənd fəallarının qüvvəsindən bacarıqla istifadə olunur ... 283
Pambıq ustası Ceyran Qasımovanın müvəffəqiyəti ... 285
Kəndlər radiolaşdırılır və telefonlaşdırılır ... 285

## 1956-cı il

Yüksək məhsul uğrunda ... 286
Briqadalar yarışır ... 287
Məktəblilərin təşəbbüsü ... 288
Kənd zəhmətkeşlərinin haqlı tələbi ... 288
Məhsuldarlığı artırmaq uğrunda ... 289
Qarğıdalı əkinini qurtarmışlar ... 289
Nöqsanları tezliklə aradan qaldırmalı ... 290
Yarışan iki qonşu kolxozda ... 290
Kənd kitabxanasında ... 291
Yeni tikintilər ... 292
Sabir adına kolxozda ... 292
Qabaqcıl briqada və manqalar ... 293
Çox panbıq yığanlar ... 293
Sabir adına kolxoz illik pambıq təhvili planını ödəmişdir ... 293
Naxçıvan MSSR kənd təsərrüfatı sərgisində ... 294

## 1957-ci il

Yaz tarla işlərinə hazırlaşırlar ... 295
Kolxozlarda hesabat və hesabat-seçki yığıncaqları ... 295
Heyvandarlarımızın öhdəçiliyi ... 296
Çiyid səpini qurtarmışdır. Naxçıvan rayonunda ... 297
Yeni tibb məntəqəsi ... 297
Kənd abadlaşır ... 298
Fatma Quliyevanın manqasında ... 298

Fərdi evlər tikintisi genişlənir ................................................ 299
Çoxlu yem tədarük edirlər ...................................................... 299
On gündə 44 faiz.................................................................... 300

**1958-ci il**

Sabir adına kolxozda............................................................ 301
Bir neçə sətirdə ...................................................................... 301
Pambığın becərilməsi sürətləndirilməlidir.............................. 301
45 kiloqram əvəzinə 83 kiloqram barama............................... 302

**1959-cu il**

1959-cu ildə ........................................................................... 303
Naxçıvan rayonundakı Türyan arxı ........................................ 304
Kitabxana yaxşı işləyir........................................................... 305
Anaqız Piriyevanın manqasında ............................................ 305
Aqronomlar kolxozçuların yaxın köməkçiləri olmalıdır ........ 306
Becərmə mütəşəkkil keçirilir ................................................. 306
AŞIQ DƏDƏKİŞİ................................................................... 307

**1960-cı il**

Kitabxana oxuculara yaxşı xidmət edir.................................. 310

**1961-ci il**

Şərəf lövhəsi.......................................................................... 310
Şərəf lövhəsi.......................................................................... 310

**1962-ci il**

Pambığı nümunəvi becərirlər................................................. 311
Şərəf lövhəsi.......................................................................... 311

Yeni kino qurğusu ........................................................ 312
Bacarıqlı Feldşer ........................................................ 312
Məktəblilərin köməyi ........................................................ 312
Şərəf lövhəsi ........................................................ 313
Naxçıvan rayonundakı Sabir adına kolxoz dövlətə illik pambıq satışı planını müvəffəqiyyətlə ödədi. Pambıqçılarımızın qələbəsi ........................................................ 313
Şərəf lövhəsi ........................................................ 316
Şərəf lövhəsi ........................................................ 317
Öhdəçilik yerinə yetirilmişdir ........................................................ 317

**1963-cü il**

Yeni sinif otaqları ........................................................ 318
Məktublardan sətirlər ........................................................ 318
Düzü düz, əyrini əyri. İdarə heyətinə tapşırılsın… ................. 319
Plan yerinə yetirilmişdir ........................................................ 319
Yenə də birinci olmaq üçün ........................................................ 320
Öhdəçiliyimizi yerinə yetirdik ........................................................ 321
Gündə 100 kiloqramdan çox pambıq yığanlar ........................ 322
Sabir adına kolxozda ........................................................ 322
Sabir adına kolxozda ........................................................ 322

**1964-cü il**

Krasnodarlıların çağırışına qoşulaq! Taxıl əsas sərvətimizdir ........................................................ 323
Əkin mütəşəkkil keçirilir ........................................................ 324

**1965-ci il**

Kollektivin birgə səyi ........................................................ 325
Üzümçülüyə dair müşavirə ........................................................ 325

## 1978-ci il

Təbrik edirik! ........................................................................ 326

## 1979-cu il

Yeni dərs ili qarşısında........................................................ 327
Mütəşəkkil hazırlıqla ............................................................ 327
Müəllimlərin avqust konfranslarında.................................... 328
Təlim-tərbiyəsinin yeni yüksəlişi uğrunda. Babək rayonu ..... 328
Uğurlu addımlar..................................................................... 328
Şagird istehsalat briqadalarında ............................................ 329
Qəzet gözləyirik..................................................................... 329

## 1980-ci il

Peşə məktəbində.................................................................... 330
Fəallıq artır............................................................................. 331
Layiqincə qarşılayacağıq ....................................................... 331
«Naxçıvan» sovxozundan xəbərlər ........................................ 332
Suçu Məmmədhəsən ............................................................... 332
DƏMİRÇİ ƏLƏSGƏR ........................................................... 333
Fəallıqla.................................................................................. 335
Qabaqcıl mexanizator ............................................................ 335
Oğullar əsgər gedir................................................................. 336

## 1981-ci il

2.000 ton üzüm uğrunda ........................................................ 337
İxtisaslı fəhlələr...................................................................... 338
Bağlar becərilir....................................................................... 338
"Naxçıvan" sovxozundan yazırlar ......................................... 339
Üzümçülərin səyi ................................................................... 340

**1983-cü il**


Unudulmaz günlər ........ 340
Qoy həmişə... ........ 341
Minnətdarlıq ........ 342
Əməksevərlər, təşəbbüsçülər ........ 343
Ehtimadı doğruldacağam ........ 344


**1984-cü il**


Yeni üfüqlər ........ 345
İşgüzarlıq şəraitində ........ 346
İki plan uğrunda ........ 346
Briqadanın səyi ........ 348


**1986-cı il**


Yeni vəzifələr səviyyəsində ........ 348
Sürəti artırırıq ........ 349
Birincilər sırasında ........ 350


**1989-cu il**


Mexanizator ........ 351


**1990-cı il**


Sabahın ustaları ........ 352
Təşəbbüsdən sonra ........ 353


**1991-ci il**


Körpü tikilir ........ 355
İlk günlərin sevinci ........ 355
Təsərrüfat təmayüllü məktəb-müəssisə kompleksi ........ 357

Babək rayonunun Zeynəddin kəndində orta ümumtəhsil ....... 358
və musiqi məktəbi binaları istifadəyə verilib........................... 358
UĞURLAR TƏSADÜFİ OLMUR (Jurnalist Əşrəf Hümmətovun 70 illik yubileyinə)............................................. 362
MÜƏLLİF HAQQINDA ....................................................... 368

**“Elm və təhsil” nəşriyyatının direktoru:**
***Professor Nadir MƏMMƏDLİ***

Dizayner: ***Zahid Məmmədov***
Texniki redaktor: ***Ruhiyyə Abbasova***

Çapa imzalanmış: *02.07.2018*
Şərti çap vərəqi: *24* Sifariş: *№ 338*
Kağız formatı: *60x84 1/16*. Tira:j *300.*

**Qiymәti: 20 AZN**

Kitab “Elm və təhsil” nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib çap olunmuşdur
E-mail: nurlan1959@gmail.com
Тел: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8/4